CİNAYƏT HÜQUQUNUN AKTUAL PROBLEMLƏRİ

CEZA HUKUKUNUN GÜNCEL SORUNLARI

ACTUAL PROBLEMS OF CRIMINAL LAW

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ УГОЛОВНОГО ПРАВА

CİNAYƏT HÜQUQU VƏ KRİMİNOLOGİYA KAFEDRASI

BDU

1927

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

HÜQUQ FAKÜLTƏSİ
CİNAYƏT HÜQUQU VƏ KRİMİNOLOGİYA KAFEDRASI

CİNAYƏT HÜQUQUNUN AKTUAL PROBLEMLƏRİ

CEZA HUKUKUNUN GÜNCEL SORUNLARI

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ УГОЛОВНОГО ПРАВА

ACTUAL PROBLEMS OF CRIMINAL LAW

ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ

Bakı Dövlət Universiteti Hüquq fakültəsinin
Elmi Şurasının 13 dekabr 2022-ci il tarixli iclasında
nəşrə məsləhət bilinmişdir (3 saylı protokol)

Bakı – 2022

"Cinayət hüququnun aktual probemləri" adlı elmi məqalələr Məcmuəsi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasında tərtib edilib və kafedranın təsis edilməsinin 95 illiyinə həsr edilib.

Redaksiya heyəti:

Şəhla Tofiq qızı Səmədova (Sədr)
hüquq elmləri doktoru, professor

Rüstəm Fəhrəddin oğlu Məmmədov
hüquq elmləri doktoru, professor

Habil Surxay oğlu Qurbanov
hüquq elmləri doktoru, professor

Rauf Əhəd oğlu Şəmsi-zadə
hüquq üzrə fəlsəfə doktoru, dosent

Vüqar Anar oğlu Sadiqli

Siyavuş Mehdi oğlu Bağırov (Katib)

Cinayət hüququnun aktual problemləri *(elmi məqalələr Məcmuəsi*).
Ş.T.Səmədovanın ümumi redaktəsi ilə. Bakı: Mütərcim, 2022. – 440 s.

"Cinayət hüququnun aktual problemləri" adlı elmi məqalələr Məcmuəsi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının 95 illik yubileyinə həsr edilmişdir. Məcmuədə cinayət hüququnun, transmilli cinayət hüququnun, müsəlmən cinayət hüququnun, kriminologiya və cəza-icra hüququnun müxtəlif məsələlərinə həsr edilmiş Azərbaycan və xarici ölkələrin tanınmış alimləri ilə yanaşı gənc tədqiqatçıların da məqalələri oxucuların diqqətinə təqdim olunur. Məqalələr Azərbaycan, türk, rus, və ingilis dillərindədir.

Cinayət hüququnun müxtəlif aktual problemlərinə həsr olunmuş elmi məqalələrin Məcmuəsi "Hüquqşünaslıq" ixtisası üzrə təhsil alan, elmi tədqiqat fəaliyyəti ilə məşğul olan şəxslərə, məhkəmə, prokurorluq, vəkillik və digər hüquq mühafizə orqanlarının əməkdaşları üçün nəzəri və təcrübi maraq kəsb edə bilər.

ISBN: 978-9952-28-636–6

© BDU, Cinayət hüququ və kriminologiya kafedrası
© BDU, Ş.Səmədova

ÖN SÖZ

Bakı Dövlət Universiteti Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının yaranmasının 95 illiyinə ithaf olunur

(1927-2022)

Azərbaycan hüquq elminin inkişafında müstəsna rola malik olan Cinayət hüququ kafedrası 19 dekabr 1927-ci il tarixində Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsinin Hüquq şöbəsi nəzdində təsis edilmişdir. 95 illik (1927-2022) tarixi olan Bakı Dövlət Universiteti Hüquq fakültəsinin Cinayət hüququ kafedrası[1] hüquq elminin cinayət hüququ, kriminologiya, cəza-icra hüququ, cinayət prosesi və kriminalistika kimi[2] elm sahələrinin formalaşmasında və hüquq üzrə elmi-pedaqoji kadrların hazırlanmasında əsas aparıcı mərkəz olmuşdur.

Azərbaycanda cinayət hüquq (o cümlədən də kriminologiya, cəza-icra hüququ, transmilli cinayət hüququ) elmi və onun tədrisindən danışırıqsa, bu sahədə olan nailiyyətlər ilk növbədə BDU-nun Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasından başlayır. Kafedraya müxtəlif dövrlərdə görkəmli alim-hüquqşünaslar – professor Vahid Qəhrəmanov (1943-1978), professor İsa Məmmədov (1978-1986), professor Tofiq Qafarov (1987-1995), professor Firudin Səməndərov (1995-2019) rəhbərlik ediblər. Onların rəhbərliyi altında Cinayət hüququ və kriminologiya kafedrası böyük tərəqqi yolu qət etmiş, Cinayət hüquq məktəbinin güclü təməlləri qoyulmuş və bu məktəbin görkəmli nümayəndələri hüquq elminə öz dəyərli töhfələrini vermişdirlər.

95 illik zəngin tarixi təcrübəni və elmin vəhdətini yüksək dəyərlər çərçivəsində özündə birləşdirən Cinayət hüququ və kriminologiya kafedrası bu gün də Respublikamızda cinayət hüquq elminin məbədi və aparıcı tədqiqat mərkəzi olmaqla bərabər hüquq elminin inkişafında müstəsna xidmətlərini davam etdirir.

Cinayət hüququ və kriminologiya kafedrasının 95 illik yubileyi ilə əlaqədar çağırışına cavab olaraq nisbətən qısa zamanda Azərbaycan, Rusiya, Ukrayna, Belarus, Türkiyə, Moldova, Amerika Birləşmiş Ştatlarının və digər ölkələrin görkəmli və gənc alimlərinin "Cinayət hüququnun aktual problemləri" məcmuəsinin formalaşmasında iştirakını Azərbaycan cinayət hüququ elminə hörmət kimi qəbul edərək yüksək qiymətləndiririk.

"Cinayət hüququnun aktual problemləri" adlanan elmi məqalələr məcmuəsinin toplanması və nəşri bir neçə məqsədə xidmət edir:

---

[1] 2007-ci ildən kafedranın adı dəyişdirilərək "Cinayət hüququ və kriminologiya" kimi adlanır.

[2] 1968-ci ildə Cinayət hüququ kafedrasının bazasında yeni müstəqil Cinayət prosesi və kriminalistika kafedrası təşkil olunmuşdur, 1979-cu ildə isə "Kriminalistika və məhkəmə ekspertizası" kafedrası yaradılmışdır.

- Elmi məqalələrin məcmuəsi sadəcə azərbaycanlı alim və tədqiqatçıların elmi məqalələrini deyil, eyni zamanda xarici tədqiqatçıların əsərlərini özündə birləşdirir. Bununla da həm xarici dövlətlərin cinayət qanunvericiliyi və təcrübəsi öyrənilir, həm də Azərbaycan Respublikasının cinayət hüququ sahəsindəki mövqeyi oxucuların diqqətinə çatdırılmış olur;

- Mövcud təcrübədən fərqli olaraq məcmuəyə bəzi magistrant və elmə xüsusi maraq göstərən bakalavriat təhsil səviyyəsi üzrə hələ təhsil alan tələbələrin də elmi məqalələri daxil edilmişdir. Gənc tədqiqatçıların məqalələrinin görkəmli alimlərin elmi əsərləri ilə birlikdə dərc edilməsi gəncləri elmi fəaliyyət istiqamətində ruhlandırmaq məqsədi güdməklə bərabər, eyni zamanda onların cinayət hüquq elminin inkişafında töhfələrini verməyə imkan yaradacaqdır. Təqdirəlayiq haldır ki, 28 dekabr 2021-ci il tarixdə Cinayət hüququ və kriminologiya kafedrasının nəzdində yaradılmış "Cinayət Hüququ Dərnəyi"-nin (Criminal Law Association) üzvü olan tələbələr öz araşdırmalarını böyük maraqla məcmuəyə təqdim etmişdirlər;

- Hazırkı "Cinayət hüququnun aktual problemləri" adlı məcmuə üzərində toplanan təcrübədən istifadə edərək Cinayət hüququ və kriminologiya kafedrası yaxın gələcəkdə ildə dörd dəfə çıxan eyni adlı elmi-praktik jurnalın təsisini nəzərdə tutur.

Ümid edirik ki, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının yaradılmasının 95 illiyinə həsr etdiyimiz "Cinayət hüququnun aktual problemləri" adlı elmi məqalələr məcmuəsi ölkənin hüquq ictimaiyyətində rəğbətlə qarşılanacaq və cinayət hüququ üzrə faydalı bir mənbə olacaqdır.

Kafedranın təşəbbüsünə müsbət yanaşaraq "Cinayət hüququnun aktual problemləri" adlı məcmuənin yaranmasında yaxından dəstək olan Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı Zaur Əliyevə və məcmuənin hər bir müəllifinə redaksiyə heyəti adından dərin təşəkkürümüzü bildiririk.

Hörmətlə,

Cinayət hüququ və kriminologiya kafedrasının müdiri,
professor Şəhla Səmədova

CİNAYƏT HÜQUQU ∗ CRIMINAL LAW

AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT HÜQUQU: MÜASİR DÖVRDƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

UOT (УДК) – 343.21; 343.211.4

Şəhla Səmədova
hüquq elmləri doktoru, professor
Cinayət hüququ və kriminologiya kafedrasının müdiri
Hüquq fakültəsi, Bakı Dövlət Universiteti, Azərbaycan
shahlats@mail.ru

Müasir dövrdə Azərbaycan Respublikası cinayət hüququnun ümumi vəziyyəti qüvvədə olan cinayət qanunvericiliyinin həm Xüsusi hissəsinin ayrı-ayrı normalarına (hətta bütöv fəsillər üzrə), həm də Ümumi hissəsinin norma və institutlarına edilən çoxsaylı dəyişikliklər və əlavələr ilə səciyyələnir. Sistemli quruluşa malik olan Cinayət Məcəlləsinə edilən dəyişikliklər və əlavələr əksər hallarda cinayət hüquq normalarının məzmununda aydınlıq və ardıcıllıq tələb edən hüquqi müəyyənlik prinsipini pozur. Bu, xüsusilə əməllərin kriminallaşdırılmasında və dekriminallaşdırılmasında, habelə cinayət məsuliyyətinin diferensiasiyasında, Ümumi hissəyə daxil edilən yeni normaların natamamlığında və bəzi hallarda hətta təkrarlanmasında, yeni kriminallaşdırılan əmələrin Xüsusi hissənin sistemində yerləşdirilməsində, sanksiyalar arasında mütənasibliyin pozulmasında və s. amillərdə özünü göstərir. Məqalədə milli cinayət hüququnun inkişaf perspektivlərindən, həmçinin ayrı-ayrı institut və normaların təkmilləşdirilməsizəruriyyətindən bəhs edilir. Müəllif böyük ictimai təhlükə törətməyən və az ağır cinayətləri törədən şəxslərə qarşı cinayət-hüquqi siyasətin repressiv gücünü azaltmaq və bunun əksinə olaraq ağır və xüsusilə ağır zorakı cinayətlərə görə cinayət məsuliyyəti və cəza siyasətinin sərtləşdirilməsi məqsədilə cinayət qanunvericiliyində konseptual dəyişikliklərin edilməsi zərurətini əsaslandırır.

Açar sözlər: *cinayət qanunvericiliyinin islahatı, cəza siyasətinin humanistləşdirilməsi, hüquqi müəyyənlik prinsipi, ədalət prinsipi, cəza, cinayət məsuliyyətinin diferensiasiyası, sanksiya.*

Giriş

Müasir dövrdə cinayət hüququnun inkişaf mərhələləri kriminallaşdırma və dekriminallaşdırma prosesinin bu sahədəki elmi nəzəriyyə və məhkəmə təcrübəsi əsasında həyata keçirilməsi, cinayət qanunvericiliyinin sistemliyinin qorunması, cinayət məsuliyyətinin diferensiasiyasının səviyyəsinin daha da yüksəldilməsi, sanksiyaların vahid prinsiplər əsasında sistemli şəkildə yenidən qurulması, qanunvericilikdə mövcud olan boşluqlar, ziddiyyətlərin aradan qaldırılması, hüquqi texnikanın təkmilləşdirilməsi yollarından keçir.

Cinayət hüququnda insan hüquq və azadlıqlarının müdafiəsinin prioriteti haqqında konstitusiya müddəasının həyata keçirilməsi, ilk növbədə, qanunverici tərəfindən cinayət məsuliyyətinin diferensiasiyası və hakim tərəfindən cəzanın fərdiləşdirilməsi ilə bağlıdır. Məhz buna görə də cinayət məsuliyyətinin diferensiasiyası Azərbaycan Respublikasının qüvvədə olan 1999-cu il Cinayət Məcəlləsində (CM) cinayət qanununun prinsiplərinin həyata keçirilməsi üçün əsas konseptual müddəalardan biridir. Cinayət məsuliyyətinin diferensiasiyasının maddi meyarı qismində törədilmiş əməlin ağırlığı çıxış edir, bu da 1999-cu il CM-də cinayətlərin təsnifatı institutu (mad.15) vasitəsilə əməlin ictimai təhlükəliliyinin xarakteri və dərəcəsinə görə dörd kateqoriyada fərqləndirilməklə müəyyən

edilir. Formal meyar kimi isə hər cinayət kateqoriyasının tipik sanksiyasında müəyyən edilən cəzanın növləri və azadlıqdan məhrum etmə cəzasının yuxarı (mad.15.2, 15.3, 15.3) və ya aşağı (mad.15.5) həddi çıxış edir. Törədilmiş əməlin ağırlığı bu əmələ görə konkret sanksiyadakı cəzanın növü və azadlıqdan məhrum etmə cəza növünün ən yuxarı həddi ilə ölçülür. Beləliklə, cinayətlərin təsnifatı institutu hüquqi texnikanın alətlərindən biri sayılır və onun köməyi ilə qanunverici törədilmiş cinayətin ağırlığından çıxış edərək ədalət prinsipinin əsas mahiyyətini ifadə edən cəzanın cinayətə mütənasibliyini təmin etməyə çalışır.

Təəssüf ki, Azərbaycan Respublikasının 1999-cu il CM-ə sonradan çoxsaylı dəyişiklik və əlavələr edilərkən cinayət qanunvericiliyinin sistemliliyi nəzərə alınmadığına görə cinayət hüququnun əsas konseptual ideyası olan – cinayət məsuliyyətinin diferensiasiyası ciddi diskreditasiyaya uğrayıb. Ümumiyyətlə, hal-hazırda cinayət qanunvericiliyində cinayət məsuliyyətinin diferensiasiyası ardıcıllığını itirib, bu, həmçinin cinayət məsuliyyətinin diferensiasiyasının əsas aləti – cinayətlərin təsnifatı institutunun mükəmməl olması ilə də bağlıdır.

Bundan əlavə, yenə də cinayət qanunvericiliyinin sistemliliyini nəzərə alaraq, Ümumi hissənin bəzi normalarında mövcud olan aşkar boşluqlar və ziddiyyətlər Xüsusi hissənin sanksiyalarının sistemində uyğunsuzluğa səbəb olur. Belə ki, CM-nin Xüsusi hissəsinin ciddi nöqsanları cinayət məsuliyyətinin diferensiasiyasının ənənəvi vasitələrindən ardıcıl surətdə istifadə edilməməsi, habelə müxtəlif kateqoriyalı cinayətlərə görə sanksiyalarda cəza növlərinin və hədlərinin optimal şəkildə müəyyən edilməməsidir.

Cinayət hüququ elmində çoxillik elmi araşdırmaların nəticəsində [11; 14; 15; 16] hesab edirik ki, cinayət qanuna konseptual əlavə və dəyişikliklərin edilməsi zəruridir. Məqalədə göstərilən aşağıdakı problemlərə diqqət yetirilməli və tədricən onların həlli təmin edilməlidir.

Əməllərin kriminallaşdırılmasının əsas şərtləri içərisində: əməlin ictimai təhlükəliliyinin yüksək kriminal səviyyəyə çatan dərəcəsi (bu müvafiq əməlin yayılma miqyası, qəsd edilən ictimai münasibətlərin dəyərlərindirilməsi və şəxsin, cəmiyyətin və dövlətin təhlükəsizliyi üçün əhəmiyyəti, əməlin törədilməsi nəticəsində vurulan zərərin mahiyyəti və s. amillərlə ölçülür), habelə digər hüquqi vasitələrin köməyi (məsələn, inzibati, mülki-hüquqi, intizam məsuliyyətinə cəlbetmə) ilə bu əməllə mübarizənin mümkünsüzlüyü dayanır.

Qüvvədə olan Azərbaycan Respublikasının *cinayət qanunvericiliyində kriminallaşdırılmış və tamamilə dekriminallaşdırılmış əməllərin sayının müqayisəsi milli cinayət hüququnun liberallıqdan daha çox repressiv meyilli olduğunu göstərir*. 1 sentyabr 2000-ci ildən CM-nin Xüsusi hissəsinə 73 yeni maddə (200-dən artıq yeni cinayət tərkibi) daxil edilib, 8 maddə isə çıxarılıb (mad.132, 173, 176, 184, 189, 241, 318-2, 331) [2]. Xüsusi hissədən çıxarılan maddələrdən yalnız döymə (mad.132), aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə əmlak ziyanı vurma (mad.184), telefon xətlərinə qanunsuz daxil olmaqla danışıqlar aparma (mad.189) və xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməməsi (mad.318-2) əməlləri tamamilə, qalanları isə şərti olaraq dekriminallaşdırılıb. CM-dən 132, 184, 176-cı maddələrin çıxarılması isə mübahisəlidir.

Hesab edirik ki, ləğv olunduğu 2012-ci ilə qədər cinayətkarlığın strukturunda geniş yer alan (bəlkə də, elə bu səbəbdən dekriminallaşdırılan) zoraki əməl olan döymə (mad.132) yenidən kriminallaşdırılmalıdır. Bu əməlin dekriminallaşdırılması və cinayət məsuliyyətini inzibati tənbehlə əvəzlənməsi şəxslərdə və ümumiyyətlə cəmiyyətdə cəzasızlıq hissi yaradır və zorakı xarakterli daha ağır cinayətlərin (mad.128, 127 və s.) törədilməsinə səbəb olur. Fikrimizcə, *inzibati preyudisiyanın cinayət qanununa qaytarılması və təkrar törədilən döymə əməlinin kriminallaşdırılması həmçinin ümumi preventiv əhəmiyyət daşıyacaqdır*.

176-cı maddənin, xüsusən əmək qabiliyyəti olan və işləyən valideynlər tərəfindən yetkinlik yaşına çatmayan uşağın (uşaqların), habelə yetkinlik yaşına çatmış, lakin əmək qabiliyyəti olmayan övladların saxlanması üçün məhkəmə tərəfindən müəyyən edilmiş vəsaiti ödəməkdən qərəzli olaraq boyun qaçırma olan hissəsinin (mad.176.1) CM-dən çıxarılması da birmənalı qarşılanmır. Əhalinin ən həssas hissəsinin mənafelərinin cinayət-hüquqi müdafiəsinin ümumi norma olan 306-cı maddə (Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə) ilə yox, məhz xüsusi norma olan 176-cı maddə üzrə müəyyən edilməsi həm cinayət hüququnun bu sahədə olan ənənələrinə sadiq qalar, həm də ümumi preventiv əhəmiyyətə malik olar. *Ümumiyyətlə, CM-də ümumi norma kimi 306-cı maddənin olması, xüsusi normanın (mad.176) mövcudluğunu inkar etməyə səbəb ola bilməz.* Xüsusi hissənin normayaradıcılığında qanunverici tərəfindən əmələ görə məsuliyyətin ümumi və xüsusi normaları üzrə fərqləndirilməsi cinayət məsuliyyətinin diferensiasiyasının bir vasitəsi kimi kifayət qədər geniş istifadə edilir.

Azərbaycanda törədilən cinayətlərin kriminoloji təhlili və cinayətkarlığın əmsalının davamlı olaraq aşağı olması ölkədə kriminoloji vəziyyətin stabil olmağını göstərir. Ümumiyyətlə, Azərbaycanda cinayətkarlığın səviyyəsi bir çox ölkələrlə, o cümlədən postsovet məkanındakı ölkələr ilə müqayisədə bir neçə dəfə aşağıdır. Ona görə də **cəzanın humanistləşdirilməsi ilə yanaşı, ictimai təhlükəliliyi az olan və ümumiyyətlə illərlə törədilməsi qeydə alınmayan əməllərin dekriminallaşdırılması həyata keçirilməlidir.** Həmçinin müxtəlif ixtisaslaşdırılmış sahələrdə qaydaların pozulması kimi qiymətləndirilən əməllərin kriminallaşdırılması əslində cinayət əməli haqqında ənənəvi anlayışa xələl gətirir, cinayət əməli və adi hüquqpozma arasında olan sərhədləri pozur.

İctimai təhlükəlilik xarakteri və dərəcəsi süni şəkildə "cinayət" anlayışına çatdırılan əməllərin kriminallaşdırılması CM-nin Xüsusi hissəsinin normativ məzmununun həddən artıq yüklənməsinə səbəb olur. Məsələn, CM-nin Xüsusi hissəsi 01.09.2000-ci il tarixində olan vəziyyətdə 537 cinayət tərkibi, 01.12.2022-ci il tarixindəki vəziyyətində isə artıq 747 cinayət tərkibinə malikdir. Əlavə olunan cinayət tərkiblərinin 33,5%-ni böyük ictimai təhlükə törətməyən cinayətlər, 40,8%-ni az ağır cinayətlər təşkil edir. Böyük ictimai təhlükə törətməyən və sanksiyasında azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutulmayan cinayətlərin yarısından çoxu qəsd obyektinin spesifikliyini və baş verən nəticələri nəzərə alaraq dekriminallaşdırıla və müvafiq hüquq pozuntusu kimi inzibati, intizam, maddi və s. məsuliyyət yarada bilər. Bundan başqa illər ərzində cinayətkarlığın strukturunda ümumiyyətlə əks olunmayan və CM-nə daxil edildiyi andan özlüyündə "deklarativ" rol oynayan cinayət əməlləri də dekrimallaşdırılmalıdır (mad.165-1, 165-2, 165-3 və s.).

Cinayət hüququ sahəsində qanunvericilik prosesi dövlətin cinayət-hüquqi siyasətinin müasirləşdirilməsi, optimallaşdırılması və humanistləşdirilməsinə əsaslanmalıdır. Bununla belə cinayət hüququnun vəzifə və funksiyalarını nəzərə alaraq hesab edirik ki, humanistləşdirilmə prinsipi ədalət prinsipini üstələməməlidir və ən əsası ağır və xüsusilə ağır zorakı cinayətləri törətmiş şəxslərə qarşı cinayət qanunu sərtləşdirilməlidir. Bu baxımdan, son günlərdə 14 yaşına çatmayan şəxslərə qarşı zorlama (mad.149.3) və seksual xarakterli zorakılıq hərəkətlərinə (mad.150.3) görə cəza siyasətinin sərtləşdirilməsi təqdirə layiqdir.

Bu konteksdə hüquq elmində və cəmiyyətdə qızğın mübahisə yaradan bir məsələyə də toxunmaq istəyirəm – ölüm cəzasına. Ölüm cəzasının ləğv edilməsi ideyasını dəstəkləməklə yanaşı, hesab edirik ki, cəmiyyət xüsusi amansızlıqla törədilən və ağır nəticələrlə müşayiət edilən iki və daha çox şəxsi qəsdən öldürülməsinə görə bu cəza növündən imtina etməyə hələ hazır deyil. Prof. İlham Rəhimovun "...ölüm cəzası problemi nəinki etik, tarixi, sosial, dini, kriminogen aspektlərlə, müasir şəraitdə daha böyük ölçüdə siyasi məqsədəuyğunluqla bağlıdır" [9, s.179] fikri ilə razılaşmamaq olmaz. Hesab edirik ki, ölüm cəzasına münasibətdə əsas ölçü vahidi qismində məhz ədalət prinsipi çıxış etməlidir. Ağırlaşdırıcı hallarda iki və daha çox şəxsi qəsdən öldürmə cinayətinə görə ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxsin, o cümlədən cinayətin qurbanlarının qohum və yaxınlarının vəsaiti hesabına formalaşan dövlət büdcəsinin hesabına saxlanılması ədalətsizlikdir. Cinayət hüququnun humanizmi cəzanın törədilmiş cinayətin ağırlığına mütənasib olması prinsipindən imtina edilməsində deyil, ölüm cəzasının müəyyən kateqoriya şəxslərə (yetkinlik yaşına çatmayanlara, qadınlara və ahıllara) münasibətdə tədbiqinin istisna edilməsində və bu cəzanın icrasının humanist üsullarının seçilməsində ifadə olunmalıdır [9, s.4-12].

Fikrimizcə, müasir zamanda *cinayət hüququ üzrə yaranan problemlər cinayət qanunvericiliyinə edilən əlavə və dəyişikliklərin geniş elmi müzakirə olmadan qəbul olunması nəticəsində yaranır.* Cinayət qanunvericiliyinin müvafiq normalarının tətbiqində yaranan mübahisəli məqamların şərhinə dair Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi mütəmadi olaraq ekspert qismində alimlərin rəyinə müraciət etdiyi halda [1], Milli Məclisdən çox nadir hallarda alimlərin fikrini öyrənmək üçün kafedraya müraciət olunur (son dəfə müraciət 2019-cu ilin noyabr ayında olub və biz CM-nin VII bölməsinin təklif edilən yeni layihəsinə dair rəyimizi təqdim etmişik).

Bəzi cinayət-hüquqi normaların qeyri-sabitliyini də xüsusi olaraq qeyd etmək istərdik. Belə ki, 1999-cu il CM-nin qüvvədə olduğu illərdə bəzi maddələrin redaksiyasına çoxsaylı dəyişiklik və əlavələr edilib ki, bu da ayrı-ayrı cinayət növləri üzrə məhkəmə təcrübəsinin sabitliyinin pozulmasına gətirib çıxarmışdır (mad.213, 177 və 178, 308 və s.).

Qeyd etdiyimiz kimi, cinayət məsuliyyətinin diferensiasiyası cinayət-hüquqi siyasətinin əsas konseptual müddəasıdır və öz formal ifadəsini ilk növbədə cinayət qanunvericiliyinin Ümumi hissəsinin cinayətlərin təsnifatı institutunda və Xüsusi hissəsinin sanksiyalar sistemində tapır. *Ədalət prinsipinin məzmunu (mad.8) cinayət məsuliyyətinin diferensiasiyasının mahiyyətini təşkil edir. Buna görə də cinayət məsuliyyətinin diferensiasiyasının ardıcıllığından hər hansı kənarlaşma və ya uyğunsuzluq cinayət qanununun ədalət prinsipinin pozulması kimi qəbul edilməlidir.*

Müqayisə üçün bildirək ki, postsovet məkanındakı bəzi dövlətlərin (məsələn, RF, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və s.) cinayət qanunvericiliklərində cinayətlərin ağırlığına görə müxtəlif kateqoriyalar üzrə təsnifatı əhəmiyyətli dərəcədə təkmilləşdirmişdirilmişdir [18-21]. Onlardan fərqli olaraq, Azərbaycan Respublikasının qüvvədə olan CM-nə cinayətlərin təsnifatı institutu ilə bağlı edilən əlavə və dəyişikliklər bu institutu yalnız nüfuzdan salmış [11, 131-135] və bütövlükdə Xüsusi hissənin sanksiyaların sistemində balansını pozmuşdur. Yuxarıda qeyd edilənlər öz növbəsində cinayət məsuliyyətinin diferensiasiyası prinsipinin pozulmasını şətləndirir və bununla cəza təyin edilərkən onun sosial ədalətin bərpası məqsədinə nail olunmasına mane olur.

CM-nin Ümumi hissəsində cinayət məsuliyyətinin diferensiasiyasının ardıcıllığının pozulması, məhkəmələr tərəfindən 62-ci (Cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi) və 70-ci (Şərti məhkum etmə) maddələrinin məhdudiyyətsiz tətbiq edilməsi, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş şəxslərə münasibətdə, habelə Xüsusi hissənin konkret sanksiyasının iki və ya hətta üç cinayət kateqoriyasının tipik sanksiyaları çərçivəsində qurulması hakim tərəfindən həyata keçirən cəzanın fərdiləşdirilməsini qanunverici tərəfindən müəyyən edilən cinayət məsuliyyətinin diferensiasiyasından üstün tutur. *Şübhəsiz, humanizm zəruridir, lakin ayrıca şəxsin xeyrinə tez-tez geniş şəkildə ictimai təhlükəsizliyin qurban verilməsi doğru deyil, çünki bu halda cəzasızlıqla bağlı ümumi təsəvvür yaranır* [10, 109].

Amerikalı alim Paul H.Robinsonun fikrincə desək: "Cəza təyinatındakı fərqliliklər böyük ədalətsizlik mənbəyidir və bu ədalətsizlik cinayət mühakiməsi sistemini nüfuzdan salır, çünki bu o deməkdir ki, cinayətkarın alacağı cəza onların törətdiyi cinayətdən deyil, işə baxan hakimdən asılıdır" [23, s.251].

Məhkəmə mülahizəsini məhdudlaşdırmaq üçün şərti məhkum etməni (mad.70) xüsusilə ağır cinayətlər, zorakılıq xarakterli ağır cinayətlər törətməkdə təqsirli olan, habelə xüsusilə təhlükəli residiv törətmiş şəxslərə qarşı tətbiqinə icazə verilməməlidir.

CM-nin 62-ci maddəsinin tətbiqi də qanunla məhdudlaşdırılmalıdır. Məhkəmə təcrübəsi göstərir ki, bu maddə ağır və xüsusilə ağır cinayətlər törətmiş şəxslərə kifayət qədər geniş tətbiq edilir (xüsusilə məhkəmə təcrübəsi külli miqdarda dələduzluq etmiş şəxslərə qarşı "mərhəmətlidir"). Hakimlərin hər birinin özünəməxsus şəkildə şərh etdiyi "müstəsna hallar"ın təfsirinə keçmədən, məhkəmənin azalda biləcəyi cəzanın hədlərini qanunla müəyyən edilməsini zəruri hesab edirik. Belə ki, bu maddə üzrə konkret sanksiyada azadlıqdan məhrum etmə növündə cəzanın aşağı həddinin 3 ildən çox olmayaraq azaldılması kifayət edir.

Eyni zamanda təklif olunur ki, törədilmiş cinayətin kateqoriyası faktiki təyin edilmiş azadlıqdan məhrum etmənin müddətinə uyğun olaraq hakim tərəfindən hökm çıxarılarkən müəyyən edilsin. Belə yanaşma daha ədalətli olar: cinayətin törədilməsinin hüquqi nəticələri də (məsələn, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, məhkunluğun ödənilməsi və s.) təyin edilən cəzaya mütənasib olsun. Məsələn, bu kimi yanaşma son illər RF-nın cinayət qanunvericiliyi və təcrübəsi üzrə tətbiq olunur. Vaxtı ilə bizim bu təklifimizə əsas etiraz onunla bağlı idi ki, törədilmiş cinayətin kateqoriyasını qanunverici müəyyən etdiyinə görə, hakimin verdiyi real cəzaya uyğun cinayətin kateqoriyasının də-

yişilməsinə yol vermək olmaz. Fikrimizcə, CM-nin 62-ci maddəsinin tətbiqi hakimə müstəsna halları nəzərə alaraq Xüsusi hissənin konkret sanksiyasındakı aşağı həddən də az cəza təyin edilməsinə səlahiyyət verirsə, bu halda hakimə cəza təyin edərkən törədilmiş cinayətin kateqoriyasını da müəyyən etməyə səlahiyyət verməlidir. Əks halda, cinayətin kateqoriyasına uyğun qanunla nəzərdə tutulan cinayət-hüquqi nəticələr məhkuma hökmdə verilmiş cəza ilə üzləşmir.

Cinayət qanunvericiliyindəki qeyri-müəyyənliklər və boşluqlar bəzi hallarda məhkəmə özbaşınalığına səbəb olur. Ədalət mühakiməsinin həyata keçirilməsində korrupsiyaya şərait yaradan məhkəmə mülahizəsini məhdudlaşdırmaq üçün CM-nin Ümumi hissəsində cəzanın təyin edilməsi prosesinin qanunla tənzimlənməsi gücləndirilməli, müvafiq hallarda dispozitiv normalar imperativ normalarla əvəzlənməlidir. Məsələn, cəza təyin edərkən məhkəmə mülahizəsini məhdudlaşdırmaq məqsədi ilə CM-nin 61-ci maddəsinə aşağıdakı imperativ normanı əlavə etmək olar: "Alternativ sanksiyalarda ilk dəfə cinayət törətmiş şəxslərə, onların əməllərində Cinayət Məcəlləsinin 61-ci maddəsində nəzərdə tutulmuş ağırlaşdırıcı hallar olmadıqda, azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilməz".

Cinayətlərin ictimai təhlükəliyinin xarakteri və dərəcəsindən asılı olaraq müxtəlif kateqoriyalar üzrə təsnifatı qüvvədə olan cinayət qaninvericiliyində cinayət məsuliyyətinin və cəzanın diferensiasiyasının əsas vasitələrindən biridir. Təklif olunur ki, böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasından sanksiyasında azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutulmayan cinayətləri, xüsusilə ağır cinayətlər kateqoriyasından isə sanksiyasında alternativ olaraq ömürlük azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulan cinayətləri ayıraraq bütün cinayət əməllərini 6 kateqoriya üzrə fərqləndirək. Bundan əlavə, az ağır və ağır cinayətlərin kateqoriyaları daxilində olan cinayətlər də ictimai təhlükəliliyin xarakteri və dərəcəsinə görə fərqləndirilməlidir. Ümumi hissənin müvafiq normalarında cinayət məsuliyyəti və cəza təyini məsələləri müəyyən edilərkən bu hal nəzərə alınmalı və zorakı xarakterli az ağır və ağır cinayətlərə görə məsuliyyət və cəza ciddi fərqləndirilməlidir.

Cinayət məsuliyyətinin diferensiasiyası müxtəlif hüquq sistemlərinə malik olan dövlətlərin böyük əksəriyyətinin cinayət-hüquqi siyasətinin əsas istiqamətidir. Eyni zamanda, müxtəlif dövlətlərin cinayət qanunlarında cinayətlərin təsnifatı institutu, cəzaların sistemi, cəzanın təyin edilmə qaydaları, cəza məsuliyyətindən azad etmə şərtləri, kriminallaşdırılan əməllərin dairəsi, sanksiyaların qurulması və s. fərqliliyi ilə seçilir. Postsovet məkanındakı dövlətlərdən, fikrimcə, müstəqilliyi dövrlərində artıq ikinci CM-ni qəbul edən Qazaxıstan (2014) və Qırğızıstanın (2021) qanunvericilik təcrübəsini öyrənməyi məqsədəuyğun hesab edirik [19; 20].

Ümumiyyətlə, **Azərbaycan cinayət hüququnun mütərəqqi inkişaf istiqamətlərindən birini qanunverici tərəfindən cəza təyini prosesinin ciddi (dar çərçivədə) tənzimlənməsində görürük.** Hesab edirik ki, yaxın gələcəkdə bu proses Azərbaycan alimlərinin kompleks tədqiqat predmetinə çevrilməlidir. Bu baxımdan cəza təyini prosesini müxtəlif əsaslarla ciddi tənzimləyən ABŞ-ın təcrübəsi xüsusi maraq kəsb edir [13, s.12; 14, s.391-394]. Bir neçə il bundan əvvəl prof.Xanlar Ələkbərovun cəza təyinini dar çərçi-

vələr arasında müxtəlif amillər üzrə elektron üsulla formallaşdıran konsepsiyası ("məhkəmə mühakiməsinin elektron tərəzisi") Azərbaycanda və xarici ölkələrdə xüsusi elmi marağa səbəb olmuşdur [12].

Transmilli cinayət hüququnun milli cinayət hüququna inteqrasiyası yalnız beynəlxalq cinayətlərin və beynəlxalq xarakterli cinayətlərin kriminallaşdırılması və ya dekriminallaşdırılması, habelə cinayət məsuliyyətinin diferensiasiyasına dair tövsiyələrdən ibarətdir. Bu cinayətlərə görə məsuliyyət məsələlərini milli qanunverici həyata keçirir, çünki cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsi cəzalandıran normalar yalnız CM-nə daxil edildikdən sonra tətbiq edilə bilər (mad.1.3) [8, s.86-87]. Transmilli cinayət hüququnun milli cinayət hüququna inteqrasiyası hüquqi prinsiplərin ümumiliyi ilə təmin edilir. Hüququn ümumi prinsipləri milli qanunvericilik tarixində ilk dəfə 1999-cu il CM-də cinayət hüququnun və cinayət məsuliyyətinin prinsipləri kimi (mad.4-9) təsbit edilibsə, transmilli cinayət hüququnun xüsusi (mərkəzi) prinsipləri CM-nin Ümumi hissəsinin müxtəlif normalarında (mad.12.3, 75.5, 80.4), habelə Azərbaycan Respublikasının "Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında" 12 may 2006-cı il tarixli Konstitusiya Qanunu ilə təsbit edilmişdir. Transmilli cinayət hüququnun məhz xüsusi (mərkəzi) prinsipləri (beynəlxalq cinayətlərə görə fiziki şəxslərin fərdi cinayət məsuliyyəti; universal yurisdiksiya; beynəlxalq cinayətlərə görə məsuliyyətə cəlbetmə müddətinin keçməsinin tətbiq edilməməsi; beynəlxalq cinayətlərə görə cinayət qanununun geriyə qüvvəsi) Azərbaycan Respublikasının CM-də beynəlxalq cinayətlərə və beynəlxalq xarakterli cinayətlərə görə cinayət məsuliyyətinin diferansiasiyası üçün həlledici əhəmiyyət kəsb edir [16, 38-50].

Baxmayaraq ki, Azərbaycan Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunu ratifikasiya etməyib, MDB-nin digər üzv-dövlətləri (məsələn, PF, Özbəkistan və s.) ilə müqayisədə bizim CM-də beynəlxalq cinayətlərin ən dolğun dairəsi müəyyən edilib. Ümumiyyətlə, *Azərbaycan cinayət hüququnun tarixində ilk dəfə məsuliyyəti müəyyən edilən beynəlxalq cinayətlərin 1999-cu il CM-nin VII bölməsində sistemləşdirilməsini və təsnifatını, tərkiblərin beynəlxalq hüquq normalarının maksimum səviyədə uyğunlaşdırılması milli qanunvericiliyimizin nailiyyəti kimi qiymətləndirilə bilər.* Lakin bəzi hallarda beynəlxalq xarakterli cinayətlərin hüquqi statusunun beynəlxalq cinayətlərlə bərabərləşdirilməsi qanunverici texnikasının mükəmməl olmaması ilə bağlıdır və bu qüsur aradan qaldırılmalıdır [14, s.580-595].

Dairəsi nisbətən sabit olan beynəlxalq cinayətlərdən fərqli olaraq (yalnız bir dəfə 2 iyul 2001-ci il tarixli Qanunla 108-1-ci maddə və 11 dekabr 2012-ci il tarixli Qanunla 116-cı maddəyə 116.0.8-1, 116.0.8-2, 116.0.8-3 maddələr əlavə edilmişdir) 1999-cu il CM-nə xeyli sayda beynəlxalq xarakterli cinayətlər əlavə edilmiş və ya onlara görə məsuliyyət müəyyan edən maddələrə dəyişikliklər edilmişdir. CM-nin indiki vəziyyətinə görə beynəlxalq xarakterli cinayətlərin 40%-ə qədəri ora 1 sentyabr 2000-ci ildən sonra daxil edilib, bu da Azərbaycan Respublikasının beynəlxalq cinayərkarlıqla mübarizə sahəsində öz öhdəliklərinin yüksək səviyyədə yerinə yetirilməsini sübut edir. Lakin bəzi hallarda beynəlxalq xarakterli cinayətlərin CM-nin Xüsusi hissəsi sistemində yeri heç də düzgün müəyyən edilmir. Bu fikrimizə nümünə kimi uşaq pornoqrafiyasının dövriyyəsi (mad.171-1), dərman vasitələrinin qanunsuz dövriyyəsi (mad.200-1) və s. əmelləri gətirmək olar.

CM-nin VII bölməsinə daxil edilən beynəlxalq xarakterli cinayətlərin statusunu dəqiqləşdirmək, müvafiq beynəlxalq normalarla uyğunlaşdırmaq məqsədilə bu bölmənin adı və istifadə edilən hüquqi texnika da dəqiqləşdirilməlidir. Hər halda dərk edilməlidir ki, beynəlxalq cinayətlərin və beynəlxalq xarakterli cinayətlərin hüquqi statusu fərqlidir.

Azərbaycan Respublikasının cinayət hüququnda hüquqi şəxslərin məsuliyyəti nisbətən yeni institutdur. CM-nin 99-4.5-ci maddəsində cinayət məsuliyyətin subyektləri qismində hüquqi şəxslərin çıxış etdiyi əməllər sadalanır. Bu maddəyə daxil olan adi cinayətlərin təfərrüatlarına varmadan, fikrimizcə, bütünlüklə beynəlxalq cinayətlərin və bir çox beynəlxalq xarakterli cinayətlərin (məsələn, təcavüzkar müharibəni başlamağa açıq çağırışlar, qaçaqmalçılıq, müdafiə olunan nişanlardan sui-istifadə və s.) bu siyahıya daxil edilməməsinin məntiqi izahı yoxdur.

Belə ki, beynəlxalq cinayətlərin törədilməsinə görə dövlətin beynəlxalq hüquqi məsuliyyəti ilə yanaşı, hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi ehtimalı istisna oluna bilməz. Bu halda BCM-nin Roma Statutuna görə hüquqi şəxslərin beynəlxalq cinayətlərə görə məsuliyyətin subyekti qismində tanınmamasına dair arqumentlər tutarlı hesab edilə bilməz. Artıq 7 mart 2012-ci ildən Azərbaycan Respublikasının cinayət qanununa hüquqi şəxslərin məsuliyyətini və onlar barəsində tətbiq olunan cinayət-hüquqi tədbirləri nəzərdə tutan müddəalar daxildir və buna görə də CM-nin 99-4.5-ci maddəsindəki bu boşluq doldurulmalıdır.

Qloballaşan dünyada ekoloji fəlakətlər bütün dövlətləri və qeyri-hökümət təşkilatlarını narahat edən əsas problemlərdən birinə çevrilmişdir. **Ermənistanın Azərbaycana qarşı təcavüzü dinc əhalinin məhv edilməsi, soyqırım, deportasiya və s. beynəlxalq cinayətlərin törədilməsi ilə yanaşı [6] həmçinin ekosid, urbanisid kimi cinayətlərin baş verməsinə səbəb olub.** 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlığı nəticəsində işğal edilmiş ərazilər azad olunmuşdur. 30 ilə yaxın davam etmiş işğal dövründə isə regionun ekoloji vəziyyətinə ciddi ziyan vurulmuşdur. Flora və faunanın məhv edilməsi, həmçinin meşələrdə nadir ağacların kökündən kəsilməsi, torpaq və su resurslarının çirklənməsi, regionda yerin təkinin qanunsuz istismar nəticəsində talan edilməsi ekoloji tarazlığı kəskin şəkildə pozaraq faktiki olaraq ekoloji fəlakət kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının CM-də müxtəlif ekoloji cinayətlərə (28-ci fəsil) görə məsuliyyət müəyyən olunduğu halda [3, s.394-460], təəssüf ki, ümumilikdə sülh və bəşəriyyətin təhlükəsizliyinə qəsd edən və genişmiqyaslı ekoloji fəlakətə səbəb olan əməl ekosid kimi kriminallaşdırılmamışdır.

Qeyd etməliyik ki, BCM-in Roma Statutunda ekosid cinayəti beynəlxalq cinayətlərin nəinki müstəqil növü kimi, heç müharibə cinayətlərinin tərkibi kimi də qeyd edilmir [17, s.57]. *Azərbaycan Respublikasının cinayət qanunvericiliyi tərəfindən ekosid cinayəti yalnız müharibə cinayətlərinin sistemində "ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurma" (mad.116.0.2) kimi ifadə olunur.* Bir sıra xarici dövlətlərin, o cümlədən MDB-yə üzv olan RF (mad.358), Qazaxıstan (mad.169), Qırğızıstan (mad.409) və s. cinayət qanunvericiliklərində ekosid sülh və bəşəriyyətin təhlükəsizliyinə qəsd edən əməl kimi təsbit edilib [18-21]. Bu hallarda ekosid beynəlxalq cinayətlərin müstəqil bir növü kimi çıxış edir.

Ekosid cinayətinin soyqırım kimi beynəlxalq cinayətlərin müstəqil bir növü kimi[3] və ya insanlıq əleyhinə cinayətlərin daxilində bir əməl kimi olmağını mübahisələndirmək istəməyərək (bu digər məqalənin müstəqil mövzusu ola bilər), hesab edirik ki, 1999-cu il CM-də bu boşluq aradan qaldırılmalıdır. Qeyd olunanları nəzərə alaraq Azərbaycan Respublikasının CM-nin 16-cı fəslinə (Sülh və insanlıq əleyhinə cinayətlər) 104-cü (Soyqırımın törədilməsinə təhrik etmə) maddədən sonra yeni bir 104-1-ci maddənin aşağıdakı məzmunda daxil edilməsini təklif edirik:

"Flora, fauna və ya digər bioresursların kütləvi məhv edilməsi, atmosferin, torpaq və su ehtiyatlarının zəhərlənməsi, habelə ekoloji fəlakətə səbəb olan və ya baş verməsi təhlükəsi yaradan digər əməllər törətmə, – on beş ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Hazırda beynəlxalq aləmdə urbisid cinayəti geniş müzakirə olunur. Lakin ekosiddən fərqli olaraq urbisid nə beynəlxalq hüquqda, nədəki heç bir dövlətin milli cinayət qanunvericiliyində müstəqil cinayət növü kimi kriminallaşdırılmayıb. 30 illik işqal dövründə Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və s. yaşayış məntəqələri Ermənistan tərəfindən yerli əhalinin (azərbaycanlıların) gələcəkdə qayıdışını mümkünsüz etmək məqsədilə tamamilə dağıdılıb, bütün kommunikasiya, infrastrukturları ilə birgə məhv edilib. Bunları nəzərə alaraq *urbisid cinayətini beynəlxalq statusta kriminallaşdıran ilk dövlət helə Azərbaycan olmalıdır.*

Ekosid və urbisidin müstəqil cinayət növləri kimi CM-nin VII bölməsinə daxil edilməsi onlara milli qanunvericilik üzrə beynəlxalq cinayətlərin statusunun tədbiqini təmin edəcək: **fiziki şəxslərin fərdi cinayət məsuliyyəti (mad.3); universal yurisdiksiya (mad.12.3); beynəlxalq cinayətlərə görə məsuliyyətə cəlbetmə müddətinin keçməsinin tətbiq edilməməsi (mad.75.5); beynəlxalq cinayətlərə görə cinayət qanununun geriyə qüvvəsini (Azərbaycan Respublikasının 12 may 2006-cı il tarixli Konstitusiya Qanunu).** Bu cinayətlərə görə hüquqi şəxslərin də məsuliyyəti mütləq CM-nin 99-4.5-ci maddəsində qeyd edilməlidir. Müharibə cinayətlərinin müvafiq normalarına (116.0.2, 116.0.1, 116.0.6, 116.0.12) münasibətdə isə ekosid və urbisid ümumi və xüsusi normalar kimi qəbul edilməlidir.

Azərbaycan Respublikasının 1999-cu il CM-nin nailiyyətlərindən biri də yetkinlik yaşına çatmayanlar barəsində cinayət məsuliyyətinin və cəzasının xüsusiyyətlərini humanizm və sosial ədalət prinsipləri əsasında tənzimlənməsidir (V bölmə, 14-cü fəsil). Lakin bu məsələdə də müəyyən çatışmazlıqlar cinayət qanunvericiliyinə müvafiq dəyişiklik və əlavələr edilməklə aradan qaldırılmalıdır. Humanizm və dövlətdaxili hüququn transmilli cinayət hüququ normaları[4] ilə unifikasiyası məqsədilə CM-nin 75.5-ci (Müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə) və 80.4-cü (İttiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad etmə) maddələri yetkinlik yaşına çatmayanlara münasibətdə dəqiqləşdirilməli və hüquqi müəyyənlik prinsipi əsasında bu normaların yetkinlik yaşına çatmayanlara qarşı tətbiq edilməməsi cinayət qanununda birbaşa təsbit olunmalıdır. CM-nin 91-ci (Müddətin keçməsi) maddəsinə görə, "yetkinlik yaşına çatmayanlar

[3] Bu halda beynəlxalq cinayətlər aşağıdaki kimi təsnif olunacaq: təcavüz, soyqırım, ekosid, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri.

[4] BCM-nin Roma Statutunun 26-cı maddəsinə görə beynəlxalq cinayətlərə görə cinayət məsuliyyətinə cəlbetmə yaşı 18 yaşdan yuxarı hesablanır [22].

cinayət məsuliyyətindən və ya cəza çəkməkdən azad edilərkən, bu Məcəllənin 75 və 80-ci maddələrində müəyyən edilmiş müddətlər yarıbayarı azaldılır". Ancaq eyni zamanda, sual açıq qalır: 75.5 və 80.4-cü maddələrdə göstərilən müddəalar (beynəlxalq cinayətlər, terrorçuluq və terrorçuluğun maliyyələşməsinə görə məsuliyyətə cəlbetmə müddətinin keçməsinin tətbiq edilməməsi) yetkinlik yaşına çatmayanlara şamil edilir, ya yox? Bu məqsədlə CM-nin 91-ci maddəsində yetkinlik yaşına çatmayanlara münasibətdə 75.5-ci və 80.4 maddələrinin müddəalarının tətbiq edilməməsi barədə qeyd-şərt qoyulmalıdır.

Daha sonra qanunverici CM-nin 85.5-ci maddəsində yetkinlik yaşına çatmayanlara azadlıqdan məhrum etmə cəzasının təyin edilməsini tənzimləyərkən, fikrimizcə, cinayət məsuliyyətinin və cəzanın diferensiasiyası prinsipinə riayət etmir və bununla ədalət prinsipini ciddi pozur. Yetkinlik yaşına çatmayanlara azadlıqdan məhrum etmə növündə cəzanın təyin edilməsini tənzimləyərkən, törədilən cinayətin kateqoriyaları nəzərə alınmır. Yalnız ümumi olaraq qeyd edilir ki, azadlıqdan məhrum etmə yetkinlik yaşına çatmayanlara on ildən çox olmayan müddətə təyin edilir. Bundan da belə bir nəticəyə gəlmək olar ki, azadlıqdan məhrum etmə cəzasının təyin edilməsində humanistləşdirmə yalnız xüsusilə ağır və ya sanksiyaları 10 ildən yuxarı müddətdə olan ağır cinayətləri törətmiş yetkinlik yaşına çatmayan şəxslərə şamil edilir. Beləliklə, cinayət qanununda yetkinlik yaşına çatmayanlara münasibətdə azadlıqdan məhrum etmə cəzasının təyin edilməsində müasir cinayət hüququn əsas prinsipi kimi qəbul edilən: böyük ictimai təhlükə törətməyən və az ağır cinayət törətmiş şəxslərə münasibətdə cinayət-hüquqi siyasətinin yumşaldılması, ağır və xüsusilə ağır cinayətlərə görə isə sərtləşdirilməsi prinsipi ciddi pozulmuşdur. Həmçinin, yetkinlik yaşına çatmayanlara ən ciddi cəzanın, yəni azadlıqdan məhrum etmənin təyini zamanı yetkinlik yaşına çatmayanların müxtəlif yaş kateqoriyaları nəzərə alınmalıdır. Məsələn, onlara ictimai işlərin təyinində olduğu kimi (mad.85.3).

Bütün yuxarıda qeyd edilən iradlara baxmayaraq, hesab edirik ki, *qüvvədə olan cinayət qanunvericiliyimizdə yetkinlik yaşına çatmayan cinayətkarların hüquq və mənafeləri daha əhatəli qorunur, nəinki yetkinlik yaşına çatmayan zərəçəkənlərin.*

Cinayət qanunvericiliyi bu istiqamətdə xeyli təkmilləşdirilməlidir. İlk olaraq yetkinlik yaşına çatmayanlara qarşı zorakı cinayətlərin törədilməsinə görə məsuliyyət sərtləşdirilməlidir. Sovet dövrünün ilk iki CM-də (1922 və 1927) özünü öldürmə həddinə çatdırmaqla yanaşı "yaşadolmamış şəxsi, yaxud elədiyi işin mahiyyəti və xassəsini anlamağa və ya öz əməllərinə rəhbərlik etməyə iqtidarı olmayan şəxsi öz-özünü öldürməyə təhrik və ya köməklik etmə" də cinayət əməli sayılırdı (1927-ci il CM-nin 178-ci mad. 3-cü his.) [5, s.489]. Hesab edirik ki, Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin 125-ci maddəsinə yeni tərkib əlavə olunmalıdır. Yetkinlik yaşına çatmayan şəxsi və ya köməksiz vəziyyətdə olan şəxsi intihara sövq etmə, təhrik etmə və ya köməklik etmə, həmçinin müasir zamanda geniş yayılan qısnama (bullinq) kimi əməllər mütləq kriminallaşdırılmalıdır. Bu halda uşaqlar və gənclər arasında təhlükəli oyunları (məsələn, vaxtilə uşaqlar arasında çoxlu sayda intihara səbəb olan "göy balina" və s.) yayan şəxslər məsuliyyətdən kənar qalmayacaqlar. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun CM-nin 125-ci maddəsinin şərhinə dair 15 sentyabr 2022-ci il tarixli Qərarının məzmunu ümid verir ki, bizim bu təkliflərimiz yaxın zamanda qanunverici tərəfindən nəzərə alınacaqdır [1].

Bundan başqa, qəsdən adam öldürmə (mad.120.2), qəsdən sağlamlığa ağır (mad.126.2), qəsdən sağlamlığa az ağır (mad.127.2), qəsdən sağlamlığa yüngül zərər vurma (mad.128.2) cinayətlərini yetkinlik yaşına çatmayan şəxsə qarşı törədilməsi məsuliyyəti ağırlaşdıran hal kimi müvafiq maddələrə əlavə edilməlidir.

Bizim cinayət qanunvericiliyimizdə yetkinlik yaşına çatmayanlara və ailə münasibətləri əleyhinə olan cinayətlərin sistemində (22-ci fəsil) ailə zorakılığının müstəqil cinayət növü kimi kriminallaşdırılmamasını həmçinin uşaqların hüquq və azadlıqlarının müdafiəsi sahəsində ciddi boşluq kimi qəbul edirik.

Gender zorakılığı zaminində törədilən cinayətlər də 120.2, 126.2, 127.2, 128, 133 və s. maddələrdə müstəqil, yəni cinayət məsuliyyətini ağırlaşdıran hal olaraq qiymətləndirilməlidir. Bu, "qısqanclıq", "namus" motivi altında gizlənən, əslində isə gender zorakılığı zəmnində qadınları həyatdan məhrum etmə cinayətlərini 120.1-ci maddə əvəzinə, 120.2-ci maddə ilə məsuliyyətə cəlb etməyi təmin edəcək.

Bu halda CM-nin 22-ci fəslinə daxil edilən "ailə zorakılığı" (və ya "məişət zorakılığı") ümumi norma, 120.2, 126.2, 127.2, 128, 133 və s. maddələrə təklif etdiyimiz yeni ağırlaşdırıcı tərkiblər isə xüsusi normalar kimi çıxış edəcəklər.

Müasir zamanda bəzi digər cinayətlərə görə cinayət məsuliyyətinin diferensiasiyasının səviyyəsi mövcud reallıqlara cavab vermir. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə (26-cı fəsil), cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırmağa (mad.193-1), rüşvətxorluğa görə (mad.311, 312, 312-1) cinayət məsuliyyəti külli miqdardan artıq miqdarda törədildikdə fərqləndirilməlidir (məsələn, 5 mindən, 50 mindən, hətta 50 milyon manatdan artıq rüşət alma eyni 311.3.3-cü maddə ilə məsuliyyət yaradır). Bu məqsədlə göstərilən maddələrdə müvafiq əməlin "xüsusilə külli miqdarda" törədilməsinə görə məsuliyyət mütləq fərqləndirilməlidir. 20 oktyabr 2017-ci il tarixli Qanunla CM-nin 23-cü fəslinə və qismən 24-cü fəslinə müvafiq əməllərin xüsusilə külli miqdarda törədilməsinə görə məsuliyyət norması əlavə olunduqda, təəssüf ki, qanunverici buna sistemli yanaşmamış və digər fəsillərdə olan cinayətlərin xüsusilə külli miqdarda törədilməsi müstəqil tərkibdə fərqləndirilməmişdir. Misal üçün, yalançı sahibkarlığın xüsusilə külli miqdarda törədilməsinə görə cinayət məsuliyyəti diferensiasiya olunduğu halda (mad.193.3.1) niyə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırarkən (mad.193-1) əməlin xüsusilə külli miqdarda törədilməsinə cinayət-hüquqi qiymət verilmir. Halbuki hər iki əməl hətta eyni 24-cü (İqtisadi fəaliyyət sahəsində olan cinayətlər) fəsildə təsbit olunur. Təəssüf ki, qüvvədə olan CM-də belə nümunələr az deyil.

Korrupsiya cinayətləri ilə mübarizə problemlərindən biri də qüvvədə olan CM-nin bu sahədəki natamamlığından irəli gəlir. CM-nin 33-cü fəslinin (Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər) təkcə adının üç dəfə dəyişdirilməsinə, müxtəlif illərdə bu fəsilə 6 yeni maddə əlavə edildiyinə, qalan maddələrin məzmunun və sanksiyaların dəfələrlə dəyişdirilməsinə baxmayaraq, fikrimizcə, korrupsiyaya qarşı uğurlu mübarizə üçün zəruri olan əməllər kriminallaşdırılmamışdır. BMT-nin Korrupsiyaya qarşı 2003-cü il tarixli Konvensiyadakı tövsiyələrə baxmayaraq [7], Azərbaycan Respublikasının cinayət qanununda hələ də dövlətimizdə *korrupsiyaya qarşı uğurlu sis-*

temli mübarizəyə mane olan "qanunsuz varlanma" (mad.20) kimi təhlükəli və kifayət qədər geniş yayılmış korrupsiya əməli kriminallaşdırılmayıb. Müqayisə üçün, Qırğızıstan Respublikasının 2021-ci ildə qəbul edilən, həm də ondan əvvəlki (1997) CM-də qanunsuz varlanmaya görə cinayət məsuliyyəti nəzərdə tutulub [20].

CM-nin Ümumi hissəsinə cəzanın repressiv tədbirlərinə qənaət etmək məqsədilə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə və zorakı xarakteri olmayan cinayətlərə görə təyin edilmiş azadlıqdan məhrum etmə növündə cəzanın cərimə ilə əvəz edilməsini mümkün edən yeni norma daxil edilməlidir. Azadlıqdan məhrumetmə növündə cəzanın cərimə ilə əvəz edilməsi məhkumun razılığı ilə məhkəmə tərəfindən həyata keçirilməlidir. Azadlıqdan məhrum etmə cəza növü cərimə ilə əvəzlənəndə hər iki cəza növü arasında mütənasiblik qorunmalıdır: cərimənin miqdarı təyin edilmiş azadlıqdan məhrumetmənin müddəti üzrə fərqlənməli və hər il üçün hesablanan cərimə miqdarı öz növbəsində cinayətlərin kateqoriyaları üzrə hesablanmalıdır. Bu təklifimiz əslində bir neçə xarici dövlətdə tətbiq olunur (Almaniya, Yaponiya). Cəza təyinində bu yenilik həm cəza-icra müəssisələrinin boşaldılmasına, həm də dövlət büdcəsinin doldurulmasına istiqamətlənib. Bundan başqa, bu təklif son illər CM-nə əlavə olan 73-1 (Mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə) və 73-2 (İqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə) maddələrdən *fərqli olaraq cinayət törətmiş şəxsin cinayət məsuliyyətindən və cəzadan azad edilməsinə deyil, yalnız cəza siyasətinin humanistləşdirilməsinə yönəlmişdir.*

Cinayət qanunu ilə müəyyən edilmiş və humanizm prinsipinə əsaslanan cinayət məsuliyyətindən azad etmə institutu cinayət məsuliyyətinin diferensiasiyasının mühüm vasitəsindən biridir. CM-nin müvafiq maddələrində müəyyən edilən şərtlər ödənildikdə, hüquq tədbiqedici orqan qanun qarşısında bərabərlik prinsipi əsasında bu qaydanı tətbiq etməyə borcludur. Lakin CM-nin 72-ci (Səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad etmə), 73-cü (Zərərçəkmiş şəxslə barışmaqla bağlı cinayət məsuliyyətindən azad etmə), 74-cü (Şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə) maddələrində qanunla müəyyən edilmiş şərtlər ödədildikdə belə cinayət məsuliyyətindən azadetmə dispozitiv formada "azad edilə bilər" kimi ifadə olunur. Fikrimizcə, müvafiq normalarda qanunun tədbiqi imperativ formada "azad olunur" kimi ifadə olunmalıdır.

Yuxarıda təklif etdiyimiz dəyişikliklər ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət və ya az ağır cinayət törətmiş şəxslərə münasibətdə cinayət-hüquqi siyasətinin yumşaldılmasına, habelə hər bir şəxsin qanun qarşısında bərabərlik prinsipinə daha dəqiq riayət olunmasına yönəlib. Cinayət məsuliyyətindən azad etmə institutunun əhəmiyyəti o qədər mühümdür ki, onu qeyri-müəyyən "azad edilə bilər" ifadəsi ilə hüquq tətbiqedici orqanının əməkdaşlarının ixtiyarına buraxmaq olmaz. Bundan əlavə, Xüsusi hissənin bəzi maddələrin Qeyd hissəsində təsbit edilən cinayət məsuliyyətindən azad etmənin xüsusi şərtlərinin ifadəsi daha aydın olmalıdır ki, ikimənalı şərh edilməsin (mad.144, 214, 214-1, 215 və s.).

Bundan başqa hesab edirik ki, CM-nin Xüsusi hissəsinin ağır və xüsusilə ağır cinayətlərə görə məsuliyyət müəyyən edən müvafiq maddələrinin (mad.144, 214, 215, 274 və s.) Qeyd hissəsində xüsusi şərtlər əsasında cinayət məsuliyyətindən azadetmə haqqında

müddəa cinayət hüququnun fundamental xüsusi prinsipinə ziddir: törədilmiş əmələ görə cinayət məsuliyyətinin və cəzanın labüdlüyü. Qanunvericinin ilk növbədə zərərçəkmiş şəxslərin mənafeyinin müdafiəsini rəhbər tutduğunu başa düşərək, yenə də cinayət törətmiş şəxsi cinayət məsuliyyətindən azad etməklə deyil, cəzanın yüngülləşdirilməsi ilə "həvəsləndirmək" daha düzgün olardı (məsələn, oxşar hallarda ABŞ, Almaniya, Fransada olduğu kimi) [14, s.313-318].

22 ildən artıq qüvvədə olan və çoxsaylı dəyişikliklərə məruz qalan Azərbaycan Respublikasının CM-də nəzərə çarpan boşluqlar, bəzi normaların dispozisiyalarının məzmununun müvafiq əmələin cinayət hüququ elmində və təcrübəsində verilən anlayışa uyğunsuzluğu mövcuddur. Misal üçün, 1999-cu il CM-nin qüvvəyə mindiyi gündən redaksiyasına dəyişiklik edilməyən 135-ci maddənin (Evtanaziya) məzmunu tam çaşqınlığa səbəb olur, çünki evtanaziyanın zəruri həm obyektiv, həm də subyektiv əlamətlərini ehtiva etmir. İlk dəfə hələ 1999-cu il aprel tarixində (1960 il CM, mad.97-1) müstəqil əməl kimi kriminallaşdırılan evtanaziya bu illər ərzində cinayətkarlığın strukturunda yer almayıb. Həmçinin bu əmələin CM-nin 18-ci (Həyat və sağlamlıq əleyhinə olan cinayətlər) fəslindəki yerinə yenidən baxmaq, onu həyat əleyhinə olan cinayətlərin sırası daxilində yerləşdirmək lazımdır (mad.120-125) [15, t.1, s.259-262].

Приведенные нормы вполне согласуются с содержанием Основных положений о роли адвокатов, принятых VIII Конгрессом ООН по предупреждению преступлений в 1990 году, обязывающие правительства стран обеспечить адвокатам, в том числе, и возможность осуществлять их профессиональные обязанности без запугивания и препятствий, а также уголовный и гражданский иммунитет от преследований за заявления, касающиеся дела, при добросовестном исполнении своего долга и осуществлении профессиональных обязанностей в суде, трибунале или другом юридическом или административном органе [9]. Поскольку возможность обеспечения безопасности вышеназванных лиц, при наличии оснований и в порядке, предусмотренном законом, является важной правовой гарантией обеспечения права человека на юридическую помощь и защиту, то криминализация посягательств на это право соответствует принципу системно-правовой непротиворечивости криминализации.

Содержание принципа определенности и единства терминологии заключается в том, что криминализация посягательств на право человека на правовую помощь должна осуществляться с помощью определенных в законе терминов. В действующем законодательстве Азербайджанской Республики, направленном на обеспечение права человека на защиту в процессе правосудия, унифицированный термин пока не сформулирован.

Конституция Азербайджанской Республики гарантирует право каждого человека на получение квалифицированной «юридической помощи». В то же время, когда речь идет об уголовном производстве, используется термин «помощь защитника» (ст. 61). Уголовный процессуальный кодекс АР устанавливает порядок реализации права человека «на получение юридической помощи и на защиту» (ст. 19) [12].

Закон АР «О полиции» использует термин «помощь защитника». Статья 1 Закона Азербайджанской Республики «Об адвокатах и адвокатской деятельности» уста-

навливает, что адвокатура является независимым юридическим институтом, который профессионально осуществляет деятельность по «юридической защите» [3].

Согласно ст.10 Закона АР «О судах и судьях», на любой стадии судопроизводства каждому лицу обеспечивается право «судебной защиты». В то же время, гарантируется «право на защиту» предусмотренными законодательством средствами, и предусматриваются случаи предоставления бесплатной «юридической помощи» за счет государства, в соответствии с нормами Конституции [4].

В соответствии со ст.14.4. ГПК, лица, участвующие в деле, могут свободно выбирать себе адвокатов с целью получения «профессиональной юридической помощи», представления их интересов или осуществления их процессуальных прав. Исходя из анализа действующего законодательства, и принимая во внимание принцип высшей юридической силы норм Конституции Азербайджанской Республики, мы считаем наиболее целесообразным сформулировать предлагаемое нами преступное посягательство следующим образом: «нарушение права на юридическую помощь и защиту».

Таким образом, в системе конституционных гарантий прав и законных интересов лица, участвующего в судопроизводстве, значительное место занимает конституционное право каждого человека на юридическую помощь. Данное право является общеотраслевым и реализуется через нормы многих законодательных актов Азербайджанской Республики.

Учитывая доказанность наличия оснований криминализации деяния, соответствие научно обоснованным принципам криминализации противоправных деяний, предлагаем Главу 32 Особенной части УК Азербайджанской Республики дополнить ст.290-1 следующего содержания:

«Статья 290-1. Нарушение права на юридическую помощь и защиту.

Недопущение или не предоставление своевременно защитника, а также другое грубое нарушение права потерпевшего, подозреваемого или обвиняемого на квалифицированную юридическую помощь и защиту, совершенное дознавателем, следователем, прокурором или судьей, – наказывается лишением свободы на срок до двух лет с лишением права занимать определенные должности или заниматься определенной деятельностью на срок до трех лет.

2. Те же действия, которые привели к осуждению невиновного в совершении преступления лица, или повлекшие иные тяжкие последствия, – наказываются лишением свободы на срок от трех до семи лет с лишением права занимать определенные должности или заниматься определенной деятельностью на срок до трех лет».

ЛИТЕРАТУРА:

1. Закон Азербайджанской Республики «Об адвокатах и адвокатской деятельности» от 28 декабря 1999 года. Опубликован в «Сборнике законодательных актов Азербайджанской Республики», 2000 год, № 1, статья 19. URL: http://base.spinform.ru/show_doc.fwx?rgn=10556.
2. Закон Азербайджанской Республики «О государственной защите лиц, участвующих в уголовном процессе» от 11.12.1998 г. URL: http://base.spinform.ru/show_doc.fwx?rgn=2736.

3. Закон Азербайджанской Республики «О полиции» от 28 октября 1999 года № 727-IQ. Опубликован в «Сборнике законодательных актов Азербайджанской Республики», 1999 год, № 11, статья 611. С изменениями по состоянию на 29 апреля 2016 года. URL: http://mia.gov.az/index.php?/ru/content/29343/.
4. Закон Азербайджанской Республики «О судах и судьях» от 10 июня 1997 года № 310-IQ. Опубликован в «Собрании законодательства Азербайджанской Республики» (1997 год, № 5, статья 413). URL: http://base.spinform.ru/show_doc.fwx?rgn=2765.
5. Информация Правительства Азербайджанской Республики по Заключительным замечаниям Комитета по правам человека ООН, принятых по третьему периодическому докладу, предоставленному Азербайджанской Республикой в соответствие с Международным пактом по гражданским и политическим правам от 18 мая 2009 года. URL: http://hrlibrary.umn.edu/russian/hrcommittee/Razerbaijan_2009.html
6. Конституция Азербайджанской Республики. URL: http://ru.president.az/azerbaijan/constitution.
7. Кривоченко Л. Н. Классификация преступлений / Л. Н. Кривоченко. – Харьков: Высшая школа, 1983. – 129 с.; с. 32.
8. Основные положения о роли адвокатов (приняты VIII Конгрессом ООН по предупреждению преступлений в августе 1990 года) // Бюллетень законодательства и юридической практики Украины. – Киев: «Издательская», № 1. – 2000 г.
9. Распоряжение Президента Азербайджанской Республики «Об утверждении Национального плана деятельности по защите прав человека в Азербайджанской Республике» от 28 декабря 2006 года № 1880 // Газета «Азербайджан». - 29 декабря 2006 года. - № 293.
10. Смех В.В. Уголовная ответственность за нарушение права человека на правовую помощь. Дис. Канд.юрид.наук. Львов - 2011. - 224 с .
11. УК Азербайджанской Республики. URL: https://online.zakon.kz/Document/?doc_id=30420353.
12. УПК Азербайджанской республики. URL: http://base.spinform.ru/show_doc.fwx?rgn=11597.

CRIMINALIZING THE VIOLATION OF THE RIGHT TO LEGAL AID IN THE AZERBAIJAN REPUBLIC

Vusal Ahmedov
Doctor of Laws, Associate Professor
Academy of Ministry of Justice Azerbaijan

ABSTRACT

The article analyzes the means of criminal legal protection of a person's constitutional right to protection and legal assistance. It turns out that the activity of a defender of a person is an important part of justice in a modern democratic state. The author substantiates the need for independent criminalization of such an act as "violation of the right to legal assistance and protection" in the Azerbaijani Republic. The author proposes corresponding additions to the current Criminal Code of the Republic of Azerbaijan.

Keywords: *justice, defense lawyer, lawyer, right to legal aid, right to protection.*

ÖZGƏ ƏMLAKINI TALAMAYA GÖRƏ CİNAYƏT MƏSULİYYƏTİNİN BƏZİ MƏSƏLƏLƏRİ

UOT (УДК) – 34.343.7

Məleykə Bayramova
hüquq üzrə fəlsəfə doktoru, dosent,
Cinayət hüququ və kriminologiya kafedrasının dosenti
Hüquq fakültəsi, Bakı Dövlət Universiteti, Azərbaycan
maleyka-bdu@mail.ru

Özgə əmlakını talama əməlinin ictimai təhlükəliliyi yalnız onun cəmiyyətə və ayrı-ayrı şəxslərə vurduğu çoxmilyonlu maddi zərərlə deyil, həmçinin də onun mövcud iqtisadi münasibətlərin stabilləşməsinə mane olması ilə ölçülməlidir. İqtisadi münasibətlərə ciddi zərər vuran bu qisim cinayətlərin üstəlik də təkrarən törədilməsi isə həm mülkiyyət münasibətlərinə vurduğu zərərə görə, həm də cinayətkarın şəxsiyyətinin təqsirlilik dərəcəsinə görə əməlin ictimai təhlükəlilik dərəcəsini artırmış olur. Bu zaman qeyd olunmalıdır ki, ümumi təkrarlıqdan fərqli olaraq, Cinayət Məcəlləsinin 16.2 və 177-ci maddəsinin qeydinə əsasən müxtəlif cinayətlərin törədilməsi ilə yaranan təkrarlıq anlayışının qanunda saxlanılması düzgün hesab edilə bilməz. Belə ki, belə hal təkrarlığın anlayışını süni olaraq genişləndirir, təkrar cinayətlərlə məcmu cinayətlər arasındakı fərqi aradan qaldırmış olur. Belə təkrarlığın məcəllədə saxlanılması məsələsi həm hüquq ədəbiyyatında, həm də məhkəmə təcrübəsində etirazla qarşılanır. Təqsirlilik dərəcəsini nəzərə alaraq əvvəlcə inzibati məsuliyyətə cəlb edilmiş şəxs tərəfindən yenidən xırda talama törədildiyi halda isə qanunverici əməli cinayət hesab edə bilər. Yəni CM-də inzibati preyudisiya əlamətini nəzərdə tutmaq məqsədəuyğundur. Digər bir məsələ. Cinayət Məcəlləsinə az miqdarda talama adı altında yeni normanın da daxil edilməsini və beş yüz manatdan yuxarı, lakin min manatdan artıq olmayan məbləğdə ziyan vurulan hallara görə məsuliyyətin differensiasiyası, belə əmələ görə isə müvafiq olaraq nisbətən yüngül cəza növləri və həddini nəzərdə tutan sanksiya müəyyən edilməlidir.

Açar sözlər: *xırda talama, inzibati preyudisiya, az miqdarda talama, təqsirlilik dərəcəsi, təkrar talama, oğurluq.*

Hər hansı bir talama əməlinin təhlükəliliyi yalnız onun cəmiyyətə və ayrı-ayrı şəxslərə vurduğu çoxmilyonlu maddi zərərlə deyil, həmçinin də onun mövcud iqtisadi münasibətlərin stabilləşməsinə mane olması ilə ölçülməlidir. Bu baxımdan, talama əmelləri ilə mübarizənin səmərəliliyi respublikada nəzərdə tutulan iqtisadi islahatların uğurla həyata keçirilməsinin əsas şərtidir. Bu nöqteyi-nəzərdən mülkiyyət münasibətlərinə qəsd edən hər bir cinayət əməlinin, o cümlədən talamanın müxtəlif formalarının elmi-nəzəri təhlilinə həsr edilmiş hər bir tədqiqat işinin mövzusu hazırki dövrdə xüsusi bir aktuallıq kəsb edir.

Mülkiyyət əleyhinə olan cinayətlər arasında ən geniş yayılmış və daha çox ictimai təhlükəli hesab edilən əmellər talamanın müxtəlif formalarıdır. Qeyd etməliyik ki, son illərin məhkəmə təcrübəsi göstərir ki, oğurluq, soyğunçuluq və quldurluq əmelləri də daha çox rast gəlinən cinayət əmellərindəndir. 2010-2021-ci illər ərzində talamanın yalnız oğurluq forması üzrə artım tendensiyasını əks etdirən statistika müvafiq olaraq aşağıdakı kimi olmuşdur: 2010-3 868, 2011-5 019, 2012-4 236, 2013-5 144, 2014-5 861, 2015-6 338, 2016-7 193, 2017-7 898, 2018-7 888, 2019 -7278, 2020 - 6420, 2021-6207

(4). 2020-21-ci illərdə rəqəmlər aşağı olmuşdur ki, bu da məlum pandemiya dövrünə təsadüf edir.

İqtisadi münasibətlərə ciddi zərər vuran bu qisim cinayətlərin təkrarən törədilməsi isə həm mülkiyyət münasibətlərinə vurduğu zərərə görə, həm də cinayətkarın şəxsiyyətinin təqsirlilik dərəcəsinə görə əməlin ictimai təhlükəlilik dərəcəsini artırmış olur.

Qüvvədə olan cinayət qanunvericiliyi cinayətlərin təkrar törədilməsinin iki növünü müəyyən edir: 1-ci təkrarlıq – eyni əməlin, yəni eyni bir maddə ilə nəzərdə tutulmuş cinayətin ən azı iki dəfə törədilməsi (16.1-ci mad.), 2-ci təkrarlıq – qanunun müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi (16.2-ci mad.), yalnız həmin Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda cinayətin təkrar törədilməsi hesab edilir. Təkrarlığın ikinci, yəni xüsusi təkrarlıq növünə dair Cinayət Məcəlləsinin (CM) 177-ci maddəsinin Qeydinin 3-cü bəndində göstəriş vardır. Belə ki, Məcəllənin 177-183-cü, habelə 213-3, 217, 227, 232 və 235-ci maddələri ilə nəzərdə tutulmuş cinayətlərdən hər hansı birini və ya bir neçəsini törətmiş şəxs tərəfindən bu Məcəllənin 177-183-cü mad-dələri ilə nəzərdə tutulmuş cinayətlərin hər hansı birinin yenidən törədilməsi (bu Məcəllənin 16.3-cü maddəsində göstərilən hallar istisna olunmaqla) onların təkrar törədilməsi hesab olunur. Beləliklə də, talamanın belə təkrarlığının əsasında 12 sayda maddələrdə nəzərdə tutulan əməllərin ən azi birinin törədilməsi tələb olunur: oğurluq (CM-177), dələduzluq (CM-178), mənimsəmə və ya israf etmə (CM-179), soyğunçuluq (CM-180), quldurluq (CM-181), hədə-qorxu ilə tələb etmə (CM-182), xüsusi dəyəri olan əşyaları talama (CM-183), dövlət əyar damğalarını saxtalaşdırma (CM-213-3), banditizm (CM-217), radioaktiv materialları talama və ya hədə-qorxu ilə tələb etmə (CM-227), odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə (CM-232), narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə (CM-235).

Qeyd etmək lazımdır ki, bəhs edilən məsələ barədə hüquq ədəbiyyatında yekdil bir fikir olmamışdır. Başqa sözlə, hüquq ədəbiyyatında göstərilən siyahıda olduğu kimi təkrarlığın anlayışına müxtəlif cinayətlərin daxil edilməsi məqsədəuyğun hesab edilməmişdir (8,116). Digər müəlliflər Lopaşenko N.A., Voljenkin B.V. tərəfindən Cinayət Məcəlləsindən talama cinayətlərinin ümumiyyətlə təkrar törədilməsi kimi məsuliyyəti ağırlaşdıran halın çıxarılması təklif olunmuşdur (9, 6; 17, 158).

Bununla əlaqədar Brajnik F.S. qeyd edir ki, təkrar (dəfələrlə) törətmə zamanı iki oğurluq hadisəsi də ola bilər, 64 talama epizodu da ola bilər. Hər iki hal təkrar törədilmə kimi qiymətləndirilir ki, bu da hər iki hal üçün ictimai təhlükəlilik dərəcəsinin eyniləşdirilməsi demək olur (7, 8).

Fikrimizcə, ümumi təkrarlıqdan fərqli olaraq, CM-in 16.2 və 177-ci maddəsinin qeydinə əsasən müxtəlif cinayətlərin törədilməsi ilə yaranan təkrarlıq anlayışının qanunda saxlanılması düzgün hesab edilə bilməz. Belə ki, belə hal təkrarlığın anlayışını süni olaraq genişləndirir, təkrar cinayətlərlə məcmu cinayətlər arasındakı fərqi aradan qaldırmış olur. Belə təkrarlığın məcəllədə saxlanılması məsələsi həm hüquq ədəbiyyatında, həm də məhkəmə təcrübəsində etirazla qarşılanır (F.Y.Səməndərov). Cinayət Məcəlləsinin 177-ci maddəsinin Qeydi törədilən talama cinayətlərinin tövsifinin qaydasını da müəyyən et-

miş olur. Başqa sözlə, müxtəlif maddələrdə nəzərdə tutulan iki və ya daha artıq cinayətin törədilməsi, həm təkrar cinayət törətməyə görə, həm də cinayətlərin məcmusu üzrə məsuliyyət müəyyən edir. Fikir aydınlığı yaratmaq üçün aşağıdakı misala müraciət edək. Hesab edək ki, soyğunçuluq cinayəti törədən şəxs daha sonra yenidən oğurluq əməlini törədir. CM-in 177-ci maddəsinin qeydinin 3-cü bəndinin göstərişinə görə şəxsin əməli soyğunçuluq (mad.180.1) və təkrar oğurluğa görə (mad.177.2.2.) – yəni həm cinayətlərin məcmuyu ilə, həm də təkrar cinayət törətməyə görə yaranır. Burada şəxs faktiki iki cinayət törətdiyi halda, o, üç dəfə cinayət törətmək üstündə məsuliyyətə cəlb edilir. Təbii ki, belə tövsif qanun qarşısında bərabərlik prinsiplərinin tələblərini pozur. Prof. F.Y.Səmənd-ərov haqlı olaraq qeyd edir ki, biz müxtəlif cinayətlərin törədilməsindən yaranan təkrarlıq anlayışının qanunda saxlanmasını məqbul saymırıq. Əvvəla, belə hal təkrarlığın anlayışını süni surətdə genişləndirir, təkrar cinayətlərlə məcmu cinayətlər arasında fərqi aradan qaldırır. İkinci, Məcəllənin Xüsusi hissəsi 177-ci maddənin Qeydinin 3-cü bəndinin göstərişi köhnə Məcəllənin – sovet dönəmində qüvvədə olan Cinayət Məcəlləsinin dövrün tələblərinə uyğun olan müddəalarıdır (5, s.400). Belə ki, Respublikanın 1960-cı il Cinayət Məcəlləsi sosializm cəmiyyətinin iqtisadi əsaslarını, sosialist mülkiyyətini xüsusi, daha ciddi bir mühafizə altına almışdır. Məhz keçmiş Məcəllənin 83-cü maddəsinin qeydinin göstərişinə uyğun olaraq müxtəlif maddələrdə nəzərdə tutulan iki və ya daha artıq cinayətin törədilməsi, həm təkrar cinayət törətməyə görə, həm də cinayətlərin məcmuyu üzrə məsuliyyət yaradırdı. Hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 177-ci maddəsinin Qeydi də, edilən talama cinayətlərinin tövsifinin eyni qaydasını müəyyən edir.

Fikrimizcə, talamanın qeyd olunan təkrarlıq anlayışı məsuliyyəti ağırlaşdıran hallar sırasından çıxarılmalı, törədilmiş cinayət əməlləri cinayətlərin məcmusu kimi qiymətləndirilməlidir. A.A.Davidov, V.P.Malkov, Y.V.Prıqunova və bir çox müəlliflər tərəfindən isə təkrar talamanın hər iki növünün (həm ümumi, həm xüsusi) məsuliyyəti ağırlaşdıran hallar sırasından çıxarılması məqsədəuyğun hesab edilmişdir (10, 48; 19, 85-88).

Deyilənləri nəzərə alaraq, Rusiya Federasiyası 8 dekabr 2003-cü il tarixli Qa-nunla təkrarlıq və residiv əlamətlərini talama cinayətlərinin məsuliyyəti ağırlaşdıran tərkib əlaməti kimi Cinayət Məcəlləsinin müvafiq maddələrindən çıxarmışdır.

Onu da qeyd etmək lazımdır ki, digər xarici dövlətlərin cinayət qanunvericiliklərində də talama cinayətlərinin təkrar törədilməsinin məsuliyyəti ağırlaşdıran tərkib əlaməti kimi nəzərdə tutulmamışdır. Yalnız keçmiş sovet respublikalarından Belarus, Qazaxıstan, Qırğızıstan, Latviya, Moldova, Türkmənistan respublikalarının cinayət qanunvericiliklərində belə bir tərkib əlaməti mövcuddur (12, 205).

Bu zaman cəza təyini məsələsi. Məlumdur ki, Azərbaycan Respublikası CM 17.3 və 66.1 maddələrinə əsasən cinayətlərin məcmusunu yaradan hər bir cinayətə görə şəxs cinayət məsuliyyətinə cəlb edilir və hər bir cinayətə görə cəza ayrılıqda təyin edilir. Əgər şəxs tərəfindən törədilmiş yeni cinayət CM-in 16.2-ci maddəsinin tələblərinə uyğun olaraq "təkrarlıq" əlamətinə görə tövsif edilmişdirsə və eyni zamanda cinayətlərin məcmusu yaranmışsa, belə olan halda birinci cinayətə görə şəxs faktiki olaraq iki dəfə cinayət məsuliyyətinə cəlb edilmiş olur. Belə qaydanın tətbiq edilməsi CM-in 8-ci maddəsində təsbit edilmiş ədalət prin-sipinə ziddir. Məsələn, təqsirkar iki soyğunçuluq cinayəti törətdi-

yinə görə CM 180.2.2-ci maddəsi ilə məsuliyyətə cəlb edilir və bu halda ona ən çoxu 7 ilədək azadlıqdan məhrum etmə cəzası təyin edilə bilər. Əgər həmin şəxs əvvəlcə soyğunçuluq cinayəti törətdikdən sonra oğurluq cinayəti törədirsə, onun əməlləri CM 180.1-ci və təkrarlıq əlamətinə görə (CM-nin 177-ci maddəsinin Qeydinin 3-cü bəndinə əsasən) 177.2.2-ci maddələri ilə məcmu qaydada tövsif edildiyi üçün ona təyin oluna biləcək cəzanın yuxarı həddi CM-in 66-cı maddəsinə əsasən ən çoxu 8 ilədək müddətə azadlıqdan məhrum etmə, əvvəlcə soyğunçuluq 180.1, sonra oğurluq əməli 177.1-ci kimi tövsif edilərsə, onda ən çoxu 5 ilədək müddətə azadlıqdan məhrum etmə təşkil edə bilər. Digər misal. Şəxs banditizm cinayətin-də iştirak etmiş (CM 217.2), sonradan oğurluq (CM 177.1) cinayəti törətmişdirsə, 177-ci maddənin Qeydinə əsasən ikinci hal təkrar hesab edilərək 177.2.2-ci mad-də ilə tövsif edilməlidir. Belə olan halda CM-nin 58 və 66-cı maddəsinə əsasən azadlıqdan məhrum etmə cəzasının həddi 17 ilədək, lakin 217.1 və 177.1-ci maddələri ilə məcmuya görə tövsif edilərsə 14 ilədək həddində təyin edilə bilər. Əsassız yerə məsuliyyətin və cəzanın sərtləşdirilməsi də, gördüyünüz kimi, göz qabağındadır.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, belə olan halda cinayətlərin təkrarlığı və cinayətlərin məcmusu əlamətləri arasında kolliziya baş verir və bunu nəzərə alaraq yaranmış ədalətsizliyin aradan qaldırılması üçün cinayət qanunvericiliyində müvafiq dəyişikliklər aparılmalıdır.

Digər bir məsələ. Cinayət Məcəlləsinin 177-ci maddəsinin Qeyd hissəsinin 3-cü bəndində nəzərdə tutulmuş cinayətlərə görə məhkum olunmuş şəxs tərəfindən hökm çıxarılmazdan əvvəl həmin Məcəllənin 177-185-ci maddələrində göstərilən cinayətlərdən birinin törədilməsi zamanı təkrarlıq yaranır, yaxud yaranmır məsələsi müzakirə predmeti olmuşdur. Qeyd olunduğu kimi, CMinin Xüsusi hissəsinin müvafiq maddəsində cinayət tərkibinin əlaməti kimi müəyyən olunmuş təkrarlıq əlaməti ilə barəsində hökm çıxarılmış şəxsin hökm çıxarılmazdan əvvəl eyni maddə ilə nəzərdə tutulmuş cinayəti törətməsi aşkar olunduqda, onun bu əməlinin yenidən təkrarlıq əlaməti ilə tövsif olunması bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsi konstitusiya prinsipi və Cinayət Məcəlləsində əks edilmiş ədalət prinsipi ilə uzlaşmırdı. Eyni zamanda nəzərə alınmalıdır ki, Cinayət Məcəlləsinin 177-ci maddəsinin Qeyd hissəsinin 3-cü bəndinin müəyyən olunmuş konstitusiya-hüquqi mənasına uyğun tətbiq edilməməsi şəxsə təyin edilən cəzanın da həddən artıq sərt olması ilə nəticələnə bilər. Belə ki, şəxs Cinayət Məcəlləsinin 177-185-ci, habelə 213-3, 217, 227, 232 və 235-ci maddələri ilə nəzərdə tutulmuş cinayətlərdən hər hansı birini və ya bir neçəsini törətmiş və həmin Məcəllənin 177-185-ci maddələrində göstərilən cinayətlərin təkrar törədilməsinə görə barəsində hökm çıxarılmışdır. Sonradan şəxsin hökm çıxarılmazdan əvvəl həmin maddələrlə (177-185) nəzərdə tutulmuş daha bir cinayəti törətməsi müəyyən olunmuşdur. Onun bu əməli hökm çıxarılmazdan əvvəl məlum olsaydı, ona təyin edilən cəzanın həddi hökm çıxarıldıqdan sonra ona yenidən təkrarlıq əlaməti ilə təyin ediləcək cəzanın həddindən daha az olardı. Məhz məhkəmə təcrübəsindəki çətinlikləri nəzərə alaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu bu məsələni ətraflı şərh etməli olmuş, bu maddənin şərh edilməsi haqqında 4 mart 2013-cü il tarixli müvafiq qərar qəbul etmişdir. Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Cinayət Məcəlləsinin 177-ci maddəsinin Qeyd hissəsinin 3-cü bən-

dində nəzərdə tutulmuş cinayətlərə görə məhkum olunmuş şəxs tərəfindən hökm çıxarılmazdan əvvəl (M.B.) həmin Məcəllənin 177-185-ci maddələrində göstərilən cinayətlərin hər hansı birinin törədilməsi bu cinayətlərin təkrar törədilməsini yaratmır.

Təbii ki, şəxsin əməli bir dəfə deyil, iki və daha artıq törətməsi ictimai təhlükəlilik dərəcəsini artırmış olur. Lakin belə hal əməlin deyil, bilavasitə cinayət törətmiş şəxsin şəxsiyyətinin ictimai təhlükəlilik dərəcəsini artırmış olur ki, bu da hesab edirik ki, məsuliyyətin həllində deyil, cəza təyinində nəzərə alınmalıdır. Beləliklə, dəfələrlə törədilmə əməlin deyil, cinayətkarın şəxsiyyətinin ictimai təhlükəliliyinin göstəricisi olur. Bu barədə müəlliflərdən Kelina haqlı olaraq qeyd edir ki, törədilmiş cinayətin ağırlığı və təqsirkarın ictimai təhlükəlilik dərəcəsi arasında asılılığa mexaniki baxmaq olmaz. Birinci dəfə ağır olmayan cinayət törətmiş şəxs belə cinayəti ikinci dəfə törədərsə, həmin şəxsin ictimai təhlükəlilik dərəcəsi kəskin şəkildə yüksələr. (15, 72).

Həmçinin nəzərə almaq lazımdır ki, əməlin təkrar törədilməsi, başqa sözlə onun təkrarlanması müxtəlif variantlarda əməllərin deyil, məhz eyni bir əməlin yenidən törədilməsini ehtiva etməlidir.

Qeyd olunan məsələləri yekunlaşdıraraq hesab edirik ki, belə qaydanı ədalətsiz olduğundan aradan qaldırmaq üçün gələcəkdə Cinayət Məcəlləsinin təkmilləşdirilməsi, konkret olaraq, Cinayət Məcəlləsindən 16.2-ci maddənin və 177-ci maddənin Qeydinin 3-cü bəndinin çıxarılması zəruridir. Hesab edirik ki, təklif edilən dəyişiklik "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamının tələblərinə də uyğun olar.

Təkrarlıq əlaməti üzrə oğurlanan əmlakın miqdarının əməlin tövsifinə təsiri. Qeyd etmək lazımdır ki, cinayətkarlıqla mübarizənin səmərəliliyinin yüksəldilməsinin ən mühüm istiqamətlərindən biri qüvvədə olan cinayət qanunvericiliyinin təkmilləşdirilməsidir. Bu məqsədlə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamına müvafiq olaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında 20 oktyabr 2017-ci il tarixdə qəbul edilmiş Qanunu ilə həmin qeydin 1-ci hissəsində edilmiş dəyişikliyə əsasən Məcəllənin 177.1, 178.1 və 179.1-ci maddələrində nəzərdə tutulmuş məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə beş yüz manatdan yuxarı (M.B.), lakin beş min manatdan artıq olmayan məbləğdə ziyan vurulduğu hallarda yaranır. Göründüyü kimi, kəmiyyət baxımından talamanın məbləğinin müəyyən edilməsi meyarı çox dinamikdir. Bu konkret tarixi şəraitlərdən asılı olaraq vurulan maddi ziyanın ictimai təhlükəlilik dərəcəsinin dəyişilməsi ilə izah olunur. Ölkə iqtisadiyyatının artımı, inkişafı ona gətirib çıxarmışdır ki, maddi ziyanın indiyədək mövcud olan müəyyən edilməsi əsasları artıq köhnəlmişdir. Ona görə də talamanın xırda məbləği artıq elə yüksək dərəcədə sosial əhəmiyyət kəsb etmir ki, onu cinayət hesab etməyə əsas versin.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun AR Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 1 və 3-cü bəndlərinin şərh edilməsinə dair 23 aprel 2018-ci il tarxli qərarında qeyd olunur ki, oğurluğun təkrar, yəni iki dəfə və ya iki dəfədən çox törədilməsi zamanı əmlakın mülkiyyətçisinə və ya digər sahibinə hər bir əməl üzrə yüz manatdan yuxarı məbləğdə ziyan vurulduğu hallarda AR Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsi ilə cinayət məsuliyyəti yaranır. Belə aydın olur ki, əqər şəxs iki dəfə müxtəlif vaxtlarda olmaqla hər biri 105 manat məbləğində (cəmi 210 manat) törəməkdə təqsirli bilinib CM-nin 177.2.2.-ci maddəsinə əsasən məsuliyyətə alınacaqdır. Lakin əğər şəxs bir dəfə 500 manatdan yuxarı, lakin 5000 manatdan artıq olmayan məbləğdə talama cinayəti törədərsə, məsuliyyət CM-nin 177.1-ci maddəsi ilə yaranacaqdır.

Bu zaman qanunverici bir dəfə törədilmiş sadə oğurluqdan fərqli olaraq təkrar oğurluğa görə daha ciddi cəza müəyyən edərkən CM-nin 177.2.2-ci maddəsində göstərilən cinayətin xarakterini və sadə oğurluğa nisbətən daha artıq ictimai təhlükəli olmasını nəzərə almışdır.

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanununun tətbiqi ilə əlaqədar vahid istintaq-məhkəmə təcrübəsinin formalaşması məqsədi ilə hüquqi məsələlərə dair sualların Azərbaycan Respublikasının Ali Məhkəməsi və Baş Prokurorluğun əməkdaşlarından ibarət işçi qrupu tərəfindən cavablandırılması zamanı qeyd olunmuşdur ki, şəxs 500 manatdan az, lakin 100 manatdan artıq miqdarda ziyan vurmaqla törətdiyi sadə oğurluğa görə inzibati məsuliyyətə cəlb edildikdə və bu haqda qərar ləğv edilmədikdə, həmin əməl CM-nin 177.2.2-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb ola bilməz. Şəxs 500 manatdan az, lakin 100 manatdan artıq miqdarda ziyan vurmaqla sadə oğurluq törətdikdən iki il keçməmiş müddətdə yenidən oğurluq törətdikdə onun əməli CM-nin 177.2.2-ci maddəsi ilə tövsif edilməlidir. Digər bir halda, əğər şəxs 600 manat ziyan vurmaqla dələduzluq (CM-nin 178.1-ci maddəsi) törətdikdən sonra yenidən 130 manat ziyan vurmaqla oğurluq törədərsə, onun əməlində təkrarlıq əlamətinə görə CM-nin 177.2.2-ci maddəsinin tərkibi yaranır. (1)

Məsələ ilə əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 1 və 3-cü bəndlərinin şərh edilməsinə dair 23 aprel 2018-ci il tarixli qərarı ilə aşagıdakı nəticələrə gəlmişdir:

- Cinayət Məcəlləsinin 177.2-ci maddəsində "eyni əməllər" ifadəsi həmin Məcəllənin 177.1-ci maddəsində göstərilən oğurluğun yalnız zəruri əlamətini, yəni özgənin əmlakını gizli olaraq talamanı nəzərdə tutur;
- Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində göstərilən beş yüz manatdan yuxarı məbləğ həmin Məcəllənin 177.1-ci maddəsinə, yüz manatdan yuxarı məbləğ isə 177.2-ci maddəsinə aid olmaqla cinayət tərkibinin konkretləşdirici əlaməti kimi çıxış edir;
- oğurluğun təkrar, yəni iki dəfə və ya iki dəfədən çox törədilməsi zamanı əmlakın mülkiyyətçisinə və ya digər sahibinə hər bir əməl üzrə yüz manatdan yuxarı məbləğdə ziyan vurulduğu hallarda Cinayət Məcəlləsinin 177.2.2-ci maddəsi ilə cinayət məsuliyyəti yaranır.

Fikrimizcə, Cinayət Məcəlləsinin 16-cı maddəsinə əsasən cinayətin təkrar hesab edilməsi üçün törədilmiş hər iki əməl cinayət olmalıdır. Belə ki, 16.1-ci maddədə qeyd olunur ki, bu Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş *cinayətin iki dəfə və ya iki dəfədən çox törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilir*. Başqa sözlə, hər iki əməl ictimai təhlükəli olmalıdır ki, məsuliyyəti ağırlaşdıran tərkib əlaməti kimi nəzərə alınsın (3,s.218).

Bir daha vurğulayaq: qüvvədə olan qanunvericiliyə uyğun olaraq sadə oğurluğa görə cinayət məsuliyyətinin yaranması üçün talanmış əmlakın dəyəri 500 manatdan yuxarı – 5000 manatdan artıq olmayan olmalıdır. Müvafiq olaraq aydın olur ki, 500 manat və ondan aşağı məbləğdə törədilmiş talama əməli isə inzibati xəta hesab edilərək inzibati məsuliyyətə səbəb olmalıdır. Daha sonra qeyd olunmuşdur ki, əməlin təkrar, yəni iki dəfə və ya iki dəfədən çox törədilməsi zamanı əmlakın mülkiyyətçisinə və ya digər sahibinə hər bir əməl üzrə yüz manatdan yuxarı məbləğdə ziyan vurulduğu hallarda CM-nin 177.2.2-ci maddəsi ilə, yəni təkrar talamaya görə məsuliyyətə səbəb olmalıdır. Bu zaman 177.1-ci maddə ilə nəzərdə tutulmuş oğurluq əməli böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasına aid olduğu üçün iki il müddətin keçməməsi də tələb olunur.

Deməli, iki il ərzində iki dəfə və ya daha çox inzibati məsuliyyətə səbəb ola biləcək oğurluğun törədilməsi sonuncu əməli məsuliyyəti ağırlaşdıran tərkib əlaməti kimi (CM-nin 177.2.2 -ci maddəsilə) qiymətləndirərək ictimai təhlükəliyi çox ciddi şəkildə artırmış olur.

Hesab edirik ki, belə halları inzibati preyudisiya əlamətini də daxil etməklə CM-nin 177.2.2-ci maddəsilə deyil, sadə oğurluq kimi 177.1-ci maddəsilə tövsif etmək cəza siyasətinin humanistləşdirilməsi istiqaməti ilə uyğun olardı. Başqa sözlə, il ərzində inzibati tədbirin görülməsindən sonra yenidən eyni əməlin törədilməsi cinayət məsuliyyətinə alınarsa, aşağıda qeyd edilən hallarla əsaslı və məqsədəuyğun hesab edilə bilər:

Nəzərə almaq lazımdır ki, qeyd edilən hallarda ictimai təhlükəlilik əmələ deyil, təqsirləndirilən şəxsin şəxsiyyətinə aid olmuş olur. Belə halda, şəxsin təqsirlilik dərəcəsi artmış olur ki, bu da şəxsiyyətə aid olan bir keyfiyyətdir. Beləliklə, dəfələrlə törədilmə əməlin deyil, cinayətkarın şəxsiyyətinin ictimai təhlükəliliyinə dəlalət etmiş olur.

Onu da qeyd etmək lazımdır ki, əməlin ictimai təhlükəliliyinin artmasına şəxsiyyətin xüsusiyyətləri birbaşa təsir etmir. Müasir cinayət hüququ cinayət məsuliyyətinin əsaslarını yalnız obyektiv-subyektiv baxımdan şərh edir. Belə olan halda subyektiv əsaslara təkcə cinayətin təqsir, motiv və məqsədi əhatə edən subyektiv cəhəti deyil, həmçinin qanunla müəyyən edilmiş həddə cinayətin subyektinin müəyyən şəxsi əlamətləri də daxildir. İnzibati məsuliyyətə səbəb olan əməl və bundan sonra yenidən törədilərək cinayət məsuliyyətinə səbəb olan əməl – hər ikisi mahiyyət etibarı ilə obyektiv əlamətinə görə eynidir. Subyektiv cəhətinə gəldikdə isə, onlar məzmununa görə fərqlənirlər. Beləliklə də, son nəticədə bir tərəfdən inzibati hüquqpozma, digər tərəfdən cinayət hesab edilən əməl də fərqli olurlar.

Belə bir nəticə həm də cinayət hüquq nəzəriyyəsində məlum olan belə anlayışdan meydana çıxır ki, cinayət əməli ictimai təhlükəli əməlin obyektiv və subyektiv xüsusiyyətlərinin dialektik vəhdətindən ibarətdir. Deməli, hər iki əməlin fərqi yalnız subyektləri

xarakterizə edən əlamətlərdə deyil, həm də əməlin məzmununda fərqlidirlər. Belə ki, xırda talama təkrarən törədilərkən təqsirin həcmi dəyişmiş olur, yəni cinayətin bütün obyektiv əlamətlərinə qarşı təqsirkarın psixi münasibətlərinin məcmusu dəyişmiş olur. Təqsirin həcmi isə törədilmiş əməlin hüquqi mahiyyətini xarakterizə edən faktiki halların dairəsini müəyyən edir. (21,22)

İlk dəfə hüquqi təsir tədbirinin görülməsinə etinasız yanaşaraq yenidən eyni əməli törətmə faktı xırda talamaya görə daha ciddi hüquqi təsir tədbirinin görülməsini əsaslandırır. Xırda talama təkrarən törədilərkən təqsirkar əvvəlki hadisədən fərqli olaraq, dərk edir ki, o, artıq ilk dəfə dövlət məcburiyyət tədbirinə cəlb edilmişdir. Lakin törətmiş olduğu əməlin ictimai təhlükəliliyini və qeyri hüquqiliyini bilərəkdən yenidən eyni əməli törədir. Müəlliflərdən Q.Zlobinin belə bir fikri yerinə düşərdi ki, öz hərəkət və ya hərəkətsizliyinin ictimai təhlükəliliyini dərk etmək ilk növbədə onun başqa şəxslər tərəfindən, cəmiyyət tərəfindən necə qiymətləndiriləcəyini dərk etmək deməkdir. (13, 151)

Beləliklə, xırda talamaya görə əvvəllər inzibati təsir tədbirinə məruz qalmış şəxsin təkrarən xırda talama törətməsi zamanı qəsdin həm əqli, həm də iradəvi momenti dəyişmiş olur. Bu zaman qəsdin göstərilən məzmunu əvvəlkindən şəxsin qanunla mühafizə olunan ictimai nemətlərə mənfi münasibətini daha artıq qabarıq nəzərə çatdırır ki, bu da subyektin təqsirinin dərəcəsini yüksəldir, eyni zamanda bütövlükdə əməlin ictimai təhlükəliliyinin artmasına təsir göstərir. Y.Demidov haqlı olaraq qeyd edir ki, təqsirkarın cəmiyyətdə mövcud olan nemətlərə mənfi münasibəti yüksək olduğundan törətdiyi əməlin ictimai təhlükəlilik dərəcəsi də yüksək olur. (11,70)

Deməli, təqsirlilik dərəcəsini nəzərə alaraq əvvəlcə inzibati məsuliyyətə cəlb edilmiş şəxs tərəfindən yenidən xırda talama törədildiyi halda qanunverici əməli cinayət hesab edə bilər. Məlumdur ki, qüvvədə olan cinayət qanunvericiliyində təqsirlilik dərəcəsi anlayışı yoxdur. Hesab edirik ki, bu cəhət qanunverici tərəfindən nəzərə alına bilən haldır. Belə ki, dərəcə həddi təqsirin vacib göstəricisidir. Aydındır ki, əgər təqsirin məzmunu əməlin ictimai təhlükəlilik dərəcəsini ifadə edirsə, (cinayət hüququnda bu ümumqəbul edilmiş anlayışdır) (23, 118-130) onda təqsirin məzmunu və həcminə daxil olan təqsirlilik dərəcəsi bəzi inzibati deliktlərin böyük ictimai təhlükə törətməyən cinayətlər qisminə daxil edilməsində böyük əhəmiyyət kəsb edə bilər. Bu cəhəti, hər şeydən əvvəl, inzibati hüquqpozmaların preyudisiya yolu ilə cinayətlər sırasına daxil edilməsi halına aid etmək olar.

Təqsirlilik dərəcəsi təqsirkarın şəxsiyyəti ilə əməli arasında təqsir kimi bir element vasitəsilə əlaqələndirici rolundadır. Qəsd, (xırda talamalar isə həmişə qəsdlə xarakterizə olunur) hər bir halda aşağıdakı üçlükdə izah olunmalıdır: şəxsiyyət, düşüncə, fəaliyyət. Qəsd şəxsiyyətlə cinayətkar fəaliyyəti əlaqələndirən düşüncə orqanı rolunu yerinə yetirir. (18,61)

Qeyd etdik ki, inzibati hüquq pozuntusu hesab edilən xırda talamanın cinayət hesab edilməsinin əsasını təqsirin dərəcəsinin artması şərtləndirir. Bu fikrin əleyhinə çıxış edən müəlliflərin "hamı qanun qarşısında bərabərdir" prinsipinə əsaslanmasını isə düzgün hesab etmirik. Belə ki, bu prinsipin özü düzgün şərh edilmir. Yəni hamının qanun qarşısında bərabərliyi kimi deyil, qanunun hamı üçün eyni olması kimi izah olunur ki, bu da bildiyimiz kimi, eyni anlayışlar deyildir. Qanun qarşısında bərabərlik o deməkdir ki, qanun-

da deyilənlər eyni qaydada – heç bir haldan, həmçinin də qanunda əksini tapmayan şəxsiyyətə dair xüsusiyyətlər nəzərə alınmadan hamıya aid edilir. Başqa sözlə, cinayət qanunun tələbləri milliyyətindən, irqindən asılı olmayaraq bütün vətəndaşlar üçün eynidir. Bu o deməkdir ki, dövlətin hər bir vətəndaşı cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq törətdiyi cinayətə görə dövlətin mövcud qanunvericiliyi ilə məsuliyyət daşıyır. Lakin qanun heç də hamıya münasibətdə eyni deyil. Əksinə, o məhz kimin cinayət törətməsinə fərdi yanaşır: əməlin ilk dəfə və ya təkrarən, dəfələrlə törədilməsinə, qəsdən və ya ehtiyatsızlıqla törədilməsinə və s.

İnzibati preyudisiya müəyyən edən cinayət hüquq normaları isə heç bir kəsə ictimai, əmlak və qulluq mövqeyindən, milli və ya irqi mənsubiyyətindən, dinindən asılı olaraq üstünlük və ya məhdudiyyət vermir. Bərabər hüquqda hər bir şəxsin əməlinə bu normanın tətbiqi aid edilir.

Digər bir məsələni də qeyd etmək istərdik ki, xırda miqdarda törədilmiş oğurluqlar geniş yayılmış olması baxımından bütövlükdə götürüldükdə mülkiyyət münasibətlərinə xeyli, bəzən də külli miqdarda ziyan yetirə bilirlər. Bu qisim əməllərə görə cinayət məsuliyyətinin nəzərdə tutulmamasını əhalinin ictimai şüuru mülkiyyətin mühafizəsinə tələbin zəifləməsi kimi qəbul edə bilər.

Məlumdur ki, xırda talama əməli Azərbaycan Respublikasının 27 yanvar 1993 tarixli Qanunu ilə dekriminallaşdırıldı. Həmin dövrdə 1960-cı il CM-nin xırda talama əməlini nəzərdə tutan 87-ci maddəsinin 90-cı illərdə təkmilləşdirilməsinə ehtiyac var idi. Belə ki, dispozisiyada qeyd olunan "işin halları" və "şəxsiyyət"ə istinad heç də inzibati hüquqpozma olan xırda talamanı eyni adlı cinayət əməlindən fərqləndirməyə dəqiq əsas vermirdi. (14,86) Nəzərə almaq lazımdır ki, əksər dövlətlərin qanunvericiliyi bu əməlin dekriminalizasiyasını deyil, tərkib əlamətlərinin təkmilləşdirilməsini qanunauyğun hesab etdi. Həmin dövrdə talamanın digər növlərində olduğu kimi, xırda talamaların da aşağı və yuxarı həddi artırıla bilərdi.

Hazırda Rusiya Federasiyasının CM-nin 158.1-ci maddəsində inzibati preyudisiya əlaməti üzrə özgə əmlakını xırda talamaya görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Ümumiyyətlə, inzibati preyudisiya institutuna son dövrlərdə Rusiya cinayət qanunvericiliyində xüsusi diqqət yetirilir. Müəlliflərdən A.Q.Bezverxov inzibati preyudisiyaya əhəmiyyət verərək qeyd edir ki, bu əlamət cinayət-hüquqi nəticələr doğuran hüquqi faktdır. (6, s.52)

Cinayətlərin qarşısının alınması nöqteyi-nəzərindən bu institutun tətbiqi fikrimizcə, əhəmiyyətlidir: nəinki inzibati xətaların, həm də cinayətlərin törədilməməsini şərtləndirmiş olar. A.P.Şerqin qeyd edir ki, ilk dəfə inzibati təsir tədbirlərinin görülməsi həm inzibati hüquqpozmalarla, həm də cinayət əməlləri ilə hüquqi mübarizə vasitəsidir (24, s.99).

Xarici ölkələrdən İspaniya, Belgiya, San-Marino, Yaponiya, İran, Argentina, Belorusiya, Estoniya, Kazaxıstan cinayət qanunvericiliyində inzibati preyudisiya institutu mövcuddur. Həmin ölkələrin müxtəlif hüquq sistemlərinə malik olması bu institutun tətbiqi dairəsinin geniş olmasını göstərir.(16, s.9)

Bir çox Avropa ölkələrində bu institun olmaması isə ona əsaslanır ki, həmin ölkələrin cinayət qanunvericiliyində cinayət xətaları anlayışı mövcuddur. Azərbaycan Respub-

likasının cinayət qanunvericiliyində isə eyni əməlin təkrar törədilməsi əməlin ictimai təhlükəliliyinə təsir edən hal kimi CM-nin 333-cü maddəsində məsuliyyətin differensiasiyasında nəzərə alınmışdır: hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə əməli altı ay ərzində təkrar törədilərsə, cinayət hesab edilir (1).

Beləliklə, dekriminalizasiya və inzibati preyudisiya məsələləri bir biri ilə əlaqəlidir və geniş tətbiq edilərsə, bütövlükdə hüquqpozmalarla mübarizə işinə xidmət etmiş olar. Müəlliflərdən A.M.Prosoçkin hətta təklif edir ki, inzibati preyudisiya anlayışını nəzərdə tutan maddə inzibati xətalar məcəlləsinə daxil edilməlidir. (20,67)

Fikrimizcə, qeyd olunanlar xırda talamaya görə inzibati preyudisiya məsələsini gündəmə gətirmiş olur. Başqa sözlə, bu əmələ görə inzibati preyudisiya əlamətinin cinayət qanunvericiliyində nəzərdə tutulması məqsədəmüvafiqdir. Belə ki, xırda talamaya görə inzibati məsuliyyətə cəlb edilmiş şəxsin il ərzində belə əməli yenidən törətməsini nəzərdə tutan normanın cinayət məcəlləsinə daxil edilməsini məqsədəuyğun hesab edirik. Bu zaman inzibati məsuliyyəti nəzərdə tutan (*İXM 227-ci maddə Xırda talama, yəni oğurlama, mənimsəmə, israfçılıq, qulluq mövqeyindən sui-istifadə və ya dələduzluq yolu ilə özgəsinin əmlakını talamağa görə – yüz altmış saatdan iki yüz qırx saatadək ictimai işlər və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə üç ayadək müddətə inzibati həbs tətbiq edilir. Qeyd: Bu Məcəllənin 227-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir*) normadakı təsir tədbirlərindən nisbətən ciddi, cinayət məsuliyyətini nəzərdə tutan 177.1-ci maddənin sanksiyasında mövcud olan cəza növü və həddindən isə nisbətən yüngül cəza növlərinin nəzərdə tutulması cəza siyasətində humanizm və ədalət prinsiplərinə uyğun olardı.

Beləliklə, CM-nin Mülkiyyət əleyhinə cinayətlər fəslinə aşağıdakı şəkildə yeni bir maddə əlavə etmək olar:

"Fiziki zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə əlaqədar olmayan üsulla törədilmiş xırda talama, ilk dəfə törədilməsinə görə inzibati məsuliyyətə cəlb edilmiş şəxs tərəfindən il ərzində təkrar törədildikdə – iki yüz qırx saatdan üç yüz altmış saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır".

Digər bir məsələni də diqqətə çatdırmaq istərdik: CM-nin 177.1-ci maddəsinin qeydinin 1-ci hissəsinə əsasən 177.1, 178.1 və 179.1-ci maddələrində nəzərdə tutulmuş məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə beş yüz manatdan yuxarı, lakin beş min manatdan artıq olmayan məbləğdə ziyan vurulduğu hallarda yaranır. Bu zaman **500-5000 rəqəmləri arasındakı fərq 1:10** nisbətindədir ki, bunu ədalətlilik baxımından düzgün hesab etmirik. Bu məqsədlə CM-ə **az miqdarda talama** adı altında yeni normanın da daxil edilməsini və beş yüz manatdan yuxarı, lakin min manatdan artıq olmayan məbləğdə ziyan vurulan hallara görə məsuliyyətin differensiasiyası, belə əmələ görə isə müvafiq olaraq nisbətən yüngül cəza növləri və həddini nəzərdə tutan sanksiya müəyyən edilməlidir.

Hesab edirik ki, təklif edilən dəyişikliklər "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndiril-

məsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamının tələblərinə də uyğun olar.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikası Prokurorluğunun işçi qrupunun materialları// www.genprosecutor.gov.az
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası, Bakı: Hüquq Yayın Evi, 2021. I hissə - 712 s.
3. Bayramova M.N. Özgə əmlakını talamanın xüsusi təkrarlıq növü barədə//"XXI əsrdə İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda eimi-nəzəri konfransın materialları, Bakı - 5 may 2020-ci il, s.216-220
4. Cinayətkarlığın statistik göstəriciləri// www.stat.gov.az
5. Səməndərov F.Y. Cinayət hüququ (ümumi hissə), Bakı: Hüquq Yayın Evi, 2018. - 724 s.
6. Безверхов А.Г. Возвращение административной преюдиции в уголовное законодательство России//Российская юстиция 2012. №1,с.48-53
7. Бражник Ф.С. Множественность преступлений – отражение их совокупной общественной опасности // Уголовное право. Москва: Интел-Синтез, 2000. № 3, с.6-10
8. Векленко В.В. Квалификация хищений. Омск: Изд-во Омской акад. МВД России, 2001. - 256 с.
9. Волженкин Б.В. Принцип справедливости и проблемы множественности преступлений по УК РФ // Законность. Москва, 1998. № 12, с.2-7;
10. Давыдов А., Малков В. Неоднократность преступлений и ее уголовно-правовое значение // Российская юстиция. 2000. № 1, с.47-49;
11. Демидов Ю.А. Социальная ценность и оценка в уголовном праве, Москва: Юридическая литература, 1975. -182 с.
12. Додонов В.Н., Капинус О.С., Щерба С.П. Сравнительное уголовное право, Особенная часть, Москва: Юрлитинформ, 2010. - 544 с.
13. Злобин Г.А. Рецензия на кн.Демидова Ю.А. Социальная ценность и оценка в уголовном праве// Сов. госуд. и право,1976, №9
14. Караев Т.Э., Джафарова М.Н. Уголовная ответственность за мелкое хищение государственного или общественного имущества//Уголовно-правовая борьба экономической системы СССР, Москва, 1987
15. Келина С.Г. Теоретические вопросы освобождения от уголовной ответственности. Москва: Наука, 1974. - 231 с.
16. Козлов А.В. О допустимости административно-правовой преюдиции в уголовном законодательстве России. URL:http://www. hse.ru, s.9
17. Лопашенко Н.А. Уголовная политика, Wolters Kluwer Russia, 2009.- 579 с.
18. Миньковский Г.М., Петелин Б.Я. О понятии вины и проблемах ее доказывания// Сов.госуд. и право, 1992, №5
19. Прыгунова Е.В. Проблемы квалификации неоднократных хищений в истории Российского уголовного права // Вестник Марийского Государственного Университета, 2016, т.2, №1 с.85-88.
20. Просочкин А.М. Административная преюдиция как новый этап борьбы с хищениями чужого имущества// Юристъ-Правоведъ, 2016, № 3 (76)
21. Рарог А.И. Теории вины в советском уголовном праве, автореферат докт.дисс. Москва, 1988. -27 с.
22. Самедова Ш.Т. Уголовное право Азербайджанской Республики. Особенная часть: в двух томах. Учебник. Баку: Адильоглы, 2020, том 1. - 824 с.
23. Тоболкин П.С. Социальная обусловленность уголовно-правовых норм, Свердловск: Сред.-Урал. кн. изд-во, 1983. -176 с
24. Шергин А. П. Административная юрисдикция: избранные труды юбиляра: монография. Москва, 2005. -143 с.

ON SOME ISSUES OF CRIMINAL RESPONSIBILITY FOR STEALING OTHER PEOPLE'S PROPERTY

Maleyka Bayramova
PhD, Associate Professor
Department of Criminal Law and Criminology
Law faculty, Baku State University, Azerbaijan

ABSTRACT

The public danger of looting someone else's property should be measured not only by the multi-million financial damage it causes to society and individuals, but also by the fact that it hinders the stabilization of existing economic relations. Moreover, repeated commission of this type of crime, which seriously harms economic relations, increases the level of social danger of the act both due to the damage it causes to property relations and the degree of guilt of the criminal's personality. At this time, it should be noted that, unlike general repetition, according to the note of Articles 16.2 and 177 of the Criminal Code, it cannot be considered correct to maintain the concept of repetition in the law, which is caused by the commission of various crimes. Thus, such a case artificially expands the concept of repetition and eliminates the difference between repeated crimes and cumulative crimes. The issue of maintaining such repetition in the code is met with objection both in legal literature and in judicial practice. Taking into account the degree of guilt, the legislator may consider the act a crime if the person who was initially brought to administrative responsibility commits petty robbery again. That is, it is reasonable to consider the sign of administrative prejudice in CM. Another issue. A new norm under the title of small amount of looting should be introduced into the Criminal Code and the differentiation of responsibility for cases of damage in the amount of more than five hundred manats, but not more than one thousand manats, as well as a sanction that provides for relatively light punishment types and limits for such acts, should be determined.

Keywords: *petty larceny, administrative prejudice, petty larceny, degree of culpability, repeated larceny, theft.*

К ВОПРОСУ О ПРАВОВОЙ ПРИРОДЕ СТАДИЙ СОВЕРШЕНИЯ ПРЕСТУПЛЕНИЯ ПРИМЕНИТЕЛЬНО К КОНСТРУКЦИЯМ РАЗЛИЧНЫХ СОСТАВОВ ПРЕСТУПЛЕНИЙ

UOT (УДК) – 34:343.231

Кямаля Назарова
д.ф.п.п., доцент кафедры уголовного права и криминологии Бакинского Государственного Университета, Азербайджан
kemale_nezerova@mail.ru

Статья посвящена исследованию вопроса о правовой природе стадий совершения преступления применительно к составам различных составов преступлений. Вопрос об определении правовой природы стадий совершения преступления, являясь ключевым и, соответственно, весьма значимым, несомненно, важен как теоретически, так и практически. В статье исследуется вопрос о возможности стадий совершения преступлений в конструкциях различных составов преступлений – материального, формального, усеченного, а также в составах умышленного убийства или умышленного причинения тяжкого или менее тяжкого вреда здоровью в состояние внезапного сильного эмоционального возбуждения (физиологического аффекта) и умышленное убийство либо умышленное причинение тяжкого вреда здоровью сверх пределов необходимой обороны, предусмотренных статьями 122, 129, 123.1 и 130.1 УК Азербайджанской Республики. Несомненно, деление составов на виды по всем трем признакам имеет большое практическое значение, суть которого заключается в том, что оно помогает следствию и суду точно установить признаки конкретного преступления и дать правильную квалификации в строгом соответствии с законодательством.

***Ключевые слова**: стадии совершения преступления, материальный состав, формальный состав, усечённый состав, дифференциация уголовной ответственности, квалификация преступлений, индивидуализация наказания*

Вопрос об определении правовой природы стадий совершения преступления и соответственно возможности стадий предварительной преступной деятельности – приготовления к преступлению и покушения на преступление применительно к конструкциям различных составов преступлений – материальный, формальный, усечённый, являясь ключевым и, несомненно, очень значимым имеет важное, как теоретическое, так и практическое значение. Именно от правильного определения данного вопроса будет зависеть, как правильная квалификация конкретного преступления, так и правильное назначение наказания, а тем более – справедливая индивидуализация наказания.

А потому каждая конкретная стадия совершения преступления требует более тщательного исследования с определением в конечном итоге конкретного момента совершения преступления – прерванности преступной деятельности (приготовления к преступлению и покушения на преступление) и окончания самого преступления в целом.

Реальную общественную опасность, являющуюся основным признаком преступления, представляет не только завершённое, оконченное преступление, но и

действия, предшествующие его окончанию. При этом, охраняемые уголовным законом права и законные интересы личности, общества и государства либо ставятся под угрозу их нарушения, причинения им вреда, либо такой вред частично причиняется фактически.

Şəxs öz əmənlin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai-təhlükəli nəticələrinin baş verəcəyinin mümkünlüyünü görmüş, lakin bunları arzu etməmiş, belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermiş və ya laqeyd qalmışdırsa, bu halda cinayət dolayı qəsdlə törədilmiş cinayət hesab olunur. Fikrimizcə, Rusiya Federasiyası Cinayət Məcəlləsinin 25-ci maddəsində bir-başa və dolayı qəsdə verilən anlayış daha düzgündür. Görkəmli alim, prof. F.Y.Səməndərov da RF CM-nin birbaşa və dolayı qəsdə verdiyi anlayışı daha düzgun hesab edir: birbaşa qəsddə şəxs öz hərəkətinin (hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu,onun ictimai təhlükəli nəticələr doğuracağının mümkünlüyünü və ya labüdlüyünü dərk edir. Dolayı qəsddə isə şəxs yol verdiyi hərəkətin (hərəkətsizliyin) təhlükəliliyini, baş verəcək ictimai təhlükəli nəticənin isə mümkünlüyünü dərk edir (3, 204). Yəni birbaşa qəsddə həm ehtimal olunan, həm də labüd baş verəcək ictimai təhlükəli nəticə dərk edildiyi halda, dolayı qəsddə yalnız yol verilən ictimai təhlükəli hərəkətin (hərəkətsizliyin) doğuracağı nəticənin ehtimali xarakteri dərk edilir.

Ukrayna CM-nin 23-cü maddəsində təqsirə anlayış verilmiş, 24-cü maddədə isə qəsdin iki növü – birbaşa və dolayı qəsd növləri təsbit edilmişdir (12). Onu da qeyd etməli-

yik ki, Ukrayna CM-də birbaşa qəsdə və dolayı qəsdə verilən anlayışlar bizim Cinayət Məcəlləmizdə verilən anlayışlarla tamamilə eyni məzmundadır. Qazaxıstan Respublikası CM-nin 19-cu maddəsinə əsasən cinayəti qəsdən və ehtiyatsızlıqdan törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb olunması nəzərdə tutulur. Onu da qeyd edək ki, bu maddədə nə qəsdin növləri, nə də ehtiyatsızlığın növləri ilə bağlı heç bir müddəa nəzərdə tutulmur (13).

Moldova CM-nin 17-ci maddəsinə əsasən, cinayət o halda qəsdən törədilmiş sayılır ki, şəxs öz hərəkət və hərəkətsizliyinin zərərli olduğunu dərk edir, zərərli nəticələrin baş verdiyini görür, bu nəticələri arzu edir və ya bu nəticələrin baş verməsinə şüurlu surətdə yol verir (11). Moldova CM-də də qəsdin növlərə ayrılması ilə bağlı konkret göstəriş yoxdur, lakin maddənin məzmununa əsasən qəsdən törədilən əməllərin iki formada – birbaşa və dolayı qəsdlə törədilməsi anlamına gəlmək olur. Moldova CM-nin 20-ci maddəsində təqsirsiz törədilən əməlin anlayışı da verilmişdir: əgər şəxs törətdiyi əməlin (hərəkət və ya hərəkətsizliyin) zərərli xarakterini dərk etməmiş və onun zərərli nəticələr verə biləcəyinin mümkünlüyünü də dərk etməmiş və işin hallarına görə bunu görmək imkanı olmamışdırsa, onda bu əmələ görə şəxs təqsirli sayılmır.

Estoniya CM-nin 16-cı paraqrafında isə qəsdin 3 növü təsbit edilmişdir: əvvəlcədən düşünülmüş qəsd, birbaşa qəsd və dolayı qəsd.

a) Əvvəlcədən düşünülmüş qəsddə şəxs öz məqsədini həyata keçirmək üşün şərait yaratmağa çalışır və cinayəti törətmək üçün zəruru saydığı hərəkətləri edir və bu şəraitin cinayətin baş verəcəyini şərtləndirdiyini görür.Hər bir halda şəxs cinayəti törətmək üçün yaratdığı şəraitin onu məqsədini reallaşdırmaq üçün zəruri şərt olduğunu dərk edir;

b) birbaşa qəsddə şəxs hüquq pozuntusunun həyata keçirilməsi üşün zəruri sayılan şərait yaradır və bu əməlin həyata kecməsini arzu edir və ya bu şəraitin yaradılmasına sakitcə razılığını bildirir; c) dolayı qəsddə isə şəxs baş verəcək hüquq pozuntusunun təhlükəli nəticələr doğuracağını görür və başa düşür (14).

Türk Cəza qanununun 21-ci maddəsində də qəsdin iki növü – birbaşa və dolayı qəsd növləri təsbit edilmişdir və maraqlı burasıdır ki, cinayət dolayı qəsdlə törədildiyi halda daha az cəzanın tətbiq olunması ilə bağlı bu maddədə birbaşa göstəriş vardır: "Şəxs cinayətin qanunda göstərilən əlamətlərinin baş verəcəyini qabaqcadan görməsinə baxmayaraq əməli törətmişsə, belə qəsd dolayı qəsddir. Bu halda ağır ömürlük həbc cəzası əvəzinə ömürlük həbs cəzası, ömürlük həbs cəzası əvəzinə isə iyirmi ildən iyirmi beş ilədək həbs cəzası müəyyən edilir" (4).

Türk cəza qanununa əsasən qəsd cinayətin qanunda göstərilən əlamətlərinin bilərəkdən və arzu edilərək həyata keçirilməsidir. Qəsdə verilən bu anlayış, həm də birbaşa qəsdi xarakterizə edir. Maddənin mətnindən belə görünür ki, Türk cəza qanunu dolayı qəsdi daha az təhlükəli hesab edir və cinayətin dolayı qəsdlə törədilməsi halında cəza təyinində bunun nəzərə alınmasını müəyyən edir. Türk doktrinasında birbaşa və dolayı (olayı və ehtimal edilən) qəsd növlərindən başqa, xüsusi qəsd və sonradan yaranan (əlavə edilən) qəsd növləri də fərqləndirilir:

Xüsusi qəsd (türk doktrinası üçün) – başqa adla məqsəd – qəsddən əvvəl gələn və qəsdi hazırlayan düşüncədir *(Artuk, 1996: 48)* və s. Lakin qeyd etmək lazımdır ki, türk hüququnda motiv anlayışı da xüsusi qəsd kimi istifadə olunur) *(Dönmezer və Erman),*

1999: 933). Hüquqi tərifdə bəzən cinayətin sadə forması, bəzən də səriştəli forması baxımından element kimi qəbul edilən məqsəd də "Türk hüquq ədəbiyyatında xüsusi qəsdə dəlalət edir". Məsələn, YTCK-nın 141-ci maddəsində nəzərdə tutulan oğurluq cinayətinin baş verməsi üçün bu əməlin "fayda təmin etmək məqsədi ilə" törədilməsi lazımdır. Bəzi cinayətlərdə xüsusi qəsd terminolji olaraq cinayətin forması ilə bağlı element kimi qəbul edilir (5, 933).

Sonradan yaranan (əlavə edilən) qəsd-Təqsirkar cinayət tərkibi olan əməli törədərkən bilməlidir ki, həmin cinayətin hüquqi tərifində nəzərdə tutulan elementlər baş vermişdir. Cinayətkar cinayət yoluna (iter criminis) daxil olduğu andan həmin cinayətin niyyəti ilə hərəkət etməlidir. Bəzi hallarda şəxs ilkin olaraq qanuna uyğun hərəkət edir. Lakin sonradan qeyri-qanuni və cinayət əməli ilə məşğul ola bilər. Məsələn, ev sahibinin razılığı ilə evə daxil olan şəxs, ev sahibi çıxmaq istədiyi halda evdən çıxmasa yaşayış yerinin toxunulmazlığını pozma cinayəti törədilir. *YTCK-nın 116/1. (Dönmezer və Ermandan götürülmüş nümunə, 1999: 937.) (5,933).*

Qəsd və onun formaları ilə bağlı apardığımız araşdırmalar və müxtəlif dövlətlərin cinayət qanunvericiliklərinin müqayisəli təhlili bizə bunu deməyə əsas verir ki, qəsd və onun növləri cüzi fərqlər olmaqla, demək olar ki, istinad etdiyimiz xarici dövlətlərin cinayət qanunlarında eyni məzmunda formulə olunmuşdür. Lakin fikrimizcə, Rusiya Federasiyası Cinayət Məcəlləsinin birbaşa və dolayı qəsdə verdiyi anlayış daha mükəmməldir və bu anlayış qəsdin növlərinin məzmununu daha düzgün müəyyən edir.

Bu baxımdan hesab edirik ki, Azərbaycan Respublikası CM-nin 25-ci maddəsinin daha aydın və daha əhatəli məzmunda formulə edilməsinə ehtiyac var. Fikrimizcə, AR CM-nin 25.2.və 25.3-cü maddəsində birbaşa və dolayı qəsdə verilən anlayışda qəsdin iradi momenti ilə bağlı dəqiqləşdirmə aparılmalı və maddənin məzmunu RF-nin CM-nin 25-ci maddəsinin məzmununa uyğun olaraq təsbit edilməlidir: 25.2."Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai-təhlükəli nəticələrinin də baş verəcəyinin labüdlüyünü və mümkünlüyünü görmüş və bunları arzu etmişdirsə, bu halda cinayət birbaşa qəsdlə törədilmiş cinayət hesab olunur".

25.3."Şəxs öz əmelnin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai-təhlükəli nəticələrinin baş verəcəyinin mümkünlüyünü görmüş, lakin bunları arzu etməmiş, belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermiş və ya laqeyd qalmışdırsa, bu halda cinayət dolayı qəsdlə törədilmiş cinayət hesab olunur.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, Hüquq Yayın Evi", 2022, 768 s.
2. Ağayev İ.B.Cinayət tərkibi.Dərs vəsaiti. Bakı,"Təhsil" nəşriyyatı, 2005, 496 s.
3. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Dərslik. "Hüqüq Yayın Evi" nəşriyyatı, Bakı, 2018, 724 s.
4. Türk Cəza Qanunu. https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.5237.pdf
5. Dönmezer Sülhi, Erman Sahir, Nazari ve Tatbiki Ceza Hukuku, İstanbul II Cilt.,11.Bas,,1999, s.933. https: //www.ticaret.edu. tr/uploads/yayin/dergi/s12/M00188.pdf
6. Дагель П.С., Котов Д.П. Субьективная сторона преступления и ее установление. Воронеж, 1974, 242 ст.
7. Рарог А. И. Вина в советском уголовном праве. Саратов, 1987.

8. Рарог А.И. Субьективная сторона преступления и квалификация преступлений. М.: Профобразование, 2001, 224 ст.
9. Таганцев Н.С. Русское уголовное право. Общая часть. Наука,1994. 380 ст.
10. Уголовный Кодекс Российской Федерации**.** URL: http://www.kremlin.ru/acts/bank/9555
11. Уголовный Кодекс Республики Молдова. URL: https://wipolex.wipo.int/es/text/427226
12. Уголовный Кодекс Республики Украины. URL: https://online.zakon.kz/Document/?doc_id=30418109&pos=8;-108#pos=8;-108
13. Уголовный Кодекс Республики Казахстан. URL: https://online.zakon.kz/document/?doc_id=https://online.zakon.kz/document/?doc_id= 31575252#sub_id=0
14. Уголовный Кодекс Эстонской Республики. URL: https://www.riigiteataja.ee/en/eli/522012015002/consolide
15. Утевский Б.С. Вина в советском уголовном праве.М.1950,131 ст.

INTENT AND ITS TYPES IN CRIMINAL LAW

Sakinakhanum Rzayeva
PhD, Associate Professor
Department of Criminal Law and Criminology
Faculty of Law, Baku State University, Azerbaijan

ABSTRACT

The article is dedicated to the form of intent, which is the main sign of the subjective aspect of the crime provided for in Article 25 of the Criminal Code of the Republic of Azerbaijan. In the article, research was conducted on the psychological and criminal-legal content of intent, the types of intent were analyzed referring to the different positions in the legal literature and the opinions of various legal scholars regarding intent and its forms. At the same time, the norms related to intent in the criminal legislation of a number of foreign countries were compared, and proposals were put forward to improve the text of Article 25 of the Criminal Code of the Republic of Azerbaijan.

Keywords: *guilt, intent, direct intent, indirect intent, crime, socially dangerous act, socially dangerous result.*

YOL HƏRƏKƏTİ VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN İSTİSMARI QAYDALARINI POZMA: CİNAYƏT-HÜQUQİ TƏHLİL

UOT (УДК) – 34:343.3/.7

Adil Kərimli
h.ü.f.d., Cinayət hüququ və kriminologiya kafedrasının baş müəllimi,
Hüquq fakültəsi, BDU, Azərbaycan
adil_kerimli@yahoo.com

Nəqliyyat cinayətləri ilə mübarizə problemləri hüquqşünasların həmişə diqqətini cəlb etmiş və etməkdədir. Dünyanın bir çox ölkələrində, o cümlədən, Azərbaycanda yol-nəqliyyat cinayətlərinin sayının artması, bu cinayətlərin ictimai təhlükəlilik dərəcəsinin yüksəlməsi, hüquqşünaslar tərəfindən problemə diqqətin daha da artırılmasını şərtləndirir. Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının cinayətkarcasına pozulması halları ilə cinayət-hüquqi mübarizə tədbirlərinin daima təkmilləşdirilməsi tələb olunur. Məhz buna görə də Azərbaycan Respublikasının 1999-cu il Cinayət Məcəlləsi qüvvəyə mindikdən sonra 29-cu Fəslə (Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər) xeyli dəyişiklik və əlavələr edilmişdir. Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozmaya görə cinayət məsuliyyəti CM-nin 263 və 263-1-ci maddələrində nəzərdə tutulmuşdur. Bu, Azərbaycanda geniş yayılmış cinayətlərdən biridir. Məqalədə bəzi xarici dövlətlərin cinayət qanunvericiliyinə istinadlar verilir.

Açar sözlər: *cinayət məsuliyyəti, cinayət, cəza, yol hərəkəti, nəqliyyat vasitələri, nəqliyyat cinayətləri, ehtiyatsızlıq.*

Azərbaycanda yol hərəkətinin təhlükəsizliyinin təminatı səviyyəsinin yüksəldilməsi sahəsində son illərdə bir sıra təşkilati-texniki xarakterli tədbirlərin işlənib hazırlanmasına və həyata keçirilməsinə baxmayaraq bu sahədə vəziyyət hələ də mürəkkəb olaraq qalmaqdadır. Bununla belə, hərəkətin təhlükəsizliyi qlobal problemdir. Yollarda baş verən yüksək təhlükəli avto qəzalar bir çox ölkələrdə milli bəla kimi qiymətləndirilir. Dünyada hər il təxminən 1,4 milyon nəfər yol nəqliyyat hadisələri nəticəsində həyatını itirir.

Təəssüf ki, Azərbaycan Respublikasında da yol-nəqliyyat hadisələrinin sayı və bu zaman vurulmuş maddi və mənəvi ziyan xeyli yüksəkdir. Bu sahədə vəziyyətin nə qədər mürəkkəb və təhlükəli olduğunu aşağıdakı statistik rəqəmlər də göstərir. Belə ki, 2000-ci ildən 2004-cü ilə qədər yol-nəqliyyat hadisələrinin sayında tədricən artım olduğu halda (məsələn, 5-10%), 2005-ci ildə yol-nəqliyyat hadisələrinin sayı 33% artıq artmışdır. Sonrakı illərdə, yəni 2006-cı ildən 2010-cu ilə qədər yol-nəqliyyat hadisələrinin sayı nisbətən azalmağa doğru gedirdi. Təəssüf ki, 2010-cu ildən başlayaraq statistik göstəricilər bu hadisələrin getdikcə artdığını göstərir. Belə ki, 2010-cu ildə 1575, 2011-ci ildə – 1936, 2012-ci ildə –1994, 2013-cü ildə – 2270, 2014-cü ildə – 2035, 2015-ci ildə – 1733, 2016-cı ildə – 1670, 2017-ci ildə – 1753, 2018-ci ildə – 1917, 2019-cu ildə – 2217, 2020-ci ildə – 2085, 2021-ci ildə isə – 2188 yol-nəqliyyat hadisəsi qeydə alınmışdır. Ümumiyyətlə isə yol hərəkəti və nəqliyyat vasitələrinin qaydalarını pozma cinayətləri (mad.263,

263-1) ümumi cinayətkarlığın statistikasına görə bütün törədilmiş cinayətlərin: 2016-cı ildə – 6,3%, 2017-ci ildə – 6,7%, 2018-ci ildə – 7,3%, 2019-cu ildə – 8,7%, 2020-ci – 8,02%, 2021-ci ildə isə – 7% təşkil edir. Müqayisə üçün qeyd edək ki, 2001-ci ildə bu göstərici cəmi 3,4% idi (8, s.353; 4; 5).

Obyektivlilik üçün qeyd etmək lazımdır ki, yol hərəkəti və nəqliyyat vasitələrinin qaydalarını pozma cinayətlərinin sayının artması Azərbaycanda son *illərdə* nəqliyyat vasitələrinin sayının çoxalması (misal üçün son 10-12 ildə nəqliyyat vasitələrinin sayı bir neçə dəfə artıb) ilə də əlaqədardır. Avtomobil yollarında hərəkətin intensivliyinin artması nəticəsində *yol-nəqliyyat hadisələrinin,* bu hadisələr zamanı ağır travmaların və ölüm hallarının artmasına da şərait yaradır.

Ehtiyatsızlıqdan törədilən yol-nəqliyyat hadisələrinin yüksək ictimai təhlükəliliyi ondan ibarətdir ki, hər il orta hesabla 700-ə yaxın şəxs bu cinayətlərin qurbanı olur. Müqayisə üçün bildirək ki, qəsdən adam öldürmə qurbanlarının sayı bu rəqəmlərə nisbətən xeyli azdır. Ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin statistik məlumatlarına nəzər yetirdikdə, müşayiət etmək olar ki, bu göstəricilər 2005-2010-cu illərdə daha yüksək olub. Belə ki, 2000-ci ildə *yol-nəqliyyat hadisələri* 309 şəxsin ölümü ilə 2013-cü ildə isə – 861 nəfərin nəticələnmişdir. 2021-ci ildə bu rəqəm nisbətən aşağı düşmüşdür – 532 nəfər (4).

Məhkəmə statistikasına görə, cəzaçəkmə müəssisələrində yol-nəqliyyat hadisələri ilə bağlı törədilmiş cinayətlərə görə saxlanılan məhkumların sayı da xeyli artıb və ümumi məhkumların sayının 15 faizini təşkil edir. Birinci instansiya məhkəmələrinə daxil olan cinayət işlərinin təxminən 5-8%-i də məhz ehtiyatsızlıqdan törədilən yol-nəqliyyat hadisələri ilə bağlı cinayətlərdir. Bununla belə, Ədliyyə Nazirliyi hələ 2013-cü ilin noyabr ayında belə bir məlumatla çıxış etmişdir ki, "Məhkəmələrdə yol nəqliyyat cinayətləri ilə bağlı vahid təcrübə olmaması səbəbindən yerli instansiya məhkəmələrində verilən qərarların 45 faizi apellyasiya məhkəmələri tərəfindən ləğv olunur".

Nəqliyyatın təhlükəsizliyi sahəsində ictimai münasibətlərin qorunması maraqları yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının cinayətkarcasına pozulması halları ilə cinayət-hüquqi mübarizə tədbirlərinin daima təkmilləşdirilməsini tələb edir. Bu mübarizənin effektivliyi xeyli dərəcədə cinayət qanununun sosial reallıqlara adekvatlığından, cinayət qanunvericiliyinin məhkəmə-istintaq təcrübəsinin tələbatlarına uyğunluğundan da asılıdır.

Qeyd etmək lazımdır ki, yol hərəkəti qaydalarının pozulması cinayətləri ilə mübarizə daim diqqət mərkəzindədir. Son illərdə qüvvədə olan cinayət qanunvericiliyində nəqliyyat cinayətlərinə görə məsuliyyət müəyyən edən normalarda, onların quruluşunda və məzmununda bir sıra əhəmiyyətli dəyişikliklər və əlavələr edilmişdir. Qanunverici Cinayət Məcəlləsinin 29-cu fəslinə 31 may 2011-ci ildə dəyişiklik edərək yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozmağa görə cinayət məsuliyyətinin diferensiasiya səviyyəsini yüksəldərək 263.1-1 maddəsini əlavə etmişdir və bununla bu cinayətə görə məsuliyyət dörd tərkibdə fərqləndirilmişdir: əsas tərkibin (mad.263.1) nəticəsi kimi yalnız ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmanı saxlamışdır. 263.1-1-ci maddədə bu cinayətin ağırlaşdırıcı halı kimi zərərçəkmişin sağlamlığına ağır zərər vurulması göstərilmişdir.

Bundan başqa, nəqliyyat cinayətləri ilə mübarizəni gücləndirmək məqsədilə 5 aprel 2013-cü ildə Cinayət Məcəlləsinə yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozmağa görə cinayət məsuliyyəti ilk dəfə olaraq müstəqil normada – maddə 263-1-də təsbit olunmuşdur.

Hər iki maddənin dispozisiyası blanket formasındadır və cinayət tərkibinin obyektiv əlamətlərinin (obyekti, predmeti, obyektiv cəhəti) anlayışları Azərbaycan Respublikasının "Yol hərəkəti haqqında" 3 iyul 1998-ci il Qanununda izah olunur.

Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma əməlinin tövsifində Azərbaycan Respublikası Ali Məhkəmə Plenumunun "Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" 15 noyabr 2013-cü il tarixli Qərarının da böyük əhəmiyyəti var (1).

Burada qeyd etmək yerinə düşərdi ki, müasir mərhələdə cinayət hüququ siyasətinin xarakterik xüsusiyyətlərindən biri də avtonəqliyyat cinayətlərinin böyük bir hissəsinin də daxil olduğu ehtiyatsızlıqla törədilən əməllərlə bağlı yaranan ictimai münasibətlərin cinayət-hüquqi tənzimlənməsi sferasının ardıcıl surətdə genişlənməsinə olan meyldir. Elmi-texniki tərəqqi təkcə ehtiyatsızlıqla və qəsdən törədilən cinayətlərin nisbətini dəyişdirməmiş, həm də ehtiyatsızlıqla törədilən cinayətlərin özünün strukturunda müəyyən dəyişikliklər doğurmuş, insan və texnikanın qarşılıqlı əlaqəsi sferasında baş verən kriminal hərəkətlər kəmiyyət və keyfiyyət baxımından üstünlük kəsb etməyə başlamışdır.

Bütün bunlar təbii ki, nəqliyyat cinayətləri ilə mübarizənin səmərəliliyinin yüksəldilməsinə istiqamətlənmişdir. Eyni zamanda nəzərdən keçirilən cinayətlərə görə məsuliyyət haqqında cinayət qanunvericiliyinin və onların təcrübədə tətbiqinin təhlili göstərir ki, bu sahədə hələ də müəyyən boşluqlar və çatışmazlıqlar qalmaqdadır. Bu isə ehtiyatsızlıqdan törədilən avtonəqliyyat cinayətləri ilə mübarizə üzrə əhatəli və kompleks xarakterli elmi-nəzəri konsepsiyanın işlənib hazırlanması zərurətini göstərir.

Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan əməllər cinayət hüququ nəzəriyyəsində "nəqliyyat cinayətləri" kimi də adlanır və hətta cinayət qanunvericiliyində bu adla sistemləşdirilib. Məsələn, Moldova Respublikasının Cinayət Məcəlləsinin müvafiq 12-ci fəsli "Nəqliyyat cinayətləri" kimi adlanır (14, s.142-146).

Nəqliyyat cinayətləri haqqında normalar müstəqil fəsil kimi ilk dəfə Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsində təsbit olunmuşdur. Bu normaların obyektiv əlamətlərinin dəqiqləşdirilməsi və onların müəyyən unifikasiyası Azərbaycan Respublikasının 1 sentyabr 2000-ci il tarixdən qüvvədə olan CM-nin (29-cu fəsil) sözsüz üstünlüklərindəndir.

Azərbaycan Respublikası CM-nin 29-cu fəslinə hal-hazırda 12 maddə daxil edilmişdir. Bu cinayətlər hüquq ədəbiyyatında iki qrup üzrə təsnifləşdirilir (9; 114; 8, s.361):

1) bilavasitə yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə bağlı olan cinayətlər (bu da nəqliyyat vasitəsinin bilavasitə istismarını və sürülməsini nəzərdə tutur);

2) nəqliyyatın istismarı sahəsində digər cinayətlər.

Birinci qrup cinayətlərə aid edilir: 1) dəmiryolu, hava və su nəqliyyatının hərəkəti və istismarının təhlükəsizliyi qaydalarını pozma (maddə 262); 2) yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma (maddə 263); 3) yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasiyələrini idarə etmək hüququ olmayan şəxs tarafından pozma (maddə 263-1); 4) yol-nəqliyyat hadisəsi yerindən qaçma (maddə 264); 5) beynəlxalq uçuş qaydalarını pozma (maddə 270); 6) aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər (maddə 270-1).

İkinci qrup cinayətlərə aid edilir: 1) nəqliyyat vasitələrini keyfiyyətsiz təmir etmə və ya onları texniki cəhətdən nasaz vəziyyətdə işə buraxma (maddə 265); 2) ümumi istifadədə olan nəqliyyat vasitəsinin istismara verilməsi qaydalarının pozulması (maddə 265-1); 3) nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma (maddə 266); 4) nəqliyyat vasitələrinin təhlükəsiz işləməsini təmin edən qaydaları pozma (maddə 267); 5) magistral boru kəmərlərinin inşası, istismarı və ya təmir edilməsi zamanı təhlükəsizlik qaydalarını pozma (maddə 268); 6) gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərməməsi (maddə 269).

Ümumi olaraq "avtonəqliyyat cinayətləri" kimi adlandırılan yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma (maddə 263) və yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tarafından pozma (maddə 263-1) əmelləri birinci qrupa daxildir.

Qeyd etməliyik ki, hüquq ədəbiyyatında yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının təhlükəsizliyinə qəsd edən cinayətlərə görə məsuliyyət haqqında normaların sisteminə münasibətdə bəzi tənqidi qeydləri də söyləmək mümkündür. Belə ki, yol-nəqliyyat hadisəsi yerindən qaçma (maddə 263), habelə gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərməməsi (maddə 269) kimi cinayətlər yol hərəkəti və nəqliyyat vasitələrinə deyil, digər obyektə – şəxsiyyətə qəsd edir. Beynəlxalq uçuş qaydalarını pozma (maddə 270) da həmçinin hava nəqliyyatının hərəkəti və istismarının təhlükəsizliyinə qəsd etmir, çünki belə qəsdlərə görə məsuliyyət xüsusi norma – CM-nin 262-ci maddəsi ilə nəzərdə tutulmuşdur. Nəhayət, CM-nə 268-ci maddənin daxil edilməsi (magistral boru kəmərlərinin inşası, istismarı və ya təmir edilməsi zamanı təhlükəsizlik qaydalarını pozma) müəyyən cəhətdən şərti xarakter daşıyır.

Bununla yanaşı hesab edirik ki, nəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyinə və istismarı qaydalarına qəsd edən cinayətlər sisteminə bir sıra digər normaların, məsələn, yolların qeyri-qənaətbəxş vəziyyəti ağır nəticələrə səbəb olduğu hallarda yolların vəziyyətinə cavabdeh olan şəxslərin məsuliyyəti ilə bağlı normaların daxil edilməsi məqsədəmüvafiq hesab edilə bilər. Yolda mövcud olan qüsurlar səbəbindən baş verən hadisələrə nəqliyyat vasitəsinin qapağı açıq kommunikasiya quyularına (lyuklara) düşməsi, yol örtüyündə yaranmış çalalara düşməsi, qabarıq sahələrə toxunması, yollara dair texniki tələb və standartlardankənara çıxan başqa qüsurlar səbəbindən baş verən hadisələr aid edilə bilər (3, s.474).

Qeyd etmək lazımdır ki, yolların, körpülərin, bərələrin texniki cəhətdən lazımi vəziyyətdə saxlanılmamasına görə cinayət məsuliyyəti hələ Rusiya imperiyasının 1845-ci və 1903-cü il tarixli Cinayətlər və cəzalar haqqında Qanunnamələrində nəzərdə tutulurdu (13).

Müasir zamanda bir sıra ölkələrin cinayət qanunvericiliyində, məsələn, Özbəkistan Respublikasının Cinayət Məcəlləsində, yol şəbəkəsini müxtəlif növ zədələnmələrdən qorunması və onların qeyri-qənaətbəxş vəziyyətinin qarşısını almaq məqsədilə xüsusi maddə vardır: "Avtomobil yollarından istifadə və onların mühafizəsi qaydalarını pozma, yəni, avtomobil yollarında müvafiq icazə olmadan yerüstü və yeraltı kommunikasiyaların çəkilməsi, təmiri, bu işlərin yerinə yetirilməsi üzrə müəyyən olunmuş şərtlərə və ayrılmış vaxta əməl etməmə, özbaşına yol tikmə, yolda şlaqbaum və ya digər qurğular quraşdırma, yollarda material və ya predmetləri yığma, yol örtüyünü dağıtma kimi hərəkətlər insanların ölümü və ya sağlamlığına zərər vurma ilə nəticələnərsə…" (maddə 268). Oxşar maddə Qırğızıstanın 2021-ci il Cinayət Məcəlləsində də vardır (maddə 318). İspaniya CM-nin 382-ci maddəsi ilə yollarda qəfildən maneələri quraşdırma, sürüşkən və ya tez alışan maddələri yola tökmə, yol nişanlarının yerini dəyişdirmə və ya zədələmə kimi hərəkətlərin ağır nəticələrə gətirməsinə görə məsuliyyət müəyyən olunmuşdur.

Fikrimizcə, yolun qeyri-qənaətbəxş vəziyyətinə görə məsuliyyətin müəyyən olunması olduqca vacib məsələdir. Belə ki, məhz yol şəraitinin qeyri-qənaətbəxş olması səbəbindən hər il 10–15% yol nəqliyyat hadisəsi baş verir (7).

Ümumiyyətlə, nəqliyyatın hərəkəti və istismarının təhlükəsizliyinə qəsdə görə məsuliyyət əksər ölkələrin cinayət qanunvericiliklərində nəzərdə tutulmuşdur. Bir qrup ölkələrdə nəqliyyat cinayətlərinə görə məsuliyyət nəzərdə tutan maddələr ayrıca bir fəslə daxil edilmişdir. Məsələn, Polşada – "Hərəkətin təhlükəsizliyi əleyhinə cinayətlər" (21-ci fəsil); İspaniyada – "Nəqliyyatda təhlükəsizlik əleyhinə cinayətlər" (4-cü fəsil); Özbəkistanda – "Hərəkətin və nəqliyyatın istismarının təhlükəsizliyi əleyhinə cinayətlər" (8-ci fəsil). Digər ölkələrdə nəqliyyat cinayətləri ümumi olaraq ictimai təhlükəsizliyə qəsd edən cinayətlər sisteminə daxil edilmişdir (məsələn, Almaniyada "İctimai təhlükəli cinayətkar əməllər" adlı 28-ci fəslə). Bəzi ölkələrdə isə (məsələn, Fransada) – nəqliyyat cinayətləri müstəqil qanunvericilik aktı ilə tənzimlənir.

Nəqliyyat cinayətlərinə görə tətbiq edilən cəzanın qanunverici tərəfindən müəy-yən edilən sistemi də maraq doğurur. Ehtiyatsızlıqdan zərərçəkəni həyatdan məhrum etmə ilə bağlı müxtəlif cinayətlərin (o cümlədən avtonəqliyyat cinayətlərinin) ictimai təhlükəlilik dərəcəsinin hüquqi qiymətləndirilməsinə diqqət yetirək.

Nəqliyyat cinayətlərinə dair işlər üzrə səmimi peşmançılıq institutunu cəzanın fərdiləşdirilməsinə təsir edən haldan, cinayət məsuliyyətinin hüdudlarını differensiasiya edən amillərdən sayılır. Bu baxımdan, Azərbaycan Respublikası CM-nin 72-ci maddəsi (səmimi peşmançılıqla bağlı cinayət məsuliyyətindən azad etmə) tam dərəcədə bu funksiyasını yerinə yetirmək iqtidarında deyildir. Ona görə də Azərbaycan Respublikasının 17 oktyabr 2017-ci il tarixli Qanunu ilə 263-cü maddənin "Qeyd" hissəsinə əlavə olunmuş müddəanı müsbət qarşılamaq olar. 263-cü maddənin "Qeyd" hissəsinə əlavə olunmuş müddəaya görə CM-nin 263.1 və ya 263.1-1-ci maddələrində nəzərdə tutulmuş cinayəti törətmiş şəxs:

1) zərərçəkmiş şəxslə barışdıqda və

2) ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir (hər iki şərt məcburidir).

Bu halda şəxsin əməllərində inzibati xəta tərkibinin əlamətləri olduqda o, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilir (6).

Bununla belə qeyd etmək istərdik ki, bir çox xarici dövlətlərin qanunvericiliklərində 263.1-ci maddəsində nəzərdə tutulmuş əməl ümumiyyətlə dekriminallaşdırılıb (RF və s.). Lakin nəqliyyat cinayətlərinə görə məsuliyyətin yüngülləşdirilməsinə münasibətdə bəzi müəlliflər tənqidi yanaşmışdır. Məsələn, D.Koretski "liberal yanaşmalar müasir cinayətkarlığın vəziyyəti və meyllərinə adekvat" olmadığını qeyd edərək hesab edir ki, "hüquq mühafizə orqanlarının səlahiyyətlərini deyil, cinayətkarlığı məhdudlaşdırmaq lazımdır" (10, s. 7–14).

Bu baxımdan, fikrimizcə, Rusiya qanunvericiliyindən fərqli olaraq bizim Cinayət Məcəlləmizdə yol nəqliyyat hadisəsi yerindən qaçma əməlinə görə cinayət məsuliyyəti nəzərdə tutan 264-cü maddənin mövcud olması da düzgün mövqedir. "Yol hərəkəti haqqında" Qanunun 37-ci maddəsinin 4-cü hissəsinə müvafiq olaraq, sürücü yol-nəqliyyat hadisəsi baş verdikdə zərərçəkmiş şəxslərə kömək göstərmək üçün mümkün olan tədbirləri görməyə borcludur. CM-nin 263 və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrin baş verdiyi hallarda nəqliyyat vasitəsini idarə edən, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalaranı pozan şəxs yol-nəqliyyat hadisəsi yerindən özbaşına üzrlü səbəb olmadan qaçması Cinayət Məcəlləsinin 263-cü (263-1) və 264-cü maddələrlə məsuliyyət yaradır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsinin şərh edilməsinə dair" 10 aprel 2012-ci il tarixli Qərarında bir daha bu məsələyə toxunmuşdur (2).

Beləliklə, cinayətkarlığın qarşısının alınmasında cinayət qanunvericiliyinin rolu və əhəmiyyəti danılmazdır. Cinayətkarlıqla mübarizənin səmərəliliyi xeyli dərəcədə qanunların nə qədər tam və dolğun olduğu, onların praktiki reallaşdırılmasının imkan və şəraitlərinin mövcudluğu, işlək mexanizmlə təmin olunması və digər şərtlərdən də asılıdır. İctimai həyatın daima inkişafda olan obyektiv tələbatlarına optimal cavab verdiyi halda cinayət qanunvericiliyinin səmərəliliyindən və cinayətkarlığın qarşısının alınmasında rolu və əhəmiyyətindən danışmaq olar.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarlar məcmuəsi (1991-2016). Bakı: MSV NƏŞR, 2017, 479 s. URL: http://www.supremecourt.gov.az
2. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinini rəsmi saytı. URL: http://www.constcourt.gov.az
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası: iki hissədə / F.Y Səməndərovun ümumi redaktəsi ilə. Bakı: Hüquq yayın evi, 2021, II hissə 808 s.
4. Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar / AR Dövlət Statistika Komitəsinin rəsmi saytı. URL: www.stat.gov.az/source/crimes/
5. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəsmi saytı. URL: http://www.mia.gov.az
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2021, 852 s.
7. Mirzəyev R.M. Yol və yol şəraitinin yol-nəqliyyat hadisələrinin baş verməsində rolu // Məhkəmə ekspertizası tədqiqatı praktikasının bəzi problemləri, 1994, № 33, s. 61–67
8. Самедова Ш.Т. Уголовное право Азербайджанской Республики. Особенная часть: в двух томах. Баку: Адильоглы, 2020, т. 2 864 с.

9. Жулев В.И. Транспортные преступления. М.: Наука, 2001, 364 с.
10. Корецкий Д. Идеологические проблемы борьбы с преступностью // Законность, 2004, № 5, с. 7–14
11. Коробеев А.И. Транспортные преступления. СПб.: Юрид. центр Пресс, 2003, 406 с.
12. Кузьмина А.С. Борьба с автотранспортными преступлениями. Омск, 2008, 130 с.
13. Уложение о наказаниях уголовных и исправительных 1885 года. 6-е изд., пересмотр. и доп. СПб.: изд. Н.С.Таганцева, 1889, 775 с.
14. Уголовный Кодекс Республики Молдова. Кишинэу: Centrala, 2022, 192 с.

VIOLATION OF RULES OF TRAFFIC AND OPERATION OF VEHICLES: CRIMINAL LEGAL ANALYSIS

Adil Karimli
PhD, Senior Lecturer of
Department of Criminal Law and Criminology
Faculty of Law, Baku State University, Azerbaijan

ABSTRACT

The problems of combating transport crimes have always been in the center of attention of legal scholars. All over the world, including in Azerbaijan, there is a process of increasing the number of crimes related to violation of traffic rules and operation of vehicles. The high social danger of negligent traffic accidents is that, on average, more people die from them per year than from intentional homicides. Measures of the criminal law fight against crimes that violate the rules of the road and the operation of vehicles are constantly being improved. Therefore, after the entry into force of the Criminal Code of the Republic of Azerbaijan in 1999. Chapter 29 (Crimes against the rules of traffic safety and operation of vehicles) was amended and supplemented. Criminal liability for violation of the rules of the road and the operation of vehicles is provided for in articles 263 and 263-1 of the Criminal Code. This is one of the widespread crimes in Azerbaijan. The article provides links to the criminal legislation of some foreign countries.

Keywords*: criminal responsibility, crime, punishment, traffic, vehicles, traffic crimes, carelessness.*

CRIMINALIZATION OF ILLEGAL ACCESS TO A COMPUTER SYSTEM: THE STANDPOINT OF THE CRIMINAL LEGISLATION OF THE REPUBLIC OF AZERBAIJAN

UOT (УДК) – 34:343.3

Elvin Balajanov

PhD, Lecturer of Department of Criminal Law
and Criminology, Faculty of Law,
Baku State University, Azerbaijan
e.balajanov.edu@gmail.com

The development of computer networks and the Internet has led to the evolution and proliferation of cybercrimes. The objects of these crimes are the confidentiality, integrity and availability of computer systems or computer data. These crimes are committed in the form of unlawful intrusions into computer networks and the disruption or downgrading of computer functionality and network space. Hacking, cracking, data espionage, spying, denial of service, and the planting of malware (viruses, Trojans, computer worms, etc.) can be determined as examples of computer integrity crimes, and these crimes pave the way to more serious forms of further offences. Illegal access to a computer system has been amongst the most committed of these acts which has been identified as a crime by both the Convention on Cybercrime and the Criminal Code of the Republic of Azerbaijan. Nevertheless, there are some notable problems in the approach to the criminalization of illegal entry, the analysis of which is presented in this article.

Keywords: *cybercrime, illegal access, computer system, computer data, Criminal Code, Convention on Cybercrime.*

Introduction

Criminal legislation of the Republic of Azerbaijan is entirely codified under the Criminal Code [1], which has a central role to play in introducing legal objects to be safeguarded from cybercrime and in extending protection of traditional legal interests against new forms of interference and attacks. As regards to the criminalization of cybercrimes, it needs to be noted that a dedicated chapter regarding the ‘Crimes in the Sphere of Computer Information’ had been contained in the pre-harmonised version of the Criminal Code. It specified ‘illegal access to computer information’, ‘creation, use, and dissemination of harmful computer programmes’, ‘Infringement of the rules of operation of the computer, computer system or network by a person with the right to access’ as crimes [2].

Following the ratification of the Convention on Cybercrime [2] in 2010, Azerbaijan started to bring its legislative framework in line with the Convention to address the challenges arising from the transnational nature of cybercrime. In order to harmonise the Criminal Code with the Cybercrime Convention, the Chapter (30) devoted to ‘crimes in the Sphere of Computer Information’ was amended in 2012 [3]. The new version of the Chapter, entitled ‘Cybercrimes’, provides legal solutions for ‘illegal access’, ‘illegal acquisition’, ‘data interference’, ‘system interference’, ‘misuse of devices’ and ‘internet forgery’ [1, Art. 271-273-2].

Illegal Access to a Computer System: The Criminal Code perspective

With a view to the harmonisation with the Convention on Cybercrime, Article 271.1 of the Criminal Code specifies the crime of illegal access to the computer system as intentional illegal accessing the whole or any part of a computer system without right, by infringing security measures, or with the intent of obtaining computer data or other personal intent [1, Art. 271]. This Article makes express provisions for two different offences: illegal access to a computer system or any part thereof with violation of security measures, and illegal access to a computer system or any part thereof with a purpose of abstraction of computer information stored therein or with any other personal intent.

The security (confidentiality, integrity and availability) of computer systems and computer data is threatened by this criminal act, and as a basic offence, illegal access does not necessarily involve immediate material adverse impact or effects on systems or data. The Criminal Code provides for the criminalisation of illegal access to either the whole or part of the computer system or to computer data. The term ‘computer system’ is defined as ‘any device or a group of interconnected or related devices, one or more of which, pursuant to a program, performs automatic processing of data’, while ‘computer data’ is used to represent ‘any representation of facts, information, programs or concepts in a form suitable for processing in a computer system, including a program suitable to cause a computer system to perform a function’ [1].

The guilty act is represented by accessing the whole or any part of a computer system without right, irrespective of the type and method of connection and communication, by infringing security measures, which can be interpreted as a basic hacking offence, or with the intent to obtain computer data or other personal intent. It can also be argued that the intentional failure to log out from a computer system, or illegally remaining in the whole or part of a computer system can also be incorporated in the concept of illegal access. This is because the offender still acquires access without authorisation for being able to remain in the system [4, p. 195].

A narrower approach attaching additional qualifying circumstances has been adopted by the Criminal Code with regard to the illegal access to a computer system or any part thereof in violation of security measures. This act can be commissioned by merely logging on to a computer system belonging to another without permission. Thus, once the access was authorised, the Code does not account for the purpose for which the computer was accessed. However, mere unauthorised access to a computer system should be followed by ‘infringement of security measures’ for it to be specified as a crime. In other words, illegally accessing only those computer systems which are protected by security measures has been criminalised and therefore, access to non-protected systems does not lead to criminal liability. While, the element of bypassing security measures is not required for the criminalisation if it is not only mere access, but also there is an intent of obtaining computer data [5, p. 518]. It does not matter whether access resulted in any damage in either case for an act to be acknowledged as a crime.

It can be suggested that the rationale behind narrowing the scope by including ‘infringement of security measures’ as a necessary element based on the assumption that

if a security measure is not installed on a computer system, then mere access without permission is not unacceptable. Because it is '…a computer system that permits free and open access by the public, such access is 'with the right'…', and consequently, there should be no criminalisation [6, para. 47]. Thus, if a person 'merely accesses' a non-protected computer system which is situated in another country, regardless of whether it has been criminalised or not on that country, a person cannot be subjected to criminal responsibility due to the dual criminality approach adopted by the Criminal Code.

It can be argued that the mere unauthorised access to a computer system should not be required to include 'infringement of security measures' for it to be a crime. A broader scope of protection should be merited for computers, because the level of control to prevent digital spaces from intrusions is lower, for example than for private physical spaces. It should also be taken into account that the use of licensed computer security software among general publicity has not yet reached a sufficient level in Azerbaijan. Besides, it needs to be taken into account that Article 12 of the Criminal Code specifies that for the implementation of the criminal law concerning the persons who have committed a crime beyond the border of the Republic of Azerbaijan an action shall be regarded as a crime both in Azerbaijan and in the state where the act was committed [1, Art.12].

Article 271.1 also criminalises all acts involving unlawful access to a computer system or network with the purpose of obtaining computer data, or any other personal intentions. If a perpetrator intends to obtain computer data and thereby accesses, no matter whether infringing security measures or not, then he is held criminally liable. Then again, it might be challenging to subject the perpetrator to criminal responsibility in cases where security measures are not installed in a computer and there is not a trace of information obtained, as the intention would be hard to evidence without such a trace. Moreover, if the case involves the illegal acquisition of non-public computer data, it must be classified as 'Illegal acquisition of computer data', which is criminalised under Article 272.

The perpetrator of illegal access can be any mentally capable person without a right (whether legislative, administrative, executive, judicial, contractual or consensual) to access, who has reached the age of 16. A person without right is represented as a person, who is not a legal user, or his right to use is prohibited by law, or he is accessing without obtaining permission for use from the legal owner or authorised person [5, p. 516]. Therefore, individuals, whose temporary or permanent official job is related to computer programming, checking security vulnerabilities, ensuring the normal work of computer systems, as well as system administrators, are not criminally liable if they act on a legal basis.

The mental element is clearly defined in the Criminal Code and is represented only in the form of direct intention. A person must understand and foresee that he is accessing without right and infringing security measures and desiring to do so. As the act does not necessitate the infliction of a socially dangerous result for being classified as a crime, there is not a possibility of illegally accessing with indirect intention.

The approach to sanctioning the act of illegal access to a computer system

The applicable penalty for the criminal offence of illegal access to a computer system is either a fine up to four thousand AZN or a deprivation of liberty for a term of

up to two years with deprivation of the right to occupy certain positions or engage in certain activities for a period of up to two years, in the absence of aggravating circumstances [1, Art. 271.1]. From the Convention on Cybercrime perspective, it can be argued that since the infliction of damage is not a prerequisite for 'illegal access to a computer system', this punishment can be accepted as 'effective' and 'dissuasive'. However, its 'proportionality' is questionable, as there is not a material nature of damage that can assist in assessing the proportionality of counteraction in this case. From the perspective of the purposes of punishments determined by the Criminal Code, the punishment might provide for the restoration of social justice, and the prevention of the commission of a new crime, however, it can be argued that two years' imprisonment, in this case, seems excessive in reforming a convicted person. It has been argued that individuals involved in illegal access could be readily convinced to use their skills for good, rather than for criminal purposes [7].

Two sets of aggravating circumstances are introduced for the requirement of aggravated penalties for crimes of illegal access to computer systems/data. Common aggravating circumstances, that are also contained in all articles of the 'Cybercrime' Chapter 30 (except in 'computer related forgery'), include:

a) repeated commission;

b) commission by a group of persons or a group of persons by preliminary concert, by an organised group, or by a criminal community (criminal organisation);

c) commission by a person through misusing an official position.

The commission of illegal access to the computer system with the presence of this set of aggravating circumstances shall be punishable by deprivation of liberty for a term of up to four years [1, Art. 271.2].

The second set of aggravated penalties is introduced for the commission of an act against computer system of 'infrastructure facility of public importance or any part thereof'. According to Article 271.3 of the Criminal Code 'Infrastructure facility of public importance' includes government institutions, enterprises, organizations, as well as non-governmental organizations (public unions and funds), credit organizations, insurance companies, investment funds of much importance for the state and society. The notion of 'infrastructure facility of public importance' was introduced to the Code after the harmonisation with the Convention, which establishes the grounds for the imposition of strictest punishment in case of being illegally accessed. Consequently, the most severe punishment applied for illegal access in the presence of this aggravating circumstance is a deprivation of liberty for a term of up to *six* years with deprivation of the right to occupy certain positions or engage in certain activities for a period of up to three years [1, Art. 273]. This punishment seems to be lenient in responding to cyber-attacks that can cause serious loss or disruption to the important information systems. In the UK, for example, unauthorised acts causing or creating a significant risk of serious damage to human welfare or national security could result in life imprisonment [8, 3ZA (7)].

Conclusion

As regards to the comparison of the current criminalization approach of the Criminal Code to the pre-harmonised one, it should be noted that the pre-harmonised CC stipulated liability for illegal access to legally protected information. The revised version focuses on protecting the whole or any part of a computer system against any access without a right committed by breaching security measures. Moreover, the revised version has also clarified the motive of illegal accessing, which can be the intent of obtaining computer data or other personal intent. Another major difference is that definitions of 'computer system', 'computer data' and 'infrastructure object of public importance' have been introduced in the current version, which had not been previously defined in relevant Criminal Code articles.

It should also be added that the text adopted by Article 271.1 of the Criminal Code is predominantly similar to those provisions contained in Article 2 of the Convention, subject to the exclusion of the element of committing act 'in relation to a computer system that is connected to another computer system' [3, Art. 2]. Exclusion of this element represents a wider approach that provides for the criminalisation of both physically accessing a stand-alone computer without any use of another computer and illegal access to networked computer systems.

It can be argued that more proportional punishment should be imposed for 'illegal access' in the absence of aggravating circumstances, rather than a deprivation of liberty for a term of up to two years. It is difficult to assess the material nature of damage that can assist in examining the proportionality of that counter-action in this case. Yet, individuals involved in illegal access are also potentially more reformable in that they could be convinced more easily to use their skills for good, rather than for criminal purposes. However, the presence of aggravating circumstances, particularly, for the commission of an act against computer system of 'infrastructure facility of public importance or any part thereof', might merit a stricter punishment than presently a deprivation of liberty for a term of up to six years in Azerbaijan.

REFERENCES:

1. *Criminal Code of the Republic of Azerbaijan* (adopted on 30 December 1999).
2. *Convention on Cybercrime*, Council of Europe (2001, European Treaty Series - No. 185).
3. *Law on Amendments to the Criminal Code of the Republic of Azerbaijan*, 2012, № 408-IVQD.
4. International Telecommunication Union, *Understanding Cybercrime* (2014), 195.
5. Samandarov F., *Commentary on the Criminal Code of the Republic of Azerbaijan, The second part* ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası, İkinci hissə") (Baku, Hüquq Yayın Evi, 2018) 518.
6. Council of Europe, *Explanatory Report to the Convention on Cybercrime* (2001) ETS No. 185.
7. David S. Wall, 'Locking up Hackers Could Do More Harm than Good' (*The Conversation*, 2018) http://theconversation.com/locking-up-hackers-could-do-more-harm-than-good-15889.
8. Computer Misuse Act 1990, UK Public General Acts 1990. 18 p.

KOMPÜTER SİSTEMİNƏ QANUNSUZ DAXİL OLMA ƏMƏLİNİN KRİMİNALLAŞDIRILMASI: AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT QANUNVERİCİLİYİ PRİZMASINDAN

Elvin Balacanov
h.ü.f.d, Cinayət hüququ və kriminologiya kafedrasının müəllimi
Hüquq fakültəsi, Bakı Dövlət Universiteti
Azərbaycan Respublikası

ANNOTASİYA

Kompüter şəbəkələrinin və İnternetin sürətli inkişafı kibercinayətlərin təkamülünə və yayılmasına səbəb olmuşdur ki, bu cinayətlərin də obyekti qismində əsasən kompüter sistemlərinin və ya kompüter məlumatlarının konfidensiallığı, tamlığı və əlçatanlığı çıxış edir. Bu əməllər əksər hallarda kompüter sisteminə və şəbəkələrinə qanunsuz daxil olma və müdaxilə, eləcə də, kompüter sisteminin funksionallığının pozulması və ya işləməsinə ciddi maneənin yaradılması, habelə kompüter məlumatlarının qanunsuz ələ keçirilməsi və s. formalarda törədilir və bir sıra hallarda daha ağır cinayətlərin törədilməsi üçün şərait yaradır. Qeyd olunmalıdır ki, son dövrlərdə, həm "Kibercinayətkarlıq haqqında" Konvensiyaya, həm də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən cinayət hesab olunan kompüter sisteminə qanunsuz daxil olma əməli bu əməllər arasında ən çox törədilənlərdəndir. Bu məqalədə kompüter sisteminə qanunsuz daxil olma əməlinin kriminallaşdırılması ilə bağlı mövcud yanaşmanın bəzi problemləri təqdim olunur.

Açar sözlər: *kibercinayət, qanunsuz daxil olma, kompüter sistemi, kompüter məlumatları, Cinayət Məcəlləsi, Kibercinayətkarlıq haqqında Konvensiya.*

İNTİZAM XARAKTERLİ HƏRBI HİSSƏDƏ CƏZA CƏKƏN HƏRBİ QULLUQÇUNUN ÖZBAŞINA GETMƏSİNİN TÖVSİFİ VƏ CƏZA TƏYİNİ MƏSƏLƏLƏRİ

UOT (УДК) – 34:343.27

Malik Səlimov
hüquq üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin
Heydər Əliyev adına Akademiyasının baş müəllimi
maliksalimov1857@gmail.com

Məqalədə intizam xarakterli hərbi hissədə saxlama cəzasını çəkən hərbi qulluqçunun özbaşına buraxılmasının kvalifikasiyası və tətbiq edilən cəza məsələsi araşdırılır. Bununla əlaqədar olaraq qeyd olunan cinayət əməlinin azadlıqdan məhrumetmə yerindən, həbsdən və ya həbsdən qaçma cinayətindən fərqli cəhətləri cinayət hüququ nəzəriyyəsində, cinayət hüququnda, cəzaların icrası və cinayət-prosessual qanunvericiliyində mövcud olan müddəalara istinad edilməklə araşdırılmışdır. Ntizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçunun hüquqi vəziyyətini və cəza çəkdiyi yeri, habelə onun özbaşına tərk edilməsinin məqsədini, əməllə zədələnmiş ictimai münasibətlərin xarakterini və digər amilləri nəzərə alaraq; belə qənaətə gəlinib ki, intizam xarakterli hərbi hissədə qulluq edən hərbi qulluqçunun özbaşına tərk edilməsi Cinayət Məcəlləsinin 333.5-ci maddəsi ilə deyil, 304-cü maddəsi ilə təsnif ediləcək. Qeyd olunan məsələləri nəzərə alaraq, intizam xarakterli hərbi qulluqçularda müdafiə cəzasını çəkən hərbi qulluqçunun özbaşına tərk edilməsinə görə cinayət məsuliyyətini nəzərdə tutan 333.5-ci maddənin Cinayət Məcəlləsindən çıxarılması və bu sahədə hərbi qanunvericiliyin təkmilləşdirilməsi təklif edilir.

Açar sözlər: *intizam xarakterli, özbaşına getmə, hərbi qulluqçu, şərti cəza, sınaq müddəti, qəti imkan tədbiri.*

Cinayət hüquq nəzəriyyəsinin, Azərbaycan Respublikası cinayət qanunvericiliyinin və istintaq-məhkəmə təcrübəsinin ümumiləşdirilməsi göstərir ki, intizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçuların özbaşına getməsi hallarında əməlin tövsifi zamanı müəyyən səhvlərə yol verilir ki, bu da maddi hüquq normalarının düzgün tətbiqi imkanlarını aradan qaldırır. Bu isə öz növbəsində cinayət təqibi prosesində qəbul edilmiş qərarların qanunsuz və əsassız hesab edilməsinə və onların ləğvinə səbəb olur. Azərbaycan Respublikası CPM-nin 399.1.4-cü maddəsinin tələbinə əsasən, cinayət qanunu normasının düzgün tətbiq edilməməsi birinci instansiya məhkəməsinin hökm və ya qərarının ləğv edilməsi və ya dəyişdirilməsi ücün əsasdır. CPM-nin 416.1.6-cı maddəsi isə cinayət tərkibinin əlamətləri olmadan məhkəmənin hökm cıxarmasını həmin hökmün kassasiya qaydasında ləğv edilməsi və ya dəyişdirilməsinin əsası kimi müəyyən edir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.5-ci maddəsində nəzərdə tutulmuş bu cinayətin obyektiv cəhəti intizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçunun belə hərbi hissədən özbaşına getməsindən ibarətdir (2, s.958).

İntizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçuların özbaşına getməsi hallarında əməlin tövsifi və cəza təyini zamanı yol verilən səhvlərin aradan qaldırılması ücün aşağıdakıların aydınlaşdırılması məqsədəuyğundur. Bunun üçün aşağıdakı suallara aydınlıq gətirilməlidir.

Birincisi, intizam xarakterli hərbi hissədə cəza çəkən və hərbi hissədən özbaşına gedən şəxs kimdir və həmin ərazini özbaşına tərk edərkən hansı hüquqi statusa malik olmuşdur? Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 327-ci maddəsinə əsasən, cağırış və ya kontrakt üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində, digər qoşun və hərbi birləşmələrdə hərbi xidmət kecən hərbi qulluqcuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilərin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn və bu fəsildə nəzərdə tutulmuş cinayətləri hərbi xidmət əleyhinə olan cinayətlər hesab olunur. Bu maddədə göstərilməmiş şəxslərin hərbi xidmət əleyhinə olan cinayətlərdə iştirakı bu fəslin müvafiq maddələri üzrə məsuliyyətə səbəb olur.

Eyni zamanda Cinayət Məcəlləsinin 33.4-cü maddəsi belə bir prinsipial müddəanı nəzərdə tutur ki, Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsi ilə cinayətin xüsusi subyekti olmayan və həmin maddə ilə nəzərdə tutulmuş cinayətin törədilməsində iştirak edən şəxs, həmin cinayətə görə onun təşkilatçısı, təhrikçisi və ya köməkçisi qismində məsuliyyətə cəlb olunur. Qeyd olunan maddənin məzmunundan da göründüyü kimi, intizam xarakterli hərbi hissədə cəza çəkən və hərbi hissədən özbaşına gedən şəxs həmin ərazini özbaşına tərk edərkən, nə çağırış və ya kontrakt üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində, digər qoşun və hərbi birləşmələrdə hərbi xidmət kecən hərbi qulluqçu, nə qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxs, nə də təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəli şəxs deyil, sadəcə olaraq, cinayət törətməyə görə məhkəmənin hökmü ilə intizam xarakterli hərbi hissəyə göndərilməklə orada cəza çəkən və hərbi hissədən özbaşına gedən məhkumdur.

"Hərbi qulluqçuların statusu haqqında» Qanunun 2-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, Azərbaycan Respublikasının sərhəd qoşunlarında və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə həqiqi hərbi xidmətdə olan Azərbaycan Respublikası vətəndaşları və başqa dövlətlərin vətəndaşları, habelə toplanışlarda olan hərbi vəzifəlilər hərbi qulluqçu statusuna malikdirlər.

Həmin qanunun hərbi qulluqçu statusunun əldə edilməsi və itirilməsi qaydasını nəzərdə tutan 3-cü maddəsində isə göstərilir ki, vətəndaşlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə çağırıldıqları, könüllü qaydada və ya bağlaşma üzrə Silahlı Qüvvələrdə xidmətə daxil olduqları, toplanışlara çağırıldıqları, hərbitəhsil müəssisələrinə daxil olduqları gündən hərbi qulluqçu statusu əldə edir və Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmətdən buraxıldıqları, hərbi hissənin siyahılarından çıxarıldıqları, hərbi təhsil müəssisələrindən çıxarıldıqları və ya kənar edildikləri, toplanışı başa çatdırdıqları gündən bu statusu itirirlər.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə əsasən, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması və müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkən və ya barələrində müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza şərti olaraq tətbiq edilmiş vətəndaşlar (bu Qanunun 22.2-ci maddəsində göstərilən vətəndaşlar istisna olmaqla); əvvəllər qəsdən törətdiyi cinayətə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məh-

kum edilmiş və məhkumluğu üzərindən götürülməmiş, yaxud məhkumluğu ödənilməmiş vətəndaşlar; barəsində olan cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə ibtidai istintaq və ya təhqiqat aparılan, yaxud barəsində olan cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraat materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə məhkəmədə baxılan vətəndaşlar, ağır və ya xüsusilə ağır cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş vətəndaşlar müddətli həqiqi hərbi xidmətə çağırılmırlar. Həmin Qanunun 29.3-cü maddəsinə əsasən, hərbi qulluqçular ancaq hərbi and içdikdən sonra döyüş növbətçiliyinə (döyüş xidmətinə) təyin edilə və ya döyüş tapşırığının yerinə yetirilməsinə cəlb edilə bilərlər və onlara silah və hərbi texnika təhkim oluna bilər.

CM-nin Xüsusi hissəsinin müvafiq maddəsi ilə cinayətin xüsusi subyekti olmayan və həmin maddə ilə nəzərdə tutulmuş cinayətin törədilməsində iştirak edən şəxsin, həmin cinayətə görə təşkilatçı, təhrikçi və köməkçi qismində məsuliyyətə cəlb olunmasını müəyyən edən imperativ xarakterli normanın (mad.33.4) tələbini nəzərə alsaq, cəzaçəkmə yerindən qaçan şəxs həmin cinayətin icraçısı kimi məsuliyyətə cəlb edilə bilməz, çünki o, artıq məhkum olunmaqla hərbi qulluqçu statusunu itirdiyindən 333.5 və 334.1-ci maddələri ilə məsuliyyət yaranmır. "Hərbi qulluqçuların statusu haqqında" Qanunun 2-ci maddəsinin 1-ci bəndi də eyni nəticəyə gəlməyə imkan verir. Azərbaycan Respublikası Ali Məhkəməsinin 01 noyabr 2001-ci il tarixli Plenum Qərarında da məhz bu mövqeyə üstünlük verilərək onun 7-ci bəndində birmənalı şəkildə göstərilir ki, "hərbi cinayətlərin subyekti hərbi qulluqçulardır".

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 153-cü maddəsinə əsasən, məhkumun intizam xarakterli hərbi hissədə cəza çəkdiyi vaxt müddətli həqiqi hərbi xidmət müddətinə hesablanmır ki, bu da onun hərbi qulluqçu statusunun olmaması anlamına gəlir.

Deməli, cinayət törədən zaman artıq hərbi qulluqçu statusunu itirmiş və hərbi xidmət əleyhinə cinayət hesab olunan hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə əməlini törətmiş şəxs bu cinayətlərin subyekti olmadığı üçün CM-nin 333-cü maddəsi ilə məsuliyyətə cəlb edilə bilməz. Analoji vəziyyət hərbi xidmətə çağırılmış şəxslərin Respublika Toplanış məntəqəsindən özbaşına getməsi və ya orada tibbi müayinə keçdikdən sonra hərbi qulluğa getməkdən yayınması zamanı da mövcud olur. Konstitusiya Məhkəməsi Plenumunun 18 iyul 2005-ci il tarixli Qərarında birmənalı şəkildə göstərilir ki, "Hərbi qulluqçuların statusu haqqında" AR Qanununun 3-cü maddəsində göstərilən hərbi xidmətə çağırılmış şəxslərin Respublika Toplanış məntəqəsindən özbaşına getməsi və ya orada tibbi müayinə keçdikdən sonra hərbi qulluğa getməkdən yayınması CM-nin 333-cü maddəsində nəzərdə tutulan cinayətin tərkibini yaratmır.

Beləliklə, faktiki hərbi qulluqçu hesab olunmayan və məhkum olunmuş şəxsin hərbi xidmət əleyhinə cinayətlərin subyekti olmadığı halda, CM-nin 333.5-ci maddəsi ilə məsuliyyətə cəlb olunması anlaşılan deyildir. İkincisi, intizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçuların özbaşına getməsi hallarında həmin şəxsin tərk etdiyi məkanın hüquqi statusu qanunla necə müəyyən olunur?

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair" qeyd olunan Qərarında daha sonra göstəri-

lir ki, "hərbi hissə Silahlı Qüvvələrin bütün növlərində müəyyən olunmuş ştatlı təsərrüfat vahididir və hərbi hissənin ərazisi dedikdə, hərbi hissənin kazarmalaşdırılmış, düşərgələşdirilmiş və ya səyyarlaşdırılmış yeri, xidmət yeri dedikdə isə, əgər o, hərbi hissənin ərazisi ilə üst-üstə düşmürsə, hərbi qulluqçu tərəfindən hərbi xidmət üzrə vəzifələrinin faktiki olaraq yerinə yetirildiyi yer başa düşülür. Qərarda daha sonra qeyd edilir ki, Azərbaycan Respublikası CMnin 333-cü maddəsində nəzərdə tutulmuş cinayətin obyektiv cəhətini hərbi qulluqçunun öz hərbi hissəsini və ya xidmət yerini özbaşına tərk etməsi və üzürlü səbəb olmadan öz xidmət yerinə vaxtında gəlməməsi təşkil edir".

Qeyd olunanlar CM-nin 333.5-ci maddəsinə də aid edilsə də, burada həqiqi hərbi xidmətdə olan hərbi qulluqçunun deyil, məhz məhkumun cəzaçəkmə yerini özbaşına tərk etməsi təhlil olunan cinayət tərkibini yaratmır. Deməli, CM-nin 333-cü maddəsinin nəzərdə tutduğu mənada söhbət hərbi hissəni və ya xidmət yerini tərk etmədən getdiyi halda, intizam xarakterli hərbi hissə məhkumun xidmət yeri deyil, öz statusuna və rejiminə görə heç də azadlıqdan məhrum etmə yerlərindən fərqlənməyən cəzaçəkmə yeri hesab olunduğu üçün şəxsin əməlində CM-nin 333-cü maddəsinin tərkibi yaranmır. Çünki, intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum olunmuş hərbi qulluqçu məhkəmənin hökmü əsasında cəzaçəkmə yerinə (intizam xarakterli hərbi hissəyə) göndərilmiş, orada cəza çəkən şəxsdir və o, məhz qanunun nəzərdə tutuduğu mənada hərbi hissədən deyil, cəzanın icrası və çəkilməsi qaydası, şərtləri və rejimi ilə faktiki üst-üstə düşən cəzaçəkmə yerindən (müəssiəsindən) qaçır.

Göstərilənləri nəzərə alaraq belə hesab edirik ki, məhkumun məhkəmə hökmü əsasında məcburi şəkildə yerləşdirildiyi və mühafizə altında saxlanıldığı, cəzaçəkmə müəssisələrinə xas olan bütün əlamətləri özündə əks etdirən intizam xarakterli hərbi hissədən qaçması CM-nin 333.5-ci maddəsi ilə tövsif edilə bilməz.

Üçüncüsü, intizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçuların özbaşına getməsi hallarında həmin şəxs məhkəmə tərəfindən təyin edilmiş cəzanın şəkilməsi yeri olan intizam xarakterli hərbi hissəni hansı məqsədlə özbaşına tərk edir?

Azərbaycan Respublikası CM-nin 333.5 və 334.1-ci maddələrinin mənasına görə intizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçuların özbaşına getməsi cinayət məsuliyyəti yaradır. Bununla əlaqədar Ali Məhkəmənin "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi" 01 noyabr 2001-ci il tarixli Plenum Qərarında göstərilir ki, "intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş və orada cəza çəkən şəxs həmin hərbi hissədən özbaşına getdikdə, onun əməli CM-nin 333.5-ci maddəsi ilə tövsif edilməlidir. Bu halda özbaşına getmənin müddəti əməlin tövsifinə təsir göstərmir. Qəti imkan tədbiri kimi qaupvaxtda saxlanılan hərbi qulluqçunun cinayət məsuliyyətindən və ya cəzadan yayınmaq məqsədi ilə həbsdən qaçması CM-nin 304-cü maddəsində nəzərdə tutulmuş cinayətin tərkibini yaradır".

Fikrimizcə, məsələyə bu cür yanaşma düzgün hesab edilə bilməz. Çünki, intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum olunmuş hərbi qulluqçu, yuxarıda qeyd edildiyi kimi, məhkəmənin hökmü əsasında cəzaçəkmə yerinə (intizam xarakterli hərbi

hissəyə) göndərilmiş, orada cəza çəkən məhkumdur və o, məhz qanunun nəzərdə tutduğu mənada hərbi hissədən deyil, cəzaçəkmə yerindən qaçır.

Ali Məhkəmənin Plenum qərarı "qəti imkan tədbiri kimi qaupvaxtda saxlanılan hərbi qulluqçunun cinayət məsuliyyətindən və ya cəzadan yayınmaq məqsədi ilə həbsdən qaçması CM-nin 304-cü maddəsində nəzərdə tutulmuş cinayətin tərkibini yaradır" ifadəsini işlətməklə faktiki olaraq, həmin qərarının 16-cı bəndinin birinci cümləsində işlətdiyi "intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş və orada cəza çəkən şəxs həmin hərbi hissədən özbaşına getdikdə, onun əməli CM-nin 333.5-ci maddəsi ilə tövsif edilməlidir" müddəasına əks mövqe nümayiş etdirməklə özü-özünü təkzib etmiş olur. Çünki, hər iki halda, yəni "intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş və orada cəza çəkən şəxsin həmin hərbi hissədən özbaşına getməsi" və ya "qəti imkan tədbiri kimi qaupvaxtda saxlanılan hərbi qulluqçunun cinayət məsuliyyətindən və ya cəzadan yayınmaq məqsədi ilə həbsdən qaçması" zamanı şəxs hərbi qulluqçu deyil, məhkum statusunda olduğundan və mühafizə altından qaçdığından, məsələnin mahiyyəti dəyişmir. Yəni, o, hərbi qulluqçu deyil, məhkum olaraq qaldığından və hərbi xidmətdən deyil, cinayət məsuliyyətindən və ya cəzadan yayınmaq məqsədi ilə bu hərəkəti etdiyindən əməl CM-nin 304-cü maddəsi ilə tövsif olunmalıdır.

Deməli, intizam xarakterli hərbi hissədə cəza çəkən və cəza şəkdiyi yerdən özbaşına gedən, həmçinin qəti imkan tədbiri kimi qaupvaxtda saxlanılan, cinayət məsuliyyətindən və ya cəzadan yayınmaq məqsədi ilə həbsdən qaçan şəxsin məqsədi Ali Məhkəmənin qeyd olunan Plenum qərarında göstərildiyi kimi, heç də hərbi xidmət qaydalarını təmin edən ictimai münasibətlərə deyil, ədalət mühakiməsinin normal həyata keçirilməsini təmin etməli olan ictimai münasibətlərə zərar vurmaqdan ibarətdir. Ona görə də intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş şəxsin həmin hərbi hissədən, habelə qəti imkan tədbiri kimi qaupvaxtda saxlanılan hərbi qulluqçunun cinayət məsuliyyətindən və ya cəzadan yayınmaq məqsədi ilə həbsdən qaçması hərbi xidmət deyil, ədalət mühakiməsi əleyhinə olan cinayət kimi qiymətləndirilməlidir. Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası CM-nin 333.5-ci maddəsinin qanundan çıxarılmasını və intizam xarakterli hərbi hissədə cəza çəkən şəxsin cəzaçəkmə yerindən qaçmasını CM-nin 304-cü maddəsi ilə tövsif edilməsini təklif edirik.

Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə, o cümlədən intizam xarakterli hərbi hissədə cəza çəkən hərbi qulluqçunun özbaşına getməzi hallarında onların əməllərinin tövsifi ilə yanaşı cəza təyini və onun icrası mexanizmlərinin nəzərdə keçirilməsi də vacib məsələlərdən biridir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Repsublikasının CM-nin ümumi və xüsusi hissələrində yalnız hərbi xidmət keçən hərbi qulluqçular tərəfindən törədilən cinayətləri nəzərdə tutan və onlara görə cəza müəyyən edən xeyli cinayət-hüquq normaları vardır (mad.48, 50, 54, 327-353).

Cinayət Məcəlləsinin 54.1-ci maddəsinə əcasən, hərbi xidmətə çağırış üzrə müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara, habelə kontrakt (bağlaşma) əsasında sıravi və gizir vəzifələrində hərbi xidmətdə olan hərbi qulluqçulara, əgər onlar hökm çıxarılanadək qanunla müəyyən edilmiş xidmət müddətini başa vurmamışlarsa, üç aydan iki ilədək

müddətə intizam xarakterli hərbi hissədə saxlama növündə cəza təyin edilə bilər. Həmin cəza hərbi xidmət əleyhinə törədilmiş cinayətlərə görə CM-nin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda, habelə təqsirkarın şəxsiyyəti və cinayətin xarakteri iki ilədək müddətə azadlıqdan məhrum etmənin həmin müddətə intizam xarakterli hərbi hissəldə saxlama ilə əvəz olunmasına imkan verdiyi hallarda tətbiq edilir.

Bu cəza növünün cinayət-hüquqi mahiyyəti onunla bağlıdır ki, məhkum hökmdə göstərilən müddətə məcburi qaydada intizam xarakterli hərbi hissəyə göndərilir və orada islahedici təsirə məruz qalır (11. s.455). Cəzaların sistemindəki yerinə görə bu cəza növü müəyyən müddətə azadlıqdan məhrum etməyə nisbətən daha yüngül cəza hesab olunduğundan törədilmiş cinayətə görə müəyyən edilmiş cəzadan daha ciddi cəza növü yalnız o halda təyin edilir ki, az ciddi cəza növü cəzanın məqsədlərini təmin edə bilmir (mad.58).

Azərbaycan Respublikası Ali Məhkəməsinin "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" 25 iyun 2003-cü il tarixli 4 №-li Plenum Qərarının 2-ci bəndində göstərilir ki, "şəxsin təqsirli bilindiyi maddənin sanksiyası azadlıqdan məhrum etmə ilə yanaşı yüngül cəza növləri nəzərdə tutursa, hökm çıxarılarkən, azadlıqdan məhrum etmə cəzası təyin edildikdə bu qərar hökmdə əsaslandırılmalıdır". (9, s.229). Deməli, məhkəmə bu cəza növünün tətbiqi ilə cəzanın məqsədinə nail olunmasını mümkün hesab etmədikdə, Cinayət Məcəlləsinin 58-ci maddəsinə əsasən məhkuma həmin sanksiyada nəzərdə tutulmuş alternativ cəza növlərindən daha ciddi hesab olunan müəyyən müddətə azadlıqdan məhrum etməni tətbiq edə bilər. Bu zaman müəyyən müddətə azadlıqdan məhrum etmənin müddəti iki ilədək olsa da, artıq məhkəmə həmin cəzanı intizam xarakterli hərbi hissədə saxlama ilə əvəz edə bilməz. (12, s.215).

Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinin şərti məhkum etmənin tətbiqi imkanlarını nəzərdə tutan müddəaları digər cəza növlərinə münasibətdə kifayət qədər aydın və dəqiq realizə mexanizminə malik olduğu halda, intizam xarakterli hərbi hissədə saxlama cəzası ilə bağlı bu məsələ bir qədər ziddiyyətlidir ki, bu da həmin cəzaya məhkum olunan hərbi qulluqçunun statusu və xidmət müddəti ilə izah oluna bilər.

Məlumdur ki, "Hərbi qulluqçuların statusu haqqında" 25 dekabr 1991-ci il, "Azərbaycan Respublikasında hərbi çağırışın əsasları haqqında" 10 iyun 1992-ci il Qanunları və digər hərbi qanunvericilik aktlarına uyğun olaraq çağırış, habelə kontrakt (bağlaşma) üzrə həqiqi hərbi xidmət müddətlidir və CM-nin 70-ci maddəsinə əsasən intizam xarakterli hərbi hissədə saxlama növündə cəzaya şərti məhkum etmə hərbi qulluqçunun müxtəlif əsaslara görə ordudan tərxis olunması üçün heç bir maneə yaratmır. Eyni zamanda, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 78.3-cü maddəsinə əsasən, intizam xarakterli hərbi hissədə saxlama növündə cəza çəkən hərbi qulluqçular, onların hərbi xidmətə yararsız hesab edilməsinə səbəb olan xəstəliklərə düçar olduqda, cəzanın qalan hissəsini çəkməkdən azad edilirlər. Belə hallarda məhkəmə həmin şəxslərə (onkoloji xəstəliyin terminal mərhələsində olan şəxslər istisna olmaqla) cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edə bilər.

Cəzaların İcrası Məcəlləsinin 152-ci maddəsinə əsasən, bu cəzaya məhkum olunmuş şəxslər hərbi xidmətə yararsız hesab edilməsinə səbəb olan xəstəliklərə düçar olduqda, özləri və qanuni nümayəndələri onların intizam xarakterli hərbi hissədən şərti olaraq vax-

tından əvvəl azad edilməsi və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi barədə ərizə ilə məhkəməyə müraciət edə bilərlər.

Cəzaların İcrası Məcəlləsinin 153.2-ci maddəsi isə birmənalı şəkildə intizam xarakterli hərbi hissədə saxlama növündə cəzadan azad edilən vaxt həqiqi hərbi xidmətdə olmanın qanunla müəyyən olunmuş son yaş həddinə çatmış şəxslərin həqiqi hərbi xidmətdən tərxis edilməsini hərbi hissə komandanlığının vəzifəsi kimi nəzərdə tutur. Azərbaycan Respublikası CM-nin 70.6-cı maddəsinə əsasən şərti məhkum edilmiş şəxs üzərində nəzarəti müvafiq dövlət orqanları, hərbi qulluqçular üzərində nəzarəti isə hərbi hissələrin və müəssisələrin komandanlığı həyata keçirir. CİM-nin 179-cu maddəsi qeyd olunan məsələ ilə bağlı nəzarət mexanizmini daha da konkretləşdirərək belə bir qayda müəyyən etmişdir ki, şərti məhkum edilmiş şəxslər üzərində nəzarəti sınaq müddəti ərzində məhkumun yaşayış yeri üzrə məhkəmə icraçısı, hərbi qulluqçular üzərində isə hərbi hissələrin və ya müəssisələrin komandanlığı həyata keçirir. Qanundan göründüyü kimi, şərti məhkum olunmuş hərbi qulluqçular üzərində nəzarəti hərbi hissələrin və müəssisələrin komandanlığı həyata keçirir.

Onu da nəzərə almaq lazımdır ki, yuxarıda qeyd edildiyi kimi, "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının 25 dekabr 1991-ci il tarixli Qanununun 3-cü maddəsinə əsasən, vətəndaşlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmətdən buraxıldıqları, hərbi hissənin siyahılarından çıxarıldıqları, hərbi tədris müəssisələrindən çıxarıldıqları və ya kənar edildikləri, toplanışı başa çatdırdıqları gündən hərbi qulluqçu statusunu itirirlər. Belə bir vəziyyətdə intizam xarakterli hərbi hissədə saxlama növündə cəzaya şərti məhkum edilmiş, lakin sınaq müddəti başa çatmadan hərbi xidmətdən tərxis edilmiş və beləliklə, hərbi qulluqçu statusunu itirmiş şəxs üzərində CM-nin 70.6-cı, habelə CİM-nin 179-cu maddələsinin müəyyən etdiyi qaydada hərbi hissələrin və müəssisələrin komandanlığı nəzarət etməyə borclu deyildir və onun belə bir səlahiyyəti də qanunda nəzərdə tutulmamışdır.

Digər tərəfdən, yenə də qanunda nəzərdə tutulmadığından Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin sisteminə daxil olmayan müvafiq dövlət orqanları intizam xarakterli hərbi hissədə saxlama cəzasına şərti məhkum edilmiş şəxs üzərində nəzarəti həyata keçirmək səlahiyyətinə malik deyildir. Eyni zamanda şəxsin hərbi qulluqçu statusunda olarkən törətdiyi cinayətə görə hərbi məhkəmə tərəfindən intizam xarakterli hərbi hissədə saxlama növündə cəzaya şərti məhkum olunması və ona təyin olunmuş sınaq müddəti başa çatanadək hərbi xidmətdən tərxis olunması hallarında artıq mülki şəxs qismində yaşayış yeri üzrə məhkumun üzərində nəzarətin həyata keçirilməsi üçün hökmün surətinin hansı orqana göndərilməsi mexanizmi də yoxdur.

Qanunda mövcud olan bu boşluq müddətli həqiqi hərbi xidmət dövründə törətdiyi cinayətə görə intizam xarakterli hərbi hissədə saxlama cəzasına şərti məhkum olunmuş şəxsin bu xidməti başa çatdırdıqdan sonra həmin cəzanın icrasının davam etdirilməsi üçün müvafiq orqanlar tərəfindən qeydiyyata alınması və yaşayış yeri üzrə onun üzərində nəzarətin həyata keçirilməsi imkanlarını aradan qaldırır. Burada sınaq müddətinin təyin edilməsi hallarında məhkumun üzərində nəzarətin başlanması və qurtarması vaxtının də-

qiq müəyyən edilməsinin də çox böyük nəzəri və praktiki əhəmiyyəti nəzərdən qaçırılmamalıdır. Çünki onların qanunda bilavasitə nəzərdə tutulmaması məhkum üçün insan və vətəndaş hüquq və azadlıqlarının ciddi şəkildə pozulmasına gətirib çıxara biləcək dərəcədə neqativ hüquqi nəticələrə səbəb ola bilər.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası CİM-nin 181-ci maddəsinə əsasən sınaq müddəti hökmün qanuni qüvvəyə mindiyi gündən hesablanır və həmin müddətin qurtarması ilə məhkum üzərində nəzarət dayandırılır və o, qeydiyyatdan çıxarılır. Göründüyü kimi, bu cəza-icra hüquq norması sınaq müddətinin hökmün qanuni qüvvəyə minməsi günündən hesablanması qaydasını dəqiq müəyyən etsə də, onun tərkib elementi və bilavasitə hüquqi nəticəsi kimi məhkum üzərində nəzarətin hansı vaxtdan başlanması məsələsini nəzərdə tutmur. Şərti məhkum edilmiş şəxsin qeydə alınması və onun üzərində nəzarətin başlanması gününü cinayət qanunu da dəqiqləşdirmir. Yalnız ümumi şəkildə CİM-nin 180.1-ci maddəsində qeyd olunur ki, məhkəmə icraçısı sınaq müddəti ərzində məhkumların qeydiyyatını aparır, onların işlədikləri yer üzrə işəgötürənin iştirakı ilə məhkumların ictimai qaydalara riayət etməsinə və məhkəmə tərəfindən onlara həvalə olunan vəzifələrin yerinə yetirilməsinə nəzarət edir.

Göründüyü kimi, dayandırılması sınaq müddətinin qurtarması ilə bilavasitə əlaqələndirilən məhkum üzərində nəzarətin başlanma günü qanunda öz əksini tapmamışdır. Belə bir paradoksal vəziyyət intizam xarakterli hərbi hissədə saxlama cəzasına şərti məhkum edilmiş hərbi qulluqçunun ona təyin edilmiş sınaq müddəti ərzində məhkəmə tərəfindən üzərinə qoyulmuş vəzifələri mütəmadi və qərəzli olaraq yerinə yetirməməkdə ifadə olunan hüquqi nəticələrin yaranması zamanı da meydana çıxır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası CİM-nin 182.3-cü maddəsinə əsasən məhkəmə icraçısı məhkumun üzərinə onun islah olunmasına kömək edən yeni vəzifələrin qoyulması və ya əvvəllər məhkumun üzərinə qoyulmuş vəzifələrin tamamilə və ya qismən ləğv edilməsi barədə məhkəməyə təqdimat verə bilər, Azərbaycan Respublikası CM-nin 71.1-ci maddəsinə uyğun olaraq sınaq müddətinin azı yarısı keçdikdən sonra şərti məhkum edilmiş şəxs öz davranışı ilə islah olunduğunu sübut edərsə, məhkəmə məhkumun üzərində nəzarəti həyata keçirən dövlət orqanının təqdimatı əsasında şərti məhkum etmənin ləğv edilməsi və məhkumluğun götürülməsi barədə qərar qəbul edə bilər. Eyni zamanda CİM-nin tələbinə uyğyn olaraq şərti məhkum edilmiş şəxs məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırdıqda və ya ictimai qaydaları pozduğuna görə barəsində inzibati tənbeh tətbiq edildikdə, habelə sınaq müddəti ərzində onun üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsindən mütəmadi və ya qərəzli olaraq boyun qaçırdıqda, məhkəmə icraçısı və ya hərbi hissənin komandiri (rəisi) şərti məhkum etmənin ləğv edilməsi və hökmlə təyin olunmuş cəzanın icra olunması barədə məhkəməyə təqdimat verir (mad.182). Cinayət qanunu da analoji hallarda, həmçinin ehtiyatsızlıqdan cinayət törətdikdə və ya qəsdən böyük ictimai təhlükə törətməyən, habelə az ağır, ağır və ya xüsusilə ağır cinayət törətdikdə şərti məhkum etmənin ləğvi və ya saxlanılması, yaxud ləğv edilərək məhkuma hökmlərin məcmuyu qaydasında cəza təyin edilməsi hallarında da şəxsin əvvəlki cəzanı çəkmək üçün göndərilməsi qaydasını nəzərdə tutur.

Buradan belə bir nəticəyə gəlmək olar ki, intizam xarakterli hərbi hissədə saxlama cəzasına şərti məhkum olunmuş hərbi qulluqçu göstərilən əsaslara görə həmin cəzanı çəkmək üçün qanunla müəyyən edilmiş qaydada yenidən intizam xarakterli hərbi hissəyə və müəssisəyə göndərilməlidir. Bu isə onun hərbi xidmət müddəti qurtardığından "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının 25 dekabr 1991-ci il tarixli qanununun 3-cü maddəsinə əsasən, artıq hərbi qulluqçu statusunu itirməsinə görə mümkün deyildir. Belə bir vəziyyətdə həmin məhkumun CM-nin 56-cı maddəsində nəzərdə tutulmuş cəzaçəkmə müəssisələrinə göndərilməsi də mümkün deyildir, çünki intizam xarakterli hərbi hissədə saxlama cəzasının həmin cəzaçəkmə müəssisələrində çəkilməsi qaydası və şərtləri qanunvericilikdə nəzərdə tutulmamışdır. Bu isə o deməkdir ki, qanunda nəzərdə tutulmadığından bu kimi hallarda intizam xarakterli hərbi hissədə saxlama cəzasının başqa cəza növü ilə əvəz edilməsi də nəzəri və praktiki cəhətdən istisna olunur.

CM-ə əsasən sınaq müddətinin azı yarısı keçdikdən sonra şərti məhkum edilmiş şəxs öz davranışı ilə islah olunduğunu sübut edərsə, məhkəmə məhkumun üzərində nəzarəti həyata keçirən dövlət orqanının təqdimatı əsasında şərti məhkum etmənin ləğv edilməsi və məhkumluğun götürülməsi barədə qərar qəbul edə bilər (mad.71.1). Lakin bunun üçün sınaq müddətinin azı yarısı keçməli, məhkum öz davranışı ilə islah olunduğunu sübut etməli və onun üzərində nəzarəti həyata keçirən dövlət orqanının (hərbi hissə və müəssisə komandanlığı) təqdimatı olmalıdır.

Deməli, qanunda nəzərdə tutulan bu şərtlər ödənilmədiyi təqdirdə sınaq müddətinin azı yarısının keçməsi də şərti məhkum edilmiş şəxsin, o cümlədən intizam xarakterli hərbi hissədə saxlama cəzasına şərti məhkum edilmiş hərbi qulluqçuların heç də hamısının barəsində həmin normanın tətbiqinə əsas vermir. Bu isə məsələnin tam həlli kimi qəbul edilə bilməz, çünki sınaq müddətinin yarısı keçmiş, lakin şəxsin davranışının mənfi istiqamətinin şərti məhkum etmənin ləğvinə əsas vermədiyi üçün onların cəzadan azad edilməsi heç bir hüquqi əsasa söykənmir və bu hal törədilmiş cinayətin cəzasız qalması təsəvvürü yarada bilər. Bu hal intizam xarakterli hərbi hissədə saxlama növündə cəzaya şərti məhkum edilmiş, lakin sınaq müddəti başa çatanadək tərxis olunmuş məhkumlara münasibətdə özünü daha qabarıq şəkildə göstərir.

Göründüyü kimi, intizam xarakterli hərbi hissədə saxlama cəzasına şərti məhkum etmənin təyini və icrası mexanizmi ilə bağlı qanunda kifayət qədər ziddiyyətli məqamlar mövcuddur və bu istiqamətdə müvafiq araşdırmalar aparmaqla qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə onların aradan qaldırılmasına ehtiyac vardır.

Fikrimizcə, bu boşluqların bir hissəsini qanunda mövcud olan bir sıra müddəaların köməyi ilə, digər hissəsini isə ona əlavə və dəyişikliklər edilməsi yolu ilə aradan qaldırmaq mümkündür. Hüqüq ədəbiyyatında da intizam xarakterli hərbi hissədə saxlama cəzasına şərti məhkum etmə zamanı yaranan bu ziddiyyətlərin həlli üçün bilavasitə qanunun özündə sınaq müddətinin yarısı keçənədək şərti məhkum etmənin ləğv edilməsi imkanının nəzərdə tutulması təklif edilir (12, s.213).

Lakin bu fikirlə razılaşmaq olmaz, çünki bu müddəanın qəbul edilməsi və qanunda nəzərdə tutulması belə bir anormal vəziyyətə gətirib çıxarardı ki, intizam xarakterli hərbi hissədə saxlama cəzasına şərti məhkum olunmuş şəxs cəmi bin neçə ay keçdikdən sonra

yuxarıda qeyd edildiyi kimi sınaq müddətinin yarısı keçənədək hərbi xidmət müddəti başa çatdığından tərxis olunduğu hallarda şərti məhkumluğu ləğv edilməklə və məhkumluğu götürülməklə cəzadan və onun cinayət-hüquqi nəticəsi olan məhkumluqdan tamamilə azad olunardı. Bu isə öz növbəsində həmin normanın cəzanın məqsədinə nail olmaqdan daha çox ondan uzaqlaşmağa xidmət etməklə faktiki stimullaşdırıcı (həvəsləndirici) normaya çevrilməsinə səbəb olardı.

Göstərilənləri ümumiləşdirərək hesab edirik ki, qüvvədə olan cinayət və cəza-icra qanunlarında mövcud olan ziddiyyət və boşluqları aradan qaldırmaq məqsədi ilə hərbi qulluqçulara cəza təiyn edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi nəzərə alınmaqla sınaq müddəti elə təyin edilməlidir ki, həmin müddət məhkumun hərbi xidmət müddətinin qalan hissəsindən az olsun, bu mümkün olmadıqda isə heç olmazsa, hərbi xidmət müddəti başa çatanadək sınaq müddətinin azı yarısı keçmiş olsun. Bu da mümkün olmadıqda, məhkəmə həmin şəxsə bu cəzanı şərti təyin etməməlidir.

Eyni zamanda bu cəzaya şərti məhkum edilmiş hərbi qulluqçunun sınaq müddəti başa çatanadək ordudan tərxis olunması hallarında onun yaşayış yeri üzrə qeydiyyata götürülməsi və üzərində nəzarətin həyata keçirilməsi, habelə sınaq müddətinin hesablanması mexanizminin təkmilləşdirilməsi məqsədi ilə CM-nin 70.3-cü maddəsində birinci cümlədən sonra «sınaq müddəti məhkəmənin hökmü qanuni qüvvəyə mindiyi gündən hesablanır» ifadəsinin, 70.6-cı maddəsində isə "həyata keçirilir" sözlərindən sonra "sınaq müddəti ərzində şərti məhkum edilmiş şəxs üzərində nəzarət məhkəmənin hökmünün icraya yönəldilməsi günündən hesablanır" sözlərinin əlavə edilməsi, CİM-də isə 18 iyun 2010-cu il tarixli Qanunla qüvvədən düşmüş 180.3-cü maddənin yeni redaksiyada aşağıdakı məzmunda verilməsi məqsədəuyğundur.

"Maddə 180.3. Hərbi xidmət müddətində törətdiyi cinayətə görə şərti məhkum olunmuş və sınaq müddəti başa çatanadək hərbi xidmətdən tərxis olunmuş hərbi qulluqçunun yaşayış yeri üzrə icra qurumu tərəfindən qeydə alınması və onun üzərində nəzarətin həyata keçirilməsini təmin etmək məqsədi ilə hərbi məhkəmə və ya hərbi hissə komandiri (rəisi) hökmün surətini və digər sənədləri məhkumun yaşayış yeri üzrə məhkəməyə və icra qurumuna göndərməlidir".

Qeyd etmək lazımdır ki, qüvvədə olan cinayət qanunu təhlil olunan cəzanın cinayət-hüquqi nəticəsi olan məhkumluğu da nəzərdə tutur. Çox maraqlıdır ki, Azərbaycan SSR-in 1961-ci il CM-nin 53-cü maddəsinin 1-ci hissəsinə əsasən inizam batalyonunda cəza çəkmiş və ya ondan vaxtından əvvəl azad edilmiş şəxslər, habelə islah işləri əvəzinə qaupvaxtda saxlanma şəklində cəza çəkmiş olan hərbi qulluqçular məhkumluğu olmayan şəxslər hesab edilirdilər. Qüvvədə olan cinayət qanununda bu müddəanın birbaşa nəzərdə tutulmaması onu deməyə əsas verir ki, bu cəzaya məhkum olunmuş şəxsin məhkumluğu sınaq müddəti başa çatdığı vaxtdan, qalan hallarda isə onlar cəzanı çəkib qurtardıqları gündən bir il keçdikdə ödənilir (mad. 83.2).

Fikrimizcə, bu məsələdə yeni cinayət qanununun mövqeyi daha düzgündür, məhkumluğun nəzərə alınması cinayətlərin xəbərdarlığı, təkrarlıq və residiv kimi cinayət-hüquqi institutların tətbiqinə imkan verir.

Azərbaycan Respublikası CİM-nin 149-cu maddəsi bu cəzanın icrası qaydalarını pozan məhkumlara bir sıra intizam xarakterli tənbeh tədbirlərinin tətbiqini nəzərdə tutur. Lakin bəzi hallarda həmin qaydaların pozulması intizam xarakterli hərbi hissədən qaçma və ya oranı özbaşına tərk etmədə ifadə oluna bilər. Bu məsələdə cinayət qanununun mövqeyi birmənalı olmadığı üçün bu istiqamətlərdə qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac vardır.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi Bakı, 2021.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası, Bakı,2008.
3. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi Bakı, 2022.
4. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsi Bakı, 2021.
5. «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikasının Qanunu Bakı, 1991.
6. «Hərbi xidmətkeçmə haqqında» Əsasnamə Bakı,1997.
7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci maddəsinin şərh edilməsinə dair»18 iyul 2005-ci il tarixli Qərarı.
8. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarlar Məcmuəsi (1991-2008), Bakı,2008.
9. Azərbaycan Respublikası Ali Məhkəməsinin «Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında» 25 iyun 2003-cü il tarixli 4 №-li Plenum Qərarı.
10. F.Y.Səməndərov Cinayət hüququ.Ümumi hissə, Bakı, 2007. 992 s.
11. M.D.Səlimov Azadlığı məhdudlaşdırılan bəzi cəzaların tətbiqi problemləri. Bakı,2011.472 s.
12. Комментарий к Уголовному Кодексу Российской Федерации.Под ред.С.И.Никулина, М.2001, 320 с.

CHARACTERIZATION AND PUNISHMENT ISSUES OF MISCONDUCT OF A MILITARY SERVANT WHO IS PUNISHED FOR A DISCIPLINARY MILITARY DISCHARGE

Malik Salimov
PhD, Associate Professor
Senior Lecturer of Haydar Aliyev Academy
of State Security Service, Azerbaijan

ABSTRACT

The article examines the issue of qualification of the unauthorized abandonment of a military serviceman servin a sentrence of detention in a disciplinary military unit and the punishment to be applied. In this regard, the different aspects of the mentioned criminal act from the crime of escape from a place of confinement, arrest or custody were researched with reference to the existing provisions in criminal legal theory, crininal law, execution of punishments and criminal-procedural legislation, as well as military legislative acts. Considering the legal status of the military serviceman serving a sentence in a disciplinary military unit and the place where he is serving his sentence, as well as the purpose of his unauthorized abandonment, the nature of social relations damaged by the act, and other factors, it was concluded that the unauthorized abandonment of a military serviceman serving a disciplinary military unit shall not be qualified under Artikle 333.5 but under Article 304 of the Criminal Code.Taking the above-mentioned issues into account, it is proposed to remove Artikle 333.5, which regulates the criminalization of the unaulthorized abandonment of a military serviceman serving a sentence of defention in a disciplinary military, from the Criminal Code and to improve the military legislation in the area.

Keywords: *disciplinary, arbitrarily, military servant, suspended sentence, probation, coercive measure.*

ÖZÜNÜ ÖLDÜRMƏ HƏDDİNƏ ÇATDIRMA ƏMƏLİNƏ GÖRƏ MƏSULİYYƏT

UOT (УДК) – 34:343.6

Nigar Əskərova
Azərbaycan Respublikasının Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin böyük prokuroru, II dərəcəli hüquqşünas
nigar.askarova@prosecutor.gov.az

Yaşamaq hüququnun təmin edilməsi məsələsinin vacibliyini nəzərə alaraq, həyat və sağlamlıq əleyhinə cinayətlər kateqoriyasına aid olan özünü öldürmə həddinə çatdırma cinayətinə görə cinayət məsuliyyətini müəyyən edən xarici ölkələrin qanunvericiliyinin müqayisəli şəkildə öyrənilməsi mühüm praktiki və nəzəri əhəmiyyətə malikdir. Belə bir təhlil müəllif tərəfindən aparılaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə yanaşı özünü öldürmə həddinə çatdırma cinayət əməlinə görə müxtəlif dövlətlərin cinayət qanunlarında nəzərdə tutulmuş məsuliyyət barəsində elmi araşdırmalar hazırki məqalədə oxucuların diqqətinə çatdırılır.

Açar sözlər: *özünü öldürmə, suisid, məsuliyyət, asılılıq, fərdlərarası münasibətlər, intihara təhrik etmə, yaşamaq hüququ.*

İnsan, onun həyatı və sağlamlığı həm beynəlxalq hüquq normaları, həm də milli qanunvericiliklə tənzimlənən bir sahədir. Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsinə əsasən, hər kəsin yaşamaq hüququ vardır. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.

Azərbaycan Respublikası Konstitusiyasının 31-ci maddəsində isə təhlükəsiz yaşamaq hüququ təsbit edilmişdir. Həmin maddəyə əsasən, hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

Yaşamaq hüququ Azərbaycan Respublikasının ratifikasiya etdiyi və milli qanunvericilik sisteminin tərkib hissəsi hesab olunan insan hüquqlarına dair bütün əsas Konvensiyalarda, o cümlədən "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"nin 3-cü maddəsində (Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazıq hüququna malikdir.), "Mülki və Siyasi Hüquqlar haqqında" Beynəlxalq Paktın 6-cı maddəsində (Yaşamaq hüququ hər bir insanın alınmaz hüququdur. Bu hüquq qanunla qorunur. Heç kim özbaşınalıqla həyatdan məhrum edilə bilməz.), "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında" Avropa Konvensiyasının 2-ci maddəsində təsbit olunmuşdur (Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Hər kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış hökmün icrasından başqa, həyatından məhrum edilə bilməz).

Yaşamaq hüququnun təmin edilməsinin vacibliyini nəzərə alaraq, həyat və sağlamlıq əleyhinə cinayətlər kateqoriyasına aid olan özünü öldürmə həddinə çatdırma cinayətinə görə cinayət məsuliyyətini müəyyən edən xarici ölkələrin qanunvericiliyinin müqayisəli

şəkildə öyrənilməsi mühüm praktiki və nəzəri əhəmiyyətə malikdir. Belə bir təhlilin nəticələri bu sahədə qüvvədə olan milli cinayət qanunvericiliyin təkmilləşdirilməsi, bu cinayətlərin qarşısının alınması və intihar hallarının azalmasına yönəlmiş tədbirlər sisteminin işlənib hazırlanması zamanı istifadə edilə bilər.

Azərbaycanda. özünü öldürmə həddinə çatdırma Azərbaycan cinayət qanunvericiliyi üçün yenilik deyil və 1922-ci, 1927-ci və 1960-cı illərdə qəbul edilmiş Cinayət Məcəllələrində öz əksini tapmışdır. Lakin hər bir Cinayət Məcəlləsində bu cinayətin tərkib elementləri, əsasən də cinayətin obyektiv cəhətini xarakterizə edən elementlər və məsuliyyət məsələləri bir qədər fərqli təsbit edilirdi.

Məsələn, 1922-ci ildə qəbul edilmiş Cinayət Məcəlləsinin 148-ci maddəsinə əsasən, yalnız yetkinlik yaşına çatmayan və yaxud öz hərəkətlərini anlamağa, həyata keçirməyə qadir olmayan şəxsin özünü öldürməsinə kömək və ya təhrik etmək cinayət sayılırdı və 3 ilədək azadlıqdan məhrum etmə cəzası müəyyən edilirdi.

1927-ci il Cinayət Məcəlləsində özünü öldürmə həddinə çatdırma əməlinə görə cinayət məsuliyyəti 178-ci maddədə nəzərdə tutulmuşdu və cinayətinin əlamətləri əvvəlki məcəllədən bir qədər fərqli göstərilirdi. 178-ci maddənin 1-ci hissəsinə görə, "başqa bir şəxsdən maddi və ya başqa cəhətdən asılı olan bir şəxs ilə amansız rəftar etməklə və ya bu kimi yollarla onu öz-özünü öldürmək və ya öldürməyə qəsd etmək dərəcəsinə çatdırmaq» cinayət sayılırdı və bu cinayət 5 ilə qədər azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılırdı. 1936-cı ildə həmin Cinayət Məcəlləsinə edilmiş dəyişikliklər nəticəsində 178-ci maddəyə əlavə olunmuş 2-ci hissəyə əsasən, "öz-özünü öldürmək və ya öldürməyə qəsd etmək" özünü yandırmaq üsulu ilə törədildikdə, ağırlaşdırıcı hal hesab edilirdi və təqsirkar 10 ilə qədər azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılırdı.

178-ci maddənin 3-cü hissəsində isə "yaşa dolmamış şəxsi, ya elədiyi işin mahiyyəti və xassəsini anlamağa və ya öz əməllərinə rəhbərlik etməyə iqtidarı olmayan şəxsi özözünü öldürməyə təhrik və ya kömək etmək, bu hərəkətlər nəticəsində həmən şəxs özözünü öldürərsə və ya öldürməyə qəsd etmiş olarsa" əməlinə görə 3 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulurdu.

1960-cı il Cinayət Məcəlləsinin 100-cü maddəsinə görə, "müqəssirdən maddi cəhətdən və ya sair cəhətdən asılı olan zərər çəkmiş şəxsi onunla amansız rəftar etmə və ya onun şəxsi ləyaqətini mütəmadi olaraq alçaltma yolu ilə özünü öldürmə dərəcəsinə və ya özünü öldürməyə sui-qəsd dərəcəsinə çatdırma" 7 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılırdı. Bu maddənin 2-ci hissəsi isə eyni hərəkətlərin təqsirkardan heç bir asılılığı olmayan şəxs barəsində törədilməsi hallarında tətbiq edilirdi və 3 ilədək müddətə azadlıqdan məhrum etmə cəzasını nəzərdə tuturdu.

Azərbaycan Respublikasının 2000-ci ilin sentyabr ayının 1-dən güvvəyə minmiş Cinayət Məcəlləsində özünü öldürmə həddinə çatdırma əməlinə görə cinayət məsuliyyəti 125-ci maddədə nəzərdə tutulmuşdur. Cinayət Məcəlləsinin 125-ci maddəsinin dispozisiyasından görünür ki, şəxsin özünü öldürməsi və ya özünü öldürməyə cəhd etməsi o halda özünü öldürmə həddinə çatdırma kimi tövsif olunur ki, zərərçəkmişin özünü öldürməsinə və ya özünü öldürməsinə cəhd etməsinə təqsirkar şəxsin amansız rəftarı (onu döyməsi, əzab verməsi, ac və ya susuz qoyması, gücü çatmayan fiziki işlərə məcbur etməsi və s.),

onun ləyaqətini mütəmadi olaraq alçaltması (onu təhqir etməsi, söyməsi, məsxərəyə qoyması, böhtan atması, haqqında rüsvayedici məlumatlar yayması və s.) və ya hədə-qorxu (maddi və sair yardımdan məhrum etməklə, işdən çıxarmaqla, yaşayış sahəsindən qovmaqla, barəsində rüsvayedici məlumatlar yaymaqla hədələmə və s.) səbəb olsun.

Əməlin Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə tövsif edilməsinin ikinci şərti isə zərərçəkmiş şəxsin təqsirkardan maddi (tam və ya qismən himayəsində olması, ondan yardım alması), xidməti (işçinin müdiriyyətindən, tabeçilikdə olan şəxsin rəisdən asılılığı) və sair cəhətdən asılı (maddi və xidməti asılılıq istisna olmaqla, bütün digər asılılıqlar) olmasıdır.

Maddi asılılıq altında aşağıdakı vəziyyət başa düşülür: zərərçəkmiş şəxsin təqsirkarın tamamilə və ya qismən himayəsində olması, onun yaşayış sahəsində yaşayır və sair. Bundan əlavə qohumluq, nikah və ya müqavilə münasibətlərindən irəli gələn asılılıq da nəzərə alınmalıdır (məsələn himayəçidən və qəyyumundan, işəgötürənindən və s. kimi asılılıq). Hər bir halda asılılıq əhəmiyyətli dərəcədə olmalıdır ki, zərərçəkən şəxsin müqavimət göstərmə iradəsini ciddi şəkildə çətinləşdirə yaxud tamam yatırmağa qadir olsun.

Maddi asılılıq elə bir asılılığı özündə ehtiva edir ki, bu zaman şəxsin yalnız bir dolanışıq mənbəyi vardır və onun itirilməsi həmin şəxsin və onun yaxınlarına əhəmiyyətli dərəcədə təsir göstərəcək. Bu qəbildən zinət əşyaların alınması üçün vəsaitin verilməsinin dayandırılması maddi asılılıq kimi qəbul etmək olmaz. Adətən maddi asılılıq uşaqların öz valideynlərindən, arvadın öz ərindən, himayəyə götürülənin öz himayəçisindən mövcud olur. Misal üçün, maddi asılılıq borcun ödənilməsi ilə əlaqədar yer ala bilər. 2019-cu ilin 5 iyun tarixində Xaçmaz rayonunda 21 yaşlı Günel Bəhram qızı Nağdıyeva intihar etmişdi. Mediada yayılan məlumata görə, qızın intihar səbəbi onun ailəsi tərəfindən məcbur evləndirilməsi idi. KİV-də yayılan məlumatları əsas götürsək, nəticəyə gəlmək olar ki, burada uşağın öz valideyinlərindən asılılığı o qədər yüksək idi ki, onun özünün iradəsi sınmaqla, zərərçəkmiş çıxış yolunu yalnız intiharda görmüşdür. Lakin hər bir halda olduğu kimi, bu halın da dərindən araşdırılması zəruridir.

Xidməti asılılıq iş yerində tabeçilik münasibətlərin mövcud olması ilə əlaqələndirilir. Bu isə işin yerindən, müəssisənin idarənin və ya şirkətin mülkiyyət növündən asılı olmayaraq bir şəxsin vəzifə səlahiyyətləri hüquq və imkanları digər işçiyə zərər verməsinə imkan yaradır (töhmət verilməsi, əmək haqqının aşağı salınması, vəzifəsində aşağı salınması, işdən azad edilməsi və sair).

Digər asılılıq yuxarıda qeyd olunmuş əsaslardan fərqlənən münasibətlərdən yaranır. Həyat tərzinin sahəsi və şəraitini nəzərə almaq şərti ilə digər asılılıq xüsusiyyətinə görə müxtəlif ola bilər. Belə ki, müəyyən şəxsdən asılılığı hər hansı iş yerinə düzəlmə zamanı, sürücülük vəsiqəsini alma zamanı, təhsin ocağına daxil olma zamanı, xəstənin öz həkimindən yarana bilər. Lakin bütün asılılıq növlərində ona hüquqi qiymət o yalnız cinayətin törədilməsinin stimulu olduqda verilir. Bu isə hər bir konkret halda müəyyənləşdirilməlidir.

Qeyd edək ki, 31 may 2011-ci il tarixli 137-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 125-ci maddənin sanksiyasında dəyişikliklər edilmiş ("üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri çıxarılmış) və hazırda bu əmələ görə 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur.

CM-nin 125-ci maddəsində təsbit edilmiş cinayət əməlinin ictimai təhlükəliliyi nəinki başqa şəxsin özünü həyatdan məhrumetməsi və ya buna cəhd göstərməsi, həm də təqsirkarın mənəviyyatdan, insanlıqdan kənar, amansız hərəkətlər etməsi ilə xarakterizə olunur. Bu cinayət maddi tərkiblidir və zərərçəkmiş şəxsin özünü öldürdüyü, yaxud özünü öldürməyə cəhd etdiyi andan başa çatmış sayılır. Zərərçəkmiş şəxsin özünü öldürməyə hazırlıq görməsi və ya özünü öldürəcəyini söyləməsi CM-nin 125-ci maddəsi ilə məsuliyyət yaratmır. Təqsirkarın əməlinin həmin maddə ilə tövsif edilməsi üçün zərərçəkmiş şəxsin öz sağlamlığına hər hansı zərər vurmaq deyil, özünü öldürmək niyyətində olmasının müəyyən edilməsi zəruridir. Əgər zərərçəkmiş şəxs özünü öldürmə cinayətini uydurursa, yəni özünü öldürmə niyyəti olmadan belə görüntü yaradan hərəkətlər edirsə, o halda CM-nin 125-ci maddəsi ilə cinayət məsuliyyəti istisna edilir [1].

Zərərçəkmiş şəxsin hər hansı bir şəxsin qanunauyğun hərəkətlərinə (məsələn, qanuni həbs və ya tutulma) cavab olaraq, yaxud fərdlərarası münasibətlərinə (məsələn, sevdiyi şəxsin nikaha girməkdən imtinası, tələbə yoldaşları ilə münaqişəli münasibətlər və s.) reaksiya olaraq, CM-nin 125-ci maddəsində qeyd edilən asılılıq olmadığı halda, özünə qəsd etməsi Azərbaycan Respublikasının cinayət hüququnda özünü öldürmə həddinə çatdırma cinayətinə görə məsuliyyət yaratmır [2].

Postsovet ölkələrinin yanaşması. Bir sıra postsovet ölkələrində özünü öldürmə həddinə çatdırma cinayətinin sadə növü nəzərdə tutulur, digərlərində isə bu cinayətin sadə növü ilə bərabər tövsif edilmiş növlər təsbit edilir. Yalnız sadə növləri öz cinayət qanunvericiliyində əks etdirən ölkələr bunlardır: Azərbaycan, Gürcüstan, Estoniya və Litva.

Məsələn Gürcüstanda (CM-nin 115-ci maddəsi) zərərçəkmiş şəxsin onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma əməlinə görə məsuliyyət müəyyənləşdirilmişdir.

Azərbaycanın CM-də 125-ci maddə analoji üsulla törədilən əməli nəzərdə tutur, yalnız fərq zərərçəkmişlə təqsirkar şəxslərin arasında maddi, xidməti və ya sair cəhətdən asılılığın olmasının mütləq mövcud olmasından ibarətdir.

Rusiya, Qazaxıstan, Ukrayna, Belorus, Latviya, Moldova, Türkmənistan, Özbəkistan, Tacikistan və Qırğızıstan kimi digər postsovet ölkələr özlərinin cinayət qanunvericiliklərində həm sadə, həm də töfsivedici növlərini nəzərə almışlar. Qüvvədə olan Rusiya Federasiyası Cinayət Məcəlləsinin 110-cu maddəsinin 1-ci hissəsi aşağıdakıları nəzərdə tutur: "Amansız rəftar etmə, insan ləyaqətini mütəmadi olaraq alçaltma, hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma..."

Zərərçəkmiş şəxsin təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmasının cinayət tərkibinin zəruri əlaməti kimi nəzərə alınmaması bu cinayətin dairəsinin genişləndirilməsinə səbəb olur. Həmin maddənin 2-ci hissəsində eyni əməlin töfsivedici halları göstərilmişdir: yetkinlik yaşına çatmayan şəxsə qarşı; hamilə qadına qarşı; iki və ya daha çox şəxslərə qarşı; qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən; kütləvi çıxışlarda, kütləvi nümayiş olunan əsərdə, kütləvi informasiya vasitəsində və ya informasiya-telekommunikasiya şəbəkələrində.

Digər ölkələrin yanaşması. Özünü öldürməyə meylləndirmək və intihara köməklik etmək özü özlüyündə cəmiyyət üçün təhlükə kəsb edir. Bu səbəbdən bu cinayətin törədilməsinə görə hər bir halda cinayət məsuliyyəti olmalıdır.

Müasir zəmanədə demək olar ki, əksər ölkələr intiharın cinayət olmamasını qəbul edirlər və bununla da qanunvericilikdə bu əməlin törədilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulmamışdır. Buna baxmayaraq, yenə də intihara cəhd cinayət hüquqi qaydada cəzalandırılan əməl sayılmaqla azadlıqdan məhrumetmə ilə və ya cərimə ilə cəzalanır (Hindistan CM-nin 309-cu maddəsi, Sudan CM-nin 133-cü maddəsi, Nigeriya CM-nin 327-ci maddəsi, Bruney CM-nin 309-cu maddəsi, Sinqapur CM-nin 309-cu maddəsi). Özünəməxsus tərzdə Kosta-Rika qanunvericiliyi bu məsələni nəzərdən keçirib (orada bu əmələ görə cinayət hüquqi qaydada deyil, psixiatriya müalicəsinə məcburi yönləndirməklə cəzalandırılır).

İslam dinində könüllü şəkildə öz canlarına qıyanlar Quranda qınanılır, bu səbəbdən BƏƏ, Səudiyyə Ərəbistan, İran İslam Respublikası kimi ölkələrdə də intihara cəhdə görə cinayət məsuliyyəti nəzərdə tutulur.

Qərbi Avropanın əksər ölkələrinin cinayət qanunvericiliyinə gəldikdə isə, yalnız intihar aktına meylləndirmə və ya ona vasitəçilik kriminal hesab edilir. Belə ki, İsveçrənin CM-nin 155-ci maddəsində qeyd edilir ki, "... kim ki hər hansı bir şəxsi intihara və ya ona cəhdə meylləndirir və yaxud o şəxsə intihar etməkdə və ya intihara cəhd etməkdə köməklik edir, həmin şəxsin cəzası katorqa həbsxanasında 5 ilə qədər müddəti ilə və ya həbsxanaya təcrid olunmaqla cəzalanır". Analoji mənzərə Danimarkanın (CM-nin 240-cı paraqrafında) və İsveçin cinayət qanunvericiliyində təsbit edilmişdir. Avstriyanın CM-də "intihara meylləndirməyə və zərərçəkənə bunda köməklik göstərilməsinə görə" məsuliyyət nəzərdə tutulmuşdur.

İtaliyanın CM-də birbaşa deyilir: "Kim ki, digər insanı intihar törətməyə təkid etsə, yaxud onun özünə qəsd etməsi niyyətini gücləndirsə, yaxud intihar etmə zamanı o şəxsə hər-hansı bir üsulla köməklik göstərsə, cəzalandırılır, əgər ardı ilə intihar olsa". Fransada hətta istifadəsinin nəticəsində ölümə səbəb ola biləcək əşya, xidmət, vasitə və üsulların reklam edilməsi və təbliğatına görə məsuliyyəti təsbit etmişdir. Polşanın CM-nin 151-ci maddəsində isə təqsirli bilinən şəxsin zərərçəkəni "dilə tutma" yolu ilə intihara gətirib çıxarmasına görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Qərbi Avropa ölkələrindən ən sonuncusu Böyük Britaniya intihara və ya intihara cəhdə görə məsuliyyəti tam şəkildə istisna etmişdir. Belə ki, 1961-ci ildə orada "İntiharlar haqqında" Qanunun (Suicide Act) qəbul edilməsilə yalnız suisidə köməklik edən şəxslərin cinayət məsuliyyəti müəyyən edilmişdir.

Özünü öldürmə həddinə çatdırma cinayətinin tərkibi digər ölkələrin qanunvericiliyində də mövcuddur. Cənubi Amerika ölkələrində Avropa sayağı yanaşma yer almışdır. Burada da cinayət məsuliyyəti intihara təhrikçiliyə görə nəzərdə tutulur. Argentinanın CM-nin 83-cü maddəsində qeyd edilir: "...digər şəxsi intihara təhrik edən və ya intihar etməsində köməklik edən şəxs bir ildən dörd ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Cəza həm intiharın baş tutmasında, həm də axıra kimi yerinə yetirilməmiş intihar cəhdi olduqda təyin edilir".

ABŞ-da vahid cinayət-hüquqi sistemi mövcud deyildir və hər bir ştatda muxtar qanunvericilik sistemləri tətbiq edilir. Ayrılıqda hər bir ştatın qanunvericiliyini təhlil etsək, bunu qeyd edə bilərik ki, onlarda cinayət məsuliyyəti normaları hətta bir-birinə zidd olur. ABŞ-da özünü öldürmə həddinə çatdırma cinayətinə görə məsuliyyət Nümunəvi Cinayət Məcəlləsi ilə tənzim olunur. Bu məcəllə özü özlüyündə birbaşa hüquq mənbəyi olmasa da, müəyyən hüquqi qüvvəyə malikdir.

Xarici ölkələrin cinayət məcəllələrində özünü öldürmə həddinə çatdırma cinayətinə görə cinayət məsuliyyətini müəyyən edən normaların təhlili onu göstərir ki, bu məsələyə dair fərqli yanaşmalar mövcuddur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin özünü öldürmə həddinə çatdırma cinayətinə görə məsuliyyət müəyyən edən 125-ci maddəsini əsas götürsək, özünü öldürmə həddinə çatdırma cinayətinə görə məsuliyyət nəzərdə tutan normaların xüsusiyyətlərinə görə xarici ölkələrin cinayət məcəllələrini şərti olaraq 3 qrupa bölmək olar:

❖ Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq norması ilə tam və ya qismən üst-üstə düşən normaları özündə ehtiva edən məcəllələr (Gürcüstan və Qazaxıstan);

❖ Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq norması ilə müqayisədə əhəmiyyətli dərəcədə fərqli normaları özündə ehtiva edən məcəllələr (Rusiya Federasiyası, Ukrayna, Belarus Respublikası, Qırğızıstan Respublikası, Litva Respublikası, Bolqarıstan Respublikası, Polşa Respublikası, Argentina Respublikası, Niderland, Danimarka, Norveç, Avstriya, İspaniya, İsveçrə, Yaponiya və Türkiyə Cümhuriyyəti və bir sıra digər ölkələrin Cinayət Məcəllələri). Bu məcəllələrin fərqi ondan ibarətdir ki, burada həm özünü öldürmə həddinə çatdırma əməlinə, həm də intihara təhrik etmə və ya kömək etmə əməllərinə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur;

❖ ümumiyyətlə özünü öldürmə həddinə çatdırma cinayətinə görə məsuliyyət nəzərdə tutmayan məcəllələr (Almaniya Federativ Respublikası, Belçika, İsveç, Çin Xalq Respublikası və Koreya Respublikasının Cinayət Məcəllələrini). Lakin Koreya Respublikasının Cinayət Məcəlləsinin 252-ci maddəsində zərərçəkmiş şəxsin xahişi və ya onunla əvvəlcədən razılaşma əsasında adam öldürmə cinayətinin təsbit edildiyini və bu əmələ görə müvafiq cəza müəyyən edildiyini nəzərə alsaq, burada özünü öldürməyə kömək əməlinin nəzərdə tutulduğunu ehtimal etmək olar.

Beləliklə, xarici ölkələrin cinayət qanunvericiliyində özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma, özünü öldürməyə təhrik və ya kömək etmə əməllərinə görə cinayət məsuliyyətini müəyyən edən normalar əhəmiyyətli dərəcədə biri birindən fərqlənir. Bir sıra postsovet ölkələrində özünü öldürmə həddinə çatdırma cinayətinin sadə növü nəzərdə tutulur, digərlərində isə bu cinayətin sadə növü ilə bərabər tövsif edilmiş növlər təsbit edilir. Yalnız sadə növləri öz cinayət qanunvericiliyində əks etdirən ölkələr bunlardır: Azərbaycan, Gürcüstan, Estoniya və Litva.

Gürcüstan Cinayət Məcəlləsinin 115-ci maddəsi özünü öldürmə həddinə çatdırma əməlinə görə məsuliyyət nəzərdə tutan maddəsinin dispozisiyası Qazaxıstan Respublikasının Cinayət Məcəlləsinin 105.1-ci maddəsinin dispozisiyası ilə eynilik təşkil edir: "zərərçəkmiş şəxsə qarşı hədə-qorxu, onunla amansız rəftar etmə və ya onun ləyaqətini mütəmadi olaraq alçaltma yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma"

[3]. Qeyd edək ki, Azərbaycan Respublikası CM-dən fərqli olaraq Gürcüstan cinayət qanunvericiliyində əməlin özünü öldürmə həddinə çatdırma kimi tövsif edilməsi üçün zərərçəkmiş şəxsin təqsirkardan maddi, xidməti və sair cəhətdən asılı olması tələbi qoyulmamışdır. Özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma əməlinə görə Gürcüstanın CM-də 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya həmin müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur. Azərbaycanın CM-də 125-ci maddə analojı üsulla törədilən əməli nəzərdə tutur, yalnız fərq zərərçəkmişlə təqsirkar şəxslərin arasında maddi, xidməti və ya sair cəhətdən asılılığın olmasının mütləq mövcud olmasından ibarətdir.

Litva Respublikasının Cinayət Məcəlləsində iki fərqli maddə nəzərdə tutulmuşdur: "özünü öldürmə həddinə çatdırma və ya buna təhrik etmə"yə görə cinayət məsuliyyətini nəzərdə tutan cinayətin sadə növünü nəzərdə tutan 113-cü maddə və "ümidsiz xəstənin xahişi ilə ona özünü öldürməyə kömək etməyə görə məsuliyyət nəzərdə tutan 134-cü maddə. Burada digər məcəllələrdən fərqli olaraq "özünü öldürməyə kömək etmə" dedikdə ümidsiz xəstənin xahişi ilə ona intihara kömək etmə başa düşülür [9].

Rusiya, Qazaxıstan, Ukrayna, Belorus, Latviya, Moldova, Türkmənistan, Özbəkistan, Tacikistan və Qırğızıstan kimi digər postsovet ölkələr özlərinin cinayət qanunvericiliklərində həm sadə, həm də töfsifvedici növlərini nəzərə almışlar. Qüvvədə olan Rusiya Federasiyasının 1996-cı il Cinayət Məcəlləsinin 110-cu maddəsinin 1-ci hissəsi aşağıdakıları nəzərdə tutur: Zərərçəkmiş şəxsə qarşı hədə-qorxu, onunla amansız rəftar etmə və ya onun ləyaqətini mütəmadi olaraq alçaltma yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma əməlinə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Həmin maddənin 2-ci hissəsində isə töfsivedici tərkibin əlamətləri sadalanmışdır:

- yetkinlik yaşına çatmayan, təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan və ya təqsirkar şəxsdən maddi və ya digər cəhətdən asılı vəziyyətdə olan şəxs barəsində törədildikdə;
- təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində törədildikdə;
- iki və ya daha çox şəxs barəsində törədildikdə;
- qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;
- ictimaiyyət arasında çıxış zamanı, kütləvi şəkildə nümayiş olunan əsərdə, mediada və ya informasiya-telekommunikasiya şəbəkələrində (İnternet şəbəkəsi daxil olmaqla) törədildikdə [7].

Bundan başqa Rusiya Federasiyasının 07.07.2017-ci il tarixli 120-FZ №-li Federal Qanunu ilə bu ölkənin Cinayət Məcəlləsinə intihara təhrik və ya kömək etmə əməllərinə görə cinayət məsuliyyətini müəyyən edən 110-1-ci, intihara təhrik etməyə yönəlmiş fəaliyyətin təşkil edilməsinə görə cinayət məsuliyyətini müəyyən edən 110-2-ci və yetkinlik yaşına çatmayan şəxsi onun həyatı üçün təhlükə yaradan hərəkətlərin edilməsinə cəlb etməyə görə cinayət məsuliyyətini müəyyən edən 151.2-ci maddə daxil edilmişdir.

Qazaxıstan Respublikasının Cinayət Məcəlləsində özünü öldürmə həddinə çatdırma ilə əlaqədar 105-ci maddə nəzərdə tutulmuşdur. Belə ki, həmin Məcəllənin 105.1-ci maddəsində zərərçəkmiş şəxsə qarşı hədə-qorxu, amansız rəftar etmə və ya onun ləyaqətini mütəmadi olaraq alçaltma yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə

çatdırma əməlinə görə 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur. 105.2-ci maddə isə tövsifedici tərkibin əlamətlərini sadalamışdır:

- təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan və ya təqsirkar şəxsdən maddi və ya digər cəhətdən asılı vəziyyətdə olan şəxs barəsində törədildikdə;
- iki və ya daha çox şəxs barəsində törədildikdə;
- qabaqcadan əlbir olan bir qrup şəxs və ya cinayətkar birlik tərəfindən törədildikdə;
- informasiya-telekommunikasiya şəbəkələrindən, o cümlədən İnternet şəbəkəsindən istifadə edilməklə törədildikdə.

Bu əməllər 5 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Məcəllənin 105.3-cü maddəsində isə 1-ci və 2-ci hissələrdə göstərilmiş əməllərin yetkinkik yaşına çatmayan şəxs barəsində törədilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutmuşdur (3 ildən 8 ilədək azadlıqdan məhrum etmə növündə cəza) [6].

Ukrayna Cinayət Məcəlləsinin 120-ci maddəsində zərərçəkmiş şəxslə amansız rəftar etmə, şantaj, onun ləyaqətini mütəmadi olaraq alçaltma, qanunsuz olaraq sistematik onun iradəsinə zidd olan hərəkətlərə məcbur etmə, intihara təhrik etmə və intihara şərait yaradan digər əməllərə görə 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya həmin müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən edilmişdir. Eyni əməllər təqsirkardan maddi və ya digər cəhətdən asılı olmuş zərərçəkmiş şəxs və ya iki və daha çox şəxs barəsində törədildikdə isə həmin məddənin 2-ci hissəsi tətbiq olunur və təqsirkar 5 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya həmin müddətə azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılır. Ukrayna CM-in 120-ci maddəsin 3-cü hissəsi isə həmin maddənin 1 və 2-ci hissələrində göstərilmiş əməllərin yetkinlik yaşına çatmayan şəxs barəsində törədilməsi hallarında tətbiq edilir. Bu halda təqsirkarı 7 ildən 10 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası gözləyir [8].

Belarus Respublikasının Cinayət Məcəlləsinə həm özünü öldürmə həddinə çatdırma (maddə 145), həm də intihara təhrik etmə (maddə 146) əməlinə görə məsuliyyət müəyyən edən iki maddə daxil edilmişdir. Belarus Respublikası CM-in 145.1-ci maddəsinə əsasən, "zərərçəkmişə və ya onun yaxın qohumlarına zor tətbiq etmək hədəsi, əmlakının məhv edilməsi, zədələnməsi və ya götürülməsi, onların haqqında rüsvayedici məlumatların yayması hədəsi ilə, zərərçəkmış şəxslə amansız rəftar etmə və ya onun ləyaqətini mütəmadi olaraq alçaltma yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma – 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya həmin müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Həmin əməllər təqsirkar şəxsdən maddi və ya digər cəhətdən asılı vəziyyətdə olan şəxs, iki və ya daha çox şəxs, yetkinlik yaşına çatmayan şəxs barəsində və ya qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə tövsifedici tərkib yaranır və CM-in 145.2-ci maddəsi ilə məsuliyyətə səbəb olur (5 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 1 ildən 5 ilədək müddətinə azadlıqdan məhrum etmə). Belarus Respublikası CM-in 146-cı maddəsində isə intihara təhrik etmə əməlinə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Həmin maddənin dispozisiyasında intihar etməyə təhrik etmə əməlinin üsulları açıqlanır: "qəsdən digər şəxsin intihar etmək qətiy-

yətini oyatmaq, zərərçəkmiş şəxs özünü öldürdükdə və ya özünün öldürməyə cəhd etdikdə". Bu əmələ görə 2 ilədək islah işləri və ya həmin müddətə azadlıqdan məhrum etmə cəzası, əməl iki və ya daha çox şəxs, yaxud yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə isə 4 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 5 ilədək müddətinə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur [5].

Qırğızıstan Respublikasının Cinayət Məcəlləsi də həm özünü öldürmə həddinə çatdırma (maddə 136), həm də intihara təhrik etmə (maddə 137) əməllərinə görə cinayət məsuliyyəti nəzərdə tutmuşdur. Cinayət Məcəlləsinin 136-cı maddəsinə əsasən, "zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zor tətbiq etməklə hədələmə, amansız rəftar etmə və ya onun ləyaqətini mütəmadi olaraq alçaltma, əgər bunlar zərərçəkmiş şəxsin özünü öldürmə və ya özünü öldürməyə cəhdlə nəticələnmişdirsə" cinayət məsuliyyətinə səbəb olur. Lakin burada digər ölkələrin Cinayət Məcəllələrindən fərqli olaraq əmələin ehtiyyatsızlıqdan və ya qəsdən törədilməsi fərqləndirilir. Əməl ehtiyyatsızlıqdan törədildikdə Cinayət Məcəlləsinin 136-cı maddəsinin 1-ci, qəsdən törədildikdə isə 3-cü hissəsi ilə tövsif edilir. Bundan əlavə 136-ci maddənin 2-ci hissəsi tövsifedici tərkib qismində əmələin maddi və ya digər cəhətdən asılı vəziyyətdə olan şəxs və ya təqsirləndirilən şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxs barəsində törədilməsini nəzərdə tutur. Cinayət Məcəlləsinin 137-cı maddəsində "intihara təhrik etmə, yəni digər şəxsdə özünü öldürmək qətiyyətini oyatmaq, əgər bu zərərçəkmiş şəxs tərəfindən özünü öldürmə və ya özünü öldürməyə cəhdlə nəticələnmişdirsə" əmələinə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Həmin maddənin dispozisiyasında bu əmələin törədilmə üsulları da öz əksini tapmışdır: "ələ alma, aldatma və ya digər üsulla". Maddənin 2-ci hissəsində isə tövsifedici tərkibin əlaməti qismində əmələin əmələin maddi və ya digər cəhətdən asılı vəziyyətdə olan şəxs və ya təqsirləndirilən şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxs barəsində törədilməsi göstərilmişdir [4].

Özünü öldürməyə meylləndirmək və intihara köməklik etmək özü özlüyündə cəmiyyət üçün təhlükə kəsb edir. Bu səbəbdən bu cinayətin törədilməsinə görə hər bir halda cinayət məsuliyyəti olmalıdır. Müasir zəmanədə demək olar ki, əksər ölkələr intiharın cinayət olmamasını qəbul edirlər və bununla da qanunvericilikdə bu əmələin törədilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulmamışdır. Buna baxmayaraq, yenə də intihara cəhd cinayət hüquqi qaydada cəzalandırılan əməl sayılmaqla azadlıqdan məhrumetmə ilə və ya cərimə ilə cəzalanır (Hindistan CM-in 309-cu, Sudan CM-in 133-cü, Nigeriya CM-in 327-ci, Bruney CM-in 309, Sinqapur CM-in 309-cu maddəsi). Özünəməxsus tərzdə Kosta-Rika qanunvericiliyi bu məsələni nəzərdən keçirib (orada bu əmələ görə cinayət hüquqi qaydada deyil, psixiatriya müalicəsinə məcburi yönləndirməklə cəzalandırılır).

İntihar etməyə kömək və ya intihara təhrik etməyə görə cinayət məsuliyyəti, əgər bu əməllər özünü öldürmə və ya özünü öldürməyə cəhdlə nəticələnmişlərsə, digər ölkələrin də cinayət qanunvericiliyində öz əksini tapmışdır. Misal üçün, Bolqarıstan Respublikası Cinayət Məcəlləsinin 127-ci maddəsində intihar etməyə kömək və ya intihara təhrik etməyə görə, Polşa Respublikasının Cinayət Məcəlləsinin 151-ci maddəsində razılığa gətirmə və ya kömək etmə yolu ilə zərərçəkmiş şəxsi özünü öldürmə həddinə çatdırma əmələinə görə, Argentina Respublikasının Cinayət Məcəlləsinin 83-ci maddəsində özünü öldür-

məyə təhrik etməyə və ya kömək etməyə görə, Niderland Cinayət Məcəlləsinin 294-cü maddəsində özünü öldürməyə təhrik etməyə, kömək etməyə və ya zərərçəkmiş şəxsi intihar etmək üçün lazımi vasitələrlə təmin etməyə görə, əgər bu əməllər intihara səbəb olduqda, Danimarka Cinayət Məcəlləsinin 240-ci maddəsində özünü öldürməyə kömək etməyə görə, Norveç Cinayət Məcəlləsinin 236-ci maddəsində özünü öldürməyə təhrik etməyə görə, Yaponiya Cinayət Məcəlləsinin 202-ci maddəsində zərərçəkmiş şəxsi özünü öldürməyə hazırlamağa, özünü öldürməyə kömək etməyə və ya zərərçəkmiş şəxsin razılığı və ya təkidi ilə adam öldürməyə görə, Türkiyənin Cəza Qanunun 454-cü maddəsində özünü öldürməyə təhrik etməyə və ya kömək etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Avstriya Respublikasının Cinayət Məcəlləsinin 78-ci (özünü öldürməyə təhrik etmə) və İsveçrə Cinayət Məcəlləsinin 115-ci (tamah məqsədi ilə özünü öldürməyə təhrik etmə və ya kömək etmə) maddələrində isə özünü öldürməyə təhrik etmə özünü öldürmə həddinə çatdırmanın bir üsulu kimi müəyyən edilmişdir.

İspaniya Krallığının Cinayət Məcəlləsinə də xüsusi diqqət yetirilməlidir. Bu Məcəllədə özünü öldürmə həddinə çatdırmağa görə məsuliyyət müəyyən edən ayrıca maddə nəzərdə tutulmamış, özünü öldürmə həddinə çatdırma və ya özünü öldürməyə kömək etmə əməlləri adam öldürmə cinayətinin növləri qismində "Adam öldürmə və onun növləri" adlı 143-cü maddənin 1-ci hissəsində öz əksini tapmışdır.

Beləliklə, bir çox xarici dövlətlərin Cinayət Məcəllələrində, həm özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma, həm də özünü öldürməyə təhrik və ya kömək etmə əməllərinə görə cinayət məsuliyyəti nəzərdə tutan maddələr mövcud olsa da, müxtəlif ölkələrin qanunvericiləri bu məsələlərə fərqli yanaşma nümayiş etdirirlər. Bəzi ölkələrin Cinayət Məcəllələrinə isə özünü öldürmə həddinə çatdırma, özünü öldürməyə təhrik etmə və ya kömək etmə əməllərinə görə cinayət məsuliyyəti müəyyən edən maddələr, ümumiyyətlə, daxil edilməmişdir.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. I hissə. – Bakı: "Hüquq Yayın Evi" nəşriyyatı, 2021, 712 s.
2. Самедова Ш.Т. Уголовное право Азербайджанской Республики. Особенная часть. Учебник. Баку: Adiloğlu, 2020, Том I, 824 s.
3. Законодательный Вестник Грузии / Уголовный Кодекс Грузии. Elektron mənbə: https://matsne.gov.ge/ru/document/view/16426?publication=229
4. "Уголовный Кодекс Кыргызской Республики" от 2 февраля 2017 года № 19/ Elektron mənbə: http://cbd.minjust.gov.kg/act/view/ru-ru/111527
5. "Уголовный Кодекс Республики Беларусь" 275-З от 9.07.1999 г. / URL: https://kodeksy-by.com/ugolovnyj_kodeks_rb.htm
6. "Уголовный Кодекс Республики Казахстан" (с изменениями и дополнениями по состоянию на 30.12.2020г.)/URL: https://online.zakon.kz/document/?doc_id=31575252#pos=5;-108
7. "Уголовный Кодекс Российской Федерации" от 13.06.1996 N 63-ФЗ (ред. от 05.04.2021, с изм. от 08.04.2021) / URL: http://www.consultant.ru/document/cons_doc_LAW_10699/
8. "Уголовный Кодекс Украины" с изменениями от 18.02.2021 года / Elektron mənbə: https://meget.kiev.ua/kodeks/ugolovniy-kodeks/
9. Republic of Lithuania Criminal Code / URL: https://www.legislationline.org/download/id/8272/file/Lithuania_CC_2000_am2017_en.pdf

CRIMINAL LIABILITY FOR INDUCEMENT TO SUICIDE

Nigar Askerova
Scientific-pedagocial Center of General Prosecutor's Office
Republic of Azerbaijan

ABSTRACT

Given the importance of the issue of ensuring the right to life, a comparative study of the legislation of foreign countries that defines criminal liability for incitement to suicide, which belongs to the category of crimes against life and health, has a great practical and theoretical importance. In addition to the analysis of the legislation of the Republic of Azerbaijan carried out by the author, scientific research on the responsibility provided for in the criminal laws of various countries for incitement to suicide is presented to the attention of the readers of this article.

Keywords: *self-murder, suicide, liability, addiction, interpersonal relations, incitement to suicide, right to life.*

MƏHKƏMƏNİN HÖKMÜNÜ, QƏRARINI, YAXUD DİGƏR AKTINI İCRA ETMƏMƏ CİNAYƏTİNİN OBYEKTİ

UOT (УДК) –343.3

Ülvi Əsədullayev
Cinayət hüququ və kriminologiya kafedrasının doktorantı, Hüquq fakültəsi, BDU, Azərbaycan
Ulvi.asadullayev@yahoo.com

Bildiyimiz kimi, Cinayət Məcəlləsinin hər bir fəsli müəyyən növ ictimai münasibətlərin pozulmasını nəzərdə tutan ictimai təhlükəli, qeyri-hüquqi əməlləri özündə əks etdirir. Qeyd olunan ictimai təhlükəli, qeyri-hüquqi, qeyri-əxlaqi əməllərdən biri də Azərbaycan Respublikası məhkəmələri tərəfindən Azərbaycan Respublikası adından qəbul edilən hüquqi sənədlərin icra edilməməsi əməlidir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 306-cı maddəsində məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə cinayətinin dispozisiyası qeyd edilmiş və həmin əməllərə görə cəzaların dairəsi müəyyənləşdirilmişdir. Qeyd edilən mövzu hazırda aktual olan bir mövzudur. Belə ki, istənilən məhkəmə hökmü, qərarı və digər aktı qəbul edildikdə bu qərar Azərbaycan Respublikasının adından qəbul edilir və həmin sənədlərin icra edilməsi bütün dövlət və qeyri-dövlət orqanları, fiziki və hüquqi şəxslər üçün məcburi xarakter daşıyır. Qanunverici orqanın bu maddəni Cinayət Məcəlləsində təsbit etməsində əsas məqsədi qeyd edilən məhkəmə aktlarının icrasının məcburi şəkildə təmin edilməsindən ibarətdir.

Açar sözlər: *məhkəmə hökmü, məhkəmə qərarı, qərardad, məhkəmə əmri, Cinayət Məcəlləsi*

Məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icra edilməməsinə görə cinayət məsuliyyəti məsələsinin tədqiqi göstərilən ictimai təhlükəli əməlin törədilməsi nəticəsində zərər dəymiş obyekti təhlil etmədən tam həyata keçirilə bilməz.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin qəbulu ilə obyektlərin mərhələli təsnifatını təyin edən şaquli təsnifatı konsepsiyası dəyişdirilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin bölmələri ümumi, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin fəsilləri isə cinayət hüququ müdafiəsinin xüsusi obyektlərini müəyyən edir. Bununla belə, son vaxtlar cinayət hüququ elmində belə bir mövqe daha çox əsaslandırılır ki, cinayət hüququnun müdafiəsinin obyekti ənənəvi mənada təkcə sosial münasibətlər ola bilməz, çünki ictimai təhlükəli əməl təkcə sosial əhəmiyyətli maraqlara və mənafelərə qəsd edə bilməz. İctimai təhlükəli əməl eyni zamanda sosial, iqtisadi, mədəni və s. maraqlara da təsir edə bilər.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-ci maddəsi – "Məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icra edilməməsi" 32-ci fəslin "Ədalət mühakiməsi əleyhinə cinayətlər" bölməsində yer almışdır (2). Deməli, ədalət mühakiməsinə qarşı cinayətlərin ümumi obyekti dövlət hakimiyyətinin normal fəaliyyəti sferasında təzahür edən ictimai münasibətlərdir.

Dövlət hakimiyyətinin qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinə bölünməsi məhkəmələrin qeyd olunan dövlət hakimiyyətinin qollarından ayrılması və məhkəmələrin səlahiyyətlərinin dövlət hakimiyyətinin digər qollarının məcmusundan ayrılması deməkdir (1). Dövlət hakmiyyətinin qollarının səlahiyyətləri ciddi şəkildə müəyyən edil-

miş hüquqlar, vəzifələr və məsuliyyətlər dəsti ilə müxtəlif dövlət orqanları tərəfindən həyata keçirilir. Hökumətin strukturu dəyişə bilər, lakin hakimiyyətin məzmunu həmişə dəyişməz qalır – bu, dövlətin cəmiyyətin idarə olunması üçün ayrılmaz bir sistem kimi mövcud olmasına imkan verən zəruri səlahiyyətlər məcmusudur.

Beləliklə, dövlət hakimiyyəti xüsusi orqanlar sistemi (dövlət aparatı) vasitəsilə cəmiyyətin siyasi rəhbərliyi kimi çıxış edir və cəmiyyətin fəaliyyətinin müxtəlif sahələrində, xüsusən də ədalət mühakiməsinin həyata keçirilməsində özünü göstərir. Müvafiq olaraq, mövcud bölgü baxımından ədalət mühakiməsi cinayət hüququnun müdafiəsinin müstəqil spesifik obyekti kimi seçilir, ümumi obyektlə hissə və bütövlükdə əlaqələndirilir. Qeyd edilən münasibətlərin konkret obyekti ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində ictimai münasibətlərdir. Bir çox müəlliflər "məhkəmə hakimiyyəti" və "ədalət" anlayışlarını müxtəlif yollarla müəyyənləşdirirlər, halbuki bu kateqoriyaların və onların əlaqəsinin başa düşülməsi məsələsi konkret və öz növbəsində münasibətlərin birbaşa obyektlərinin düzgün qurulması üçün prinsipial əhəmiyyət kəsb edir.

Hesab edirəm ki, məhkəmə hakimiyyəti qanunla müəyyən edilmiş səlahiyyətlərin real həyata keçirilməsi prosesini, müəyyən fəaliyyət mexanizmini, fəaliyyət göstərməsi üçün xüsusi şəraiti özündə əks etdirən dövlət-hakimiyyət münasibətlərinin mürəkkəb məcmusudur. 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 3-cü hissəsinə əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Həmin maddənin IV hissəsində qeyd edilir ki, bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər (1).

Konstitusiyanın qeyd olunan bu müddəası da alimlər arasında böyük müzakirə mövzusu olmuşdur. Belə ki, burada müstəqillik dedikdə, bir tərəfdə mütləq müstəqilliyi qeyd edən alimlər və digər tərəfdə isə müstəqilliyi mütləq müstəqillik kimi qeyd etməyən, sadəcə dövlət hakimiyyət orqanlarının qarşılıqlı əlaqəsini fikrini özündə əks etdirən müəlliflər yer almışdır. Lakin tədqiq etdiyimiz mövzu bu olmadığı üçün, qeyd edilən mövzunun üzərində dayanmaq məqsədəuyğun deyildir. Biz sadəcə məhkəmələrin müstəqilliyi prizmasından çıxış edirik. Onun əlamətləri müstəqillik, dövlət hakimiyyətinin digər iki qolu – qanunverici və icra hakimiyyətinə münasibətdə müstəqillikdir.

Ədalət mühakiməsi məhkəmənin 3 instansiyada mühakimə icraatı vasitəsilə mahiyyətcə məhkəməyə aid olan işlərə baxılmasından və həllindən ibarət olan, müvafiq normativ aktlarla tənzimlənən fəaliyyətdir. Yuxarıdakıları nəzərə alaraq, qeyd etmək olar ki, "məhkəmə hakimiyyəti" və "ədalət" anlayışları bir-biri ilə sıx əlaqəlidir, lakin ekvivalent deyildir. "Məhkəmə hakimiyyəti" anlayışı daha genişdir və məhkəmə hakimiyyətinin həyata keçirilməsi forması olan "ədalət" anlayışını özündə ehtiva edir. Bu kateqoriyaların aydınlaşdırılması konkret ictimai münasibətlərin hansı qrupunun pozulduğunu müəyyən etməyə imkan verəcəkdir.

Qeyd olunanlardan əlavə növ obyektinə nəzər salaq. Növ obyektinin məzmunu məsələsi mübahisəlidir. 1960-cı ildə RSFSR Cinayət Məcəlləsində ədaləti pozan ictimai təhlükəli əməllərin əvvəllər bir-birindən fərqlənən elementlərini birləşdirən "Ədalət əleyhinə cinayətlər" fəsli yarandıqda tədqiqatçılar arasında fikir ayrılığı yaranmışdır. Bu onunla bağlıdır ki, bəzi hüquqşünaslar hüquq-mühafizə orqanlarının ədaləti təbliğ edən fəaliyyətini qoruyan cinayət elementlərinin qeyd olunan fəsildə yer almasını əsassız hesab edirdilər. Alimlərin öz aralarındakı uyğunsuzluğu izah etmək cəhdləri ədalətin bir neçə mövqenin yaranmasına səbəb olmuşdur (7, s.162).

Bu konsepsiyanın mənşəyində İ.M.Tyazhkova ədalət mühakiməsinin prosessual və cinayət-hüquqi əhəmiyyətini vurğulamağı təklif etmişdir. İ.M.Tyazhkovanın nöqteyi-nəzərindən cinayət-hüquqi mənada ədalət mühakiməsi prosessual anlayışdan daha geniş bir anlayışdır və təkcə məhkəmənin deyil, həm də ədalət mühakiməsinin həyata keçirilməsində ona töhfə verən bütün orqanların fəaliyyətini əhatə edir. Bu baxımdan onlar ədalət mühakiməsinə qarşı cinayətlərə, ibtidai istintaqın düzgün aparılmasına, bütün instansiya məhkəmələrinin fəaliyyətinə qəsdlər, habelə hökmlərin və ya qərarların düzgün icrasına qarşı yönəlmiş hərəkətlər kimi qeyd olunurlar, çünki sadalanan bütün qəsdlər ədalət mühakiməsinin düzgün həyata keçirilməsinə zərər verə bilər (11, s. 126).

1970-ci illərdə bu konsepsiya bir çox alimlərin əsərində öz əksini tapmışdır. Raşkovskaya qeyd edirdi ki, ədalət mühakiməsi cinayət-hüquqi müdafiə obyekti kimi məhkəmə tərəfindən həyata keçirilən dövlət fəaliyyətinin konkret növü kimi ədalətdən daha geniş anlayışdır (12, s. 83). Bu müzakirələr nəticəsində gələcəkdə bir çox hüquqşünaslar ədaləti nəzərdən keçirərək, konkret obyektin tərifində bir neçə istiqamətin yaranmasına səbəb olan bu anlayışdan dəqiq çıxış etdilər.

İlk istiqamət kimi İ.M.Tyazhkovanı misal göstərmək olar. O, ədliyyə sisteminin normal fəaliyyətini təmin edən ictimai münasibətlərin məcmusunun növ obyektinə daxil edilməsini nəzərdə tutur. Müəllif qeyd edirdi ki, ibtidai istintaqın obyektiv və hərtərəfli aparılmasına mane olan, bununla da ədalət mühakiməsinin düzgün həyata keçirilməsinə mane olan hərəkətlər məhkəmə tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasına maneçilik törədir. Başqa sözlə desək, ədalət mühakiməsinin mənafeyinin lazımi səviyyədə müdafiəsi daha çox ibtidai istintaq orqanlarının, prokurorluğun, məhkəmə aktlarını icra edən orqan və müəssisələrin fəaliyyətinin cinayət-hüquqi cəhətdən düzgün təminatından asılıdır (11, s.128). Bununla belə, bir sıra alimlər qeyd edirdilər ki, RSFSR Cinayət Məcəlləsinin 8-ci maddəsində ədalət mühakiməsinin yalnız məhkəmə tərəfindən həyata keçirildiyi göstərilməklə belə çıxış etmək olar ki, bu yanaşma çox eklektikdir və dəqiqləşdirmə tələb edir. Buna görə də sözügedən cinayətlərin obyekti ibtidai istintaqın fəaliyyəti sferasında mövcud olan münasibətlərdir. Məsələn, V.K.Qlistin iddia edirdi ki, "ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində olan ictimai münasibətlər prosessual fəaliyyət çərçivəsində mülki və cinayət işlərini həll etməklə dövlətin və vətəndaşların hüquq və mənafelərinin müdafiəsi ilə bağlı dövlətlə istənilən fiziki və hüquqi şəxslər arasında güc münasibətləridir (4, s. 102).

Adıçəkilən müəllif ədalət mühakiməsinin yalnız məhkəmə tərəfindən həyata keçirildiyindən çıxış edərək, ədalət mühakiməsinə qarşı cinayətlərin konkret obyektini yalnız

məhkəmə hakimiyyətinin fəaliyyət sferasında ictimai münasibətlərlə məhdudlaşdırıldığını qeyd etmişdir. Müəllifin fikirlərini təqdid edərkən obyektin fəslində qeyd olunan ədalət mühakiməsinə qarşı cinayətlərdən qat-qat dar olduğu ortaya çıxır. Bənzər bir nöqteyinəzər bəzi müasir tədqiqatçılar tərəfindən paylaşılır, qeyd olunan cinayətin obyektinə daxil olan münasibətlər məhdudlaşdırılır.

Bu konsepsiyanın bəzi ardıcılları onu inkişaf etdirərək, geniş mənada təkcə ədalə-ti deyil, həm də onu həyata keçirən orqanları qeyd etməyin mümkün olduğuna ina-nırlar. Məsələn, M.N.Qolodnyuk qeyd edirdi ki, ədliyyə orqanları dedikdə təkcə məhkəmə deyil, həm də məhkəməyə ədalət mühakiməsinin vəzifələrini və məqsədlərini həyata keçirməyə kömək edən orqanlar (istintaq, təhqiqat, prokurorluq, hökmləri, qərarları və məhkəmə qərarlarını icra edən orqanlar) başa düşülür (5, s. 221).

A.İ.Druzinin fikrincə, ədalət mühakiməsinə qarşı cinayətlərin konkret obyekti dedikdə, məhkəmənin, istintaq və təhqiqat orqanlarının, prokurorluğun, habelə məhkəmə aktlarını icra edən orqanların qarşıya qoyulmuş məqsədləri həyata keçirmək üçün normal, prosessual qaydada tənzimlənən fəaliyyətini təmin edən ictimai münasibətlər başa düşülməlidir. Bu mövqeyə uyğun olaraq T.V.Kondraşov qismən hesab edirdi ki, bu qrup cinayətlərin obyekti ədliyyə sisteminin və məhkəmə hökmlərini və qərarlarını icra edən orqanların normal fəaliyyətini təmin edən ictimai münasibətlərdir. Bu mövqelər ədalət mühakiməsinin vəzifələrinin həyata keçirilməsində ictimai münasibətlərin bütün spektrini əhatə etdiyi üçün ağlabatan görünür (3, s. 56).

Bəzi müəlliflər ədalət mühakiməsinə qarşı cinayətlərin konkret obyektini məhkəmə, təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının fəaliyyəti ilə müəyyən edirlər. Lakin bu yanaşma tamamilə düzgün görünmür. Fəaliyyət cinayətin obyekti kimi çıxış edə bilməz, obyekt müvafiq fəaliyyət prosesində inkişaf edən sosial münasibətlərdir. Bundan başqa, təhqiqat, prokurorluq orqanlarının və cəzanı icra edən orqanların belə bir sıralama ilə fəaliyyəti ədalət mühakiməsinə münasibətdə məhkəmənin vahid, ekvivalent fəaliyyəti kimi görünür. Bəzi tədqiqatçılar hesab edirlər ki, ədalət mühakiməsinə qarşı cinayətlər bir-biri ilə əlaqəli iki sosial münasibətlər qrupunu pozur. Məsələn, V.Lobanova qeyd edir ki, ədalət mühakiməsi cinayət-hüquqi müdafiə obyekti kimi ilkin şərtləri, normal həyata keçirilməsini, habelə qoruyucu, idraki hüquq-mühafizə nəticələrinin həyata keçirilməsini, məhkəmənin və məhkəmənin prosessual sifarişli fəaliyyətini təmin etmək üçün nəzərdə tutulmuş ictimai münasibətlər sistemi kimi nəzərdən keçirilməlidir (6, s. 134).

Ədalət mühakiməsi əleyhinə cinayətlərin konkret obyektinə daxil olan iki qrup ictimai münasibətlərin mövcudluğunu digər tədqiqatçılar obyekti ədalət mühakiməsinin həyata keçirilməsi (məhkəmə tərəfindən) və hüquq-mühafizə orqanlarının (prokurorluq, təhqiqat və ibtidai istintaq orqanları, məhkəmə qərarlarını icra edən orqan və qurumlar) qanunla tənzimlənən fəaliyyətinin həyata keçirilməsi üçün ictimai münasibətlər kimi formalaşdırır (6, s. 155).

Bundan əlavə, müasir tədqiqatçıların ədalət mühakiməsi əleyhinə cinayətlərin konkret obyektinin ikililiyindən uzaqlaşmaq, onu ümumi məxrəcə gətirməyə cəhd edirlər. Belə ki, bir sıra müəlliflər "Ədalət mühakiməsi əleyhinə cinayətlər"i ədalətin maraqları nəzərdən keçirirdi. Məsələn, T.K.Aquzarov qeyd edir ki, ədalət mühakiməsi əleyhinə

cinayətlərin konkret obyekti iki qrup ictimai münasibətlərdən – məhkəmə tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsinə dair münasibətlərdən və hüquq-mühafizə fəaliyyətinin həyata keçirilməsinə yönəlmiş münasibətlərdən ibarət olan ədalət mühakiməsinin maraqları kimi müəyyən edilməlidir. Lakin biz əvvəllər qeyd edirik ki, maraqlar ictimai münasibətlərlə müəyyən edilir, onlardan təcrid olunmuş şəkildə mövcud deyil və buna uyğun olaraq, qəsd obyektinə maraqlar prizmasından baxmaq düzgün deyildir (5, s. 192).

Qeyd olunanlardan əlavə "Ədalət mühakiməsi əleyhinə cinayətlər"in birbaşa obyektinin müəyyən edilməsinə də zərurət vardır. Qeyd olunan cinayətlərin birbaşa obyektinə nəzər salaq. Azərbaycan Respublikasınını Cinayət Məcəlləsinin 306-cı maddəsinin mətni, Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 315-ci maddəsi ilə eynilik təşkil edir. Buna görə də maddədə qeyd olunan əməlin birbaşa obyekti haqqında rus hüquqşünaslarının fikirlərinə üstünlük verəcəyik (2).

Qeyd edilən normanın tərifinin düzgünlüyü son dərəcə vacibdir, çünki qanunverici bilavasitə obyekti təşkil edən ictimai münasibətləri qorumaq üçün konkret cinayət hüququ norması verir. Lakin tədqiqatçılar qeyd edilən maddənin birbaşa obyektini müəyyən edilməsində konsensusa gəlməkdə çətinlik çəkmişlər.

A.İ.Druzinə görə qeyd edilən əməlin bilavasitə obyektini cəza sisteminin orqan-ları və müəssisələrinin hökmün, qərarın və ya digər məhkəmə aktının icrasını təmin etmək üzrə normal fəaliyyəti kimi başa düşür. Bu halda, fikrimizcə, maddədə əks olunan cinayət hüququ normasının müdafiəsi altına alınan ictimai münasibətlərin dairəsinin əsassız məhdudlaşdırılması baş verir. Qeyd olunan maddənin icrası ilə bağlı penitensiar sistemi nəzərdən keçirək. Penitensiar sistem məhkəmə qərarlarının, digər məhkəmə aktlarının deyil, yalnız hökmlərin icrasına cavabdehdir. Bundan əlavə, vəzifəli şəxs təqsirləndirilən şəxs qismində cəlb edildikdə və zərurət yarandıqda, o, vəzifəsindən müvəqqəti kənarlaşdırıldıqda, müstəntiqin və ya müstəntiqin tələbi ilə, prokurorun razılığı ilə hakim bu barədə müvafiq qərar çıxarır, göstərilən şəxslərin iş yerinə icra üçün göndərilir. Qeyd olunanlar məhkəmə hökmünə aid edilir, qərar və ya digər aktların icra edilməsi penitensiar xidmətə deyil, digər dövlət orqanlarına həvalə edilir. Deməli hökmün icra edilməməsi və digər aktların icra edilməməsinə görə cavabdeh olan şəxslər və orqanlar bir-birindən ayrılır və bu da maddədə qeyd olunan əməlin birbaşa obyektinin tam olaraq müəyyən edilməsində məhdudiyyətlərə gətirib çıxarır (3, s. 112).

Bundan əlavə, bəzi tədqiqatçılar hesab edirlər ki, məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icra edilməməsi iki obyektiv cinayətdir. Məsələn, Ş.S.Raşkovskaya iddia edirdi ki, fərdin maraqlarının ədalət mühakiməsinə qarşı cinayətlərin birbaşa obyektləri sırasından çıxarılması, həmin maddədə qeyd olunan əməllərin birbaşa obyektinin ümumiləşdirilməsi birtərəflilik deməkdir. Bununla belə, İ.S.Vlasov iddia edirdi ki, fərdin maraqları ədalət mühakiməsinə qarşı cinayətlərin birbaşa obyekti kimi tanına bilməz, çünki onların müdafiəsi ədalət mühakiməsinin əsas vəzifəsidir. Deməli, fərdin maraqları əlavə obyekt kimi çıxış edə bilər. Bunun təsdiqi olaraq, A.B.Fyodorovun fikrini qeyd edə bilərik. O qeyd edirdi ki, ədalətin mahiyyətinin pozulmuş insan hüquqlarını qorumaq və ya bərpa etmək olduğuna inanır. Bu baxımdan ədalət mühakiməsinə bu və ya digər şəkildə qəsd edən hər hansı əməl şəxsin, cəmiyyətin və ya dövlətin

hüquq və qanuni mənafelərinə toxunur. Əgər bu müddəadan çıxış etsək, baxılan bütün cinayətlər apriori olaraq çoxməqsədli cinayətlərə aid edilməlidir. Lakin cinayətin bilavasitə obyektinin səciyyələndirilməsinə belə yanaşma tamamilə düzgün görünmür (12, s. 73).

Müəyyən bir obyektin tərifi ilə bağlı problemlərin təhlilini yekunlaşdıraraq, aşağıdakıları qeyd etmək olar. Ədalətin iki mənada anlayışını və ondan irəli gələn konkret cinayət obyektləri haqqında nəzəri fikirlər bizə metodoloji cəhətdən tamamilə düzgün görünmür. Alimlərin qanunvericiliyin bu və ya digər müddəasını izah etmək istəyi anlayışların əvəzlənməsinə səbəb olmamalıdır. Müasir qanunvericiliyin, o cümlədən hakimiyyət bölgüsü, muxtariyyət və məhkəmə hakimiyyətinin müstəqilliyi prinsiplərini nəzərə alaraq bildirmək məcburiyyətindəyik ki, məhkəməyə yardım edən orqanlar hətta şərti olaraq məhkəmə orqanlarına aid edilə bilməz. Lakin bu o demək deyil ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 32-ci fəsli "Ədalət mühakiməsi əleyhinə cinayətlər" bölünməli və ya məsuliyyəti onunla tənzimlənən cinayətlər Cinayət Məcəlləsinin digər fəsillərində yerləşdirilməlidir (2).

Fikrimcə, bu fəslin bütün cinayətləri ədalət mühakiməsinə qəsd edir və onlar üçün yalnız cinayətin təsir mexanizmi fərqlidir. Başqa sözlə desək, cinayətlərin bir qrupu bilavasitə məhkəmənin fəaliyyətinə, ikincisi isə dolayısı ilə ədalət mühakiməsinin həyata keçirilməsində məhkəməyə köməklik göstərən orqanların normal yardımçı işinə təsir göstərməklə maneələr yaradır.

Eyni zamanda, hüquq-mühafizə orqanlarının fəaliyyəti kifayət qədər mühüm xarakter daşıyır və ədalət mühakiməsinin həyata keçirilməsinə köməklik göstərilməsi, həm işlərin, həm də materialların lazımi qaydada hazırlanması baxımından məhkəmə tərəfindən onun həyata keçirilməsi üçün ilkin şərtlərin yaradılması ilə bağlıdır. Ona görə də hüquq-mühafizə orqanlarının bu funksiyasının normal həyata keçirilməsinə müdaxilə istər-istəməz ədalətə xələl gətirir.

Fikrimcə, cinayətin obyekti ilə bağlı məsələlərin tam şəkildə aydınlaşdırılması üçün Cinayət Məcəlləsinin 306-ci maddəsinə əsasən, həmin hüquq norması ilə qorunan sosial münasibətlərin struktur elementlərini, obyektə zərər vurma mexanizmini təhlil etmək lazımdır. Sosial münasibətlərin strukturunun elementləri bunlardır: münasibətlərin subyektləri (daşıyıcıları); münasibətlərin məzmunu kimi sosial əlaqə; münasibətlərin yaranmasına və mövcudluğuna vasitəçilik edən obyekt.

Beləliklə, məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icra edilməməsinin bilavasitə obyektini məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icrasına kömək edən orqanlar tərəfindən maneəsiz icrasının təmin edilməsi sahəsində ictimai münasibətlər kimi müəyyən etmək mümkün görünür.

Eyni zamanda, göz qabağındadır ki, məhkəmə aktlarının icra edilməməsi təkcə məhkəmə aktlarının məcburi icrasının təmin edilməsi sahəsində münasibətlərə qəsd etmir. Buna müvafiq olaraq, cinayət hüquq norması ilə qorunan əlavə bir obyekt haqqında danışa bilərik. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 306-cı maddəsinin tələblərini də nəzərə almaq lazımdır. Belə ki, məhkəmə aktlarının icrasına çağırılan orqanların normal fəaliyyətini təmin etmək üçün ictimai əlaqələrdən istifadə edilir. Bundan başqa, bir sıra hallarda araşdırılan cinayət törədərkən fərdin konstitusiya hüquq və azadlıqları-

nın, fiziki və hüquqi şəxslərin mülkiyyət hüquqlarının və s. həyata keçirilməsində ictimai münasibətlər pozulur, buna görə də onlar əlavə obyektlər kimi tanınırlar (2).

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Konstitusiyası, 1995;
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021;
3. Друзин, А.И. Посягательства на отношения по реализации приговора, решения суда или иного судебного акта : монография / А.И. Друзин. - Ульяновск: Ульяновский дом печати, 2001. - 143 с;
4. Глистин, В.К. Проблема уголовно-правовой охраны общественных отношений: объект и квалификация преступлений / В.К. Глистин. - Л.: Изд-во Ленинградского ун-та, 1979. - 127 с;
5. Голоднюк, М.Н. Вопросы совершенствования законодательства о преступлениях против правосудия / М.Н. Голоднюк // Государство и право на рубеже веков : материалы Всероссийской конференции. Криминология. Уголовное право. Судебное право. - М.: Изд-во ИГиП РАН, 2001. - С. 220-223;
6. Лобанова, Л.В. Преступления против правосудия: теоретические проблемы классификации и законодательной регламентации / Л.В. Лобанова. - Волгоград: Издательство Волгоградского Государственного ун-та, 1999. - 268 с;
7. Российское уголовное право. Особенная часть : учебник / С.В. Бородин и [др.] ; под ред. В.Н. Кудрявцева, А.В. Наумова. - М.: Юристъ, 1997. - 496 с;
8. Фефелов, П.А. Механизм уголовно-правовой охраны (основные методологические проблемы) / П.А. Фефелов. - М.: Наука, 1992. - 230 с;
9. Лупинская, П.А. Законность и обоснованность решения в уголовном судопроизводстве : учебное пособие / П.А. Лупинская. - М.: Юрид. лит., 1972. -79 с;
10. Лысов, М.Д. Ответственность должностных лиц по советскому уголовному праву / М.Д. Лысов ; науч. ред. Б.С. Волков. - Казань: Изд-во Казанского ун-та, 1972. - 176 с;
11. Власов, И.С. Ответственность за преступления против правосудия / И.С. Власов, И.М. Тяжкова. - М.: Юрид. лит., 1968. - 136 с;
12. Рашковская, Ш.С. Преступления против правосудия / Ш.С. Рашковская; отв. ред. Б.В. Здравомыслов. - М.: Изд-во ВЮЗИ, 1978. – 104 с.

OBJECT OF THE CRIME OF NON-ENFORCEMENT OF THE JUDGEMENT, DECISION OR OTHER ACT OF THE COURT

Ulvi Asadullayev
PhD student of Department of Criminal Law and Criminology
Faculty of Law, Baku State University, Azerbaijan

ABSTRACT

As we know, each chapter of the criminal code includes socially dangerous, illegal acts that involve the violation of certain types of social relations. One of the mentioned socially dangerous, illegal and immoral acts is the act of not executing the legal documents accepted by the Courts of the Republic of Azerbaijan on behalf of the Republic of Azerbaijan. In Article 306 of the Criminal Code of the Republic of Azerbaijan, the disposition of the crime of non-execution of the judgment, decision, or other act of the court is mentioned and the range of punishments for those acts is determined. The mentioned topic is currently an actual topic in the country. Thus, when any court sentence, decision and other act is accepted, this decision is accepted on behalf of the Republic of Azerbaijan, and the execution of those documents is mandatory for all state and non-state bodies, individuals and legal entities. The main purpose of the legislative body in enshrining this article in the Criminal Code is to ensure the mandatory execution of the mentioned court acts.

Keywords: *court verdict, court decision, decree, court order, Criminal Code, etc.*

KRİMİNOLOGİYA ∗ CRIMINOLOGY

CENTERING AZERBAIJAN IN A MOVE TOWARD AN EMPIRICAL CRIMINAL LEGAL JURISPRUDENCE

UOT (УДК) – 34:343.9.01

Kwan-Lamar Blount-Hill
PhD, JD [*]
Assistant Professor
Arizona State University, Phoenix, Arizona, USA
kbh@asu.edu

The purpose of legal scholarship is to maintain and advance society's understanding and awareness of the law and legal topics. When scholars ask, "What are actual problems in criminal law?," the answer must be empirical as well as doctrinal. In the present work, I draw on the prior work of Dreyve, Wijtvliet, and Lampach to call for an empirical criminal legal jurisprudence, one that utilizes the empirical methods of the social sciences to support the conceptual theory that currently predominates legal scholarship in Azerbaijan and elsewhere. The purpose of this legal research would be to better map, explain, and predict legal outcomes for the enhancement of legal practice. To do this, criminal law scholarship will require a more robust program of empirical training and research implemented by a diverse and inclusive professoriate.
Keywords: *empirical legal scholarship; law scholarship; social science; inclusive criminology*

Separation is a central feature of the academy. This separation tendency has distanced the primary mode of criminal legal scholarship and practical analysis (i.e., doctrinal) from the primary mode of scholarship and analysis used in virtually all other disciplines within the academy (i.e., empirical). While this may have little impact on the role of law professors in lawyers' vocational training, it does limit their role as the primary sources of societies' legal knowledge.

The academy as the organized body of individuals engaged in the profession of maintaining and advancing global societal knowledge. Professions are occupations requiring specialized education, exercise of independent judgment, prioritization of another's interests, in some cases above one's own, and ingroup regulation via codes of conduct which only other group members have the expertise to enforce [1]. A profession is a *community of practice*, "a persistent, sustaining network of individuals who share and develop an overlapping knowledge base, set of beliefs, values, history, and experience focused on common practice" [2, 3, 4]. *Academia* is the institution, that set of understood, embedded, and "taken-for-granted" practices and processes that facilitate the mission of the academy. *Academe* consists of the social setting, milieu and environs set aside for, or defined by association with, academics and academic work. The adjective *academic* refers to that which is related to the academy; thus an "academic culture," a set of "understandings (e.g., assumptions, beliefs and values) that contextualize efforts to make meaning, including internal self-definition" amongst academics [5]. The noun *academic* refers to individual members of the academy who often take on an "academic

identity," that is an individual's subjective self-conceptualization of themselves as an academic defined in great part by their perception of the prototypical academic [see 6]. For academics, maintaining and advancing societal knowledge involves determining what can be called "knowledge," generating (more of) that knowledge, protecting it from loss or corruption, sharing it, training others in its use and continued generation, and ensuring academia and academe facilitate these tasks. Of course, defining *knowledge* is a complex and difficult task, the subject of a field of study all its own, though, for my purposes, I adapt a common definition of *knowledge* as understanding and awareness (of a subject) which is reasonably and justifiably believed to be true [7].

Separation is essential to each of these definitions. To say "the academy" is to distinguish between, and thus separate, a set of professionals from other professionals. "Academia" is used to separate the institution from others, and "academe" separates those spaces set aside for academics. The adjective "academic" differentiates the subject it describes from those not related to the academy, and "academics" are individuals thus differentiated. Academics determine what is accepted as "knowledge," separating it from assumption or opinion. We – as I am an academic – discover and create more knowledge and protect it by enforcing boundaries to separate it from what it is not. Separation is as necessary feature of the academy as for the medical, theological, and legal professions [1]. However, the academy is now rife with separations that turn what began as helpful heuristics into dividing boundaries much less permeable than the realities academics purport to maintain and advance knowledge of.

Имеет место возрастание абсолютных показателей отдельных преступлений, предварительное следствие по которым является необязательным. Увеличением на 13,8% отличаются преступления коррупционной направленности, 20,2% - нанесение побоев лицом, подвергнутым административному наказанию, 8,1% - против собственности, 34,0% - незаконное предпринимательство, 31,6% - экономической направленности.

Внимания заслуживает наметившийся рост на 8,3% случаев хищения либо вымогательства оружия, боеприпасов, взрывчатых веществ и взрывных устройств. Показательным является увеличение на 29,1% преступлений, связанных с использованием оружия, боеприпасов, взрывчатых веществ, взрывных или имитирующих их устройств. Из них на 39,2% - деяний, сопряженных с использованием огнестрельного, газового оружия, боеприпасов, взрывчатых веществ и взрывных устройств, включая рост на 116,1% преступлений с использованием взрывчатых веществ и взрывных устройств.

Показательным представляется рост ряда преступлений с использованием информационно-телекоммуникационных технологий или в сфере компьютерной информации. На 1,4% увеличились указанные деяния, сопряженные с использованием сети «Интернет», 2,4% - мошенничество, регламентированное ст. 159, 159^3, 159^6 УК РФ, 31,6% - публичные призывы к террористической деятельности, предусмотренные ст. 205^2 УК РФ, 40,8% - преступления в сфере компьютерной информации.

Примечательным выглядит рост отдельных показателей преступлений, связанных, в частности, с незаконным оборотом наркотических средств, психотропных веществ или их аналогов, сильнодействующих веществ, новых потенциально опасных психоактивных веществ. В течение девяти месяцев 2022 года наметился рост на 1,6% тяжких и особо тяжких преступлений данного вида, в том числе на 5,6% - деяний, совершенных в особо крупном размере. Заслуживает пристального внимания увеличение показателей сбыта, производства, пересылки наркотических средств или психотропных веществ соответственно на 5,7%, 38,9%, 30,5%. Хищение либо вымогательство наркотических средств или психотропных веществ возросло на 12,8%.

В январе-сентябре 2022 г. в общественных местах регистрации подлежало на 2,2% больше преступлений, нежели за указанный период предыдущего года. В скверах, парках, на улицах и площадях было совершено на 3,0% больше тяжких и особо тяжких преступлений. Особо стоит отметить рост в общественных местах на 3,3% случаев убийства и покушения на его совершение и на 1,7% - умышленного причинения тяжкого вреда здоровью. Имеет место увеличение на 0,3% случаев совершения краж в общественных местах. Наметился рост на 7,9% среди преступлений, связанных с незаконным приобретением, передачей, сбытом наркотических средств, психотропных веществ или их аналогов, сильнодействующих веществ, новых потенциально опасных психоактивных веществ. Отмечено увеличение на

180,0% преступлений, совершенных на транспорте с использованием огнестрельного, газового оружия, боеприпасов, взрывчатых веществ и взрывных устройств [4].

Сложная криминогенная обстановка, связанная с ростом отдельных видов преступлений, диктует необходимость установления причин и условий правонарушающего, в том числе преступного поведения. Реализуемые социологические исследования преимущественно направлены на повышение эффективности правоохранительной деятельности, что заслуживает пристального внимания на законодательном и правоприменительном уровнях [3].

Стоит заметить, что данная тенденция роста характерна для показателей международной преступности. Проблема противодействия правонарушающему поведению стала предметом обсуждения в сентябре 2015 года на состоявшейся в Нью-Йорке 70-й сессии Генеральной ассамблеи ООН, результатом которой стало принятие Концепции устойчивого развития общества на период до 2030 г., обозначившей 17 целей и 169 задач.

По Концепции устойчивого развития общества принципиальное значение имеет повышение эффективности на внутригосударственном уровне правового воздействия на все сферы общественных отношений. Приоритетное значение отводится действию на основе принципов и норм международного права национальных правовых систем. Создание «общества знаний» положено в основу обеспечения прогрессивного развития и благополучия общества. Решению подлежат задачи, направленные на повышение качества жизни населения и сокращение уровня бедности, оптимизации правового воздействия в области социальной защиты и здравоохранения. Практическое значение имеет повышении роли социальных ценностей и социальной ответственности в механизме правового воздействия.

Для решения поставленных задач и достижения обозначенных целей необходимо расширение взаимосвязи и взаимодействия между субъектами реализации общесоциальных и юридических функций права. Такой подход, содействуя объединению административных, юридических и иных ресурсов обеспечит проведение целенаправленных, системных, согласованных организационно-практических мер по повышению уровня правовой культуры, развитию правового просвещения, преодолению правового нигилизма.

Учитывая динамику развития социально-экономических и политических процессов, на уровне национальных государственно-правовых систем в целях опережающего правового регулирования требуется активизация проведения исследований, позволяющих своевременно: определять препятствующие устойчивому развитию общества детерминирующие факторы выявляемых негативных тенденций; устанавливать условия формирования указанных негативных явлений в обществе; применять подлежащие законодательной регламентации на уровне международных, межгосударственных и внутригосударственных отношений меры правового воздействия; обозначать перспективы реализации правовых мер противодействия негативным социальным явлениям; устанавливать роль государства по обеспечению безопасности человека, общества и государства, мира и человечества;

раскрывать роль призванных содействовать прогрессивному поступательному развитию личности и институтов гражданского общества.

Обозначенные проблемы реализации правоохранительной деятельности в РФ нашли отражение в Стратегии национальной безопасности 2021 г., ориентирующей ученых и практиков на консолидацию ресурсов по разработке эффективных мер, направленных на обеспечение личной, общественной и государственной безопасности, на охрану незыблемых правовых ценностей, в том числе права на жизнь, личную свободу и личную неприкосновенность [5].

Резюмируя вышеизложенное, стоит заключить, что стратегические приоритеты, цели и задачи современной уголовно-правовой политики выстроены с учетом норм международного права на основе Стратегии национальной безопасности Российской Федерации. Для достижения на национальном уровне приоритетов, целей и задач, обозначенных мировым сообществом в Концепции устойчивого развития общества в контексте совершенствования мер уголовно-правового воздействия, требуется консолидация административных и иных ресурсов субъектов реализации как юридических, так и общесоциальных функций права, способствующая проведению системных, последовательных и согласованных законотворческих и организационно-практических мер, направленных на повышение эффективности правотворческой и правоприменительной деятельности путем внедрения «опережающего метода» в механизм правового регулирования в сфере экономического, социального и политико-правового развития человека, общества, государства, обеспечения уголовно-правовой защиты указанных объектов уголовно-правовой охраны.

ЛИТЕРАТУРА:

1. Авдеев В. А. Российское уголовное право. Общая часть. Курс лекций. Том 1. 2021. М.: Изд-во КТ «Буки-Веди», 2021. 424 с.
2. Авдеева О. А., Авдеев В. А. Стратегические направления правового воздействия в контексте реализации Концепции устойчивого развития современного общества // Вестник Восточно-Сибирского института Министерства внутренних дел России. 2022. № 1 (100). С. 9-19.
3. Лопашенко Н. А. Общественная опасность преступления: понятие и критерии верификации / Н. А. Лопашенко, А. В. Голикова, Е. В. Кобзева, Д. А. Ковлагина, М. М. Лапунин, К. М. Хутов // Law Enforcement Review. 2020. Vol. 4. Pp. 124–140.
4. Состояние преступности в России за январь-сентябрь 2022 года. М., 2022. 67 с.
5. Стратегия национальной безопасности Российской Федерации. Утверждена Указом Президента РФ 02.07.2021 г. № 400-ФЗ // Собрание законодательства Российской Федерации. 2021. № 27 (Ч. II). Ст. 5351.

PRIORITIES, GOALS AND OBJECTIVES OF CRIMINAL LEGAL POLICY IN THE CONDITIONS OF MODERN THREATS AND CHALLENGES

Vadim Avdeev
Doctor of Laws, Professor
Professor of the Department of Criminal Law and Criminal Procedure Law
Institute Ugra State University, Yugra State University
Russian Federation

Olga Avdeeva
Doctor of Laws, Associate Professor
Professor of the Department of State and Legal Disciplines
East-Siberian Institute of the Ministry of Internal Affairs of Russia
Russian Federation

ABSTRACT

The article is devoted to the disclosure of the current directions of the implementation of the modern criminal law policy of the Russian Federation, taking into account new priorities, goals and objectives caused by the renewal of threats and challenges that hinder the progressive sustainable development of the state and society. A significant role in modern criminal law policy is assigned to the prevention, prevention and counteraction of crime. Modernization of forms and means of criminal legal influence in modern conditions of aggravation of international and interstate relations is based on the improvement of the processes of criminalization of acts and the establishment of adequate degree of public danger of acts and perpetrators of criminal penalties to achieve priorities, goals and objectives of national security. In the process of improvement, special attention should be paid to the achievements of legal doctrine and official statistics materials based on the use of a set of general scientific, private scientific and special methods deserve special attention.

Keywords: *national security, criminal law policy, criminal law impact, mechanism of criminal law regulation, crime prevention.*

YETKİNLİK YAŞINA ÇATMAYANLARIN CİNAYƏT TÖRƏTMƏSİNİN SƏBƏBLƏRİ VƏ DİNAMİKASI

UOT (УДК) – 34:343.915

Məlahət Hacıyeva
Hüquq elmləri üzrə fəlsəfə doktoru,
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin rəisi
melahet.haciyeva@gmail.com

Məqalə Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ilk 5 il və son 5 il ərzində cinayət törətmiş yetkinlik yaşına çatmayanların cinayət törətməsinin əsas səbəblərinin müəyyənləşməsinə və onların yaşadığı və ünsiyyətdə olduğu sosial mühitin təhlil olunmasına, həmçinin onlar tərəfindən törədilən cinayətlərin yaş dövrlərinə, sosial-demoqrafik, ailə, məşğulluq əlamətlərinə və cinayət növlərinə görə rəsmi statistik məlumatlar əsasında dinamikasının araşdırılmasına həsr olunub. Yetkinlik yaşına çatmayanların cinayətkara çevrilməsinin qarşısının alınması üçün yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin təhlilin nəticələrinə əsasən cinayətlərin profilaktikasının istiqamətlərinə bir daha nəzər salınmalı, multidissiplinar mübarizə formaları və yuvenal məhkəmə sistemi yaradılmalıdır.

Açar sözlər: *Yetkinlik yaşına çatmayanlar, cinayətkarlıq, dinamika, cinayətkarın şəxsiyyəti, kriminal davranış, statistik məlumatlar, qanunvericilik, subyekt.*

Hər bir yetkinlik yaşına çatmayanların cinayətkarlığı problemi islahatlar dövrünü yaşayan demokratik cəmiyyəti narahat edən ən vacib məsələlərdən biridir. Cinayət-hüquqi, cinayət-prosessual, kriminoloji nöqteyi-nəzərindən cinayət törətmiş, şübhəli bilinən, təqsirləndirilən və günahı sübuta yetirilən yetkinlik yaşına çatmayanın hüquq və azadlıqlarının məhdudlaşdırılmasının icrası ilə bağlı məsələlər digər ölkələrdə olduğu kimi, hal-hazırda Azərbaycanda da xüsusən aktualdır [7, s.444]. Ümumilikdə yetkinlik yaşına çatmayanların cinayətkarlığı spesifik problem kimi kriminologiya elminə aiddir. Kriminoloji aspektdən baxdıqda yetkinlik yaşına çatmayanların cinayətkarlığının səbəbləri, dinamikası müəyyən dərəcədə cəmiyyətin inkişaf səviyyəsini və sosial yetkinliyini xarakterizə edir. Bununla yanaşı, yetkinlik yaşına çatmayanların cinayətkarlığı, gələcəkdə onlar tərəfindən təkrar cinayət əməllərinin törədilməsində, xüsusən də formalaşmış mütəşəkkil qrup şəklində cinayətlərin baş verməsində mənbə rolunu oynayır.

Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanların hüquq pozuntuları-nın qarşısını alınmasını ən az tədqiq olunan və az işlənilən mövzulardan hesab etmək olar. Yetkinlik yaşına çatmayanların peşəkar cinayətkara çevrilməsinin qarşısının alınması üçün isə hər şeydən əvvəl onlar tərəfindən törədilən cinayətlərin səbəbləri təhlil edilməlidir. Bu prosesdə yetkinlik yaşına çatmayanların yaşadığı və ünsiyyətdə olduğu sosial mühitin, xüsusilə də onların şəxsiyyətinin təhlil edilməsinə geniş yer verilməlidir. Kriminal davranışlı yetkinlik yaşına çatmayanların şəxsiyyətinin öyrənilməsi üçün isə bioloji, sosial və psixoloji amillərin rolunun təhlil edilməsi vacibdir. Hüquq ədəbiyyatında kriminal davranışlı yetkinlik yaşına çatmayanların şəxsiyyətini səciyyələndirən çox saylı hallar

və əlamətlər öz əksini tapıb. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 101-ci maddəsinin 4-cü hissəsinə əsasən məhkumlarla tərbiyə işi onların şəxsiyyətinin fərdi xüsusiyyətləri, xarakteri və törətdikləri cinayətin səbəbləri nəzərə alınmaqla həyata keçirilir [1]. Bununla da cinayətkarın şəxsiyyətinin öyrənilməsinin vacibliyi vəzifə olaraq qarşıya qoyulur.

"İnsan" anlayışı onun varlığının iki müxtəlif aspektlərinin: sosial və bioloji tərəflərinin ayrılmaz birliyini əks etdirir. "Şəxsiyyət" anlayışı özündə yalnız spesifik sosial əlamətləri ehtiva edir. Şəxsiyyət "insanın sosial simasıdır". Belə ki, o, sosial inkişaf və fəaliyyət prosesində cəmiyyətdə şəxsiyyət kimi formalaşır. Beləliklə, "cinayətkarın şəxsiyyəti" anlayışından istifadə edərkən, cinayət törətmiş şəxsin məhz sosial xarakteristikası nəzərə alınmalıdır [6]. Bu sahənin tədqiqatçılarının böyük əksəriyyətinin fikirlərinə istinadən kriminal davranışlı yetkinlik yaşına çatmayanların şəxsiyyətini səciyyələndirən əlamətləri üç qrupa bölmək olar:

1. Sosial-demoqrafik əlamətlər;
2. Cinayət-hüquqi əlamətlər;
3. Bioloji-psixoloji əlamətlər.

Sosial-demoqrafik əlamətlər dedikdə cinayət törətmiş, şübhəli bilinən, təqsirləndirilən və günahı sübuta yetirilən yetkinlik yaşına çatmayanın yaşı, cinsi, ailə vəziyyəti, təhsili, məşğuliyyət növü nəzərdə tutulur. Ümumilikdə hüquq ədəbiyyatında cinayət-hüquq nöqteyi nəzərindən 14-17 yaş arası şəxslər yetkinlik yaşına çatmayan hesab olunurlar. Cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunduğu, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 84.1 maddəsində də öz əksini tapmışdır [2].

Cinayət törətmiş yetkinlik yaşına çatmayanın şəxsiyyətini təhlil edərkən ilk növbədə onların yaş dövrü iki qrupa ayrılmalıdır:

- 14-15 yaşda olan yetkinlik yaşına çatmayanlar;
- 16-17 yaşda olan yetkinlik yaşına çatmayanlar.

Cədvəl 1.

Məhkum olunmuş 14-17 yaşda olan uşaqların sosial-demoqrafik əlamətlərinə görə bölgüsü		
Sosial demoqrafik əlamətlər	**1993-1997 illər üzrə**	**2016-2020 illər üzrə**
Cinayət törətmiş 14-17 yaşda olan yetkinlik yaşına çatmayanların cəmi sayı (nəfərlə)	4278	2174
Onlardan məhkum olunanların sayı (nəfərlə)	2851	1380
Yaşa görə		
14-15 yaş	280	192
16-17 yaş	2571	1188

Cinsə görə		
Oğlanlar	2808	1358
Qızlar	43	22
Ailə vəziyyətinə görə		
Hər iki valideyni olan ailədə	2069	1178
Bir valideyni olan ailədə	741	189
Ailədən kənarda (internatda, uşaq evində və s.)	41	13
Təhsili və məşğulluğuna görə		
Şagird və tələbələr	1099	358
İşləyənlər		234
İşləməyənlər və oxumayanlar	1752	788

Sevindirici haldır ki, Azərbaycanda cinayətkarlığın əsas göstəricilərinə nəzər saldıqda, son illərdə qeydə alınmış yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərin sayında azalma tendensiyasını görürük.

1993-1997-ci illər üzrə statistik göstəricilərdə hər iki valideynli ailələrdən olan uşaqların statistikası ayrıca qeyd olunamamışdır. Həmçinin, qeyd olunan illər üzrə şagird-tələbə və işləyənlər üzrə statistika ayrı ayrılıqda göstərilməmişdir. Bu da həmin dövrlərdə daha çox risk qrupuna daxil olanlar barədə statistik məlumatların qeyd olunmasının vacibliyi nəzərə alınaraq aparıldığı ehtimal olunur. 2000-ci ildən etibarən statistik göstəricilərin tərkibi təkmilləşdirilmişdir.

Yetkinlik yaşına çatmayanların şəxsiyyətində mövcud olan xüsusiyyətlərin böyük qismi ailədə formalaşır. Məhz ailə onların davranışındakı kriminogen halların yaranmasında və qarşısının alınmasında əsas vasitə kimi çıxış edir. Uşaqların şəxsiyyət kimi formalaşmasında valideynlərin nümunələri böyük təsir vasitəsidir. Ailədə yetkinlik yaşına çatmayanların cinayətkara çevrilməsinə əsas amillər aşağıdakılardır:

- yetkinlik yaşına çatmayanların keçid dövründə (12-14 yaş) valideynlərinin əxlaqa zidd həyat tərzi sürmələri;
- sprirtli içkilərə və narkotik vasitələrə aludə olması;
- ailədə yetkinlik yaşına çatmayana qarşı zorakı davranışın olması;
- ailədə və təhsil müəssisəsində yetkinlik yaşına çatmayanların heysiyyatına toxunan laqeyd münasibətin olması;
- yetkinlik yaşına çatmayanın asudə vaxtının düzgün təşkil olunmaması [5].

Qeyd olunanlara əlavə olaraq, yetkinlik yaşına çatmayanın cinayət törətməsinin səbəblərindən biri də çətin həyat şəraitində olan, bununla yanaşı əxlaqi cəhətdən mükəmməl olmayan ailələrdən olmasıdır. Belə ki, statistik göstəricilərə əsasən görürük ki, cinayət törətmiş azyaşlıların əksəriyyəti ailədə yaşayırlar. Gündəlik həyatı tələbatlarını təmin edə bilməyən, bununla yanaşı ailə başçısının tüfeyli həyat tərzi keçirtməsi, valideynlik

vəzifələrini icra etməməsi qəbildən olan ailələrdə valideynlər və uşaqlar arasında, valideynlərin özləri arasındakı tez-tez baş verən münaqişələr gərgin psixoloji vəziyyətin yaranmasına gətirib çıxar. Həmin ailədə böyüyən uşaqda isə qəddarlıq, ailə üzvlərinə həmçinin maddi vəziyyəti qənaətbəxş olan insanlara qarşı nifrət hissi formalaşır ki, bu da yetkinlik yaşına çatmayanda kriminogen davranışın formalaşmasına səbəb olur. Ailə artıq tərbiyəçi funksiyasını itirmiş olur. Beləliklə, ailə ya yeniyetmənin əxlaqının formalaşması üçün güclü təsir mənbəyinə çevrilir, ya da onu küçəyə, anti-sosial mühitə, kriminal sferaya itələyir. Nəticə etibarı ilə kriminogen davranışın "mexanizmində" çox vaxt "zəif iradə" deyil, "pis" məqsədlərə doğru güclü iradə böyük rol oynayır. Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin səbəblərini araşdıran kriminoloqların apardıqları təhlillər sübut edir ki, ən kriminogen amil ailə disfunksiyasıdır [8].

Cinayət-hüquqi əlamətlər dedikdə cinayətkar davranışın motivi, cinayətin törədilməsində rolu, cinayətkar davranışın fərdi və ya qrup, ilkin və ya residiv xarakterli olması nəzərdə tutulur.

Kriminoloqlar sübut etdilər ki, əgər şəxs erkən yaşlarından qanunazidd hərəkətlər və cinayət əməli etməyə başlayırsa, böyüdükcə onun davranışının kriminallaşmağa davam etməsi ehtimalı daha yüksək olur. Bununla bağlı təhlilin nəticələri cinayətlərin təkrar törədilməsinin birbaşa yetkinlik yaşına çatmayanların cinayətindən asılı olduğunu deməyə əsas verir. Bununla yanaşı residivist cinayətkarların tərcümeyi-hallarının təhlili göstərir ki, onların böyük əksəriyyəti cinayət əmlləri törətməyə yeniyetməlik illərində başlamışlar. Belə ki, onların bir çoxu cinayət məsuliyyəti yaşına çatmamış artıq ictimai təhlükəli əmellər törətmişlər. Mütəşəkkil cinayətkar qruplar əsasən, 18 yaşına çatmamış dəfələrlə hüquq-mühafizə orqanlarının nəzarətinə götürülmüş, inzibati və cinayət məsuliyyətinə cəlb edilən şəxslərdən ibarət olur. Bir sözlə, yetkinlik yaşına çatmayanların cinayətkarlığı mütəşəkkil cinayətkarlığın yaranmasında mənbə rolunu oynayır.

Cədvəl 2.

Məhkum olunmuş 14-17 yaşda olan yetkinlik yaşına çatmayanların cinayət törədilməsində rolu və iştirakı ilə bağlı müqayisəli təhlili		
Məhkum oluunmuş 14-17 yaşda olan yetkinlik yaşına çatmayanların cinayət törədilməsində rolu və iştirakı	**1993-1997 illər üzrə**	**2016-2020 illər üzrə**
Məhkum olunmuş 14-17 yaşda olan uşaqların sayı - cəmi (nəfərlə)	2851	1380
Cinayət törətmiş		
Sərxoş halda	157	9
Qrup şəklində	1871	235
Böyüklərin iştirakı ilə	770	363
Fərdi (yalnız yetkinlik yaşına çatmayan tərəfindən)	53	773

1993-1997-ci və 2016-2020-ci illər üzrə statistik göstəriciləri müqayisə etdikdə qrup şəkilində (yalnız yetkinlik yaşına çatmayanlar tərəfindən, həmçinin böyüklərin iştirakı ilə) törədilən cinayətlərin sayının əhəmiyyətli dərəcədə azalmasını və fərdi şəkildə, təkbaşına cinayətlərin sayı nəticə etibarı ilə 54% artdığını görürük.

Təkbaşına cinayət törədən yetkinlik yaşına çatmayanlar əsasən hər hansı bir cinayəti törətmək qərarını verir, onu əvvəlcədən planlaşdırır və onu həyata keçirtməyə hazırlaşır. Bunun üçün isə o, müəyyən bilik və bacarıqlara malik olmalıdır. Nəticədə planlaşdırdığı cinayət əməlini həyata keçirə bilirsə, həmin cinayətkarın şəxsiyyəti cəmiyyət üçün daha böyük təhlükə yaradan hesab edilir. Buna görə də deyə bilərik ki, yetkinlik yaşına çatmayanın ictiami təhlükəsi nə qədər böyükdürsə, onun təkbaşına cinayət törətmə ehtimalı da bir o qədər yüksəkdir.

Bununla yanaşı hüquq ədəbiyyatında da yetkinlik yaşına çatmayan cinayətkarlar arasından təkbaşına cinayət törədənlər "peşəkar tip" adlandırılırlar. Peşəkar tipin şəxsiyyəti tamamilə neqativ istiqamətdə inkişaf etməklə yanaşı, o, əxlaqi dəyərlərə qətiyyən hörmət etmir. Bu tip cinayətin törədilməsi üçün şəraitin yaradılmasına aktiv təşəbbüs və səy göstərir.

Ümumilikdə son illərdə "qanuni oğru", "kriminogen avtoritet", "qara zon" həyatı və təcrübəsi haqqında sosial şəbəkələrdə məlumatların və videoların paylaşılması və təbliğ edilməsi yetkinlik yaşına çatmayanların cinayətkarlığını yaradan səbəblərdən biridir. Düşünürük ki, məhz bu səbəblərdən də son 5 ildə təkbaşına, fərdi edilən cinayətlərin sayı artmışdır. Təhlilin nəticələrinə əsasən təkbaşına edilən cinayət hadisələri arasında ən çox rast gəlinən oğurluqdur.

Cədvəl 3.

Məhkum olunmuş 14-17 yaşda olan uşaqların törəditdikləri cinayət növləri üzrə		
Cinayətin növləri	**1993-1997 illər üzrə**	**2016-2020 illər üzrə**
Məhkum olunmuş 14-17 yaşda olan uşaqların sayı - cəmi (nəfərlə)	2851	1380
Qəsdən adam öldürmə	93	41
Qəsdən sağlamlığa ağır zərər vurma	127	151
Qəsdən sağlamlığa az ağır zərər vurma	0	41
Adam oğurluğu	0	2
Zorlama və zorlamaya cəhd	19	0
Oğurluq	1741	689
Soyğunçuluq	127	79
Quldurluq	78	43
Xuliqanlıq	103	83
Narkotik vasitələrlərin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər	104	38
Digər cinayətlər	459	213

Yuxarıda qeyd olunduğu kimi, qrup şəkilində (yalnız yetkinlik yaşına çatmayanlar tərəfindən, həmçinin böyüklərin iştirakı ilə) törədilən cinayətlərin sayı əhəmiyyətli dərəcədə azalmışdır. Sevindirici haldır ki, yetkinlik yaşına çatmayanlar tərəfindən son 5 il ərzində zorlama və zorlamaya cəhd ilə bağlı cinayət hadisəsi baş verməmişdir.

Yetkinlik yaşına çatmayanlar tərəfindən qrup formasında törədilən cinayətlər əsasən onların qrup halında birləşərək və ya qrupda iştirak edərək törədilir. Yetkinlik yaşına çatmayanlardan ibarət olan cinayətkar qrupların təsnifatı aşağıdakı kimidir:

1. Yetkinlik yaşına çatmayanların iştirak etdiyi cinayətkar qruplar;
2. Yalnız yetkinlik yaşına çatmayanlardan ibarət olan cinayətkar qruplar.

Yetkinlik yaşına çatmayan yeniyetmə xüsusən də sosial cəhətdən uğursuz ailələrdən olanlar hər zaman "güc"ə doğru meyillənirlər və bu da onların qrupa birləşməsini sürətləndirir. Qrupa birləşməsi isə onda antisosial vərdiş və davranış sterotiplərinin möhkəmlənməsində həlledici rol oynayır. Aparılan kriminoloji tədqiqatlar da sübut edir ki, cinayət törətmiş yetkinlik yaşına çatmayanların 70%-dən çoxu asudə vaxtlarını səmərəsiz, bəzi hallarda isə əvvəllər məhkum olunmuş şəxslərin əhatəsində keçirirlər. Aparılmış bir çox tədqiqatların nəticələrinə əsasən azyaşlıların iştirak etdiyi cinayətkar qrupun lideri əvvəllər məhkumluğu olmuş şəxslər olur. Yetkinlik yaşına çatmayanların iştirak etdiyi cinayətkar qrupun üzvləri içərisində əvvəllər məhkum olunmuş şəxslərin olduğu qruplar ən təhlükəli qruplar hesab olunur.

Statistik göstəriciləri müqayisə etdikdə görürük ki, qrup şəkilində, həmçinin böyüklərin iştirakı ilə törədilən cinayətlərin sayı son illərdə azalıb (cədvəl 2).

Yalnız yetkinlik yaşına çatmayanlardan ibarət olan cinayətkar qruplarda isə əsasən ümumi maraqlar, həyat tərzi, antisosial xüsusiyyətlərin formalaşmasına təkan verən neqativ əlamətlərin olması qrup üzvlərini birləşdirir. Bu qruplar yaranmış şəraitdən aslı olaraq ictimai qaydaların pozur və digər hüquqpozma hallarına yol verirlər, cinayətin törədilməsini qabaqcadan planlaşdırmırlar, ani alınmış qərarlar əsasında hərəkət edirlər.

Daha az ictimai təhlükəli olan yetkinlik yaşına çatmayanlar qrup halında cinayət törətməyə meyllidirlər, lakin bu cinayətlər çox ictimai təhlükəli ola bilir. Əksər yeniyetmələrdə təkbaşına qərar vermək və cinayəti törətmək cəsarəti olmadığından onlar həmyaşıdlarının köməyinə müraciət etmək məcburiyyətində qalırlar.

Beləliklə, cinayət qrup şəklində törədildikdə, təkbaşına törədiləndən daha ağır ola bilər, lakin qrupdakı fərdin sosial təhlükəsi təkbaşına cinayət törədən şəxsdən daha aşağı ola bilər. Cinayətin törədilməsində rolları baxımından yetkinlik yaşına çatmayanın şəxsiyyətinin sosial təhlükəsi ilə hərəkətinin ictimai təhlükəliliyi arasındakı fərqi müəyyən etmək çətindir. Bioloji-psixoloji əlamətlərə isə temprament tipi, əqli inkişafın səviyyəsi, intellekti aiddir. Yetkinlik yaşına çatmayanların cinayətkar davranışına təkan verən əsas faktorlardan biri psixi və fiziki anormallıqlardır. Müəyyən edilmişdir ki, qeyd edilən faktorlar şəxsin kriminallaşmasını istiqamətləndirə və hətta stimullaşdıra bilər. Bu sahədə maraqlı tədqiqatlardan biri Moskva şəhərində aparılmışdır. 10 il ərzində (1988-1998) hüquq pozuntusu törədərək qeydiyyatda olmuş 754 yetkinlik yaşına çatmayan şəxslərin psixoloji sağlamlıq vəziyyəti öyrənilmişdir. Tədqiqatların nəticələrinə görə, yetkinlik yaşına çatmayanların 15%-də psixologiya, 2%-də nevroz, 5%-də toksikomanlıq, 3%-də narko-

manlıq, 1%-də xroniki alkoqolizim, 4%-də debillik, 2%-də şizofreniya, 3%-də kəllə-beyin travmaları, 60%-də digər psixi pozuntu halları müşahidə edilmişdir. Tədqiq olunanlardan yalnız 5%-i sağlam olmuşdur [5].

Qeyd olunanlara əsasən, yetkinlik yaşına çatmayan məhkumların psixi-emosional, əqli inkişafı baxımından sağlamlıq vəziyyətinin öyrənilməsi də vacib amillərdən biridir. Anormal hesab edilən davranışların əsas səbəbi əsəb-psixi pozuntu kimi xəstəliklər səbəbindən yaranır. Bu kimi xəstəliklər çox zaman insanın səhhətində gizli formada getdiyindən onu adətən "nevroz" kimi qiymətləndirirlər. Bu tip yetkinlik yaşına çatmayanalar özlərini əksər hallarda səbrsiz, dözümsüz, bəzən aqreessiv formada aparır, bununla da münaqişə yaradaraq hüquq qaydalarını pozurlar. Bir çox hallarda bu kimi davranış cinayət hadisəsinin törədilməsinə gətirib çıxarır. Yetkinlik yaşına çatmayanların bioloji əlamətləri dedikdə onların tempramentləri də mühüm rol oynayır. Ümumilikdə insanlar tempramentlərin görə aşağıdakı qruplara bölünürlər.

1. Sanqvinik;
2. Fleqmatik;
3. Melenxonik;
4. Xolerik [3].

Alimlər tərəfindən aparılmış tədqiqatların nəticələri aşağıdakıları deməyə əsas verir: Sanqviniklər – əksər hallarda ictimai təhlükəli əməli dözümsüz davranış tərzinin təsiri nəticəsində və ya təqsirkarın qanunazidd hərəkəti nəticəsində yaranmış güclü ruhi həyəcanın təsiri altında törədirlər. Fleqmatiklər – şəxsiyyətin pozitiv və neqativ xüsusiyyətlərinin bərabər olduğu üçüb soyuqqanlılığını saxlaya bilir. Lakin, onların inkişaf tendensiyası ziddiyyətlidir. Bu cəhət də onlardakı kriminogenliyin azalmasına və ya artamasına səbəb olur. Cinayətin törədilməsi anına qədər onlar inadlı və fəal eyni zamanda təmkinli və ehtiyatlı ola bilirlər. Xoleriklər – şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri qeyri-sabit və ziddiyyətli olanlardır. Onlar asanlıqla həyəcanlanır, adi qıcıqlara həddindən artıq reaksiya verirlər. Onların sinir sistemində oyanmanın ləngimədən üstün olması, gördüyü işin təhlükəlilik dərəcəsini dərk edə bilməməsi, kəmhövsələ vəziyyətindəki davranışları hüquq pozmalara gətirib çıxarır. Melanxoniklər – zəif sinir prosesləri oyanma və ləngimənin zəif inkişaf etməsi, bununla yanaşı ləngimənin oyanmadan üstün olması ilə fərqlənirlər. Bu tipə aid olanlar ümidsiz, ətraf aləmdən, hərkəsdən narazı və insanlara qarşı neqativ münasibəti formalaşmış şəxslərdir. Hər kəsdən pislik və təhlükə gözlədiklərindən hər cür cinayət törətməyə yönümlüdürlər.

Nəticə etibarı ilə deyə bilərik ki, kriminal davranışlı yetkinlik yaşına çatmayanların şəxsiyyəti – onları xarakterizə edən və cinayətkar davranışlarına təsir göstərən sosial-demoqrafik, cinayət-hüquqi, bioloji-psixoloji əlamətlərin, xüsusiyyətlərin, əlaqə və münasibətlərin məcmusudur. Kriminogenlik şəxsin fərdi xüsusiyyətlərinin neqativ mikromühitlə (ailə, məktəb, məhəllə, yoldaşlıq mühiti) təsiri prosesində müəyyən dövr ərzində yaranır və onun "kriminogen şəxsiyyəti" kimi formalaşmasına səbəb olur.

Bununla yanaşı, son illərdə yalnız yetkinlik yaşına çatmayanlar tərəfindən fərdi şəkildə törədilən cinayətlərin və qəsdən sağlamlığa az ağır zərər vurma növü üzrə cinayətlərin sayının artması tendensiyası da bu sahədə hələ də problemlər olduğunu deməyə əsas

verir. Ümumilikdə cinayətkarlıqla mübarizə dedikdə, ilkin olaraq məhz yetkinlik yaşına çatmayanların cinayətkarlığı ilə mübarizə sahəsində yeni metodlar, yanaşmalar araşdırılmalı və tətbiq olunmalıdır. Yetkinlik yaşına çatmayanların cinayətkarlığının qarşısının alınması, onların müdafiəsini həyata keçirən subyektlərin fəaliyyətinin səmərəliyindən də əhəmiyyətli dərəcədə asılıdır. Yetkinlik yaşına çatmayanların cinayətkarlığı kompleks xarakter daşıdığından onlar tərəfindən törədilən cinayətlərin təhlilin nəticələrinə əsasən cinayətlərin profilaktikasının istiqamətlərinə bir daha nəzər salınmalı qarşısının alınması üçün multidissiplinar formada yeni mübarizə və yuvenal məhkəmə sistemi yaradılmalıdır.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi. URL: http://e-qanun.az/framework/ 46951
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. URL: http://e-qanun.az/framework/46947
3. Azərbaycan Respublikasında cinayətkarlığın statistikası. URL: https://www.stat.gov.az/
4. Ağayev İ.B.Azərbaycan Respublikasının Cəza-İcra Hüququ ümumi hissə. Dərslik. Bakı, 2007
5. Yuvenal Ədliyyə. Dərs vəsaiti. Bakı, 2006
6. Долговой А.И. Криминология. Учебник для вузов. Москва, 2005, с 330-360
7. Самедова Ш.Т. Проблемы уголовного права: классификация преступлений, дифференциация уголовной ответственности и построение санкций. Баку: Экопринт, 2017, 744 с.
8. Шиханцов Г.Г. Криминология Учебник для вузов. Минск: Тесей, 2006, 296 с.

REASONS FOR CRIMES COMMITED BY JUVENILES AND DYNAMICS OF IT

Malahat Hajiyeva
National Academy of Sciences of Azerbaijan
The Republic of Azerbaijan

ABSTRACT

The article, covering the first five years after the proclamation of independence of the Republic of Azerbaijan and the five years preceding 2021, is devoted to the analysis of the dynamics of official statistics on the main reasons for the commission of crimes by juvenile criminals, the study of the social environment in which they live and interact, as well as their age period, peculiarities of family, employment and types of crimes. In order to prevent the commission of crime by minors, including repeated ones, based on the results of the analysis of the crimes they have committed, it is necessary to reconsider the methods of crime prevention, new multidisciplinary forms of counteraction and a juvenile judicial system should be created.

Keywords: *minors, crime, dynamics, personality of the offender, criminal behavior, statistical data, legislator*

NARKOMANİYA İLƏ MÜBARİZƏ GÜNÜN TƏLƏBİDİR

UOT (УДК) – 34:343.976

Şöhlət Kərimov
MAA-nın "Hüquq" kafedrasının dosenti, h.ü.f.d.
Milli Aviasiya Akademiyası, Azərbaycan
sohlet.kerimov@mail.ru

İlham Hacı-zadə
MAA-nın "Hüquq" kafedrasının magistrantı
Milli Aviasiya Akademiyası, Azərbaycan
ilham.hacızade@inbox.az

Məqalə narkomaniya ilə mübarizəyə həsr olunub. Narkotizmin mövcud durumu beynəlxalq, regional çərcivədə və konkret dövlətin nümunəsində əks olunub. Narkomaniya ilə mübarizədə qanunvericiliyin daha da təkmilləşdirilməsi və qanunverici orqanın hüquqyaratma fəaliyyətinin gücləndirilməsi də əsas amillərdən biri kimi məqalədə göstərilir. Məqalədə həmçinin narkomanlığa qarşı mübarizə sahəsində müəyyən təkliflər verilmişdir.

Açar sözlər: *narkoman, narkotik vasitələr, narkotizm, psixotrop maddələr, uyuşdurucu, narkomaniya ilə mübarizə, narkobiznes*

Öz müstəqilliyini əldə etdikdən sonra respublikamız dünya miqyasında müstəqil siyasət yeritməyə başladı. Gənc dövlətimizin qarşısında duran ən mühüm konstitusional hüquqlardan biri də əhalinin sağlamlığının qorunması hüququdur. Bu da öz əksini konstitusiyanın 41-ci maddəsində tapmışdır. [1, s.15]

İnsanların sağlamlığına mühüm zərər yetirən amillərdən biri də narkomanlıqdır. Narkomaniya müasir dünyanın ağır xəstəliyidir. Narkotik və psixotrop maddələrin artan istehlakı hər şeydən öncə ağır psixonevroloji xəstəliklərin sayını artırır.

Cəmiyyətdə ictimai qüsurlardan biri də narkomaniyadır. Narkomaniya ilə məşğul olan insanların orqanizmində psixaya güclü mənfi təsir göstərən dəyişilmə baş verir və artıq geriyə yol qalmır. Növbəti dozanı qəbul etmədiyi halda narkoman özünü çox pis hiss edir, həmin şəxsdə abstinensiya deyilən vəziyyət əmələ gəlir. Abstinensiya yalançı narkotik cənnətə düşmək üçün dəhşətli bir vasitədir. [2, s.21]

Statistika göstərir ki, respublikamıza narkotik vasitələrin və psixotrop maddələrin 95 faizi gizli yollarla İran İslam Respublikasından gətirilir. Təəssüflər olsun ki, respublikamızda sərhəd qoşunlarının bir neçə zabiti də İrandan narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə gətirilməsində iştirakına görə həbs edilmişlər.

Narkomaniyanın yaşı respublikamızda illər keçdikcə cavanlaşır. Belə ki, əvvəllər bu yaş 25-30 yaş təşkil edirdisə, müasir dövrümüzdə bu yaş 13-14 yaşa düşüb. Bunun da səbəbi azyaşlı məktəbliləri pulsuz olaraq narkotik maddələrə həvəsləndirmək və sonra bundan tələ kimi istifadə etməkdir.

Narkotizmin təmayülləri xoşagəlməzdir. Narkomanlıq və təşviş doğuran ən qorxulu cəhət ondadır ki, narkotik maddələr ilk növbədə gəncləri daha çox şirnikdirir. [3, s.12-13]

Narkomaniyaya anlayış vermək üçün bir neçə aspekti nəzərə almaq lazımdır. Tibbi nöqteyi nəzərdən narkomaniyaya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin xüsusi əmri ilə narkotiklər siyahısındakı edilmiş dərman və başqa vasitələrdən istifadə nəticəsində yaranan xəstəlik kimi baxılır. Onun hüquqi aspekti isə tibbi aspektdən xeyli genişdir. Hüquqi nöqteyi nəzərdən narkomaniyaya beynəlxalq hüquqi və dövlətdaxili nəzarət həyata keçirilən, cəmiyyət üçün təhlükə doğuran və şəxs üçün zərərli olan dövrü yaxud xroniki zəhərlənməyə gətirib çıxaran narkotik maddələrin qəsdən qanunsuz sistematik istehlakı nəticəsində meydana gələn ictimai təhlükəli hadisə kimi baxmaq olar.

Dünyanın əksər dövlətləri "ağ ölüm"lə mübarizəyə külli miqdarda vəsait ayırır, narkomaniyaya qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədilə yeni konvensiyalar işlənilib hazırlayır, sazişlər imzalayırlar. Dünya üzrə rəsmi statistik rəqəmlər də problemin son dərəcə mürəkkəb olmasını göstərir. Azərbaycan dövləti də narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, beynəlxalq birliyin bu sahədə bütün səylərini dəstəkləyir.

Hal-hazırda narkotik cinayətkarlıqla mübarizə bütün səviyyələrdə – beynəlxalq, regional və milli-həyata keçirilir. Əvvəllər narkotik cinayətkarlığa qarşı mübarizədə beynəlxalq və milli aspektlər araşdırılırdı. Lakin müasir dünyanın ayrı-ayrı regionlarında fəal iştirak edən inteqrasiya prosesləri ilə bağlı olaraq yeni ictimai problemlərin yaranması, transmilli cinayətkarlığın və bununla yanaşı onun bir növü olan narkotiklərin qanunsuz dövriyyəsinin artması regional aspektin araşdırılmasını da zəruri edir. [4, s.79] Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz əldə edilməsi, həyata keçirilməsi üsulundan asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınmasına, hədiyyə və ya qarşılıqlı hesablaşma vasitəsi kimi qəbul edilməsinə, başqa mallara və əşyalara dəyişdirilməsinə, mənimsənilməsinə və ya hər hansı digər üsulla onlara yiyələnməyə yönəldilmiş bütün hərəkətlərdir. [5, s.307]

Bəşəriyyətin inkişafı, gələcək taleyi üçün ən mühüm problemlərdən birincisi cəmiyyətin əsasını təşkil edən insanlar və onların sağlamlığının qorunması problemidir. Müxtəlif xəstəlikləri müalicə bəhanəsi ilə bir cox narkotik tərkibli yabanı bitkilər xüsusi sahələrdə əkilib-becərilir və mədəniləşdiriləcək insanların gündəlik məişətlərində istifadə üçün hazırlanır [6, s.14] Gənclər arasında narkotizmlə mübarizə problemləri son dərəcə kəskin və aktual olub, özünə qarşı ciddi diqqət tələb edir. Bu bir sıra cəhətlərlə şərtlənir. Narkotik vasitələrlə əlaqədar cinayət və digər qanun pozuntuları müxtəlif ictimai münasibətlərə xələl gətirir. Bundan əhalinin sağlamlığına daha cox ziyan dəyir, eyni zamanda, bu ziyandan digər ictimai münasibətlərin də payına düşür ki, bunların arasında şəxsiyyət və iqtisadiyyatı xüsusi qeyd etmək lazımdır. Şəxsiyyətə narkotik maddələr qəbul etməsi nəticəsində dəyən ziyanın onun fiziki, psixi, əxlaqi, sosial münasibətlərdə tənəzzülə uğraması, onun nəsil artımının normal imkişafını ciddi təhlükə altına qoyması xüsusi ədəbiyyatda kifayət dərəcədə sübuta yetirilməklə şərh olunmuşdur və heç bir şübhə doğurmur. [7, s.19]

Həqiqətən də narkotik cinayətkarlığın cəmiyyətdəki təzahürləri onu deməyə əsas verir ki, "ağ ölüm" adını almış narkomaniya çox böyük sosial bəladır və onunla mübarizəyə hamılıqla qoşulmaq lazımdır. Söz yox ki, Azərbaycan dünyanın başqa dövlətləri ilə mü-

qayisədə narkotik cinayətkarlıq və narkomanlıq nöqteyi-nəzərindən cox aşağıdadır. Bu amil özü dünya miqyasında Azərbaycanın imicinə müsbət təsir göstərir. Lakin bu göstəricilərə arxayınlaşaraq narkotik cinayətlərə qarşı mübarizəni zəiflətmək olmur. [8, s.50] Son illər Azərbaycanda cinayətkarlıqla mübarizənin nəticələri nə qədər uğurlu olsa da narkotiklərin qanunsuz dövriyyəsi və narkomaniya ilə bağlı problemlər qalır və cəmiyyətdə xeyli mürəkkəb vəziyyət yaşatmaqda davam edir. Qeyd etməliyik ki, narkotik vasitələrin və psixotrop maddələrin istehlak təcrübəsi bəşəriyyətin tarixində minilliklərlə hesablanır. Bu vasitələrdən istifadə ilə əlaqədar olaraq cəmiyyətin müəyyən tarixi inkişaf pilləsində "narkotizm" anlayış bəşəriyyətə tamamilə yad olmuşdur. Narkotizm və narkobiznes kimi kriminal-sosial təzahür forması ilə dünya miqyasında səmərəli mübarizə bu gün qlobal və beynəlxalq xarakter almışdır. Hüquq ədəbiyyatında göstərildiyi kimi narkomanlıqla mübarizənin beynəlxalq-hüquqi tənzimlənməsi yüz ilə yaxındır ki mövcuddur.

Təəssüflə qeyd etməliyik ki, son illər İran İslam Cümhuriyyəti narkobaron dövlətə çevrilib. Respublikamıza ixrac olunan narkotik və psixotrop maddələrin tam əksəriyyəti İrandan daxil olur.

Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinin qaydaları və şərtləri, eləcə də tibbi tədbirlərinin həyata keçirilməsinin qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Azərbaycan Respublikasının nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsinə dair müvafiq siyahılar tərtib edilir və qərarlar qəbul edilir.

Hüquq ədəbiyyatında göstərilir ki, narkotizmlə mübarizənin hüquqi tənzimlənməsi bütün dövlətlərdə eynhi deyildir. Belə tənzimlənmənin məzmunu, həzmi, onun həyata keçirildiyi qanunvericilik sahələrinin dairəsi fərqlənir. Narkotik vasitələrin qanunsuz dövriyyəsi, o cümlədən narkotizmlə və narkobizneslə bağlı problemlər milli təhlükəsizlik məsələləri olduğuna görə belə təzahürlərin qarşısı dövlət siyasəti vasitəsilə alınır. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriy-yəsindən əldə edilən gəlirlərin böyük hissəsi beynəlxalq cinayətkar sindikatlara və kartellər məxsusdur. Həmin gəlir yüz milyardlarla dollar təşkil edir.

Narkotizmlə mübarizədə Azərbaycan dövləti yarım əsrdən artıq tarixi bir yol keçmişdir. ASSR-in 1923-cü il iki məcəlləsində narkotiklərlə mübarizəyə dair norma yox idi. B.S.Zaidov göstərir ki, sonraki illərdə narkotik vasitələrin və psixotrop maddələrin beynəlxalq miqyasda qanunsuz dövriyyəsinin sürətlə artması və inkişafı yaranmış gərgin vəziyyəti nizama salmaq üçün Birləşmiş Millətlər Təşkilatı "Psixotrop maddələr haqqında" 1971-ci il, "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" 1988-ci ilin tarixli iki Konvensiya da qəbul etdi. Azərbaycan Respublikası 1988-ci il Konvensiyasına 28 oktyabr 1992 ildə, 1971-ci il Konvensiyasına isə 1 dekabr 1998-ci ildə qoşulmuşdur.

Narkotik vasitələr haqqında Konvensiyalara qoşulmaq, onların şərtlərinə tərəfdar çıxmaq, habelə zəruri düzəlişləri qəbul etmək hələ narkobizneslə mübarizə probleminin səmərəli həlli, yaxud narkobiznesin mövcud durumunun real mənzərəsinin tam təsviri

demək deyildir. Fikrimizcə, bu istiqamətdə ən mühüm cəhətlərdən biri beynəlxalq Konvensiyalara və onların əsas müddəalarına əməl edilməsindən, hər bir iştirakçı dövlətin öz üzərinə götürdüyü beynəlxalq öhdəliyi şərtlərini yerinə yetirməsindən ibarətdir. [9, s.152]

Etiraf etmək lazımdır ki, narkotizmlə mübarizə sahəsində cinayət qanunvericiliyinin inkişafı ilə əlaqədar olaraq SSRİ miqyasında narkotik vasitələrin qanunsuz dövriyyəsinə aid olan bir sıra beynəlxalq sənədlər də mövcud olmuşdur. Bunlar aşağıdakılardan ibarətdir: 1) narkotik vasitələrin istehsalının məhdudlaşdırılması və bölgüsünün reqlamentləşdirilməsi haqqında 1931-ci il Cenevrə Konvensiyası; 2) zərərli dərman maddələrinin qanunsuz dövriyyəsi ilə mübarizəyə dair 1936-cı il Konvensiyası; 3) sazişlərə, konvensiyalara dəyişikliklər edilməsi haqqında Protokol və naroktik vasitələr haqqında protokollar 1946-cı il; 4) 1931-ci il Konvensiyasının qüvvəsi altına düşməyən dərman maddələri üzərində beynəlxalq nəzarət haqqında 1948-ci il Paris protokolu.

XX əsrin 80-ci illərinin əvvəllərində ölkənin siyasi həyatında nəzərə çarpacaq fəallıq və canlanma baş verdi. Bu, hakimiyyət orqanlarının narkotiklərlə mubarizə probleminə münasibətində özünü göstərirdi. Antinarkotizm istiqamətində ən yüksək siyasi səviyyədə və dövlət səviyyəsində sanki qüdrətli bir hərəkət başlandı.

Narkotizmlə mübarizə də respublikamızda həmişə iki əsas istiqamət diqqət mərkəzində olmuşdur. Birincisi, zərərin az olması nəzərə alınmaqla nəticələrin və az təhlükəli və az ağır olmasından asılı olaraq ayrı-ayrı pozuntuları kriminalsızlaşdırır və onların "inzibati xəta" dərəcəsi verilirdi. İkincisi, inzibati sanksiyaların tətbiq edilməsinə baxmayaraq, öz hüquqazidd fəaliyyətini inadkarlıqla davam etdirən şəxslərə münasibətdə reqressiv cinayət-hüquqi tədbirlər gücləndirilirdi.

Azərbaycan özünün dövlət müstəqilliyini elan etdikdən sonra ölkənin ictimai-siyasi həyatına mənfi təsir göstərən, onun müstəqilliyinə təhlükə altına alan və cinayətkarlığın inkişafında mühüm rol oynayan narkotizmlə, o cümlədən onun ən təhlükəli növlərindən olan narkobizneslə mübarizəyə xüsusi diqqət yetirilmiş, onunla mübarizənin əsas strategiyası mərkəzləşdirilmişdir. Bu strategiyanın hüquqi təməli Azərbaycan Respublikası Prezidentinin "Narkomaniya ilə mübarizənin gücləndirilməsi tədbirləri haqqında" 7 oktyabr 1992-ci il tarixli 253 saylı Fərmanı ilə qoyulmuşdur. Bu Fərman narkomaniya ilə mübarizəni mühüm dövlət işi kimi qiymətləndirərək ona dövlət siyasəti statusu verdi və onun əsas istiqamətlərini, strategiyasını və konkret iştirakçılarını müəyyənləşdirdi.

Azərbaycan Respublikası BMT-nin üzvlüyünə təbrik etdikdən sonra 28 oktyabr 1992 il tarixdə "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" BMT-nin 1988-ci il tarixli Konvensiyasına qoşuldu. Respublika Nazirlər Kabinetinin 14 aprel 1993-cü il tarixli 198 saylı Qərarı ilə "Azərbaycan Respublikasında narkomanlığa qarşı mübarizədə ümummilli Proqram"ı təsdiq edildi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin nəzdində narkotizmlə mübarizə istiqamətində onların işinə əlaqələndirən "Narkomaniya və narkobiznesə qarşı mübarizə üzrə idarələrarası komissiya" yaradıldı və həmin komissiya haqqında Əsasnamə təsdiq edildi. [8, s.184] Narkotizmlə bağlı ayrı-ayrı müəlliflərin əsərlərinə istinad edib, müqayisəli təhlil apardıqdan sonra narkotik cinayətkarlığa qarşı mübarizə sahəsində aşağıdakı təklifləri vermək olar:

- narkotikin ən çox yayıldığı ərazilərdə əmək haqqı verilməklə nüfuzlu şəxslərin rəhbərliyi ilə məhəllə komitələri yaratmaq;

- narkotik cinayətkarlığının cəmiyyətdə ictimai təhlükəliliyini düzgün qiymətləndirərək narkotik cinayət əməllərini törədənləri Azərbaycan qanunları ilə layiqli cəzalar təyin etmək;

- narkotik cinayətkarlıqla mübarizədə Azərbaycanın hüquq-mühafizə orqanlarının koordinasiya olunmuş fəaliyyətini daha da təkmilləşdirmək və beynəlxalq səviyyəli həddə çatdırır;

- profilaktik tədbirləri cinayət hadisəsi baş verdikdən sonra yox, qabaqcadan həyata keçirmək lazımdır ki, bu cür cinayət əməli baş verməsin;

- narkotik cinayətkarlıqların qarşısını almaq məqsədi ilə müvafiq tədbirlər baxımında sosioloji sorğular keçirmək;

- bu istiqamətdə dərin elmi tədqiqat işləri aparmaq;

- əhalinin bütün təbəqələri arasında narkodik, cinayətkarlıqların fəsadları və problemlərlə bağlı hüquqi maarifləndirmə işlərini gücləndirmək;

- narkotik cinayətkarlıqla mübarizədə dünya dövlətləri ilə beynəlxalq əlaqələri daha da yüksəltmək;

- narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasında beynəlxalq Konvensiyaların qanuni tələblərini istinadən mübarizə tədbirlərinin daha effektli aparmaq üçün müasir texnika kommunikasiyaları gücündən səmərəli istifadə etmək;

- narkotiklərin tranzitində qonşu və region dövlətlərinin əməkdaşlığından bu tipli cinayətlərə qarşı mübarizədə ən səmərəli vasitələrdən biri kimi istifadə etmək.

Beləliklə, narkotizmlə və narkobizneslə mübarizə də beynəlxalq və milli qanunvericiliyin inteqrasiyası vəziyyətini həll edərək aşağıdakı nəticələri qeyd etmək olar:

- narkobiznesin mövcud durumu beynəlxalq, regional və milli çərçivədə vaxtaşırı nəzərdən keçirilməli və təhlil olunmalıdır. Məhz belə yanaşma nəticəsində bu sosial-kriminal bəlanın əsir vəziyyətini və mahiyyətini düzgün qiymətləndirmək və onunla səmərəli mübarizə aparmaq mümkündür;

- narkobizneslə mübarizə sahəsində işlər keçmis SSRİ Ittifaqında, istərsə də müstəqil Azərbaycan Respublikasında qüvvədə olan qanunları mütləq mənada qənaətbəxş hesab etmək düzgün olmazdı. Sosial-iqtisadi, siyasi və hüquqi proseslərin gedişi göstərir ki, qanunlar həmişə təkmilləşdirməyə möhtacdırlar.

- müasir mərhələdə narkotizm və narkobiznesin ictimai-təhlükəli onda təzahür edir ki, o, artıq uzun illərdən bəri ayrıca götürülmüş bir məkanın, yaxud müəyyən bir əhali qrupunun sosial-iqtisadi faciəsi olmaq hüquqlarını aşmışdır. Son dərəcə təhlükəli olan bu kriminal hadisə öz böyük ictimai təhlükəliliyi ilə yaşadığımız planeti bürüyərək, bütün insanlığına ümumbəşəri qlobal probleminə çevrilmişdir;

- narkotizm və narkobiznes ictimai təhlükəliliyi konkret olaraq narkotizm, narkobiznes, narkomafiya, narkosənaye və narkoəhali ali formalarında təzahür edir;

- narkobiznesin transmilli səviyyəsini terrorçuluğun maliyyələşdirilməsi və silahlanmaya çəkillən külli miqdarda pul vəsaitləri ilə səciyyələnir. Narkobiznesin milli və transmilli səviyyəsi rekord səviyyəyə çatmışdır. Bunu son illərdə dünyanın müxtəlif regionlarında törədilən terror aktları bir daha sübut edir;

- beynəlxalq-hüquqi aktların Azərbaycan Respublikasının qanunvericiliyinə inteqrasiya vəziyyəti özünün formalaşma və təkmilləşmə mərhələsini yaşayir. Buna görə də ölkənin antinarkotik qanunvericiliyinin daha da təkmilləşdirilməsi üçün ardıcıl və səmərəli tədbirlər görülməsi zəruridir.

- narkotizm vasitələr və psixotrop maddələr haqqında BMT-nin yeni Baş Konvensiyasının layihəsinin hazırlanması və qəbulu, habelə kriminal təzahürlərlə səmərəli mübarizəni təmin edən beynəlxalq, regional və milli qurumların yaradılması vaxtı çatmışdır.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 2022
2. Azərbaycan Respublikasında cinayətkarlığın statistikası. URL: https://www.stat.gov.az/
3. Лихачов Г. Наркомания: проблемы и поиски решения. М., 1988
4. "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" 1998-ci il tarixli Konvensiya
5. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. II hissə. Bakı, "Hüquq Yayım Evi", 2018
6. Qasımov S.Y. Narkotiklərin qanunsuz daşınması əməlləri üzrə cinayət təqibi. Bakı, 2013, s.64
7. Məmmədov S. Narkotizmin cəmiyyətdə bəzi təzahürləri və onlara qarşı mübarizə. Bakı, "Şuşa" nəş. 2004
8. Марогулова И. Правовые средства борьбы с наркоманией и токсикоманией. «Советская юстиция», 1998. №17, с.19
9. Məmmədov S. Narkotik cinayətkarlığın təzahürləri və onlara qarşı mübarizənin problemləri. Bakı, ADPU nəş. 2005
10. Zahidov B.S. Narkotizm və narkobiznes: mübarizənin aktual problemləri. "Bakı Universiteti" nəş. 2004
11. "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" 1998-ci il tarixli Konvensiya
12. Zahidov B.S. Narkotizm və narkobizneslə mübarizənin aktual problemləri. Bakı, BDU nəş. 2004, səh.152, 184

THE FIGHT AGAINST DRUG ADDICTION IS THE NEED OF THE DAY

Shohlet Kerimov
PhD, Associate Professor
National Aviation Academy
The Republic of Azerbaijan

İlham Hacı-zadə
LL.M. student
National Aviation Academy
The Republic of Azerbaijan

ABSTRACT

The article is dedicated to the fight against drug addiction. The current situation of narcotics is reflected in the international, regional framework and the example of a specific government. Further improvement of the legislation in the fight against drug addiction and strengthening of the law-making activity of the legislative authority are also indicated in the article as one of the main factors. The article also provides some suggestions in the field of fighting drug addiction.

Keywords: *drug addict, drugs, narcotics, psychotropic substances, anesthetic, fight against drug addiction, drug business*

YETKİNLİK YAŞINA ÇATMAYANLAR VƏ GƏNCLƏR ARASINDA NARKOMANLIĞA, NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏNİN BƏZİ AKTUAL CİNAYƏT-HÜQUQİ VƏ KRİMİNOLOJİ ASPEKTLƏRİ

UOT (УДК) – 34:343.915

Vasif Quliyev
Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzinin doktorantı, Azərbaycan
quliyev889@mail.ru

Dünyada, Avropa İttifaqında narkomaniyanın müasir vəziyyətini, narkomanlığın yeniyetmə və gənclər arasında yayılması səviyyəsini əks etdirən statistik məlumatlar gətirilmişdir. Azərbaycanda narkomaniya və narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin vəziyyəti və dinamikasının, yeniyetmə və gənclər tərəfindən törədilən narkocinayətlərin vəziyyəti və dinamikasının statistik-kriminoloji analizi aparılmışdır. Müasir dünyada, qloballaşma şəraitində dünya ölkələrində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı vəziyyəti əks etdirən statistik məlumatların, beynəlxalq təşkilatların hazırladığı hesabatların, ayrı-ayrı hüquqşünas-alimlər tərəfindən həyata keçirilən tədqiqatların analizi əsasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin, narkomanlığın və narkobiznesin səciyyəvi meylləri göstərilmişdir. Yeniyetmə və gənclər arasında narkomanlığın, onlar tərəfindən törədilən narkocinayətlərin qarşısının alınması və profilaktikasının konseptual, cinayət-hüquqi, sosial-kriminoloji və təşkilati-metodiki əsaslarının işlənib hazırlanması məqsədilə elmi araşdırılması və həlli vacib olan məsələlər kompleksi müəyyən olunmuş və sistemləşdirilmişdir.

Açar sözlər: *yetkinlik yaşına çatmayanlar, gənclər, narkomanlıq, narkotizm, narkotiklərin qanunsuz dövriyyəsi, narkocinayətkarlığın vəziyyəti*

XX əsrin sonundan başlayaraq qloballaşan dünyada sürətlə yayılan neqativ sosial-hüquqi hadisələr sırasında millətin sağlamlığı üçün olduqca təhlükəli olan, ictimai şüuru deformasiyaya uğradan, son illərdə təhlükəli miqyaslar alan, ölkələrin iqtisadiyyatına ciddi zərər vuran, cəmiyyətin mənəvi-əxlaqi durumuna mənfi təsir edən, milli təhlükəsizliyi sarsıdan narkomanlıq və narkobiznes xüsusi olaraq qeyd edilməlidir (18, s.3-4). Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov düzgün olaraq qeyd edir: "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyada son dərəcədə mürəkkəb ictimai təhlükəli hadisə olmaqla, dünyanın bir çox dövlətlərində dəhşətli bəlaya çevrilmiş, tədricən yayılan neqativ sosial hal kimi ictimai həyatın bir çox sahələrinə sirayət etmişdir" (6, s.5).

Müasir dövrdə xroniki intoksikasiya doğuran, narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində yaranmış narkotik vasitələrdən və psixotrop maddələrdən psixi və (və ya) fiziki asılılığın yaranmasında ifadə olunan xəstəlik vəziyyəti olan narkomanlıq əhalinin fiziki və mənəvi sağlamlığına, sosial-demoqrafik vəziyyətə, cəmiyyətin iqtisadi durumuna, siyasətə, hüquq qaydasına, sosial sabitliyə, millətin gələcəyinə, kriminogen şəraitə ciddi təsir edərək cinayətkarlığın kriminal fonunu determinə edən əsas amillərdən birinə, hər

bir ölkənin və bütünlükdə dünyanın üzləşdiyi ciddi bir bəlaya, milyonlarla insanın, xüsusən də yeniyetmə və gənclərin həyatı və sağlamlığı üçün böyük təhlükə kəsb edən neqativ sosial hadisəyə çevrilmişdir (13, s.3-5). Kriminoloqlar narkotizmi dünya sivilizasiyasını məhv etmək iqtidarında olan gələcəyin ən qlobal problemi kimi qiymətləndirirlər (12, s.3).

F.Cavadov, Y.Abdullayev və H.Vəliyev düzgün olaraq qeyd edirlər ki, "Narkomaniya və narkobiznes yoluxucu xəstəlik kimi əhali, xüsusən də gənclər arasında yayılmış, öz miqyaslarını genişləndirərək transmilliləşmiş, dünyamızı, cəmiyyətimizin sosial-iqtisadi, mənəvi-əxlaqi dayaqlarını dağıtmaq səviyyəsinə çatmışdır. Hazırda vətəndaşlarının narkotizasiyasının acı nəticələrini hiss etməyən ölkə tapmaq mümkün deyildir. Narkomanlıq və narkobiznes ərazi, milli, dini, sinfi və digər sərhədlər tanımayan, qlobal xarakter daşıyan beynalxalq problemə çevrilmişdir" (2, s.6). H.e.d. B.S.Zahidov, narkotik vasitələrin və psioxtrop maddələrin qanunsuz dövriyyəsinin böyük sosial təhlükə kəsb etdiyini qeyd edərək yazır: "Müasir mərhələdə narkotizmin və narkobiznesin ictimai təhlükəliliyi onda təzahür edir ki, o artıq uzun illərdən bəri ayrıca götürülmüş bir məkanın, yaxud müəyyən bir əhali qrupunun sosial-hüquqi faciəsi olmaq hüdudlarını aşmışdır. Son dərəcə təhlükəli olan bu kriminal hadisə öz böyük ictimai təhlükəliliyi ilə yaşadığımız planeti bürüyərək, bütün insanlığın ümumbəşəri qlobal probleminə çevrilmişdir" (4,s.124). Müəllif, narkomanlıq və narkobiznesin ən ağır və təhlükəli nəticələr doğuran, sarsıntıları və faciələri ilə hüdudsuz olan, məhv olmuş milyonlarla insan həyatı, fiziki və mənəvi şikəstliklər demək olduğunu xüsusi olaraq qeyd edir (4, s.25-26).

Narkotik vasitələrin yeniyetmə və gənclərin sağlamlığına, sosial-psixoloji durumuna neqativ təsir etməsi ilə yanaşı, bu sosial bəlanının ictimai təhlükəliliyi "müxtəlif tamahzorakı xarakterli cinayətlərin törədilməsinə şərait yaradan kriminogen amil kimi çıxış etməsindən" (2, s.9) ibarətdir. Abstinent sindromun dəf edilməsi üçün heç bir gəlir mənbəyi olmayan narkomanlar oğurluq, soyğunçuluq, quldurluq və s. kimi tamah və tamahzorakı cinayətləri törədirlər (15, s.5-6).

Narkotik vasitələrin və psixotrop maddələrin istehlakına cəlb edilən yeniyetmə və gənclər cəmiyyətlə pozitiv sosial-əhəmiyyətli əlaqələri itirir və bir çox hallarda narkoasılılıq nəticəsində özləri narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı kriminal əməlləri, ictimai təhlükəliliyi yüksək olan digər cinayətləri törədirlər (16, s.4).

B.P.Prudnikov yazır ki, yetkinlik yaşına çatmayan və gənc narkomanlar tərəfindən törədilən cinayətlərin 25%-ə qədərini qəsdən adam öldürmə, sağlamlığa ağır zərər vurma, zorlama və digər seksual xarakterli cinayətlər, 40-50%-ə qədərini isə oğurlaq, soyğunçuluq, quldurluq, xuliqanlıq kimi cinayətlər təşkil edir (17, s.3).

Buna görə də, narkomaniya ilə cinayətkarlıq arasında sıx qarşılıqlı asılılığın mövcud olduğunu qeyd edə bilərik. K.V.Xarabet də narkoistehlakla cinayətkarlıq və sosial kənarlaşmaların digər növləri arasında düzünə korrelyasiya əlaqəsinin mövcud olduğunu qeyd edir, narkomanlıq və narkocinayətkarlığın sabit neqativ dinamika, yüksək artım templəri ilə xarakterizə olunduğunu göstərir (21, s.43-45). B.S.Zahidov da bu amili xüsusi olaraq vurğulayır və yazır ki, "Narkotiklərdən istifadə nəticəsində psixi xəstəliklərə düçar olan, cəmiyyətdə tüfeyli həyat sürən narkomanlar tərəfindən ictimai təhlükəli əməllərin törədilməsi hallarına tez-tez rast gəlmək mümkündür" (3, s.303-304).

Ölkədə narkomanlığın miqyasca genişlənməsi kriminogen durumun pisləşməsi və cinayətlərin sayının artması ilə yanaşı, digər ağır fəsadlara gətirib çıxarır, məişət zorakılığı, boşanma, deqrodasiya, əmək qabiliyyətinin itirilməsi, təhlükəli infeksiyaların, AİDS və hepatitə yoluxma, ölüm hallarının çoxalması ilə nəticələnir.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və beynəlxalq araşdırma mərkəzlərinin müxtəlif illərdə təqdim etdikləri göstəricilərə görə narkotik vasitələrin dünya miqyasında qanunsuz dövriyyəsinin həcmi il ərzində təqribən 400-500 mlrd ABŞ dolları həcmində qiymətləndirilir. Həmin göstərici Dünya Bankının təqdim etdiyi son hesabatına görə illik ümumdünya ticarət dövriyyəsinin təqribən 2-3%-ni, qlobal Ümumi Daxili Məhsulun isə 0,5- 0,6%-ni təşkil edir.

Narkotiklər və Cinayətkarlıq İdarəsinin hesabatına əsasən 2021-ci il üzrə planetimizdə 284 milyon insan narkotik vasitədən istifadə etmişdir və bu da həmin yaş arası ümumdünya əhalisinin təqribən 5,5%-ni təşkil edir. Həmçinin hesabata görə 11.2 milyon insan inyeksiya ilə narkotik qəbul edir ki, bunların da yarısı hepatit C, 1.4 milyonu isə NİV virusu daşıyıcısıdır. Həmçinin, BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin 2021-ci ilə olan məlumatına əsasən metamfetamin dünyada ən çox istifadə edilən sintetik tərkibli narkotik vasitədir. 2015-2019-cu illər arasında Narkotiklər və Cinayətkarlıq İdarəsi tərəfindən müəyyən edilmiş sintetik tərkibli narkotik vasitə istehsal edən laboratoriyaların 95%-i məhz metamfetaminlə əlaqəlidir. Avropa ittifaqında həyatında ən azı bir dəfə narkotik qəbul edən şəxslərin sayı 83 milyon olmuşdur. Onların 50,6 milyonu kişilər, 32,8 milyonu isə qadınlardır (14, s.13).

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin 2020-ci il məruzəsində narkotiklərin qlobal bazarının genişləndiyi və daha mürəkkəbləşdiyi ilə yanaşı, həmçinin narkotik vasitələrin və psixtrop maddələrin qanunsuz dövriyyəsi, o cümlədən istehlakı sahəsində bir sıra səciyyəvi meyillər də qeyd olunmuşdur: psixostimulyatorlardan istifadə hallarının daha da artması; amfetamin sırasına aid olan stimulyatorlar bazarının sürətlə artmaqda davam etməsi; dünyada narkotiklərin yayılması və istehlakının ənənəvi sxemlərinin transfarmasiyaya uğramağa başlaması və narkobiznesdə internet-ticarətin xüsusi çəkisinin artması; spays və s. kimi sintetik kannabiodlərin və sedativ preparatların qeyri-tibbi istehlakının əhəmiyyətli dərəcədə artması və s.

Narkocinayətkar qruplaşmalar sosial cəhətdən müdafiə olunmayan yeniyetmə və gəncləri öz kriminal fəaliyyətlərinə daha geniş şəkildə cəlb etməyə başlamışlar. Gizli saxlanc yerlərində narkotiklərin gizlədilməsi, narkomalların təmassız ötürülməsi metodlarından və üsullarından istifadə edilməsi, pərakəndə narkoticarətə hamilə qadınların və uşaqların cəlb edilməsi, bu kriminal biznesi təşkil edənlərə məsuliyyətdən asanlıqla yayınmağa imkan verir (12, s.9-12).

P.V.Teplyaşina narkoməziyyətin əsas meyilləri sırasında xüsusi olaraq qeyd edir: müsadirə olunmuş narkotik vasitələrin və psixotrop maddələrin strukturunda kan-nabis, opiod və sintetik qrupa daxil olan narkotiklərin xüsusi çəkisinin yüksəlməsi; sintetik narkotiklərin ("dizayner" narkotiklərin) və psixoaktiv maddələrin (amfetamin sıralı stimulyatorlar, sintetik analqetiklər və sintetik opiodlar, JWH, AM qruplu sintetik kannabinoidlər və s.) qanunsuz dövriyyəsinin miqyaslarının və həcminin genişlənməkdə davam

etməsi; narkoistehsaldan narkoistehlaka qədər olan bütün prosesi əhatə edən narkosənaye mexanizminin formalaşması cizgilərinin açıq-aydın müşahidə olunmağa başlaması və s. (20, s.152-153).

Prof. Ş.T.Səmədova qeyd edir ki, "Narkotik maddələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin yayılma miqyası bəşəriyyətin qlobal problemlərindən biridir. Belə ki, narkotik və psixotrop maddələrin qanunsuz ticarətindən əldə olunan illik qazanc həcmi, məsələn, neft ticarətini üstələyərək qanuni silah ticarətindən sonra ikinci yerdədir. Dövlətlərin bu əmələ qarşı birgə mübarizə zərurəti, heç bir ölkənin hüquq-mühafizə orqanlarının güclərini birləşdirmədən beynəlxalq xarakterli bu cinayətlərə qarşı mübarizədə müvəffəq olacağına ümid bəsləməməsi ilə əlaqədardır. Bu cinayətin beynəlxalq təhlükəliliyi həm də ondan ibarətdir ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi beynəlxalq xarakterli digər cinayətlərlə – beynəlxalq terrorçuluq, insan alveri, cinayət yolu ilə əldə edilmiş pul və ya digər əmlakın leqallaşdırılması və s. ilə sıx bağlıdır" (7, s.7).

Narkotiklərə nəzarət üzrə Beynəlxalq Komitənin illik məruzələrinin və 2000-2018-ci illəri əhatə edən dövrdə narkotiklər haqqında Ümumdünya məruzələrinin kontent-analizi dünyada narkotiklərin və digər psixoaktiv maddələrin qanunsuz dövriyyəsinin əsas kəmiyyət və keyfiyyət meyllərini müəyyən etməyə imkan vermişdir:

- qadağan edilmiş narkotiklərin dünya istehlakının həcmi sabit qalmaqla yaşlı əhalinin (15-64 yaşda olan şəxslər) 3,4-dən 7,0% qədərini təşkil edir; narkotik istehlakılarının 10-15%-ni problemli narkoistehlakçılar – narkotik asılılıqdan əziyyət çəkən və ya narkotik qəbulu ilə bağlı pozğunluqları olan şəxslər qrupu təşkil edir;

- ən geniş yayılmış narkotik növü kannabis və onun törəmələridir (marixuana, həşiş, kannabis qətranı və s.) il ərzində yayılmanın ümumdünya gösətricisi 2,7-5,3% təşkil edir; sonrakı yerlərdə tiryək xaşxaşından hazırlanan narkotiklər gəlir (heroin, morfin, tiryək, reseptlə buraxılan opiodlar,) – 0,9-1,6%; kokain – 0,3-0,6%; amfitamin sıralı narkotiklər - 0,4-1,5%) və sair durur.

- müasir texnologiyaların köməyi ilə yeni psixotrop maddələrin istehsalı və istehlakı halları meydana gəlməsi və genişlənməsi müşahidə olunur;

- beynəlxalq narkobiznes beynəlxalq terrorizmin və milli ekstremizmin yayılmasına ciddi təsir edir;

- qadağan edilmiş psixoaktiv maddələrin istehlakı gənclər arasında, xüsusən də şəhərlərdə yaşayan kişi cinsli şəxslər arasında yayılması və psixoaktiv maddələrin çeşidinin daima genişlənməsi ilə xarakterizə olunur. Bir çox inkişaf etmiş ölkələrdə qadağan edilmiş narkobazarlar sabitləşmə əlamətlərini nümayiş etdirir, eyni zamanda inkişaf etməkdə olan ölkələrin əksəriyyətində narkotiklərin istehlakı hallarının artımı davam edir; məhz psixoaktiv maddələrin istehlakı kimi qlobal problem inkişaf etməkdə olan ölkələrə istiqamətlənir;

- faktiki məlumatlar və son illərin tədqiqatları narkotiklərin beynəlxalq və regional səviyyədə ən təhlükəli narkotiklərin daşınmasında və ticarətində qanunsuz silahlı birləşmələrin (ilk növbədə terror təşkilatlarının) iştirakının artmaqda olan rolunu göstərir;

- bir çox ölkələrdə narkotizasiya üsulları, istehlak olunan narkotiklərin strukturu dəyişmiş, yeni, daha güclü təsir edən sintetik narkotiklərə və psixotrop maddələrə sabit tələbat yaranmışdır;

- son illərdə narkomanlığın sosial bazası genişlənmiş və öz xarakteristikasını dəyişərək ənənəvi olaraq «yoluxan» sosial qrupların hüdudlarından kənara çıxmışdır: hazırda narkomanlıq istər əhalinin az təminatlı təbəqələrdə, istərsə də maddi rifah səviyyəsi yüksək olan əhali qrupları arasında geniş yayılmağa başlamışdır (21, s.41-43).

Son illərdə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin, narkomanlıq və narkobiznesin bir sıra meyllərlə səciyyələndiyini qeyd etmək olar: 1) narkocinayətkarlığın latentliyinin, sosial təhlükəlilik dərəcəsinin, mütəşəkkillik səviyyəsinin yüksəlməsi, narkobiznesin əsasən mütəşəkkil cinayətkar dəstələrin, o cümlədən transmilli mütəşəkkil kriminal qurumların əlində cəmləşməsi, narkobiznes sənayesinin və narkocinayətkarlığın transmilliləşməsi meyillərinin güclənməsi; 2) narkosənayenin genişlənməsi və möhkəmlənməsi əsasında yeni kriminal narkotexnologiyaların təşəkkül tapması, internet məkanından narkoticarət bazarı kimi istifadə hallarının artması; 3) cinayətkarlığın strukturunda narkocinayətkarlığın xüsusi çəkisinin əsasən artma meyli ilə xarakterizə olunması; 4) narkotiklərə aludə olan şəxslərin ümumi sayında qadınların, yeniyetmə və gənclərin xüsusi çəkisinin artması; 5) "qara bazarda" narkoməhsulların çeşidinin genişlənməsi, psixoaktiv maddələrin insan sağlamlığı üçün daha təhlükəli olan yeni növlərinin (məsələn, spays, kratom), sintetik psixostimulyatoların istehsalı və istehlakının sürətlə yayılması; 6) yeni narkobazarların, narkotik vasitələrin və psixotrop maddələrin daşınmasının yeni marşrutlarının, yeni tranzit-keçid məntəqələrinin yaranması, tranzit dövlətlərin narkotiklərin istehlakçısı olan regionlara çevrilməsi; 7) yeni psixoaktiv maddələr istehsal edən qeyri-leqal laboratoriyaların yaradılması və onların sayının artması; 8) narkoticarət üçün yaradılmış və uyğunlaşdırılmış qeyri-leqal və yarımleqal mağazaların təşkil edilməsi və onların sayının artması; 9) narkomaniya zəminində oğurluq, quldurluq və soyğunçuluq və sair kimi tamah və tamah-zorakı cinayətlərin törədilməsi hallarının artması; 10) müəyyən əhali təbəqəsi və sosial qruplar arasında narkotizasiyanın, narkomanlığın geniş yayılması nəticəsində dünyanın bir sıra ölkələrində narkomədəniyyətin formalaşmağa başlaması; 11) narkobiznesdən əldə edilmiş "çirkli" narkopulların terrorçuluğun maliyyələşdirilməsinin əsas mən-bələrindən birinə çevrilməsi; 12) transmilli fəaliyyət göstərən mütəşəkkil cinayətkar dəstələrin və təşkilatların narkobiznesin miqyaslarının genişləndirilməsinə istiqamətlənən fəaliyyətlərində terror metodlarından geniş istifadə etməyə başlamaları; 13) narkoterrorizmin meydana gəlməsi, narkobiznesin və bu əsasda formalaşan narkoterrorizmin dünyada silahlı münaqişə ocaqlarında, işğal altında olan ərazilərdə və nəzarətsiz zonaların, nüvə bazarlarını, terrorçuların hazırlanrdığı mərkəzlərin yaradılmasında mühüm amil qismində çıxış etməsi və s. (1, s.85; 2, s.12; 4, s.273-274; 5, s.46; 8, s.42; 9, s.13).

Azərbaycanda da narkomanlıq və narkobiznes, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi sahəsində vəziyyət o qədər də ürəkaçan deyildir. Belə ki, 2005-ci ildə Azərbaycanda narkoloji müalicə-profilaktika müəssisələrində narkomaniya diaqnozu ilə qeydə alınan xəstələrin sayı 17838 olduğu halda, 2021-ci ildə onların sayı 93,9% (demək olar ki, 2 dəfə) artaraq 34602 olmuşdur. Onların arasında qadınların ümumi sayı 556, toksikomanların sayı 630, eyni zamanda bir neçə narkotik maddə qəbul edənlərin sayı isə 3107 olmuşdur. Narkotik istifadəçilərin 24850-i opiod, 9752-i isə kannabiod qrupuna daxil olanlardır.

Narkotik istifadəçilərin yaş qrupları üzrə bölgüsünə gəldikdə isə, qeyd edə bilərik ki, 2021-ci ildə 14-17 yaşda 12 nəfər, 18-24 yaşda 2313 nəfər, 25-29 yaşda 5508 nəfər narkotik isifadəçilər qeydiyyatda olmuşdur. 2017-ci illə müqayisədə, 2021-ci ildə Azərbaycanda narkoloji müəssisələrdə qeydiyyatda olan 14-17 yaşda narkotik istifadəçilərin sayı 2,4 dəfə (2017-ci ildə 5 yeniyetmə), 18-24 yaşda olanların sayı 47,7% (2017-ci ildə 1566), 25-29 yaşda olanların sayı isə 30,4% (2017-ci ildə 4225) artmışdır. Göründüyü kimi, 2017-ci illə müqayisədə, 2021-ci ildə ən böyük artım 14-17 yaş qrupuna daxil olan narkomanların sayında müşahidə olunmuşdur.

2021-ci ildə Azərbaycanın şəhər və rayonları üzrə qeydə alınmış narkotik istifadəçilərinin sayı Bakı şəhərində 9813 nəfər, Lənkəran şəhərində 3764 nəfər, Sumqayıt şəhərində 2897 nəfər, Şirvan şəhərində 1038 nəfər, Gəncə şəhərində 985 nəfər, Salyan rayonunda 1295 nəfər, Cəlilabad rayonunda 775 nəfər, Abşeron rayonunda 766 nəfər, Sabirabad rayonunda 677 nəfər olmuşdur. Azərbaycanın rayon və şəhərləri arasında daha az narkotik istifadəçilər Daşkəsəndə (24), Naftalanda (31), Oğuzda (39), Qəbələdə (44), Samuxda (27), Zərdabda (42), Gədəbəydə (42) və Qobustanda (45) qeydə alınmışdır.

Bakı şəhərində 2021-ci ildə daha çox narkotik istifadəçilərin qeydə alındığı rayonlar Yasamal (2139), Sabunçu (1602), Suraxanı (1005), Nəsimi (863), Xətai (835) və Binəqədi (824), daha az narkotik istifadəçiləri isə Pirallahı (63), Səbail (312), Qaradağ (402) və Nərimanov (417) inzibati rayonlarında qeydə alınmışdır.

Qeyd etmək istərdik ki, narkoloji tibb müəssisələrində qeydə alınmış narkotik istifadəçilərin sayı ilə müqayisədə Respublikada fəaliyyət göstərən narkoloji tibb müəssisələri olduqca azdır və onların narkomaniya diaqnozu qoyulmuş xəstələri qəbul etmək imkanları, yəni çarpayı sayı qənaətbəxş deyildir. Belə ki, Azərbaycanda 6 narkoloji-tibb müəssisəsi (Respublika Narkoloji Mərkəzi, Bakı şəhəri Narkoloji Mərkəzi, Gəncə şəhəri Rayonlararası Narkoloji Dispanseri, Sumqayıt Şəhər Narkoloji Dispanseri, Mingəçevir Rayonlararası Narkoloji Dispanseri, Lənkəran Şəhər Narkoloji Dispanseri) fəaliyyət göstərir və onların arasında yalnız Respublika Narkoloji Mərkəzində 350 çarpayı nəzərdə tutulmuşdur, digərlərində 20 və ya 30 çarpayı vardır. Bundan başqa, Respublika üzrə yalnız Respublika Narkoloji Mərkəzində 6 nəfər psixoloq fəaliyyət göstərir.

2005-ci ildə Azərbaycanda 18049 cinayət qeydə alınmış, onların da 2114-ü, yəni 11,7%-i narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər olmuşdur. 2021-ci ildə ümumən respublikada 31131 cinayət qeydə alınmış və bu cinayətlərdən 8571-i, yəni 27,5%-i narkotiklərlə bağlı cinayətlər təşkil etmişdir. Göründüyü kimi, 2005-ci illə müqayisədə, 2021-ci ildə cinayətkarlığın strukturunda bu növ cinayətlərin xüsusi çəkisi 2,3 dəfə artmışdır. 2005-ci illə müqayisədə 2021-ci ildə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin sayında 4 dəfə artım baş vermişdir. Bu ildə qeydə alınmış 31131 cinayətdən 251-i (0,8%) 14-17 yaşda olan uşaqlar və ya onların iştirakı ilə, 26 cinayət narkotik təsir altında, 2484 cinayət isə (8,0%) narkotik istifadəçilər tərəfindən törədilmişdir.

Narkocinayətlərin strukturunda isə Azərbaycan Respublikası CM-nin 234-cü maddəsi ilə cinayət məsuliyyəti doğuran əməllərin-qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, saxlama, daşıma,

göndərmə və ya satmanın xüsusi çəkisi olduqca yüksəkdir. Belə ki, 2021-ci ildə qeydə alınmış bu növ cinayətlərin sayı 8043 olmuş, narkocinayətlərin strukturunda xüsusi çəkisi 94,2% təşkil etmişdir.

2021-ci ildə cinayət törətmiş 21206 şəxsin 1168-i qadın (5,5%); 279-u 14-17 yaşda (1,3%), 2245-i 18-24 yaşda (10,6%), 3711-i isə 17,5%) 25-29 yaşda olan şəxs olmuşdur. 2021-ci ildə cinayət törətmiş 1168 qadından 142-i (12,2%-i) narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət törətmişlər.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 6490 şəxs cinayət məsuliyyətinə cəlb olunmuş, onların da 11-i (0,2%) 14-17, 1596-ı isə 18-29 yaşda (24,6%) olan şəxs olmuşdur. Yəni hər 4 narkocinayətkardan biri yaşları 14-29 arasında olan şəxsdir. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət törətmiş 6490 şəxs arasında işləməyən və ya oxumayanların sayı 4831 (74,4%) təşkil etmişdir.

2021-ci ildə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı qeydə alınmış 8571 cinayətdən 3548-i (41,5%) Bakıda, 587-i (6,8%) Sumqayıtda, 301-i Gəncədə (3,5%), 259-u Şirvanda (3,0%), 286-ı Abşeronda (3,05%), 258-i Cəlilabadda (3,0%), 458-i Lənkəranda (5,3%), 143-ü Masallıda (1,7%), 154-ü Yevlaxda (1,8%), 126-ı Salyanda (1,5%), 130-u Hacıqabulda (1,5%), 115-i Biləsuvarda (1,3%) törədilmişdir. 2021-ci ildə narkocinayətlərin daha az törədildiyi Azərbaycanın rayonları sırasında Samux (5), Gədəbəy (5), Qəbələ (6), Oğuz (11) qeyd edilə bilər. Bakı şəhərinin inzibati rayonları arasında daha çox narkocinayət Sabunçu (639, 18% xüsusi çəki), Suraxanı (508, 14,3%), Binəqədi (481, 14,5%), Xəzər (299, 8,4%), Yasamal (283, 8,0%) və Nəsimi (310, 8,7%), daha az narkocinayət isə Pirallahı (30, 0,8%), Səbail (113, 3,2%) və Qaradağ (178 , 5,0%) rayonlarında qeydə alınmışdır.

2021-ci ildə 70 xarici ölkə vətəndaşı narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə görə məsuliyyətə cəlb edilmiş və onların 25-i İran İslam Respublikası, 15-i Rusiya, 13-ü Türkiyə, 12-i Gürcustan, 3-ü Ukrayna, 1-i Pakistan və 1-i Hindistan vətəndaşları olmuşdur.

2021-ci ildə hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 244 fakt aşkar edilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 4 ton 090 kq 958,638 qr olan müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr çıxarılmışdır.

Ümumiyyətlə isə qeyd etmək istərdik ki, gömrük orqanları tərəfindən irihəcmli narkotik vasitələr və psixotrop maddələr yük avtomobillərinin ən müxtəlif yerlərində, o cümlədən yük avtomobilinin qoşqusunun döşəməsində gizli saxlanc yerində, nəqliyyat vasitəsinin arxa hissəsinin döşəməsində, qoşqunun təkərlərinin arasındakı oxda, avtomobilin kabininin tavan hissəsində, qoşqunun soyuducu qurğunun altında, kabində olan yataq yerinin altında olan çənin içərisində; badımcan, kivi, gül, yemiş, kartof, kişmiş yükünün içərisində; mebellərin içərisində; ağac heykəlciklər və digər dekarativ məmulatlar yükünün arasında, natrium bikorbonat kisələrinin içərisində, qoşqudakı suni dəri yükündə olan karton borularda, yanacaq çəninin içərisində, pomza daşına qarışdırılmış halda; mebel və xalça yükündə, unlu qənnadı məmulatları yükünün altında; döşəmənin təmiz-

lənməsi üçün plastik şotkaların sapının hər birinin içində və sair kimi yerlərdə aşkar edilmişdir. Bu zaman irihəcmli narkotik vasitələrin və psixotrop maddələri daşıyan yük avtomobillərinin əsasən İran-Almaniya, İran-Polşa, İran-Niderland, İran-Bolqarıstan, İran-Türkiyə, İran-Qazaxıstan, İran-Belçika, İran-Ukrayna, İran-Danimarka, İran-Gürcüstan, İran-İsveç, İran-Rusiya, İran-Avstriya, İran-Çexiya, İran-Moldova kimi marşrutlar üzrə hərəkət etdikləri müəyyən olunmuşdur.

Göründüyü kimi narkotik vasitələr və psixotrop maddələr ölkəyə əsasən İrandan gətirilir. Bunu Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov da qeyd edir. Komissiyanın sədri, 25 noyabr 2022-ci il tarixində Nazirlər Kabinetində keçirilən müşavirədə narkotik vasitələrin qaçaqmalçılığı və narkomanlığa qarşı mübarizə çərçivəsində kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən tədbirlərin müzakirəsinə həsr olunan görüşdə demişdir: “Bu ilin on ayı ərzində xarici ölkə mənşəli narkotik vasitələrin təxminən 95 faizindən çoxu İran İslam Respublikasının ərazisindən qaçaqmalçılıq və digər qanunsuz yollarla Azərbaycana gətirilib”.

Statistik məlumatların təhlili əsasında Azərbaycanda narkoməziyyətin əsas meylləri sırasında xüsusi olaraq qeyd edilə bilər: cinayətkarlığın ümumi strukturunda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin sabit artımı; qeyd olunan kateqoriyalı cinayətlərin yetkinlik yaşına çatmayanlar və gənclər tərəfindən törədilməsi hallarının artması; narkotik vasitələrin yeni daha təhlükəli (yüksək konsentrasiyalı) növlərinin meydana gəlməsi; narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin sabit regionlararası və beynəlxalq əlaqələri olan mütəşəkkil transmilli qruplaşmalar tərəfindən törədilməsi hallarının müşahidə olunması; müsadirə olunan narkotiklərin həcminin əhəmiyyətli artımı; ənənəvi narkotiklərin sintetik narkotik vasitələrlə, həmçinin yeni potensial təhlükəli psixoaktiv maddələrlə aktiv şəkildə əvəzlənməsi; son illərdə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər arasında xarici vətəndaşların xüsusi çəkisinin artması; narkomanlar tərəfindən törədilən cinayətlərin sayında artım meyllərinin qeydə alınması; xarici ölkələrdən ölkə ərazisinə yeni növ narkotik vasitələrin və psixotrop maddələrin gətirilməsi və yayılması hallarının artması; yeniyetmə və gənclər arasında psixostimulyatorlardan, amfetamin və metamfetamin kimi psixotrop maddələrdən istifadə hallarının sürətlə artması; narkocinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilmiş qadınların sayının və narkocinayətkarların ümumi strukturunda xüsusi çəkisinin artması və s.

Narkotik vasitələr və psixoaktiv maddələr gənc nəslin əxlaqsızlaşdırılması və iradəsizləşdirilməsinin, onun gələcəyinin məhv edilməsinin genişmiqyaslı vasitəsinə çevrilmişdir (15, s.3-4). Ailə institutunun dayaqlarının dağılması, ailə əlaqələrinin zəifləməsi, valideynlərin məsuliyyətsizliyi və sosial-psixoloji cəhətdən bacarıqsızlığı, onların əxlaqazidd həyat tərzi, ailədə zorakılıq hallarının artması və s. yeniyetmələrin hələ tam formalaşmamış psixikası təsir edir, bir sıra hallarda onların narko-tizasiyasına gətirib çıxarır (11, s.5; 19, s.3).

Yeniyetmə və gənclər arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin, o cümlədən də narkomanlığın yayılmasının miqyasları, onun müasir vəziyyəti, strukturu və dinamikasında müşahidə olunan təhlükəli meyllər, qeyd olunan

şəxslər kateqoriyası arasında narkotizmin qarşısının alınmasına istiqamətlənən hüquqi, sosial-iqtisadi, tibbi-psixoloji, təşkilati-metodiki, kriminoloji xarakterli tədbirlər kompleksinə yenidən baxılmasını, qüvvədə olan qanunvericilikdə ciddi dəyişikliklərin edilməsinin zəruriliyini şərtləndirir.

Ölkə qanunvericisi, yeniyetmələrin narkomanlığa, yeniyetmələr arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin böyük ictimai təhlükə kəsb etməsini, bu sahədə yeni və olduqca təhlükəli meyllərin meydana gəldiyini nəzərə alaraq cinayət qanunvericiliyində müəyyən dəyişikliklərin edilməsini məqsədəuyğun hesab etmişdir. Belə ki, 20 oktyabr 2017-ci il tarixli Azərbaycan Respublikası Qanunu ilə CM-nin 234-cü maddəsinə yeni bir hissə (234.3-1) əlavə edilmiş, yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, habelə satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq satma əməllərini təhsil və ya tibb müəssisələrində, eləcə də cəzaçəkmə müəssisələrində yaxud həbs yerlərində törətməyə görə cinayət məsuliyyəti müəyyən edilmişdir. Narkobiznesin sosial şəbəkələrə və elektron ticarət platformalarına keçməsi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin daha da genişlənməsinə gətirmişdir.

Elmi-texniki tərəqqi və ictimai münasibətlərin inkişafı ilə eyni zamanda narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin, o cümlədən narkocinayətlərin törədilməsinin forma və metodları da təkmilləşir. Yüksək texnologiyalardan, sosial şəbəkələrdən, qlobal İnternet şəbəkəsindən istifadə etməklə həyata keçirilən qanuna zidd fəaliyyətin, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətkar fəaliyyətin yeni formaları meydana gəlir.

Kompüter texnologiyalarından (İnternet şəbəkəsindən) istifadə etməklə törədilən narkotik vasitələrin və onların analoqlarının qanunsuz dövriyyəsi sahəsində cinayətlərin ictimai təhlükəliliyi digər əlamətlərlə yanaşı dünyada istifadəçilərinin sayı 3 mlrda yaxın olan qlobal şəbəkənin informasiya məkanının kriminogenliyinin yüksəlməsinin, bu məkanın ictimai həyatın ən müxtəlif sahələrinə təsir göstərməklə ayrı-ayrı insanlar qrupunun və ya şəxslərin qeyri-adekvat sosial və kriminal davranışını doğurduğu ilə müəyyən edilir. Bu isə müəyyən dərəcədə qlobal şəbəkənin əlçatanlığı, açıqlığı, bu şəbəkənin fəaliyyətinin kifayət dərəcədə hüquqi tənzimlənməməsi ilə bağlıdır (23, s.9-10).

2021-ci il üzrə Ümumdünya məruzəsində göstərilir ki, "Darknet" internet platformasında narkotiklər bazarının cəmi 10 il əvvəl yaranmasına baxmayaraq, bu gün internet narkoticarətin həcmi yüz milyonlarla dollar səviyyəsində qiymətləndirir və 2017-ci illə müqayisədə 2020-ci ildə bu növ internet ticarətin həcmi 4 dəfə artmışdır. Ekspertlər, 2017-2020-ci illərdə bu platformalar vasitəsilə həyata keçirilən narkotik vasitələrin qanunsuz dövriyyəsinin həcminin təxminən 315 milyon ABŞ dolları təşkil etdiyini bildirirlər. 2019-cu ildə narkotiklərin satışı üzrə "Darknet" resurslarında 2,5 milyon insan qeydə alınmışdır (6, s.40).

Müasir texnologiyaların, o cümlədən İnternet şəbəkəsinin inkişafı səviyyəsi, həmçinin istifadəçilər auditoriyasının daima artması nəzərə alınmaqla narkotiklərin təbliği və reklamı məqsədləri ilə internet-resurslardan daha geniş istifadə ediləcəyini proqnozlaşdırmaq olar. Məhz bu amilləri nəzərə alaraq, 2021-ci ildə RF-da inforasiya-telekommunika-

siya şəbəkələrindən (internet də daxil olmaqla) istifadə etməklə narkotik vasitələrin və psixotrop maddələrin istehlakına təhrik etmə ilə bağlı əməllərə görə cinayət məsuliyyətini müəyyən edən müddəalar CM-nin 230.2-ci maddəsinə əlavə edilmişdir. Həmçinin, RF CM-nin 228.1-ci maddəsinin 2-ci hissəsində kütləvi informasiya vasitələrindən, elektron və ya İnternet də daxil olmaqla informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə narkotik vasitələri və psixotrop maddələri satma əməllərinə görə 12 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən edilmişdir. Qazaxstan Respublikasında isə narkotik vasitələrin və psixotrop maddələrin İnternet şəbəkəsi vasitəsilə təbliği və reklamına görə cinayət məsuliyyəti müəyyən edilmişdir. Belə ki, bu ölkədə 11 yanvar 2020-ci il tarixli Qanunla CM-nə narkotik vasitələrin təbliği və qanunsuz reklamına görə cinayət məsuliyyətini nəzərdə tutan 299-1-ci maddə əlavə olunmuşdur. Bundan başqa, Qazaxstan Respublikasında da CM-nin 299-cu maddəsinə yeni tövsifedici əlamətlər əlavə edilmiş, bu maddəyə "elektron informasiya resurslarından istifadə etməklə" narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə məsuliyyət nəzərdə tutan müddəalar daxil edilmiş, bu əməllərə görə azadlıqdan məhrum etmə cəzası 15 ilədək artırılmış, eyni əməllər yeniyetmələrə münasibətdə törədildikdə isə ömürlük azadlıqdan məhrum etmə cəzası müəyyən edilmişdir.

Qeyd edək ki, 26 aprel 2022-ci il tarixli Azərbaycan Respublikası Qanunu ilə Azərbaycan Respublikası CM-nə yeni 234.4.4-cü maddə əlavə edilmiş və bu maddədə satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud narkotik vasitələri və ya psixotrop maddələri satma əməlləri "kütləvi informasiya vasitələrindən, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədildiyi" hallarda beş ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur.

Hesab edirik ki, qeyd olunanlarla yanaşı, Azərbaycanda da İnternetdən, informasiya-telekommunikasiya şəbəkələrindən (sosial şəbəkələrdən) istifadə etməklə narkotik vasitələrin və psixotrop maddələrin təbliği və reklamı ilə bağlı əməllərə görə məsuliyyət müəyyən edən müddəalar cinayət qanunvericiliyinə daxil edilməli, Cinayət Məcəlləsində belə bir reklamın və təbliğatın yeniyetmələrə və uşaqlara münasibətdə həyata keçirilməsinə görə daha sərt sanksiyalar müəyyən olunmalıdır.

Prof. Ş.T.Səmədova AR CM-nə narkotik vasitələrin və psixotrop maddələrinin analoqlarının qanunsuz dövriyyəsinə görə də cinayət məsuliyyətini nəzərdə tutan müddəaların əlavə edilməsini zəruri sayır. O, bir sıra MDB ölkələrinin (Rusiya, Qazaxıstan və s.) cinayət qanunvericiliyindən fərqli olaraq Azərbaycan Respublikasının CM-də narkotik vasitələrin və ya psixotrop maddələrin analoqlarının cinayətlərin predmeti qismində çıxış etmədiyini qeyd edərək yazır ki, kimyəvi quruluşu və xüsusiyyətlərinə görə narkotik vasitələrə və ya psixotrop maddələrə bənzəyən, onların psixoaktiv təsirini təkrarlayan analoqlar "faktiki olaraq insan orqanizminə təsirinə görə tibbi amilə sahib olan, lakin hələ narkotik vasitələr və ya psixotrop maddələr üçün hüquqi amili olmayan maddələrdir (preparatlar). Narkotik tərkibli yeni sintetik maddələrin yaradılması ilə bağlı cinayətkar fəaliyyətin onlara qarşı hüquq-mühafizə orqanlarının mübarizəsini həmişə üstələdiyini

nəzərə alsaq, Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin boşluğu kimi qəbul edilməlidir, çünki analoqların da qanunsuz dövriyyəsinin təhlükəsi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsindən aşağı deyil. Fikrimizcə, narkotik vasitələrin və psixotrop maddələrin analoqları Azərbaycan Respublikasının qüvvədə olan CM-in 26-cı fəsində təsbit olunan cinayətlərin predmeti kimi qəbul edilməlidir" (7, s.11-12).

Yeniyetmə və gənclər arasında narkotizmin daha təhlükəli formalarının və növlərinin yarandığı müasir dövrdə kriminoloji biliklərdən istifadə etmədən, kriminoloji tədqiqatlar aparmadan narkocinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, bu istiqamətdə profilaktik fəaliyyətin səmərəliliyinin yüksəldilməsi mümkünsüzdür.

Yeniyetmə və gənclər arasında narkomanlığın səviyyəsinin artması fonunda sosial-psixoloji, kriminoloji, təşkilati, maddi-texniki xarakterli profilaktika tədbirlərinin kifayət edəcək səviyyədə olmaması, onların reallaşdırılması mexanizmlərinin işlənilməməsi müşahidə olunur. Ümumrespublika və regional səviyyədə yeniyetmə və gənclər arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop madələrin qanunsuz dövriyəsinin vəziyyəti, strukturu və dinamikasının kompleks analizinin aparılması zəruridir. Qeyd olunan kateqoriyalı şəxslərin xarakterik kriminoloji, sosial-demoqrafik və psixoloji xüsusiyyətləri tam şəkildə öyrənilməli, onların kriminoloji tipologiyası işlənib hazırlanmalıdır. Yeniyetmələr və gənclər arasında narkotizmi determinə edən amillər kompleksi, onu şərtləndirən səbəb və şəraitlər məcmusu da kompleks və sistemli şəkildə araşdırılmadır. Narkotəhlükələrə qarşıdurma üzrə effektiv sosial nəzarət sisteminin qurulması məqsədilə yeniyetmələr və gənclər arasında narkotizmin sistemli-struktur yanaşma əsasında kompleks statistik-kriminoloji analizi həyata keçirilməli, yeniyetmələr və gənclər tərəfindən törədilən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin vəziyyəti, strukturu, dinamikası və səviyyəsinin tədqiqi əsasında ümumrespublika və regional səviyyədə bu növ cinayətkarlığın müasir kriminoloji xarakteristikasını müəyyən edən əsas meyillərin və qanunauyğunluqların üzə çıxarılması əsasında qısamüddətli və ortma müddətli kriminoloji proqnozlaşdırma aparılmalı, narkotik vasitələrin qanunsuz dövriyyəsinə cəlb olunmuş yeniyetmə cinayətkarların və narkomaniya xəstəliyinə tutulmuş yeniyetmələrin kriminoloji və sosial-psixoloji "portreti" qurulmalı, yeniyetmələr və gənclər arasında narkomanlığın yayılmasına kömək edən amillər kompleksi, təhsil müəssisələrində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsini doğuran əsas səbəblər və şəraitlər, səciyyəvi determinantlar tədqiq edilərək müəyyən edilməli, bu əsasda yeniyetmə və gənclər mühitində narkotizmin qarşısının alınmasının sosial-kriminoloji profilaktika sistemi qurulmalıdır (12, s.4-6).

Eyni zamanda qeyd edilməlidir ki, istər xarici ölkələrdə, istərsə də Azərbaycanda bilavasitə yetkinlik yaşına çatmayanlar və gənclər arasında narkomanlığın və narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması üzrə xüsusi Konsepsiya işlənib hazırlanmamışdır. Buna görə də bu sahədə ən mühüm və ilk növbədə həlli tələb olunan vəzifələrdən biri "Yeniyetmələr və gənclər arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin profilaktikası Konsepsiyası"nın, bu konsepsiya əsasında gənclərin narkocinayətkarlığında, yeniyetmələrin və gənclərin nakotizasiyası səviyyəsində və təşəkkül tapmış "narkotik ənənənələr"də mövcud regional fərqlər, hər bir region üzrə sosial-iqti-

sadi, mədəni və s. xüsusiyyətlər nəzərə alınmaqla yeniyetmələr və gənclər arasında narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması strategiyasının, fəaliyyət planlarının işlənib hazırlanması və reallaşdırılmasıdır (10, s.4). Hesab edirik ki, repressiv və liberal antinarkotik strategiyalar arasında nəzəri-metodoloji kompromisə əsaslanan model seçilməlidir ki, bu da müasir şəraitlərdə yetkinlik yaşına çatmayanlar və gənclər arasında narkotizmə qarşıdurma üzrə dövlət siyasətinin, antinarkotik profilaktika sisteminin təşkilati-hüquqi əsaslarının, preventiv potensalın imkanlarını əhəmiyyətli dərəcədə artırmağa imkan verəcəkdir. Ş.T.Səmədova düzgün olaraq qeyd etdiyi kimi, "bu sahədə qüvvədə olan Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin təkmilləşdirilməsi davam etməlidir və bu təkmilləşdirmə prosesi iki əks istiqamətdə aparılmalıdır: narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə görə məsuliyyət müəyyən edən normalar həm humanistləşdirilməli, həm də sərtləşdirilməlidir" (7, s.10).

Narkomanlıq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ümummilli problem kimi qəbul edilməli, maliyyələşmə mənbələri və həcmi, konkret icra müddətləri göstərilməklə dövlət institutlarının və qeyri-hökumət təşkilatlarının geniş dairəsinin cəlb olunması ilə narkomaniya və narkobiznesə qarşıdurma üzrə uzunmüddətli (ən azı on il müddətində) proqramm-strategiyalar və konsepsiyalar işlənilməli, bunlara uyğun olaraq fəaliyyət planları hazırlanaraq həyata keçirilməlidir. Qeyd olunanlarla yanaşı, narkobizneslə bağlı kriminal fəaliyyətin mütəşəkil formalarına görə cinayət məsuliyyətinin daha da sərtləşdirilməsini (ömürlük azadlıqdan məhrum etməyə qədər) nəzərdə tutan qanunvericilik tədbirləri işlənib hazırlanmalı və qəbul edilməlidir. Cinayətkar narkobiznes işbazlarının iqtisadi dayaqlarının sarsıdılmasına, onların narkoticarətdən əldə edilən gəlirləri leqallaşdırma imkanlarından məhrum edilməsinə istiqamətlənmiş sistemli siyasət davam etdirilməli, konseptual proqnozlar əsasında 10 il və daha artıq müddət üzrə fəaliyyət strategiyaları işlənib hazırlanmalıdır.

Narkomanlığa və Narkotiklərə Nəzarət üzrə Milli İnformasiya Mərkəzin və ya Agentliyin) yaradılması, narkomanlığın profilaktikası üzrə onun tərkibində sosioloqlardan, psixoloqlardan və kriminoloqlardan ibarət xüsusi bölmələrin nəzərdə tutulması məqsədəuyğun hesab edilməlidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Fərmanı ilə yaradılmış (14 iqtisadi rayonlar üzrə Narkomanlığa və Narkotiklərə Nəzarət üzrə Milli İnformasinin Mərkəzin və ya Agentliyin fəaliyyətinin təşkili üzrə bölmələrin yaradılması) əsas vəzifələri sırasında dövlət səviyyəsində narkomaniya və narkotizm problemləri üzrə maarifçilik və tədqiqat, informasiya-analitik, narkomaniya xəstəliyinə düçar olan yeniyetmə və gənclərin tibbi-psixoloji müalicəsi, resosializasiya və reabilitasiya işinin təşkili, aidiyyəti dövlət strukturlarının qarşılıqlı əlaqəli fəaliyyətinin təmini, bu sahədə profilaktik fəaliyyətin təşkili və həyata keçirilməsi xüsusi olaraq göstərilməlidir. Əminliklə qeyd edirəm ki, yeni formada fəaliyyət göstərəcək qurumun nəzarət mexanizimi daha səmərəli və keyfiyyətli olacaqdır.

ƏDƏBİYYAT:

1. Cavadov F., Abdullayev Y. Qloballaşan dünyada transmilli cinayətkarlıqla mübarizənin beynəlxalq və regional problemləri: kriminoloji aspektlər //«Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual polemləri» 3-cü beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2015.

2. Cavadov F., Abdullayev Y., Vəliyev H. Narkomanlıqla və narkobizneslə mübarizə: Problemlər və onların həlli yolları//Məhkəmə ekspertizası, kriimnalistika və kriminologiyanın aktual məsələləri. Elmi əsərlər məcmuəsi. Bakı, 2014, №62.
3. Zahidov B. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar əməllərin törədilməsinə təsir göstərən əsas amillər//Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. Bakı, 2007, №46.
4. Zahidov B.S. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri. Bakı, 2007.
5. Zahidov B.S. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri (cinayət hüquqi və kriminoloji istiqamətlər). Hüquq elmləri doktoru alimlik dərəjəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2005.
6. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin nəticəsinə dair illik hesabat. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmışdır. Bakı, 2021.
7. Səmədova Ş.T. Azərbaycan Respublikasının cinayət hüququnda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə görə məsuliyyətin problem məsələləri // Bakı universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası. 2021. № 1.
8. Səməndərov F.Y. Kriminologiya. Dərslik. Bakı, 2018.
9. Əliyev N.T. Qloballaşma dövründə cinayətkarlığın müasir vəziyyəti, səciyyəvi cəhətləri və meylləri//Polis Akademiyasının elmi xəbərləri. 2019. №3(23).
10. Alekseeva A.P. Kompleksnoe preduprejdenie narkotizma sredi molodeji na reqionalğnom urovne: teoretiçeskie i prikladnıe aspektı. Avtoreferat diss…..k.ö.n. 2004.
11. Газизова Т.Г. Криминологическая характеристика преступлений несовершеннолетних, связанных с незаконным оборотом наркотив, и их предупреждение. Автореферат диссертации на соискание ученой степени кандидата юридический наук. Омск, 2003.
12. Готчина Л.В. Молодежный наркотизм в современнойф России: криминологический анализ и профилактика. Автореферат диссертации на соискание доктора юридический наук. М., 2011.
13. Дранников В.Н. Криминологические и уголовно-правовые аспекты профилактики наркотизма в студенческой среде. Автореферат диссертации на соискание ученой степени кандидата юридический наук. Ростов, 2001.
14. Европейский доклад о наркотиках: тендеции и измекнение. 2021.
15. Корнилов А.В. Уголовно-правовые и криминологические вопросы предупреждение наркотизма несовершеннолетних Автореферат диссертации на соискание ученой степени кандидата юридический наук. Томск, 2004
16. Новикова Е.П. Криминологическая характеристика и предупреждение преступлений несовершеннолетних, связанных с незаконным оборотом наркотических средств, психотропных веществ и их аналогов. Автореферат диссертации на соискание ученой степени кандидата юридический наук. Воронеж, 2006.
17. Прудников В.П. Преступность несовершеннолетних наркоманов. Автореферат диссертации на соискание ученой степени кандидата юридический наук. М., 1999.
18. Самохвалов И.Ю. Противодействие преступлениям, совершенным несовершеннолетними в сфере незаконного оборота наркотических средств и психотропных веществ: уголовно-правовой и криминологический аспекты. Автореферат диссертации на соискание ученой степени кандидата юридический наук. Н.Новгород, 2009.
19. Судакова Т.М. Криминологическая характеристика преступного поведения несовершеннолетних употребляющи отдельные виды психоактивных веществ. Автореферат диссертации на соискание ученой степени кандидата юридический наук. Иркутск, 2002.
20. Теплишин П.В. Состояние наркопреступности несовершеннолетних в Российской Федерации: основные криминологические показатели и тенденции //Jurnal LEX RUSSICA (MQÖA). 2017, №10(131).

21. Харабет К.В. Противодействие наркотизму и наркопреступности в вооруженных силах РФ (социально-правовое и криминологическое исследование). Автореферат диссертации на соискание ученой степени кандидата юридический наук. М., 2018.
22. Хусейнова М.С. Уголовно-правовое и криминологическое характеристика незаконного оборота наркотических средств по законодательству Республики Таджикистан. Диссертация на соискание ученой степени кандидата юридический наук. Душанбе, 2021.
23. Щурова А.С. Незаконный оборот наркотических средств и их аналогов с использование компьютерных технологий (сети Интернет). Диссертация на соискание ученой степени кандидата юридический наук. Санкт-Петербург, 2017.

SOME CURRENT CRIMINAL-LEGAL AND CRIMINOLOGICAL ASPECTS OF FIGHTING DRUG ADDICTION AND ILLEGAL TRAFFICKING OF NARCOTICS AND PSYCHOTROPIC SUBSTANCES AMONG THE MINORS AND THE YOUNG

Guliyev Vasif
PhD student of The Center of Court Examination
Ministry of Justice, The Republic of Azerbaijan

ABSTRACT

Statistical data reflecting the current state of drug addiction in the world and the European Union, the prevalence of drug addiction among teenagers and young people have been presented. A statistical and criminological analysis of the situation and dynamics of crimes related to drug addiction and illegal drug trafficking in Azerbaijan, and the situation and dynamics of drug crimes committed by teenagers and young people was carried out. In today's world, in the conditions of globalization, based on the analysis of statistical data reflecting the situation related to the illegal circulation of narcotic drugs and psychotropic substances in the countries of the world, reports prepared by international organizations, researches carried out by individual lawyers-scientists, the illegal circulation of narcotic drugs and psychotropic substances, drug addiction and drug business characteristic trends are indicated. In order to develop the conceptual, criminal-legal, social-criminological and organizational-methodical foundations of drug addiction among teenagers and young people, the prevention and prevention of drug crimes committed by them, the complex of issues that are important for scientific research and solution has been identified and systematized.

Keywords: *the minors, the young, narcotic drugs, narcotism, illegal circulation of narcotic substances, the situation of narco-crimes*

TAMAH MOTİVİ İLƏ CİNAYƏT TÖRƏDƏNLƏRİN ŞƏXSİYYƏTLƏRİNİN KRİMİNOJİ TİPOLOGİYASININ TƏDQİQİ PROBLEMLƏRİ

Vüqar Mansurov
Məhkəmə Ekspertizası Mərkəzinin dissertantı
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi
vuqar.mansurov@list.ru

Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətləri haqqında dəqiq təsəvvürün yaradılması üçün ümumilikdə cinayət törədənin şəxsiyyəti barədə araşdırmanın aparılması zəruridir. Şəxsiyyət haqqında ilkin məlumatlar tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminal davranışlarının səbəblər kompleksinin öyrənilməsinə münbit zəmin yaradır. Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin mürəkkəb məzmununun qiymətləndirilməsi meyarlarından biri kriminoloji tipologiyanın aparılmasıdır. Kriminoloji tipologiya cinayət törədənin şəxsiyyətini xarakterizə edən məlumatları müəyyən tiplər üzrə qruplaşdırılması yolu ilə həyata keçirilir.

Açar sözlər: *kriminoloji tədqiqat, cinayət törədənin şəxsiyyəti, tamah motivi, kriminal davranış, sosial mühit, kriminoloji tiplər.*

Kriminoloji təhlillər əsasında aparılmış tipoloji bölgü cinayət törətmiş şəxslərin fərdiləşərək konkret tiplər üzrə sistemləşdirilməsinə zəmin yaradır. Bundan başqa tipologiya cinayət törədənin şəxsiyyətinin strukturuna aid məlumatların(bioloji, sosial, psixoloji) daha təfsilatlı öyrənilməsinin bir mərhələsi kimi qəbul edilə bilər [1,s.329-337]. Tipoloji məlumatların dəstəyi ilə kriminal davranışa təsir imkanları daha da artır, profilaktik təsir üsullarından effektiv istifadə edilməsi üçün arzuolunan şərait yaranır.

XX əsrin tanınmış psixoloqlarından biri olan Karl Qustov Yunqun insanları **intravert və ekstravert** olaraq iki tipə bölməsi müasir psixoloji və kriminoloji tədqiqatlarda geniş yayılmışdır. Bu tiplər bir-birindən şəxsiyyətlərinin səciyyəvi xüsusiyyətlərinə (tələbat, maraq, motivlər, həyati yönəlişlər və s.) görə fərqlənirlər.

İntravertlər özünə daha çox qapalı olaraq mücərrədliyə meyllidirlər. Ekstravertlər isə ünsiyyətə açıq olması ilə seçilirlər. Ekstravert daha dinamik və hərəkətli olmaqla asanlıqla ünsiyyətə daxil olur. İntravert əksinə passiv və özünəqapalı olmaqla münasib bildiyi təhlükəsiz davranışını qoruyub saxlamağa çalışır [2, s. 179-203].

K.Q.Yunqun insan tipləri haqqında tədqiqatları bu sahədə böyük uğurların təməlini qoydu. Lakin kriminoloji tədqiqatların əsas obyekti cinayət törətmiş şəxsi əhatə edən münasibətlərdir. Bu səbəbdən kriminoloji tipologiyanın əsasını cinayət törətmiş şəxsin kriminogenliyini özündə əks etdirən əlaqə və xüsusiyyətlər təşkil edir. Göstərilən amil kriminoloji tipologiyanı digərlərindən fərqləndirir. Ancaq yaddan çıxartmaq olmaz ki, cinayət törədənin şəxsiyyətinin strukturuna psixoloji xüsusiyyətlər də daxildir. Psixoloji bilgilər krminoloji tipologiyada istifadə oluna bilər, lakin tam görüntünün yaradılması bilavasitə bu əlamətlərə söykənə bilməz.

Moskva dövlət psixonevroloji institutun professoru S.V.Poznışev XX əsrin əvvəllərində cinayət törədən şəxslərin kriminal-psixoloji tədqiqini apararaq onları **endogen və ekzogen** tiplərə bölürdü. O hesab edirdi ki, endogen cinayətkar tipin **şüurunda** cinayətin surəti və cinayətə meyilliliyin üstünlük təşkil etməsi əməlin törədilməsi zamanı həmin cinayətə meyilliliyi yaradan şəxsiyyətin xüsusi əlamətləri, ekzogen cinayətkar tipin şüurunda qeyd edilən halların üstünlük təşkil etməsi isə, **xarici amillərin** təzyiqi və insanın quruluşunun kriminorepulsiv hissəsinin nisbətən zəif, ləngidici təsiri ilə izah edilir [3, c.49-102].

S.V.Poznışevə görə endogen cinayətkarların kriminal davranışlarının əsas səbəbləri insanın daxili aləmini əhatə edən düşüncə qabiliyyəti, baxışlar və inam, dünyagörüşü kimi psixoloji keyfiyyətlərlə bağlıdır. Ekzogen cinayətkarlar isə xarici mühitin təsiri ilə cinayət törədən şəxslərdir. Kriminal tipologiyalar haqqında S.V.Poznışevin bir fikri də xüsusilə vurğulanmalıdır. O qeyd edirdi ki, cinayətkar tipin şəxsiyyətində həm endogen, həmçinin ekzogen faktorlar mövcuddur. Sadəcə biri digərindən daha üstün ola bilər.

Kriminal psixologiya sahəsində fundamental əsərləri ilə seçilən S.V.Poznışevin cinayətkar tiplər haqqında müxtəlif terminlərə olan münasibəti də kifayət qədər maraq kəsb edir. Ədəbiyyatlarda "təsadüfi" və "adətkar" cinayətkar ifadələrinin işlədilməsinin əleyhinə olan S.V.Poznışev onların yetərincə dolğunluğa malik olmadığını göstərməyə çalışırdı. Onun düşüncələrinə görə, heç kim "təsadüfən" cinayətkar olmur. Həmişə bir sıra hallar mövcud olur ki, onlar insanı müəyyən cinayətin törədilməsinə gətirib çıxarır. Hər bir cinayət öz "şəxsi" mənşəyinə malikdir. Lakin bəzi cinayətkarlarda digərlərindən fərqli olaraq bu "şəxsi" mənşə başqa formadadır və onların törətdikləri cinayətlərin meydana gəlməsində daha az fəallığa malikdir. Bəzi cinayətkarları "adətkar" adlandırmaq tamamilə uyğunsuz termindən istifadə etmək deməkdir. Cinayətkar tip "adət etdiyi" hərəkəti törədərkən, həmişə müəyyən konkret plan üzrə həyata keçirir.

S.V.Poznışevin göstərilən fikri ehtiyatsızlıqdan törədilən cinayətlərlə müqayisədə mübahisəli ola bilər. Alimin bu müstəvidə fikirləri daha çox cinayət-hüquqi konsepsiyanın tələblərinə uyğun gəlir. Lakin kriminoloji baxımdan cinayətkar davranışın motivlərinin tədqiqi də tipoloji təsnifatın aparılması üçün əhəmiyyətlidir.

Cinayət törədənlərin tiplərə bölgüsü ilə bağlı daha erkən kriminoloji tədqiqatlar Frans-Jozef Qall, Çezare Rambrozo, Enrike Ferri tərəfindən də aparılmışdır. Bu tədqiqatlar **biokriminoloji** məzmuna malik olsalar da, müqayisəli kriminoloji təhlillərin əksəriyyətində istifadə olunur.

F.Qalla görə, beyində yaralama, öldürmə, boğaraq öldürmə kimi hərəkətləri və əxlaqı idarə edən mərkəz mövcuddur. Müəllif bu düşüncələrə uyğun bir beyin atlası yaratmışdır [4, s.258-259].

F.Qall cinayət törədənləri iki tipə bölmüşdü:

- Ehtiraslarının təsiri ilə cinayət törədənlər;
- Anadangəlmə (instiktiv) cinayətkarlar.

E.Ferri isə daha geniş təsnifat verərək cinayət törədənlərin tipoloji qruplaşmasını aparmışdır. O, bu tipləri aşağıdakı qaydada sistemləşdirmişdir [5, s.249-252]:

- Anadangəlmə cinayətkarlar;
- Ağıl xəstəsi olanlar;

– Şərti (konformist) cinayətkarlar;
– Təsadüfi cinayətkarlar;.
– Ehtirasın təsiri ilə cinayət törədənlər.

E.Lambrozo da E.Ferridən ilhamlanaraq heç də fərqli olmayan tipoloji təsnifat aparmışdır. Onun təsnifatına görə, cinayətkarlar anadangəlmə, ehtiraslı, təsadüfi və ağıl xəstələri olaraq dörd tipə bölünürdü.

Psixatriya sahəsində öz əsərləri ilə kifayət qədər yaxşı tanınan Prosper Despin (1812-1892) 1868-ci ildə cinayət törədənlərin tipologiyasına psixopatoloji xüsusiyyətləri də daxil edərək onları dörd kateqoriyaya bölmüşdür:

✓ Soyuqqanlı hərəkət edən cinayətkarlar;
✓ Ehtiraslı cinayətkarlar;
✓ Patoloji olmayan anormal və ya ağıl xəstəsi olan cinayətkarlar;
✓ Patoloji dəlilik və ya ağıl xəstəsi.

Bəzi müəlliflər cinayət törədənləri islah edilə bilənlər və islah edilməyənlər kimi iki qrupa bölərək bu qruplaşmanın daxilində tiplərə bölgünü aparırdılar [6, s.72]. Göstərilən səpkidə tədqiqatlar aparan alimlərdən biri J.Maksvel cinayət törədənlərin müəyyən qədər fərqli tipologiyasını aparmışdır: [7, s. 232].

1. **Təsadüfi cinayətkarlar.** Müəllif onları da dörd qrupa bölmüşdür:
– fizioloji ehtiyaclara görə cinayət törədənlər (aclıq, səfalət);
– psixoloji ehtiyaclara görə cinayət törədənlər (eşq ehtirası);
– psixo-sosial hisslərə görə cinayət törədənlər (şərəf, din, siyasi ehtiras və s.);
– duyğusal durumlarla bağlı cinayət törədənlər (nifrət, kin, intiqam).

2. **Adətkarlar.** Bu tipə aid cinayətkarlar da iki qrupa bölünür:
– anadangəlmə cinayətkarlar;
– sonradan qazanılmış vərdişlərin təsiri ilə cinayət törədənlər.

Aparılan tədqiqatlar cinayət törədənin şəxsiyyətinin daha dərindən öyrənilməsinə böyük dayaq olmuşdur. Kriminoloji tipologiyalar cinayət törədən şəxsin kriminal davranışının yaranma mexanizminin öyrənilməsi və profilaktik təsir tədbirlərinin tətbiqi baxımından da əhəmiyyətlidir.

Kriminoloji tipologiya cinayət törədənin şəxsiyyətinin kriminogenliyinin dərk olunması üsullarından biridir. Hesab edirik ki, cinayət törədənin şəxsiyyətinin tipologiyası üç tədqiqat obyektinin öyrənilməsi və təhlili vasitəsilə aparılmalıdır:
– cinayət törədən şəxs (onun bioloji, sosial və psixoloji xüsusiyyətlərinin cəmi);
– kriminal mühit (makro və mikro mühitin təsir imkanları);
– kriminal davranış (əməlin xarakteri, ictimai təhlükəlilik dərəcəsi və s.)

Lakin hal-hazırda kriminologiya elmində cinayət törədənlərin şəxsiyyətlərinin tipologiyasının hansı meyarlar üzərində qurulması müxtəlif yanaşmaların yaranmasına səbəb olmuşdur.

Cinayət törədən şəxslərin tipoloji xarakteristikalarının nəzəri və təcrübi əhəmiyyətini araşdıran K.E.İqoşev bu sahədə olan tədqiqatların təxmini üç əsas istiqamətini göstərirdi [8, s.42-47]:

➢ sosial aspektlər əsasında aparılan tipologiya;

- sosial-psixoloji amillərə əsaslanan tipologiya;
- cinayət törədənlərin ayrı-ayrı kateqoriyaları üzrə aparılan tipologiya.

Sosial aspektlər əsasında aparılan tipoloji tədqiqatlar daha çox A.B.Saxarovun elmi araşdırmalarında öz əksini tapmışdır. O, cinayət törədən şəxsi bir sosial tip olaraq öyrənirdi. Tipologiyanın aparılması üçün əsas əlamət insan və cəmiyyətin qarşılıqlı əlaqəsinin göstəricisi götürülürdü. Bu meyarı əsas götürərək A.B.Saxarov üç əsas tipi fərqləndirirdi:

– adi;
– peşəkar;
– təsadüfi.

A.B. Saxarovun araşdırmalarında öz əksini tapan bu ilk təsnifat kifayət qədər sadə məzmunu ilə seçilirdi. Daha sonra A.B.Saxarov öz tipologiyasını daha da təkmilləşdirərək müəyyən əlavələrlə beş cinayətkar tipini göstərmişdir: [1, s.334]

1) təsadüfi;
2) situativ;
3) dayanıqsız;
4) qəddar;
5) xüsusi təhlükəli.

A.B.Saxarovdan fərqli olaraq A.M.Yakovlev öz tipologiyasında cinayət törədənin mühitin mövqeyindən uzaq düşmə dərəcəsi, davranış üsullarının dayanıqlığı kimi əlamətləri əsas götürürdü. A.M.Yakovlev cinayət törədən şəxsin yox, cinayətkar davranışın tipologiyasının aparılmasını təklif edirdi. Onun fikrinə görə, "davranış – şəxsiyyətin əlamət və xüsusiyyətlərinin sadə təzahür forması deyil. Davranış – şəxsiyyətin özüdür".

Sosial-psixoloji amillərə əsaslanan digər tipoloji tədqiqat istiqamətinin təmsilçilərindən olan A.Q.Kovalyov kriminogenlik dərəcəsindən asılı olaraq cinayət törədənlərin tipologiyasını üç qrupa bölürdü [9, s.189]:

1) **Qlobal tip.** Tamamilə kriminogenləşmiş şəxslərdir. Onlar öz həyat fəaliyyətlərini yalnız cinayətlərlə bağlayırlar.

2) **Qismən kriminogenləşmiş tip**. Bu tipə aid olanların şəxsiyyətində həm neqativ, həmçinin pozitiv xüsusiyyətlər mövcuddur.

3) **Situativ kriminogenliyə malik olan şəxslər.** Bu şəxslər yüksək emosional xüsusiyyətlərə malik olduğundan yaranmış şəraitə uyğun cinayət törədirlər.

Təqdim olunmuş tipologiya ümumi və bəsit sayıla bilər.

Cinayət törədənlərin ayır-ayrı kateqoriyaları üzrə aparılan tipoloji istiqamət üzrə Q.M.Minkovskinin mövqeyi maraq doğurur. Daha çox şəxsiyyətin neqativ yönəlişinə önəm verən müəllif cinayət törədən şəxslərin dörd qrupunu fərqləndirirdi:

– **Təsadüfi cinayət törədən şəxslər**. Onlar şəxsiyyətlərinin əsasən müsbət yönəlişi ilə seçilirlər.

– **Müəyyən kənar təsir altında cinayət törədən şəxslər**. Bu tipə aid olan şəxslər dayanıqsız şəxsi keyfiyyətlərə malikdirlər.

– **Əks-ictimai şəxsi mövqeyə malik şəxslər.**

– **Cinayətin törədilməsi üçün zəruri səbəbləri axtaran və hətta özü yaradan şəxslər.**

Q.M.Minkovskinin tipologiyası da daha çox ümumi meyarlar üzərində qurulmuşdur. Yetkinlik yaşına çatmayanların tipologiyasına aid olan bu təsnifat sosial və psixoloji əlamətlərin sintezindən formalaşdırılmışdır.

Cinayət törədənlərin ayrı-ayrı kateqoriyalar üzrə tipologiyası daha təkmilləşdirilmiş variantlarda məqbul sayıla bilər. Ayrı-ayrı cinayət növləri üzrə aparılmış tipologiyalar daha çox kiriminal xüsusiyyətlərə əsaslanır. Hesab edirik ki, ayrı-ayrı kateqoriyalar üzrə aparılan tipologiyaların əsas meyarları ictimai təhlükəlilik, əməlin xarakteri və motivlər ola bilər.

Bəzi müəlliflər cinayət törədənlərin tipologiyasının meyarının ancaq ictimai təhlükəlilik olduğunu qeyd edirlər [10, S.52]. Lakin yalnız bu meyar cinayət törədənin şəxsiyyətinin kriminogenliyinin tam məzmununu açıqlamır. Kriminal əməlin xarakteri və motivlər üzrə tipoloji bölgüləri də cinayət törədənin şəxsiyyətinin kriminoloji xarakteristikasının daha dolğun aparılmasına dəstək olacaqdır. Cinayət törədən şəxslərin motivlər əsasında tamahkar, nüfuz və ya etibar qazanmaq üçün cinayət törədən, oyun xarkaterli cinayət törədən, zorakı və seksual tipləri fərqləndirilir [11, s.166,167].

Cinayətkar fəaliyyətin xarakteri baxımından isə tiplər aşağıdakı qaydada qruplaşdırılır:

- Tamahkar;
- Zorakı-tamahkar;
- Zorakı;
- Universal.

Tamahkar tipdən başqa, zorakı-tamahkar tipin də göstərilməsi kriminal əməlin xarakterinin fərqli olduğunu göstərir. Bundan başqa cinayət törədən şəxs bir neçə obyektə qəsd etməklə universal tipə də aid ola bilər.

İctimai təhlükəlilik baxımından cinayət törədən şəxslərin tipoloji bölgüsü kifayət qədər müxtəlifdir. Onları təxmini olaraq təqdim olunan variantda sistemləşdirmək olar:

- Yüksək təhlükəli: çoxepizodlu cinayət törədənlər, muzdlu qatillər, həmçinin seksual xarakterli cinayətləri törədənlər.
- Xüsusi təhlükəli: konfliktli vəziyyətlərdə adam öldürmə cinayətini törədənlər, dəfələrlə tamah və tamah-zorakı cinayətləri törədənlər.
- Təhlükəli: həyat əleyhinə olan cinayətlər istisna olmaqla şəxsiyyət əleyhinə və ictimai qayda əleyhinə cinayət törədənlər.
- Az ictimai təhlükəli: ehtiyatsızlıqdan cinayət törədənlər və ya arzuolunmaz şəraitin təsiri ilə cinayət törədənlər.

Təqdim olunan üç xüsusiyyətə görə (kriminal motiv, əməlin xarakteri və ictimai təhlükəlilik dərəcəsi) təxmini bölgünü tamah motivi ilə cinayət törədən şəxslərin tipologiyasına da tətbiq etmək olar. Təbii ki, tamah motivi ilə cinayət törədənlərin sosial, psixoloji və kriminoloji xarakteristikaları nəzərə alınmaq şərti ilə.

Tamah motivi ilə cinayət törədənlərin tipologiyası mürəkkəb və çoxşaxəli xüsusiyyətlərin kriminoloji təhlilinə əsaslanır. Bu növ cinayətlər situativ xarakter daşımadığından şəxsiyyətdə formalaşan kriminogen keyfiyyətlərin inkişafının əsasını uzun müddət ərzində qazanılan sosial təcrübə təşkil edir [12, S.123-127]. Qeyd edilən səbəbdən tamah motivi ilə cinayət törədənlərin tipoloji tədqiqi retrospektiv və perspektiv kriminoloji təhlilin nəticələrinə uyğun aparılan kompleks yanaşma tələb edir. Tamah motivi ilə cinayət

törədənlərin şəxsiyyətlərinin hüquqi və psixoloji məzmununu tədqiq edən A.Taybakov hesab edir ki, bu növ cinayətləri törədənlərin tipologiyasının aparılmasının əsas məqsədi konkret və effektiv profilaktik tədbirlərin və cəza-icra siyasətinin tətbiqinin təmin edilməsidir. Onun mülahizəsinə görə tamah motivi ilə cinayət törədənlər ***peşəkar və situativ*** tiplərə bölünərək öyrənilməlidirlər [13, s.269]. O, peşəkar tipə dolanışıq və maliyyə mənbəyinin yalnız cinayətkar fəaliyyət olan şəxsləri, situativ tipə isə gərgin həyat şəraitinin təsir ilə cinayət törədənləri aid edirdi.

A.Taybakovun kifayət qədər sadə formada təqdim etdiyi tipologiya tamah motivi ilə cinayət törədələrin şəxsiyyətlərinin kriminogenliyinin məzmununu (kriminal motiv, əmənin xarakteri və ictimai təhlükəliliyi) tam açıqlamadığından uğurlu hesab edilə bilməz.

V.N.Burlakov və N.M.Kropaçevin redaktoruluğu ilə nəşr edilmiş kriminologiya fənni üzrə dərsliyin müəllifləri əks-ictimai istiqamətlənməni əsas meyar kimi götürərək tamah motivi ilə cinayət törədənlərin dörd qrupa bölünərək araşdırılmasını daha arzuolunun hesab edirlər [14, s.227-228]:

1. Təsadüfi tip. Bu tipə aid edilənlərin şəxsiyyətlərinə tamahla bağlı istəklərin və əks-ictimai yönəlişin aydın ifadə olunmaması xasdır. Onlar əksər hallarda öz günahlarını qəbul edirlər. Yeni cinayət törətməyə başlayanlar və əksər hallarda yetkinlik yaşına çatmayanlar göstərilən tipə misal ola bilərlər. Bundan başqa təsadüfi tip tərəfindən törədilən cinayətlərin tamah motivi ilə bərabər yalançı romantika, öz cəldliyini yaşıdları arasında göstərmək kimi motivləri də ola bilər.

2. Situativ tip. Göstərilən tipə aid olan şəxslər şəraitin və ya müəyyən qrupun təsiri ilə daha çox oğurluq və soyğunçuluq cinayətlərini törədirlər. Onların əksəriyyətini yetkinlik yaşına çatmayan şəxslər təşkil edir.

3. Qəddar tip. Dəfələrlə cinayət törədənlər, əvvəllər məhkumluğu olan şəxslər bu tipə aiddirlər**.** Cinayətkar fəaliyyət nəticəsində əldə olunan vəsaitlər yeganə dolanışıq mənbəyidir. Onların müəyyən peşəkar bacarıqları var, lakin yetkin kriminal ixtisaslaşma hələ ki, mövcud deyildir. Şəxsiyyətlərində tamahkarlıqları aydın ifadə olunur.

4. Xüsusilə qəddar tip. Bu tipə peşəkar cinayətkarlar aiddirlər. Onlara əks-ictimai yönəliş, xüsusi residivin yüksək səviyyədə olması kimi əlamətlər xasdır. Kriminal ixtisaslaşma yetkin formadadır.

Müəlliflər tərəfindən təqdim olunan bu tipologiya digərlərindən fərqlənsə də, müəyyən tənqidi mülahizələr də qeyd edilə bilər. Hesab edirik ki, öz yaşıdları arasında seçilmək və nüfuz qazanmaq üçün cinayət törədənlər təsadüfi tipdən fərqlənməli və ayrıca olaraq özünütəsdiqedən tip kimi göstərilməlidir.

Situativ tipə aid olan meyarlarda isə birbaşa şəraitin və müəyyən qrupun təsiri ilə cinayət törədənlər eyniləşdirilmişdir. Kriminal əhatənin və ya qrupun təsiri ilə cinayət törədən şəxslər **konformist tip** olaraq müstəqil tədqiq edilməlidirlər.

Qəddar və xüsusilə qəddar ifadələrinin isə bir termin olaraq zorakı cinayətkarlığın tipologiyasında işlədilməsi daha arzuolunandır.

Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin daha çox psixoloji məzmununu araşdıran V.Q.Stukanov fərqli bir tipologiya təqdim edərək onları göstərilən qaydada qruplaşdırmışdır [15, s.157-159]:

1) **İntellektual-merkantil tip.** Maddi dəyərlərin həyatda rolunun kifayət qədər şişirdilməsi bu tipə aid əsas səciyyəvi xüsusiyyətdir. Daha çox varlanmaq məqsədi güdən bu şəxslər dələduzluq, oğurluq, korrupsiya ilə bağlı cinayətlər törədirlər. Cinayətkar fəaliyyət diqqətlə bütün mərhələlər üzrə planlaşdırılır. Törədilmə üsulları isə mürəkkəb xarakter daşıdığından cinayətlə bağlı sübutetmə bazasının toplanması çətinləşir.

2) **Özünütəsdiqedən tip.** Bu tipə aid olun şəxslərdə kriminal davranışın əsas məqsədi sosial**,** sosial-psixoloji və fərdi səviyyədə özünü təsdiq etməkdir. Ətraf mühitə olan münasibətdə şəxsi dəyərlərə aşırı önəm verən bu şəxslərdə özünü qiymətləndirmə meyarlarının deformasiyası mövcuddur. Bu səbəbdən davranışlarına nəzarət etməkdə çətinlik çəkirlər.

3) **Təsir altında cinayət törədən tip.** Göstərilən tipə aid olan şəxslərdə kriminal motiv kənar təsirin nəticəsində yaranır. Onlar daha çox kriminal qruplaşmaların təsiri altında cinayət törədirlər. Qrupun üzvləri əksər hallarda yetkinlik yaşına çatmayanlardan ibarət olur.

4) **Asosial tip.** Bu tipə aid olan şəxslər mənəviyyata zidd adətləri, biopsixoloji asılılıqları ilə seçilirlər. Törətdikləri cinayətlər qabaqcadan planlaşdırılmış fəaliyyətin nəticəsi olmur. Şəxsiyyətlərinin səciyyəvi xüsusiyyətlərindən biri özlərinə və əhatəsinə qarşı laqeydliyidir. Cinayət nəticəsində əldə etdikləri vəsaitləri spirtli içki və narkotik vasitələrin əldə olunmasına sərf edirlər.

5) **Ümidsiz tip.** Həyatın çətinlikləri qarşısında ümidsizliyə qapanan bu tip yaranmış vəziyyətdən çıxış yolunu kriminal davranışda görür. Özünün və ya yaxınlarının həyatı təhlükədə olduqda (hər hansı xəstəliklə bağlı) və ya ailənin maddi durumunda böyük çətinliklər yarandıqda ümidsiz tipə aid olan şəxslər cinayətin törədilməsi yolu ilə öz problemlərini həll edirlər.

V.Q.Stukanov tərəfindən təqdim olunan tipologiya psixoloji xüsusiyyətləri daha çox ehtiva etdiyindən kriminoloji baxımından yetkin sayıla bilməz. Bundan başqa peşəkar tipə dair müəyyən qeydlərin aparılmaması qeyd olunan tipoloji təsnifatın mübahisəli olduğunu göstərir.

Kriminoloji ədəbiyyatlarda tamah motivi ilə cinayət törədənlərin tipoloji təsnifatının daha uğurlu variantlarından biri S.M.İnsakov tərəfindən təqdim edilmişdir [16, s. 90]. Şəxsiyyətin kriminogenliyinin məzmununu daha sistemli tədqiq etmək üçün S.M.İnsakov tamah motivi ilə cinayət törədənləri yeddi tipə bölərək göstərilən qaydada təsnifatlandırmışdır:

1. **Situativ tip.** Onlar kəskin ehtiyacın təsiri ilə bağlı yaranmış vəziyyətin nəticəsində cinayət törədirlər.
2. **Tamahkar tip.** Şəraitdən asılı olmayaraq maddi təminatla bağlı problemlərini cinayət yolu ilə həll edən şəxslərdir.
3. **Konformist tip.** Digər şəxslərin təsiri ilə cinayət törədənlərdir.
4. **Özünütəsdiqedən tip.** Öz yaşıdları arasında nüfuz qazanmaq üçün cinayət törədən şəxslər bu tip aiddirlər. Onlar daha çox yetkinlik yaşına çatmayan şəxslər olurlar.
5. **Patoloji tip.** Burada kleptomaniya yox, patoloji yığımçılıq nəzərdə tutulur.
6. **Romantik tip.** Adrenalin və risk həvəsi ilə cinayət törədən şəxslər (kleptomaniya) qeyd olunan tipə aiddirlər.

7. **Üsyankar tip.** Bu tipə aid olan şəxslər maddi durumu yaxşı olan şəxlərə qarşı paxıllıq hissindən cinayət törədirlər.

S.M.İnşanov tərəfindən təqdim olunan tipologiya nə qədər uğurlu olsa da, mübahisə doğuran məqamlar da mövcuddur. Bu tipologiyada da peşəkar və universal tiplər haqqında məlumat veilməmişdir. Bundan başqa tipologiya yalnız bir formada sistemləşdirilmişdir. Yəni, tamah motivi ilə cinayət törədənlərin kriminal motiv, əməlin xarakteri və ictimai təhlükəlilik dərəcəsi üzrə daha məzmunlu tipologiyası verilməmişdir.

Göstərilən tipoloji təsnifatların müqayisəsini apararaq ***kriminal əməlin xarakteri, ictimai təhlükəlilik dərəcəsi və motivi*** *nəzərə alınmaqla tamah motivi ilə cinayət törədənlərin tipologiyasının aşağıdakı qaydada aparılmasını təklif edirik:*

1. Kriminal davranışın **xarakteri** nəzərə alınaraq tamah motivi ilə cinayət törədənlərin tipologiyası.

- **Tamahkar tip.** Zorakılıqla müşayiət edilməyən tamah motivi ilə cinayət törədən şəxslərdir. Onlar psixoloji dayanıqlığına görə digər tiplərdən fərqlənirlər. Konfliktli və digər gərgin psixoemosional vəziyyətlərdə həyəcanlanmır və asanlıqla ünsiyyətə daxil olurlar. Bu tipə aid olan şəxslər daha çox oğurluq və dələduzluq cinayətini törədirlər. Tamahkar tipin iki alttipi mövcuddur:

a) Mənzil və ya saxlanc yerinə daxil olmaqla cinayət törədənlər.
b) Mənzil və ya saxlanc yerinə daxil olmadan cinayət törədənlər (cibgirlik, dələduzluq).

- **Tamah-zorakı tip.** Zorakılıqla müşayiət olunan tamah motivi ilə cinayət törədən şəxslərdir (soyğunçuluq, quldurluq). Bu tipə aid olanların analitik təfəkkürü yüksək olmayan şəxslərdir. Cinayəti əksər hallarda qabaqcadan planlaşdırmırlar. Tez həyəcanlanmağı, aqressivliyi və çılğınlığı ilə seçilirlər. Tamah-zorakı tipin də iki alttipi mövcuddur:

a) Cinayətdən əvvəl zorakılıq etmək üçün qərarı qəti olanlar.
b) Cinayət zamanı zorakılıq etmək qərarına gələnlər.

- **Universal tip.** Bu tipə aid olan şəxlər həm zorakılıqla müşayiət edilməyən, həm də zorakılıqla müşayiət olunan tamah motivi ilə cinayət törədirlər.

2. Kriminal davranışın **ictimai təhlükəliliyi** nəzərə alınmaqla tamah motivi ilə cinayət törədənlərin tipologiyası:

- **Peşəkar tip.** Kriminal yönümdə ixtisaslaşma, xüsusi bacarıq və vərdişlər bu tipin əsas xüsusiyyətlərindən biridir. Onların dolanışıq mənbəyi yalnız cinayətkar fəaliyyətdir. Kriminal mühitlə dayanıqlı və geniş əlaqələri mövcuddur.

- **Adi tip.** Peşəkar tipdən onu fərqləndirən xüsusi bacarıq və vərdişlərin, kriminal ixtisaslaşmanın olmamasıdır. Onlar cinayət törətməkdə israrlıdırlar.

- **Situativ tip.** Yaranmış şəraitin təsiri ilə cinayət törədirlər. Şəxsiyyətlərində pozitiv komponentlər üstünlük təşkil edir.

3. Kriminal davranışın **motivinə** görə tamah motivi ilə cinayət törədənlərin tipologiyası:

- **Tamahkar tip.** Davranışlarının əsas motivi maddi mənfəətin əldə olunmasına hədsiz aludəçilik hissinin olmasıdır. Onlar həyatlarının maddi təminatını yalnız cinayət yolu ilə həll edirlər.

- **Özünütəsdiqedən tip.** Öz dominantlığını göstərmək və nüfuz qazanmaq üçün cinayət törədirlər. Daha çox yetkinlik yaşına çatmayanlar bu tipə aiddirlər.
- **Konformist tip.** Başqalarının təsiri ilə cinayət törədirlər. Müstəqil qərar qəbul etməkdə çətinlik çəkən və zəif iradəli bu şəxlər kriminal mühitin təsiri altına asanlıqla düşürlər.
- **Marginal tip.** Daha çox spirtli içki və narkotik vasitələrin əldə olunması üçün cinayət törədirlər.
- **Patoloji tip.** Digərlərindən kəskin fərqlənən bu tip yığımçılığa olan həvəsi ilə seçilir. Oğurladığı əmlakın lazım olub-olmaması önəmli deyil, yığımçılığa olan patoloji həvəs onu cinayətə sövq edir.
- **Romantik tip.** Kleptomanları göstərilən tipə aid etmək olar. Adrenalin və hislərin qıcıqlandırılması həvəsi onlar tərəfindən törədilən cinayəti bir oyuna çevirir. Bu tipin iki alttipi mövcuddur:

a) Monokleptomanlar – konkret növ əşya və predmetlərə (qiymətli əşyalar, zərgərlik məmulatları, rəsm əsərləri və s.) həvəsi olan şəxslər;

b) Polikleptomanlar – oğurlanmış əşya və predmetlərə fərq qoyulmur.

- **Üsyankar tip.** Bu tipə aid olan şəxslər cinayəti paxıllıq və qısqanclıq hissindən törədirlər. Digər şəxslərin daha yaxşı maddi durumu və xoş güzəranı onlar tərəfindən törədilən cinayətlərin əsas səbəblərindən sayılır.

Hesab edirik ki, tamah motivi ilə cinayət törədənlərin tipologiyasının təklif olunan variantları hüquq-mühafizə orqanlarının fəaliyyətində cinayət törədənin şəxsiyyətinin öyrənilməsi işini asanlaşdıracaq, elmi-nəzəri müddəaların tədqiqinə münbit zəmin yaradacaqdır.

ƏDƏBİYYAT:

1. Шалагин А.Е., Хрусталева О.Н. Криминолого-психологические характеристике личности преступника: от теории к практике //Вестник Казанского юридического института МВД России. №3 (41) 2020. с.329-337.
2. Юнг К.Г. Психологические типы. Харвест. 1997. Ст.285.
3. Poznışev S.V. Kriminal psixologiya: Cinayətkar tiplər. Davranış subyekti kmi şəxsiyyətin, o cümlədən cunayətkarın şəxsiyyətinin psixoloji tədqiqi haqqında /Azərbaycan dilinə çevirən h.ü.f.d. Elsevər Muradov. “ALMİU” nəşriyyatı. Bakı, 2012. 388 s.
4. Artuk M.Emin, Alşahin M.Emin. Kriminoloji. Üçüncü baskı. Adalet yayınevi. Ankara-2021, s.501.
5. Demirbaş Timur. Kriminoloji. Yeddinci baskı. Seçkin. Ankara, 2020, s.455.
6. Constat, Jean, Elements de criminologie, Liege 1949.
7. Maxwell, J., Le crime et la societe, Paris 1912.
8. Игошев К.Е. Типология личности преступника и мотивация преступного поведения. Горький, 1974. 168 с.
9. Кургузкина Е.Б. Теория личности преступника и проблемы индивидуальной профилактики преступлений. Дис.. д-ра юрид. наук: 12.00.08. – М.: РГБ, 2005 (Из фондов Российской Государственной библиотеки).
10. Еникеев М.И. Юридическая психология учебник/М.: Норма, 2011. 512 с.
11. Кудрявцев В.Н., Эминов В.Е. Криминология. Учебник. -5-е.изд., перераб. и доп. –М.: Норма: Инфра-М. Москва, 2015. - 800 с.

12. Желудков М.А., Худякова К.Д., Гаршин С.В. Обоснование необходимости криминологического познания личности корыстного преступника //Право и практика. Научный журнал НИИ истории, экономики и права и Кубанской коллегии адвокатов адвокатской палаты Краснодарского края – М.: НИИ ИЭП, 2018 – № 4. – 336 с.
13. Тайбаков А.А. Социально-криминологическое исследование корыстной преступности Европейского Севера России и ее предупреждение органами внутренних дел. Дис. д-ра юрид.наук. – М.: РГБ, 2003 (Из фондов Российской Государственной библиотеки). 417 с.
14. Бурлаков В.Н., Кропачев Н.М. Криминология: Учебник. -СПб.: Санкт-Петербургский государственный университет. Питер, 2002. - 432 с.
15. Стуканов. В.Г. Психологическая типология личности корыстного преступника и ее учет в исправительном процессе //Вестник Академии МВД Республики Беларусь. Научно-практический журнал. № 2 (20), Минск, 2010. 204 с
16. Иншаков С.М. Криминология: Вопросы и ответы. 2-е изд. М.: Юриспруденция 2002. – 224 с.

PROBLEMS OF STUDYING THE CRIMINOLOGICAL TYPOLOGY OF THE PERSONALITIES OF CRIMINALS WITH THE MOTIVE OF GREED

Vugar Mansurov
PhD student of the Center for Forensic Expertise
Ministry of Justice of the Republic of Azerbaijan

ABSTRACT

In order to create a clear picture of the identity of criminals with the motive of greed, it is necessary to conduct an investigation into the identity of the criminal in general. Preliminary information about the personality creates a fertile ground for studying the complex of causes of criminal behavior of criminals with the motive of greed. One of the criteria for evaluating the complex content of the personalities of criminals with the motive of greed is conducting a criminological typology. Criminological typology is carried out by grouping the information characterizing the personality of the criminal into certain types.

Keywords: *criminological research, personality of the criminal, greed motive, criminal behavior, social environment, criminological types*

NARKOTİK VASİTƏLƏRİN TƏBLİĞİNİN YOLVERİLMƏZLİYİ

UOT (УДК) – 34:343.976

Elnur Nəcəfov
Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin
Polis Akademiyasının "Cinayət hüququ" kafedrasının müəllimi,
polis baş leytenantı
najafow1313@gmail.com

Ümumiləşdirərək qeyd etmək istərdim ki, onsuz da ictimai mənəviyyata böyük ziyan vuran narkotik vasitələrin qanunsuz dövriyyəsi, informasiya texnologiyalarının inkişafı ictimai təhlükəni artırır, onlardan istifadə edənlərin əhatə dairəsi və sayı artır. Bu baxımdan istər Cinayət Məcəlləsində, istərsə də İnzibati Xətalar Məcəlləsində bu sahədə mübarizənin gücləndirilməsi və bu cür əməlləri törədənlərə qarşı qanunvericiliyin mövqeyinin aydınlaşdırılması, yaxud normanın müəyyənləşdirilməsi məqsədəuyğun olar.

Açar sözlər: *narkotik vasitə, cinayət, inzibati xəta, hüquq, qanun*

Hüququn digər sahələri kimi Cinayət hüquq sahəsi də, insanlar arasında yaranan ictimai münasibətləri mühafizə edir. Təbiətin və həyatın qanunlarından irəli gələrək insan bir varlıq kimi yaranan gündən birgəyaşayış qaydalarına kobud şəkildə də, olsa riayət etmişdir. Lakin elə həmin dövrlərdən bəzi insanlar içərisində hər zaman digər şəxsin üzərində haqsız davranışı, yaxud hansısa birgəyaşayış qaydalarına zidd hərəkətlərə yol verənlər də olmuşdur. Zamanla bu tip hərəkətlər insanlıq inkişaf etdikcə dəyişmiş və mülki, əxlaqi, cinayət normaları adını almışdır. Keçmişdə mövcud olmuş Şummer qanunları, Hammurapi qanunları və Roma hüququ bu sistem əsasında yaranmışdır. Təbidir ki, daha ictimai təhlükəli hesab edilən və bir çox hallarda geriyə bərpası mümkün olmayan hüquqazidd hərəkətlər cinayət qanunvericiliyi ilə qorunmağa başlamışdır.

Azərbaycan Respublikasının Konstitusiyasında ən ali dəyərlər: yaşamaq hüququ, azadlıq hüququ, mülkiyyət hüququ və.s. müəyyən olunmuşdur. Bu münasibətlər dövlət tərəfindən qorunur və onların pozulmasına görə dövlət inzibati, mülki yaxud cinayət hüquqi tədbirlər görür. Belə normalardan biri də, insanların sağlamlıqlarının qorunmasıdır. Konstitusiyamızın 41-ci maddəsi ilə müəyyən olunmuş "Sağlamlığın qorunması hüququ" ilə hər kəsin sağlamlığını qorumaq hüququ, eyni zamanda dövlət tərəfindən səhiyyə orqanlarının inkişafına təminat verilməsi müəyyən olunmuşdur. Narkotik vasitələrdən istifadə, onun miqyasının genişlənməsi, qanunsuz dövriyyəsi ilə bağlı hallar cəmiyyətin sağlamlığının pozulmasına, xüsusilə gənc nəslin potensialının aşınmasına, genefondunun tənəzzülünə gətirib çıxaran haldır.

İnsan ölümü müxtəlif səbəblərdən gerçəkləşə bilər. Müharibələr, yoluxucu xəstəliklər, avtomobil qəzaları, qətl hadisələri, intihar halları, təbii fəlakətlər, bəzi ölkələrdə hökm sürən aclıq və s. bu amillərin sırasındadır. Son vaxtlar sadalananların sırasına "ağ ölüm" adlandırdığımız narkomaniya da əlavə olunub. Narkomaniya insanları tədricən məhv edir, ölümə sürükləyir.

Narkotik asılılığın elmi anlayışı ilk dəfə XVIII əsrin əvvəllərində verilib. XX yüzilliyin sonunda isə narkomaniya müxtəlif xalqların genofonduna sarsıdıcı zərbələr vuran, qarşısıalınmaz bir təhlükəyə, ümumbəşəri bəlaya çevrilib. Digər tərəfdən, narkotik maddələrin qanunsuz dövriyyəsi gəlir əldə etmək üçün başlıca vasitə olub. Mərkəzi sinir sisteminə spesifik təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddələrə narkotik maddələr deyilir. Narkotik "narke" sözündən götürülüb, yunan dilindən tərcümədə mənası yuxu, bihuşluq, "mania" – cəzb etmə, ağılsızlıq deməkdir. Narkotik maddələrdən ilk öncə tibbdə istifadə olunmağa başlanıb. Bu elə maddədir ki, insan düşüncəsinə təsir edir və müəyyən mənada beyni tənzimləyir. Bu tənzimləmə hər cür psixoloji və fiziki deffektlərlə nəticələnə bilər. Bu o deməkdir ki, narkotiklər hissləri, əhval-ruhiyyəni, düşüncəni dəyişməyə qadirdirlər. Narkomanlıq – xroniki intoksikasiya doğuran, narkotik və psixotrop maddələrin istifadəsi nəticəsində yaranan, psixi və fiziki asılılıqla müşayiət olunan xəstəlikdir. Narkomaniya xəstələrində narkotiklərin qəbulunun dayandırılması və ya dozanın azaldılmasından bir müddət sonra inkişaf edən fiziki və psixi pozulmalar abstinent sindromuna gətirib çıxardır. Narkotiklərə alışmış orqanizmin abstinent sindrom zamanı yaranan ağrı hisslərindən azad olmaq arzusu o dərəcədə güclüdür ki, bu zaman narkotik əldə etmək xatirinə insan yalana, oğurluğa, hətta adam öldürməyə də əl ata bilər. Narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükə törədir. Narkotik maddələrin qəbul edilməsi ilə insan fiziki və psixoloji cəhətdən məhv olur. Narkomaniya yaddaş və təfəkkürü pozur, həyati proseslərə qarşı laqeydlik yaradır. Cəmiyyətin böhranlı dövründə narkomanlıq artır, sosial münasibətlərə mənfi təsir göstərir. Narkomaniya orqanizmin zəifləməsinə, bədənin arıqlamasına və fiziki gücün düşməsinə gətirib çıxarır. Orqanizmin zəhərlənməsi daxili orqanların, xüsusən də qara ciyər və böyrəklərin funksiyasının pozulmasına səbəb olur.

Narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə edən şəxslər, və bununla bağlı törədilən hüquqpozmaların miqyası hər il genişlənir, statistikaya nəzər yetirsək görərir ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tərəfindən, 2021-ci ildə ölkədə qeydə alınmış 31131 cinayət hadisəsinin 8571-i və ya 27,5 faizi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olmuş, bu da 2020-ci ilin göstəricisindən 1,6 dəfə çoxdur. Onların 55,6 faizini satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma, 38,2 faizini eyni hərəkətləri satış məqsədilə etmə, habelə bu maddələri istehsal etmə, göndərmə, yaxud qanunsuz olaraq satma, 4,4 faizini qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə, 1,6 faizini güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi ilə bağlı, 0,2 faizini isə digər cinayətlər təşkil etmişdir. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət törətmiş 6490 şəxs müəyyən edilmişdir. Həmçinin qeyd etmək lazımdır ki, sosial neqativ hal kimi, narkotik vasitələr və psixotrop maddələrdən istifadəsi eyni zamanda başqa cinayətlərin törədilməsinə də, zəmin yaratmış olur. Hər nə qədər beynəxalq səviyyədə bu bəlaya qarşı mübarizə aparıldığı qeyd olunsada, əldə olunan dırnaqarası külli miqdarda asan gəlir və maraqların olmasına görə, bəzən dünya dövlətlərinin bu məsələyə obyektiv yanaşmamasının şahidi

oluruq. Birləşmiş Millətlər Təşkilatı tərəfindən bu sahadə birgə mübarizə aparmaq məqsədi ilə, 1961 ci il tarixli Narkotik Vasitələrin qanunsuz dövriyyəsinə dair, 1971-ci il Psixotrop maddələrin qanunsuz dövriyyəsinə dair, və 1988-ci il Narkotik Vasitələrin və Psixotrop maddələrin Qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında Konvensiyalar qəbul edilmişdir.

Konvensiyalara əsasən hansı maddələrin narkotik maddə hesab edilməsi, anlayışlar, və narkotik vasitələrə qarşı mübarizə, cəza tədbirləri müəyyən olunmuşdur. Narkotik vasitələrin istifadənin nə dərəcədə cəzalanmalı olması hər bir ölkənin daxili siyasətinin qəbul etdiyi qərarlardan irəli gəlir. Məsələn: Hollandiya, Almaniya, ABŞın bir neçə ştatlarında narkotik vasitə hesab olunan marixuananın əyləncə məqsədi ilə istifadəsi leqallaşdırılmışdır. Başqa bir qrup ölkələr, Türkiyə, Almanya. İsrail, Yunanıstan kimi ölkələrdə isə yalnız tibbi məqsədlə istifadə halları mövcuddur. Azərbaycan Respublikasının da daxil olduğu bir sıra ölkələrdə isə marixuananın heç bir halda istifadəsinə yol verilmir. Və bununla bağlı İnzibati Xətalar Məcəlləsinin 206-cı maddəsinə əsasən məsuliyyət nəzərdə tutulmuşdur. Ölkəmizin milli, mənəvi dəyərlərə xüsusi həsas olduğunu və narkotiklərdən istifadənin cəmiyyətin gələcək nəslini korladığını nəzərə alarsaq, Aəzrbaycan Respublikasının Cinayət qanunvericiliyin narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə mövqeyi son dərəcə haqlıdır.

Ümummilli liderimiz Heydər Əliyevin "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 1996-cı il 26 avqust tarixli Fərmanı və digər qanunlar, fərmanlar, normativ-hüquqi aktlar narkotiklərlə mübarizənin əsas strateji xəttini müəyyənləşdirmişdir. Bu gün ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi və onlara qarşı mübarizə üzrə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, bu sahədə hüquq-mühafizə orqanlarının fəaliyyətinin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi dövlət başçısının, hüquq mühafizə orqanlarının daim diqqət mərkəzindədir. Bu gün narkomanlığa qarşı mübarizədə səmərəliliyə nail olmaq üçün aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə yaradılmış Dövlət Komissiyası və ölkə Prezidentinin 2007-ci il 28 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş, 2007-2012-ci illəri əhatə edən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə qarşı, narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram", həmçinin Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli 2966 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" xüsusi təkan vermişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 236-cı maddəsi Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə kimi ifadə olunmuşdur. Bu maddənin obyektiv cəhəti narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmədə ifadə olunur. Azərbaycan Respublikasının "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekusorlarının dövriyyəsi haqqında" 28 iyun 2005 tarixli Qanunun 1.0.16-cı maddəsinə görə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına təhrik etmə dedikdə, audio, bədii, video və s. məlumatların, o cümlədən kompüterləşdirilmiş informasiya və digər vasitələr ilə düzünə və ya dolayı yolla narkotik vasitələrin və psixo-

trop maddələrin istehlakına təhrik etmə başa düşülür. Azərbaycan Respublikasın Ali Məhkəməsi Plenumunun Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekusorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında 4 mart 2011-ci il tarixli 2 sayılı Qərarının 17-ci bəndinə görə narkotik vasitələrin istehlakına təhrik etmə dedikdə dilə tutma, təklif etmə, məsləhət vermə, aldatma və sair üsullarla narkotik vasitələrdən və psixotrop maddələlərdən istifadə həvəsini yaratmağa yönəldilmiş hər hansı qəsdən edilmiş hərəkətlər başa düşülür. Buradan başa düşülür ki, cinayət məcəlləsinin 236-ci maddəsində qeyd olunmuş təhrik, subyektiv cəhətdən zərərçəkmiş şəxsləri narkotikin istehlakına təhrik etdiyini dərk edib bunu arzu etməkdir. Haqqında danışacağımız məsələ isə birbaşa olaraq təhrik etməsədə, lakin narkotik vasitələrdən açıq aşkar şəkildə istifadə etməklə, yaxud onun haqqında müsbət yönümlü danışmaqla, narkotik vasitələrdən istifadə nəticəsində yaranan eyforiya vəziyyətinin insana böyük həzz hissi verdiyi haqqında videolar, mahnılardır.

İnformasiya komunikasiyalarından istifadənin geniş yayılması və internet şəbəkəsindən istifadə edərək qeyri müəyyən sayda geniş kütləyə çıxışın asanlaşdığı bir dövrdə bu sahədə çatışmazlıqları görürük. Nəzərə alsaq ki, yeniyetmə yaş dövründə olanlar, və gənclər sosial şəbəkələrdən daha geniş şəkildə istifadə edirlər və onların hansısa şəxslərin təsiri altına düşməsi, onlara qarşı meyilliliyin yaranması halları qaçınılmaz olur. Günümüzdə internetin zaman və məkan sərhədlərini aradan qaldıraraq beynəlxalq bir bazar halına gəlməsi və narkotik ticarətində alıcı və satıcı arasında heç bir fiziki təmas olmadan satışın gərçəkləşməsi onun dövriyyəsini dahada artırır. İnternet üzərindən aparılan narkotik ticarəti əsasən internetin 2 bölümündə aparılır. Surface web adlandırılan əsas istifadə olunan internet bölməsi, bu əsasən klassik internet axtarma moderatorlarıyla istifadə edilə bilən bölməsidir, digəri dərin şəbəkə adlandırılan deep web bölməsidir. Google, Yahoo, Bing kimi klassik axtarış moderatorlari ilə istifadə edilə bilməyən internetin bu hissəsi qeyri qanuni əməllərin xüsusilə narkotik vasitələrin qanunsuz dövriyyəsində geniş istifadə olunur.

Dövriyyəsi qanunvericiliklə qadağan olunan predmet, əşyaların və yaxud istifa-dəsi insan sağlamlığı üçün təhlükəli olan məhsulların reklam etdirilməsi Reklam haqqında AR Qanununun 4.6-cı maddəsinə əsasən qadağandır. Və Reklam haqqında qanunvericiliyin pozulmasına görə İnzibati Xətatalar Məcəlləsinin 428-ci maddəsində məsuliyyət məsələsi öz əksini tapmışdır. Lakin reklam etdirilməsə də, sosial şəbəkələr də məqsədli şəkildə narkotik vasitələrin istifadəsinə insanları cəm halında təkrik edən, yaxud özü açıq aşkar istifadə edərək insalar üçün bunun sanki yaxşı bir şeymiş kimi təqdim etmək, narkotik vasitələrin adları çəkilərək və ya onlardan istifadə etməklə bağlı hər hansı hərəkətləri nəzərdə tutan dırnaqarası mahnı və ya meyxanaları ifa edən şəxslər haqqında Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət Məcələsində xüsusi norma yoxdur. Belə əməllərə görə praktiki olaraq Azərbaycan Respublikasında həmin əməli törətmiş şəxsin onun faktiki olaraq törətdiyi əmələ görə deyil özü də narkotik vasitənin istifadəçisi olduğu üçün məsuliyyətə cəlb edilirlər. Həmin şəxslər üzərlərində narkotik vasitə olmadığı, yaxud özü narkotikdən istifadə etmədiyi təqdirdə təbliğata görə məsuliyyətdən kənar qalırlar. Təcrübə onu göstərir ki, bir və ya bir neçə şəxsə deyil, minlərlə, on minlərlə insa-

nın qəbul etdiyi bu tip informasiya, həmin insanları öz süzgəcindən keçirərək mənfi halların yayılmasına daha çox şərait yaradır. Nəticə olaraq yeniyetmə yaş dövründə olan şəxslər izlədiyi bu tip insanların hərəkətlərini təqlid etməyə onlara oxşamağa çalışması, belə hərəkətlərin nə qədər təhlükəli olduğunu ortaya qoyur.

Xarici ölkələrin qanunvericiliklərində narkotik vasitələrin təbliğinin inzibati, hətta cinayət məsuliyyəti yaratdığı hallarda mövcuddur. Məsələn, Türkiyə Respublikasının Cinayət Məcəlləsində bununla bağlı norma və məsuliyyət müəyyən olunmuşdur: TCK 190 (2) – "Uyuşturucu ve ya uyarıcı madde kullanılmasını alenen özendiren ve ya bu nitelikte yayın yapan kişi, beş yıldan on yıla kadar hapis ve bin günden onbin güne kadar adlî para cezası ile cezalandırılır". Rusiyada isə 8 yanvar 1998-ci ildə narkotik vasitələr və psixotrop maddələr haqqında Federal Qanun narkotik maddə istifadəsini təşviq edən hər cür reklam və tanıtım kampaniyaları ilə bağlı fəaliyyəti qadağandır.

Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsinin 6.13-cü maddəsinin 1.1-hissəsinə əsasən narkotik vasitələrin internet informasiya ehtiyatlarından istifadə edilməklə təbliğinə görə məsuliyyət müəyyən edilmişdir. Xüsusən bayağı mahnılarda və gənclər arasında geniş fanat kütləsi olan reperler tərəfindən oxunan replərdə narkotik vasitələrin qəsdən təbliği hallarında qanunvericilklə müəyyən olunmuş məsuliyyət tədbirlərinin tətbiq olunması dünya praktikasında mövcuddur. Türkiyə Respublikasında, Rusiya Federasiyasında son dövrlərdə bununla bağlı nümünələr var. Məsələn türkiyəli reper Mehmet Önder Doğana bunula bağlı Türkiyə Respublikası Cinayət Məcəlləsinin 190-cı maddəsi ilə 4 il 2 ay həbs cəzası verilib. Bundan başqa Yaponiyada narkotik maddə istifadəsi ictimai təxribat və təşviq aktları 94 sayılı və 1991-ci il tarixli Qanunun 12-ci maddəsi ilə cinayət kimi müəyyən edilir və əmələ görə ağır cəzalar nəzərdə tutulur. Həmçinin Fransa, Lüksemburq, Belçika, İsveçrə, İtaliya, İsveç, Norveç və İngiltərə kimi ölkələrdə narkotikdən istifadəyə təxribat, təşviqat və ya bu məqsədlə təbliğat aparmaq eyni zamanda narkotik vasitələrdən istifadə etməyi kütləviləşdirmək qadağan edilir.

Onu da qeyd etmək lazımdır ki, burada təbliğatın aparılması birbaşa olaraq narkotik vasitələrin istifadəsinə təhrik etmək hesab edilmir, belə olan təqdirdə həmin ölkələrin cinayət qanunvericiliyi ilə, iki və daha artıq şəxsi narkotik vasitə istifadəsinə təhrik etmək ilə cinayət məsuliyyəti yaranacaqdır. Həmçinin narkotik vasitələrin və psixotrop maddələrin istifadəsi ilə bağlı təbliğat aparan və bu məqsədlə video rolik hazırlayan,yaxud mahnılar oxuyan şəxsin əməli cinayət və ya inzibati xəta kimi qiymətləndirilərkən mütləq şəkildə həmin əməli törədən şəxsin bunu məqsədli şəkildə etməsi, insanlar arsında yayılmasını istəməsi bir sözlə subyektiv cəhətin zəruri ünsüri kimi məqsədə diqqət yetirmək vacibdir.

Birləşmiş Millətlər Təşkilatının, Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Komitəsinin illik hesabatlarından narkotik vasitələrdən istifadə edənlərin yaşının gəncləşməsi, texnoloji nəaliyyətlərin əldə edilməsi ilə onun yayılımının sürətlənməsini görürük. Qloballaşma gücləndikcə pul və kapital hərəkətlərinin asanlaşdığını bildirilən hesabatlarda beynəlxalq fond köçürmələri, rəqəmsal valyutalar, mobil ödənişlər və elektron pul kisəsi xidmətləri kimi yeni texnologiyalar sayəsində daha asan və sürətli edilə bilir. Eyni zamanda o, istifadəçiləri və prosesləri anonimləşdirir və qeyri-qanuni maliyyə axınları üçün yeni imkanlar yaradır. Mütəşəkkil cinayətkar qruplar bu texnologiyalardan pulların yuyulması

və qazanclarını artırmaq üçün istifadə edirlər. Hesabatlar narkotik istifadəsində internetin rolunu, xüsusən də onlayn narkotik satışı və sosial medianın narkotik istifadəsinə necə təsir etdiyini müzakirə edir. İllik Hesabatlar həmçinin mütəşəkkil cinayətkar qrupların narkotik satmaq üçün internetdən, e-ticarət platformalarından və qaranlıq şəbəkədən necə istifadə etdiyini araşdırır. İllik Hesabatlar göstərir ki, sosial media təkcə narkotik istifadəsi ilə bağlı mənfi davranışları təşviq etmir, həm də istifadəçilərə bir çox platformada marixuana, reseptlə ağrı kəsicilər və digər nəzarət edilən maddələr almaq imkanı təklif edir. Bu, təkcə gənclərin sosial media platformalarının əsas istifadəçiləri olduğuna görə deyil, həm də ona görə böyük əhəmiyyət kəsb edir ki, sosial media platformalarına məruz qalma ilə narkotik istifadəsi arasında artan əlaqənin sübutu var. Odur ki, bu məsələnin təkcə indiki istifadəçilər üçün deyil, həm də sosial media platformalarından gündəlik həyatlarında istifadə edəcək gələcək nəsillər üçün də həll edilməsi zəruridir.

2022-ci il tarixdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əlavə və dəyişikliklər edilərkən bu kimi hallar nəzərə alınaraq, Cinayət Məcəlləsinin 234-cü maddəsinə xüsusilə ağırlaşdıran hal kimi 234.4.4-cü maddə əlavə olundu. Həmin maddənin müddəalarına görə, Narkotik vasitələrin qanunsuz satışı ilə bağlı əməllər kütləvi informasiya vasitələrindən, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədildiyi hallar daha ağır cinayət hesab edilir, və təqsirləndirilən şəxsə beş ildən on iki ilədək cəza təyin edilə bilər. Bütün bunlar göstərir ki, dövriyyəsi qadağan edilmiş əşyaların və malların internet şəbəkələrində yayılması olduqca içtimai təhlükəli hesab edilir və bu kimi hallara meyilliliyin yaradılmasına zəmin yaratmış olur.

Ümumiləşdirərək qeyd etmək itəyirik ki, onsuzda ictimai mənəviyyata böyük ziyan vuran narkotik vasitələrin qanunsuz dövriyyəsinin, informasiya texnologiyalarının inkişaf etməsi ilə daha da, ictimai təhlükəliliyi artır və əhatə dairəsi, onlardan istifadə edənlərin sayı genişlənir. Bu baxımdan qeyd olunan sahədə mübarizəni gücləndirmək, narkotik vasitələri sosial şəbəkələrdə yaxud mahnılarda təbliğ edən şəxslərə qarşı qanunvericiliyin mövqeyini dəqiqləşdirmək, yaxud istər Cinayət Məcəlləsində, istərsə də, İnzibatı Xətalar Məcəlləsində norma müəyyənləşdirmək məqsədəmüvafiq olacaqdır.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Konstitusiyası. URL: http://www.e-qanun.az/framework/897
2. “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” 28.06.2005-ci il tarixli AR Qanunu. URL: https://e-qanun.az/framework/10675
3. “Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" 18.05.1999-cu il tarixli, AR Qanunu. URL: https://e-qanun.az/framework/3854
4. “Reklam haqqında” 15.05.2015-ci il tarixli AR Qanunu - https://e-qanun.az/framework/4
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. URL: http://e-qanun.az/framework/46944
6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.
7. “Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekusorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında” 04.03.2011-ci il tarixli AR Ali Məhkəməsi Plenum Qərarı.
8. BMT-nin Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası- http://anl.az/el/emb/Narkomaniya/pdf/1961.pdf

9. Türkiyə Respublikasının Cinayət Məcəlləsi - https://www5.tbmm.gov.tr/kanunlar/k5237
10. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası.
11. "Uyuşturucu ve madde bağımlığı"- Doç.Dr Recep Koçak, Gaziosmanpaşa Üniversitesi Eğitim Fakültesi.
12. Sabuncuoğlu, B. (1995). Uyuşturucu Bağımlılığı. Ankara: Milli Eğitim Yayınları.
13. Ögel ve Liman, (2003). Gençlerde Madde Kullanım Yaygınlığı ve Özelliklerinin Değerlendirilmesi 2001 Araştırma Sonuçları. İstanbul: Yeniden Sağlık ve Eğitim Derneği Yayınları.

INADMISSIBILITY OF DRUG PROMOTION

Elnur Najafov
Lecturer of Department of Criminal Law
Police Academy of Ministry of İnternal Affairs
Senior police lieutenant
The Republic of Azerbaijan

ABSTRACT

Summarizing, I would like to point out that the illegal circulation of drugs, which already causes great damage to public morale, and the development of information technologies, increase the public danger, and the scope and number of people who use them increases. From this point of view, it will be appropriate to strengthen the fight in this field, and to clarify the position of the legislation against those who commit such acts, or to define a norm either in the Criminal Code or in the Code of Administrative Offenses.

***Keywords**: drug, crime, administrative offense, law, statute*

TRANSMİLLİ CİNAYƏT HÜQUQU
∗ TRANSNATIONAL CRIMINAL LAW

К ВОПРОСУ О ЛЕГИТИМНОСТИ МЕЖДУНАРОДНОГО УГОЛОВНОГО СУДА

UOT (УДК) – 34:341.492.2

Ханлар Аликперов

Директор Центра правовых исследований,
доктор юридических наук, профессор,
Баку, Азербайджанская Республика.
xan_alikperov@hotmail.com

In accordance with the Convention on the Non-Applicability of the Statute of Limitations to War Crimes and Crimes against Humanity (1968) [16], no statute of limitations applies to war crimes. Moreover, individual criminal responsibility for violating the laws and customs of war may arise even if there were no relevant provisions in the national criminal law at the time of the commission of the relevant crimes. Interesting in this regard is the precedent set out in the judgment of 17 May 2010 issued by the Grand Chamber of the ECtHR in the case of *Kononov v. Latvia* (No. 36376/04) [17].

According to the circumstances of the case, on 27 May 1944 an armed detachment of Red partisans in German uniforms, led by the applicant, entered the village of Malye Bati, some of the inhabitants of which were suspected of having betrayed another group

of Red partisans by handing them over to the Germans. The applicant's detachment searched six houses. Finding in each of them rifles and grenades issued by the German occupation authorities, the partisans executed the heads of six households. They then set fire to two houses with outbuildings, because of which three more people died in the fire. A total of nine people were killed: six men and three women. In 2004 the applicant was convicted of war crimes and sentenced to one year and eight months' imprisonment.

It is noteworthy that the acts of which the applicant was accused did not constitute a crime under domestic law at the time they were committed.

In the present case, the European Court assessed the state of international law in 1944, noting that the Hague Convention and the 1907 regulation already defined war crimes and required individuals to be held accountable. Accordingly, the international responsibility of states, based on treaties and conventions, did not preclude the normal duty of states to prosecute and punish persons for violations of the laws and customs of war.

On this basis, the European Court concluded that international norms and customs of war were in themselves sufficient to establish individual criminal responsibility in 1944, therefore, the fact that they were not indicated in domestic law at that time was not decisive. values. Accordingly, at the time the applicant's acts amounted to crimes defined with sufficient availability and foreseeability by the laws and customs of war.

Conclusions: The four Geneva Conventions of 12 August 1949 and their Additional Protocol I of 8 June 1977 oblige states to criminalize serious violations of international humanitarian law in national legislation. Ukraine fulfilled this requirement, first of all, by including Article 438 “Violation of the laws and customs of war” in the Criminal Code of Ukraine.

In addition, states must prosecute individuals accused of committing serious violations of international humanitarian law or hand over such individuals to a state willing to carry out such prosecution. In other words, war crimes (as well as other types of international crimes) are subject to the principle of universal jurisdiction in accordance with the Geneva Conventions. It consists in the fact that any state can bring a person guilty of war crimes to criminal responsibility, regardless of the place of the crime and the nationality of the perpetrator of the crime or its victim.

It is difficult to deny the need to bring national criminal legislation in line with international acts, as well as the expediency of using the provisions and nature of such treaties when developing draft amendments to existing criminal codes.

At the same time, the improvement and development of criminal legislation is impossible without a proper scientific basis.

REFERENCES:

1. Convention (IV) respecting the Laws and Customs of War on Land and its annex: Regulations concerning the Laws and Customs of War on Land. The Hague, 18 October 1907. URL: https://ihl-databases.icrc.org/applic/ihl/ihl.nsf/Treaty.xsp?action=openDocument&documentId=4D47F92DF3966A7EC12563CD002D6788.

2. Григорович Ю.В. Уголовная ответственность индивидов за совершение международных преступлений // Московский журнал международного права. 2008. № 2. С. 172 – 187.
3. Convention relative to the Treatment of Prisoners of War. Geneva, 19 August 1949. URL: https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/geneva-convention-relative-treatment-prisoners-war.
4. Historical Survey of the Question of International Criminal Jurisdiction - Memorandum submitted by the Secretary-General. Memorandum submitted by the Secretary-General. United Nations-General Assembly, International Law Commission. Lake Success, New York, 1949. 147 pp.
5. Устав Международного военного Трибунала // Нюрнбергский процесс: Сб. материалов в 8 т. Т. 1 / Отв. ред., автор предисл. А.*М*. Рекунков. М.: Юрид. лит., 1987, 688 с.
6. Practice Relating to Rule 156. Definition of War Crimes. Customary IHL / Official website of ICRC. URL: https://ihl-databases.icrc.org/customary-ihl/eng/docs/home.
7. *Нюрнбергский процесс*: Сб. материалов в 8 т. *Т. 7* / Сост., автор предисл., науч. ред. Н.С. Лебедева. – *М*.: Юрид. лит., 1997, 736 с.
8. Додатковий протокол до Женевських конвенцій від 12 серпня 1949 року, що стосується захисту жертв міжнародних збройних конфліктів (Протокол I), від 8 червня 1977 року (Протокол ратифіковано із заявою Указом Президії Верховної Ради УРСР № 7960-XI від 18.08.1989). ООН, 1977. URL: https://xn--80aagahqwyibe8an.com/download/ dodatkoviy-protokol-jenevskih-konventsiy-vid-hdr1-2158.html.
9. Додатковий протокол до Женевських конвенцій від 12 серпня 1949 року, що стосується захисту жертв збройних конфліктів неміжнародного характеру (Протокол II), від 8 червня 1977 року (Протокол ратифіковано із заявою Указом Президії Верховної Ради УРСР № 7960-XI від 18.08.1989). ООН, 1977. URL: https://zakononline.com.ua/ documents/show/169399___169399.
10. Русинова В.Н. Нарушения международного гуманитарного права: индивидуальная уголовная ответственность и судебное преследование : автореф. дис. … канд. юрид. наук: 12.00.10. М., 2005, 210 с.
11. Конституція України**,** прийнята на п'ятій сесії Верховної Ради України 28 червня 1996 року. URL: https://www.president.gov.ua/documents/constitution.
12. Law of on International Treaties of Ukraine of 29.06.2004 (N 1906-IV). URL: https://www.ilo.org/dyn/natlex/natlex4.detail?p_lang=en&p_isn=82076&p_country=UKR&p_count=579.
13. *Кримінальний кодекс України* : зі змінами та доповненнями станом на 08.11.2022 р. – К.: ПАЛИВОДА А. В., *2022*, 264 с.
14. Інструкція про порядок виконання норм міжнародного гуманітарного права у Збройних Силах України, затверджена Наказом Міністерства оборони України від 23.03.2017 №164. URL: https://zakon.rada.gov.ua/laws/show/z0704-17#Text.
15. Піддубна М.В. Імплементація норм міжнародного кримінального права про воєнні злочини у Кримінальний кодекс України. Дис. … к.ю.н. 12.00.08 «Кримінальне право та кримінологія; кримінально-виконавче право». Київ, 2020, 260 с.
16. Convention on the Non-Applicability of Statutory Limitations to War Crimes and Crimes Against Humanity, 26 November 1968. URL: https://www.un.org/en/genocideprevention /documents/atrocity-crimes/Doc.27_convention%20 statutory%20limitations%20warcrimes.pdf.
17. Judgment in Case of Kononov v. Latvia (Application no. 36376/04). URL: https://hudoc.echr. coe. int/ fre#%7B%22itemid%22:[%22001-87934%22]%7D.

MÜHARİBƏ ADƏTLƏRİ VƏ QANUNLARININ POZULMASINA GÖRƏ FƏRDİN CİNAYƏT MƏSULİYYƏTİ HAQQINDA

Sergii Denysov
Hüquq elmləri doktoru, professor
Xarkov Milli Daxili Işlər Universiteti
Xarkov, Ukrayna

Nataliia Kovalenko
Hüquq üzrə fəlsəfə doktoru, dosent
Vəkil, Kiyev, Ukrayna

ANNOTASİYA

Bu məqalə İkinci Dünya müharibəsindən əvvəl və sonra müharibə cinayətlərinə görə fərdlərin beynəlxalq cinayət məsuliyyətinin inkişafını tədqiq edir. Beynəlxalq humanitar hüququn Nürnberq prinsiplərinə diqqət ayrılır. Beynəlxalq humanitar hüququn Ukrayna cinayət qanunvericiliyindəki tənzimləmələrinə də yer ayrılır. Fərdlərin cinayət məsuliyyəti institutunun hazırkı vəziyyəti nəzərə alınır. Məqalə qeyd edilən əməllərin tövsifinin problemli məsələlərinə və digər cinayətlərdən fərqlərini analiz edir.

***Açar sözlər**: müharibənin adət və qanunları, müharibə cinayətləri, beynəlxalq humanitar hüquq, müharibə qurbanlarının mühafizəsini nəzərdə tutan Cenevrə Konvensiyaları, pozuntu, cinayət hüququ, fərdi məsuliyyəti*

QAÇAQMALÇILIQ BEYNƏLXALQ XARAKTERLİ CİNAYƏT KİMİ

UOT (УДК) – 34:341.48

Aynurə Musayeva
h.ü.f.d., Cinayət hüququ və kriminologiya kafedrasının müəllimi,
Hüquq fakültəsi, BDU, Azərbaycan
ay.nur-musayeva@mail.ru

Qaçaqmalçılıq, Cinayət Məcəlləsinin İqtisadi fəaliyyət sahəsində olan cinayətlər fəslinə daxil olan cinayət əməllərindən biri kimi adı çəkilən Məcəllənin 206-cı maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur. Qaçaqmalçılıq cinayətinin ictimai təhlükəliliyi cinayət tərkibinin obyektiv cəhətinə daxil olan əməllərin törədilməsi nəticəsində malların ölkəmizin gömrük sərhəddindən keçirilməsinin müəyyən edilmiş qaydalarının və şərtlərinin pozulmasından, bununla da dövlətin, hüquqi və fiziki şəxslərin qanunla qorunan hüquq və mənafelərinə ziyan vurulmasından ibarətdir. Məqalədə qaçaqmalçılıq cinayəti həm beynəlxalq xarakterli cinayət kimi, həm də milli qanunvericilik üzrə təhlil edilir.

Açar sözlər: *qaçaqmalçılıq, bəyan etməmə, aldatma, narkotik vasitə, psixotrop maddə*

Qaçaqmalçılığa beynəlxalq xarakterli cinayətkar fəaliyyət kimi XX əsrin əvvəllərindən beynəlxalq-hüquqi qiymət verilməyə başlanılıb. Bu dövrdə beynəlxalq aləm əsasən narkotik vasitə olan tiryəyin sərhədləri aşan qanunsuz dövriyyəsi ilə mübarizə aparıb. Dövlətlərin birgə mübarizəsin əsaslandıran beynəlxalq aktların sırasında ilk növbədə 1909-cu ildə Tiryək üzrə Şanxay komissiyasının təsis aktı, 1912-ci il tarixli Haaqa Konvensiyası daxil idi. Bu iki beynəlxalq aktların əsasında o zamanın qabaqcıl dövlətləri narkotiklərin qaçaqmalçılığı ilə mübarizə sahəsində dövlətdaxili qanunları qəbul etdilər (1916-cı ilsə Fransa, 1918-ci ildə İsveçrə, 1920-ci ildə Almaniya və İngiltərə). 1925-ci ildə Cenevrədə qəbul olunan Tiryək haqqında Beynəlxalq Konvensiyada narkotiklərin qaçaqmalçılığı ilə mübarizənin gücləndirilməsinin vacibliyi xüsusi olaraq qeyd edilirdi. Ümumiyyətlə XX əsrin 60-cı illərinə qədər dövlətlərin bu sahədə əməkdaşlığını tənzimləyən 15-dən çox beynəlxalq aktlar (1929, 1931, 1936, 1946 və s. illərdə), müasir dövrdə bu sahəni tənzimləyən 1961-ci il tarixli Narkotik vasitələr haqqında Vahid Konvensiya, 1971-ci il Psixotrop maddələr haqqında Konvensiya, 1988-ci il tarixli Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında Konvensiya qəbul olunmuşdu. Azərbaycan Respublikası 1991-ci ildə müstəqillik əldə edəndən sonra hər üç Konvensiyaya qoşularaq, onların normalarını öz dövlətdaxili qanunvericiliyinə transformasiya etmişdir.

Dövlətlərin qaçaqmalçılıqla mübarizə sahəsində Nayrobidə 9 iyun 1977-ci il tarixində qəbul edilən "Gömrük hüquqpozmalarının qabağının alınması, araşdırılması və qarşısının alınmasında qarşılıqlı inzibati yardım haqqında" Beynəlxalq Konvensiyanın böyük əhəmiyyəti var [5]. Həmçinin 1994-cü il tarixli Dünya Poçt Konvensiyasının, 1997-ci il tarixli Sərnişinlərin və yükün beynəlxalq avtomobil daşınması haqqında Konvensiyanın rolunu qeyd etmək lazımdır.

XX əsrin sonundan, yəni sərhədlərin açıldğı, insanların və dövlətlərin beynəlxalq əlaqələrinin genişlənməsilə, qaçaqmalçılığın beynəlxalq xarakterli cinayət kimi təhlükəliliyi dəfələrlə artdı. Müasir dövrdə qaçaqmalçılıq cinayəti, xüsusilə dövriyyəsi qadağan olunmuş predmetlərin qaçaqmalçılığı, dövlətlərin maraqlarının müxtəlif sahələrinə qəsd edir: iqtisadi, əhalinin sağlamlığı, ictimai və dövlət təhlükəsizliyinə.

Azərbaycanın sovet dövrünün hər üç cinayət qanunvericiliyində (1922, 1927, 1960) qaçaqmalçılıq dövlət əleyhinə cinayətlərin sisteminə daxil edilmişdir. Qüvvədə olan 1999-cu il Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Xüsusi hissəsində bu cinayətin yeri dəyişdirilmiş və qaçaqmalçılıq iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin (Fəsil 24, maddə 206) sisteminə daxil edilmişdir [1].

Azərbaycan Respublikasında qeydə alınmış cinayətlərin son illərin rəsmi statistikasına fikir versək görərik ki, bu beynəlxalq xarakterli cinayətlə mübarizə dəfələrlə sərtləşmişdir. 2005-ci ildə 102 qacaqmalçılıq cinayəti qeydə alınmışdısa, 2019-cu ildə bu rəqəm 709 olmuşdur (7 dəfə çox) [8].

Qeyd etməliyik ki, Cinayət Məcəlləsinin 206-cı maddəsi 01 may 2020-ci il tarixli Qanunla yeni redaksiyada verilib. Cinayət Məcəlləsinin 206-cı maddəsinə əsasən, qaçaqmalçılıq dedikdə, Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə Cinayət Məcəlləsinin 206.2-ci maddəsində qeyd edilənlər istisna olmaqla malların və digər əşyaların xeyli miqdarda keçirilməsi başa düşüllür [1, mad. 206].

CM-nin 206-cı maddəsində nəzərdə tutulmuş cinayətin obyekti dövlətin normal xarici-iqtisadi fəaliyyəti sahəsində yaranan ictima münasibətlərdir. Əlavə obyekti qismində gömrük nəzarətini həyata keçirən şəxslərin sağlamlığı çıxış edir [6, 134].

Qaçaqmalçılıq cinayətinin ictimai təhlükəliliyi cinayət tərkibinin obyektiv cəhətinə daxil olan əməllərin törədilməsi nəticəsində malların ölkəmizin gömrük sərhədindən keçirilməsinin müəyyən edilmiş qaydalarının və şərtlərinin pozulmasından, bununla da dövlətin, hüquqi və fiziki şəxslərin qanunla qorunan hüquq və mənafelərinə ziyan vurulmasından ibarətdir. Digər tərəfdən, gömrük nəzarətindən kənar ictimai təhlükəli əşya və maddələrin ölkəyə gətirilməsi daxili ictimai asayişi, əhalinin sağlamlığını və başqa mühüm dəyərləri ciddi təhlükə altına alır [6,135].

"Qaçaqmalçılıq işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respubli-kası Ali Məhkəməsi Plenumunun 2 iyun 2016-cı il tarixli 10 nömrəli Qərarının 4-cü bəndinə görə, CM-nin 206-cı maddəsində nəzərdə tutulmuş cinayətin yəni, qaçaqmalçılığın predmetinə gömrük sərhədindən keçirilən, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 135-ci maddəsinin və Gömrük Məcəlləsinin 1.0.34 və 1.0.42-ci maddələrinin tələblərinə müvafiq olaraq daşınar əşyalara aid edilmiş nəqliyyat vasitələri də daxil olmaqla mal hesab edilən istənilən əmlak, eləcə də qanunvericilikdə Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinin müəyyən qaydası və şərtləri müəyyən edilmiş, mal olmayan digər əşyalar (məsələn, beynəlxalq daşımalar üçün istifadə olunan, mal əlamətlərinə malik olmayan nəqliyyat vasitələri, elmi məqalənin əlyazması və ya mal dəyəri olmayan, material daşıyıcıda olan digər əqli mülkiyyət obyekti, xüsusi olaraq faydalı model, səna-

ye nümunəsi və sair), habelə nağd xarici valyuta, Azərbaycan Respublikasının milli valyutası, yol çekləri, sənədli formada xarici və (və ya) daxili qiymətli kağızlar, qızıl-zinət əşyaları və CM-nin 206.2-ci maddəsində sadalanmış əşyalar aiddirlər [3].

Qaçaqmalçılığın predmeti kimi tutulmuş digər əşyalar dedikdə, pul, qiymətli kağızlar və zinət əşyaları, mal-qara, habelə azad dövriyyəsi qadağan edilmiş digər predmetlər başa düşülməlidir. 206.1-ci maddənin yeni redaksiyasına görə məsuliyyət qaçaqmalçılığın predmetinin dəyəri xeyli (əlli min manatdan yuxarı) miqdarda olanda, 206.1-1-ci maddə ilə isə külli (iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan) miqdarda olanda müəyyənləşir.

CM-nin 206.1-ci və 206.2-ci maddələrinin predmetləri bir-birindən fərqlənir. Belə ki, 206.1-ci maddədən fərqli olaraq, 206.2-ci maddənin predmeti xüsusidir və aşağıdakılar aiddir: narkotik vasitələr, psixotrop maddələr, güclü təsir edən, zəhərli, zəhərləyici, partlayıcı, radioaktiv maddələr, odlu silah, partlayıcı qurğular, döyüş sursatı, kütləvi qırğın silahı və s. Qeyd etməliyik ki, məhz 206.2-ci maddədə göstərilən predmetlərin qaçaqmalçılığı beynəlxalq xarakterli cinayət kimi qəbul olunur.

Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üçün xüsusi qaydaların müəyyən edildiyi mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyalar dedikdə "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda daşınar mədəni irs kimi müəyyən edilmiş tarixi, təbii, arxeoloji, sənədli, etnoqrafik, kulinar, bədii, elmi-tədqiqat, rəsm, incəsənət, kinematoqrafiya, numizmat, filatelist, heraldik, biblioqrafiya, epiqrafiya, estetik, etnoloji və antropoloji daşınar sərvətlər başa düşülür [9].

CM-nin 206.1-ci maddəsinin obyektiv cəhəti aşağıdakılardan ibarətdir:

-malların və digər əşyaların AR-nın gömrük sərhəddindən keçirilməsi üzrə qanunsuz hərəkətlər,

- belə qanunsuz hərəkətlərin törədiləmə üsulları,

- keçirilən malların və digər əşyaların xeyli miqdarda olması.

GM-nin 3-cü maddəsinə əsasən gömrük ərazisinə Azərbaycan Respublikasının quru ərazisi, daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi (o cümlədən orada yerləşən adalar, süni adalar, qurğular və tikililər) və onların üzərindəki hava məkanı daxildir. Gömrük ərazisində qanunvericilikdə müəyyən edilmiş qaydada sərbəst zonalar yaradıla bilər. Gömrük ərazisinin hüdudları, həmçinin sərbəst zonaların perimetrləri gömrük sərhədidir. Sərbəst zonaların perimetrləri istisna olmaqla, gömrük sərhədi Azərbaycan Respublikasının dövlət sərhədi ilə üst-üstə düşür [6, 136].

GM-nin 1.0.22-ci maddəsinə müvafiqolaraq gömrük sərhədindən keçirmə malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş üsullarla, o cümlədən beynəlxalq poçt göndərişləri, boru kəmərləri və elektrikötürücü xətlər vasitəsilə gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması ilə bağlı hərəkətlərin edilməsindən ibarətdir [2].

CM-nin 206-cı maddəsində qaçaqmalçılığın törədilmə üsulları kimi malların və digər əşyaların gömrük sərhədlərindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə keçirilməsi göstərilmişdir.

GM-nin 1.0.14-cü maddəsinə müvafiq olaraq gömrük nəzarəti dedikdə, gömrük qanunvericiliyinə riayət olunmasını təmin etmək məqsədi ilə gömrük orqanlarının həyata keçirdiyi tədbirlər başa düşülür [2].

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə və ölkə qanunvericiliyində nəzərdə tutulan hallar istisna olmaqla malların və ya digər əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar, yəni Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş gömrük orqanlarının yerləşdiyi yerlərdən (gömrük məntəqələrindən) kənar və ya iş vaxtından sonra, yaxud da gömrük orqanlarının icazəsi olmadan gətirilməsi və ya aparılması ilə bağlı istənilən qəsdən törədilmiş hərəkətlər qaçaqmalçılıq cinayətinin tərkibini yaradır. Belə əməlləri törətmiş şəxsin eyni zamanda Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və ya dövlət sərhədinin nəzarət-buraxılış məntəqəsindən kənarda keçməsi də müəyyən edildikdə təqsirkarın əməlləri CM-nin 206-cı maddəsi ilə yanaşı, həm də CM-nin 318-ci maddəsi ilə tövsif edilir.

Malların və ya digər əşyaların gömrük sərhədindən gömrük nəzarətindən gizli keçirilməsi dedikdə, həmin malların aşkarlanmasının çətinləşdirilməsi və ya onların həqiqi xassə və ya miqdarının gizlədilməsinə yönəldilmiş istənilən hərəkətlər etməklə (məsələn, bəzi mallara digər mal görüntüsünün verilməsi, həmin malların xüsusi hazırlanmış və ya quraşdırılmış gizli yerlərdə, insan bədəninin boşluqlarında gizlədilməklə keçirilməsi və sair) keçirilməsi başa düşülür.

Qaçaqmalçılıq zamanı sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etmə dedikdə, gömrük orqanlarına CM-nin 206-cı maddəsində göstərilmiş malların və ya digər əşyaların keçirilməsi üçün saxtalaşdırılmış və ya qeyri-qanuni yolla əldə olunmuş, yaxud başqa mallara aid olan, habelə hüquqi qüvvəsi olmayan sənədlərdən, eləcə də saxta gömrük plomblarından, möhürlərdən, markalardan, ştamplardan və digər eyniləşdirmə vasitələrindən (GM-nin 87.2-ci maddəsində göstərilmiş) istifadə olunması başa düşülür. Belə hallarda sənədləri saxtalaşdırmış, yaxud da saxta sənədlərdən istifadə etmiş şəxsin əməlinin CM-nin 206-cı maddəsi ilə yanaşı, həm də CM-nin 320.1 və 320.2-ci maddələri ilə tövsif edilməsinə ehtiyac yoxdur.

Qaçaqmalçılıq cinayətinin obyektiv cəhətinə aid olan hərəkətlərdən biri kimi bəyan etməmə dedikdə, gömrük bəyannaməsində və ya GM-də nəzərdə tutulmuş malların digər üsulla bəyan edilməsi zamanı malların və bəyan edilməli olan nəqliyyat vasitələrinin buraxılması, onların seçilmiş gömrük proseduruna salınması, gömrük ödənişlərinin hesablanması və tutulması haqqında qərarın qəbul edilməsi üçün zəruri olan məlumatların bilərəkdən göstərilməməsi başa düşülür. Düzgün bəyan etməmə gömrük bəyannaməsində və ya digər müəyyən edilmiş bəyan etmə formasında mallar və nəqliyyat vasitələri, onların gömrük proseduru haqqında məlumatların və yuxarıda göstərilmiş gömrük məqsədləri üçün zəruri olan digər məlumatların bilərəkdən yanlış göstərilməsindən ibarətdir [11, s.794-795].

Şəxs Azərbaycan Respublikasının gömrük sərhədindən CM-nin 206.2-ci maddəsində sadalanan əşyaların qeyri-qanuni yolla keçirilməsi ilə yanaşı narkotik vasitələrin, psixotrop maddələrin, güclü təsir edən, zəhərli, zəhərləyici, partlayıcı maddələr və qurğular, radioaktiv maddələr, odlu silah, döyüş sursatı (yivsiz ov silahı və həmin silah üçün döyüş

sursatı istisna olmaqla), nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, onların hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların qeyri-qanuni dövriyyəsi ilə bağlı cinayət əmelləri törətdiyi halda, bunun üçün əsasların olması şərti ilə təqsirkar şəxsin hərəkətləri cinayətlərin məcmusu ilə – CM-nin 206-cı maddəsi və həmin Məcəllədə qeyd olunmuş əşyaların qanunsuz dövriyyəsinə görə məsuliyyət nəzərdə tutan müvafiq maddələri ilə (məsələn, CM-nin 228, 234, 240-cı və sair) tövsif olunmalıdır. Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, yaxud bəyan etməməklə və ya düzgün bəyan etməməklə keçirilmiş narkotik vasitələrin və psixotrop maddələrin miqdarı şəxsi istehlak miqdarından az miqdarda olduqda da təqsirkarın əməli CM-nin 206.2-ci maddəsi ilə tövsif edilməlidir ona görə ki, ümumiyyətlə gömrük sərhədindən qanunsuz keçirilən, CM-nin 206.2-ci maddəsində sadalanan əşyaların həcmi, miqdarı və dəyəri bu cinayət tərkibinin mütləq əlaməti deyil. Dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış narkotik vasitə və ya psixotrop maddə mənşəli dərman vasitələri həqiqətən tibbi resept əsasında əldə edilmiş olsa belə, həmin dərman vasitələrini Azərbaycan Respublikasının gömrük sərhədindən keçirən şəxs bilə-bilə onları düzgün bəyan etmədikdə (məsələn, dövriyyəsi məhdudlaşdırılmamış başqa dərman vasitəsi kimi təqdim etdikdə və sair), müxtəlif üsullardan istifadə etməklə gizlətdikdə, onun əməli qaçaqmalçılıq cinayəti kimi qiymətləndirilərək CM-nin 206.2-ci maddəsi ilə, buna kifayət qədər əsaslar olduqda, həm də CM-nin 234-cü maddəsi ilə tövsif edilir. Digər hallarda, yəni şəxs qeyd olunan dərman vasitələrini bəyan etməməklə, gömrük nəzarətindən kənar, yaxud tibbi sənədlərdən, o cümlədən reseptdən aldatma yolu istifadə etməklə gömrük sərhədindən keçirdikdə, onun əməllərinə işin faktiki hallarından (məsələn, dərman vasitələrinin miqdarının tibbi reseptə uyğun olub-olmamasından, xəstəliyin xarakterindən və ağırlıq dərəcəsindən və sair hallardan) asılı olaraq hüquqi qiymət verilməlidir.

Qaçaqmalçılıq formal tərkibli cinayətdir. Qaçaqmalçılıq faktiki olaraq əşyaların gömrük sərhəddindən keçirildiyi andan başa çatmış sayılır. Malların və digər əşyaların gömrük ərazisinə gətirilməsi dedikdə, onların gömrük sərhədindən keçirilməsi, bu mallar və digər əşyalarla bağlı onların buraxılmasınadək və maraqlı şəxslərə həmin mallara və digər əşyalara dair sərəncam vermək (onlardan istifadə etmək) icazəsi verilənədək gömrük orqanları tərəfindən GM-də nəzərdə tutulmuş müvafiq hərəkətlərin edilməsi başa düşülür. Buna görə, malların və ya digər əşyaların Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi zamanı sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, bəyan etməməklə və ya düzgün bəyan etməməklə törədilmiş qaçaqmalçılıq bu cinayətin qeyd olunan qeyri-qanuni üsullardan biri ilə törədilməsinin, o cümlədən, gömrük orqanına qeyd olunmuş sənədlərin daxili gömrük tranziti, malların gömrük proseduruna salınması və ya malların və digər əşyaların buraxılması ilə bağlı gömrük prosedurunun həyata keçirilməsi prosesində təqdim edilməsi zamanı bu faktın aşkarlandığı və bunun qarşısının alındığı andan başa çatmış hesab edilir. Malların və ya digər əşyaların daşınması prosesində sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə edilməsi, eləcə də bəyan etməmə, düzgün bəyan

etməmə və ya gömrük nəzarətindən gizlətmə faktları aşkar olunmadığı halda CM-nin 206-cı maddəsi ilə nəzərdə tutulmuş cinayət gömrük orqanları tərəfindən mallar və ya digər əşyaların buraxılmasına icazə verildiyi andan, şəxsin gömrük prosedurunun başa çatdırılmasından yayındığı halda isə mallar və ya digər əşyaların gömrük nəzarətindən faktiki çıxarılmasında ifadə olunan cinayət xarakterli hərəkətlərin törədildiyi andan başa çatmış hesab edilir. Malların və ya digər əşyaların Azərbaycan Respublikasının ərazisinə gömrük nəzarətindən kənar və ya ondan gizli gətirilməsi zamanı törədilmiş qaçaqmalçılıq bu cinayətin predmeti olan əşyaların gömrük sərhədindən keçirildiyi andan bitmiş hesab edilir. Malların və ya digər əşyaların ölkədən çıxarılmasına bilavasitə yönəldilmiş hərəkətlərə gömrük bəyannaməsinin verilməsindən başqa, qeyd olunmuş malların və ya digər əşyaların gömrük sərhədini faktiki olaraq keçirilənədək onlarla bağlı edilən, GM-də nəzərdə tutulmuş digər hərəkətlər (Azərbaycan Respublikasından çıxan fiziki şəxsin gömrük nəzarəti zonasına girişi və ya daxil olması, nəqliyyat vasitəsinin Azərbaycan Respublikasının gömrük ərazisindən çıxmaq üçün nəzarət-buraxılış məntəqəsinə daxil olması, Azərbaycan Respublikasının gömrük ərazisindən kənara göndərmək üçün nəqliyyat təşkilatlarına malların və ya poçt rabitəsi təşkilatlarına beynəlxalq poçt göndərişlərinin təhvil verilməsi, şəxs tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş yerlərdən kənar mallar və nəqliyyat vasitələrinin gömrük sərhədindən faktiki keçirilməsi) aiddir. Buna görə, qaçaqmalçılıq malların və ya digər əşyaların Azərbaycan Respublikasının gömrük ərazisindən çıxarılması zamanı gömrük nəzarətindən gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, bəyan etməməklə və ya düzgün bəyan etməməklə törədildikdə gömrük sərhəd buraxılış məntəqəsində gömrük nəzarəti başa çatdığı andan, malların və ya digər əşyaların gömrük nəzarətindən kənar Azərbaycan Respublikasının ərazisindən çıxarılması zamanı isə bu cinayətin predmetlərinin gömrük sərhədindən keçirildiyi andan bitmiş hesab edilir [10, s.68-70].

Qaçaqmalçılıq cinayəti subyektiv cəhətdən yalnız birbaşa qəsdlə törədilir. Cinayətin subyekti 16 yaşına çatmış anlaqlı fiziki şəxsdir.

Cinayət Məcəlləsinin 206.1-2-ci maddəsində 206.1-ci maddədə nəzərdə tutulmuş əməlin xüsusilə külli miqdarda törədiləməsi nəzərdə tutulur. "Xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür. CM-nin 206.3-cü maddəsi 206.1 və 206.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin təkrar, qabaqcadan əlbir olan bir qrup şəxs, vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə və gömrük nəzarətini həyata keçirən şəxsə zor tətbiq etməklə törədilməsi qaçaqmalçılığın ağırlaşdırıcı tərkib əlamətləri kimi nəzərdə tutulur.

İki və ya daha çox şəxsin qabaqcadan razılaşmaqla qaçaqmalçılıq cinayətinin obyektiv cəhətini təşkil edən, CM-nin 206.1-ci maddəsinin dispozisiyasında nəzərdə tutulmuş hərəkətlərdən hər hansı birinin və ya bir neçəsinin edilməsi qabaqcadan əlbir olmuş bir qrup şəxs tərəfindən törədilmiş qaçaqmalçılıq hesab edilir. Bununla yanaşı, qaçaqmalçılığın törədilməsi barədə qabaqcadan razılaşmış şəxslərdən biri (bir neçəsi) bu cinayətin bilavasitə icrası ilə bağlı əlverişli şəraitin yaradılması istiqamətində müəyyən hərəkətlər etdikdə (məsələn, qaçaqmalçılığın predmeti olan mal və ya digər əşyaları gömrük sərhə-

dinədək müşayiət etdikdə, malların və ya digər əşyaların gömrük sərhədindən qanunsuz, o cümlədən gizli keçirilməsinin təmin edilməsi məqsədilə bilavasitə icraçını xüsusi avadanlıqla və ya nəqliyyat vasitələri ilə təmin etdikdə, yaxud gömrük nəzarətindən kənar yerlərdə gömrük sərhədini maneəsiz keçmək üçün şərait yaratdıqda, yaxud qeyd olunan əşyaların bilavasitə keçirildiyi yerlərdə onları qəbul etdikdə və sair), digəri (digərləri) isə mal və ya digər əşyaları bilavasitə ölkəyə gətirdikdə və ya ölkədən apardıqda da təqsirkarların hamısının əməlləri CM-nin 206.3.2-ci maddəsi ilə tövsif edilir. Bu cinayətin törədilməsində iştirak edən şəxslərdən yalnız biri (bir neçəsi) malları və ya digər əşyaları Azərbaycan Respublikasının gömrük sərhədindən qeyri-qanuni üsullarla bilavasitə keçirdikdə və ya qaçaqmalçılığın bilavasitə icrası ilə bağlı əlverişli şəraitin yaradılması üçün başqa hərəkətlər etdikdə, digəri (digərləri) isə bu əməllərin törədilməsini təşkil etdikdə və ya həmin əməllərin törədilməsinə icraçını təhrik etdikdə, yaxud da CM-nin 32.5-ci maddəsində nəzərdə tutulmuş hərəkətləri etməklə cinayətin törədilməsinə köməklik göstərdikdə, icraçının (icraçıların) əməlləri qaçaqmalçılıq predmetinin mənsubiyyətindən və başqa tövsifedici əlamətlərdən asılı olaraq CM-nin 206.1 və ya 206.2, yaxud 206.3.1, 206.3.2 və ya 206.3.3-cü maddələri ilə, digər iştirakçıların əməlləri isə (onların eyni vaxtda birgə icraçı kimi cinayətin törədilməsində iştirak etdikləri hallar istisna olunmaqla) iştirakçılığın növündən asılı olaraq CM-nin 32.3, 32.4 və ya 32.5-ci maddələrinə istinad edilməklə icraçının (icraçıların) əməllərinə uyğun olaraq CM-nin 206.1, 206.2, 206.3.1, 206.3.2 və ya 206.3.3-cü maddələri ilə tövsif edilir. Həmçinin nəzərə alınmalıdır ki, iki və ya daha çox icraçı tərəfindən qabaqcadan razılaşmadan qrup şəklində qaçaqmalçılığın törədilməsi müəyyən edildikdə, qrup üzvlərinin hər birisinin belə əməlləri cinayətin predmetinə və CM-nin 206.3.1, 206.3.3 və ya 206.3.4-cü maddələrində nəzərdə tutulmuş tövsifedici əlamətlərin olub-olmamasına uyğun olaraq müstəqil şəkildə tövsif edilir. Mal və ya digər əşyalar qaçaqmalçılıq yolu ilə gömrük sərhədindən keçirildikdən sonra bu barədə məlumat alaraq onları qəbul etmiş şəxsin bu cinayətin törədilməsində iştirakı müəyyən edilmədikdə, onun qaçaqmalçılıq cinayətini törətməsinə görə məsuliyyəti istisna edilir.

CM-nin 206.3.3-cü maddəsində nəzərdə tutulmuş vəzifəli şəxs dedikdə, CM-nin 308-ci maddəsinin "Qeyd" hissəsində göstərilən şəxslər başa düşülür [1].

Hər hansı vəzifəli şəxs xidməti vəzifələrinin icrası ilə əlaqədar malların və ya digər əşyaların gömrük sərhədindən keçirilməsi zamanı qulluq mövqeyindən istifadə etməklə qaçaqmalçılıq cinayətinin tərkibini yaradan əməllər törətdikdə onun bu əməlləri CM-nin 206.3.3-cü maddəsi ilə tövsif edilir. Bu halda vəzifəli şəxsin öz qulluq mövqeyindən istifadə etməklə törətdiyi qaçaqmalaçılığın əlavə olaraq CM-nin 308-ci maddəsi ilə tövsif edilməsi tələb olunmur. Vəzifəli şəxsin qulluq mövqeyindən istifadə etməklə törətdiyi qaçaqmalçılıq cinayətinin təşkilatçılarının, təhrikçilərinin və köməkçilərinin hərəkətləri müvafiq olaraq CM-nin 32.3, 32.4 və 32.5-ci və CM-nin 206.3.3-cü maddəsi ilə tövsif edilir. Qaçaqmalçılıq cinayətini törədən şəxsin eyni zamanda gömrük nəzarətini həyata keçirən şəxsə qarşı malların və ya digər əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən qeyri-qanuni keçirilməsinə mane olmamağa məcbur etmək məqsədi ilə istənilən zor və ya psixi təsir tətbiq etməsi (məsələn, zərbə vurması, əl-qolunu bağlaması və sair), habelə zərər çəkmiş şəxsin sağlamlığına yüngül və ya az ağır zərər vurması CM-nin

206.3.4-cü maddəsi ilə tövsif edilməlidir. Qaçaqmalçılığın məqsədləri üçün zorun tətbiq edilməsi nəticəsində gömrük nəzarətini həyata keçirən vəzifəli şəxsin sağlamlığına ağır zərər vurulduqda və ya o, qəsdən öldürüldükdə, bu əmælləri törətmiş təqsirkar şəxsin əmælləri CM-nin 206.3.4-cü maddəsi ilə yanaşı həmçinin CM-nin həyat və sağlamlıq əleyhinə olan cinayətlərə dair on səkkizinci fəslinin müvafiq maddələri ilə nəzərdə tutulmuş cinayət kimi qiymətləndirilir. CM-nin 206.4-cü maddəsi qaçaqmalçılığın xüsusilə ağırlaşdırıcı tərkib əlamətini – bu əmælin mütəşəkkil dəstə tərəfindən törədilməsini nəzərdə tutmuşdur.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2021, 852 s
2. Azərbaycan Respubliksının Gömrük Məcəlləsi URL: http://www.e-qanun.az
3. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarlar məcmuəsi (1991-2016). Bakı: MSV NƏŞR, 2017, 479 s. URL: http://www.supremecourt.gov.az
4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi saytı. URL: http://www.constcourt.gov.az
5. Gömrük hüquqpozmalarının qabağının alınması, araşdırılması və qarşısının alınmasında qarşılıqlı inzibati yardım haqqında 9 iyun 1977-ci il Beynəlxalq Konvensiyası URL: http://www.e-qanun.az
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası: iki hissədə / F.Y Səməndərovun ümumi redaktəsi ilə. Bakı: Hüquq yayın evi, 2021, II hissə 808 s.
7. Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar / AR Dövlət Statistika Komitəsinin rəsmi saytı. URL: www.stat.gov.az/source/crimes/
8. Azərbaysan Respublikası Daxili İşlər Nazirliyinin rəsmi saytı. URL: http://www.mia.gov.az
9. Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunun URL: http://www.mia.gov.az
10. Səmədova Ş., Bayramova M., Rzayeva S., Musayeva A., Nəzərova K. Cinayət hüququ (Dövlət imtahan suallarının şərhi). Bakı: Mütərcim, 2022, 176 s.
11. Самедова Ш.Т. Уголовное право Азербайджанской Республики. Особенная часть: в двух томах. Баку: Адильоглы, 2020, т.1, 824 с.

SMUGGLING AS THE CRIME OF INTERNATIONAL NATURE

Aynura Musayeva
PhD, Lecturer of Department of Criminal Law and Criminolojy
Baku State University, Azerbaijan

ABSTRACT

Smuggling is criminalized by Article 206 of the Criminal Code, which is mentioned as one of the criminal acts included in the chapter on crimes in the field of economic activity of the Criminal Code. The publicly dangerousness of the crime of Smuggling consists of the violation of the established rules and conditions for the transfer of goods through the customs border of our country as a result of the misdeeds included in the objective aspect of the criminal composition, thereby causing damage to the rights and interests of the state, legal entities and natural persons protected by law. The article analyzes the crime of Smuggling both as a crime of international nature and under national legislation.

***Keywords**: smuggling, non-declaration, cheating, drug, psychotropic substance.*

THE IDENTIFICATION OF HUMAN TRAFFICKING FOR THE PURPOSE OF LABOR EXPLOITATION AND DETECTED PROBLEMS IN THE INTERNATIONAL COURT PRACTICE: DIFFERENTIATIONS FROM THE LABOR LAW VIOLATIONS

UOT (УДК) – 34:341.6

Rubaba Mammadova
"International law and Human rights" specilization, PhD student
Faculty of Law, BSU, Azerbaijan
rubabeabdulla@yahoo.com

The term "forced labor" is neither defined in the Palermo Protocol, nor in the Council of Europe Convention on Action Against Trafficking in Human Beings. The UN Agency, International Labor Organization (ILO), estimates that around 29.6 million people were living in modern slavery in 2021, of which 27.6 million were in forced labour and 22 million in forced marriage. Based on the ILO definition, domestic servitude, begging and other forms of slavery-type practices are included in the category of forced labor. The identification of trafficking for labor exploitation is sometimes hampered by a lack of consensus regarding the indicators and the lack of clarity on distinguishing between labor rights violations (such as breaches of employment and discrimination laws) and trafficking for labor exploitation (criminal law). Unfortunately, there are still very few court cases in comparison with the number of victims.

Keywords: *Trafficking, labor exploitation, forced labor, court practice, domestic servitude, slavery, debt bondage, begging*

Trafficking in human beings is a rapidly expanding global phenomenon that impacts countries and communities throughout the world. All indicators point to the increase of victim numbers and all actions to combat THB are receiving worldwide attention because it threatens the human rights and the fundamental values of democratic societies.

The criminalization of the THB is connected to the definition of THB and is regulated in Article 5 of the Palermo Protocol, Article 18 of the CETS 197 and Article 2 of the Directive 2011/36/EU. The definition of the term "trafficking in persons" in the international legal framework, forms the basis for domestic criminal offences that would be similar enough to support efficient international cooperation in investigating and prosecuting such cases. The requirement to criminalize trafficking was intended as an element of a global counterstrategy to include the provision of support and assistance for victims, thus integrating the fight against trafficking into the broader efforts against transnational organized crime.

According to the analysis of the case-law [5, p.5-7], a large number of the deficiencies in the investigation, prosecution and adjudication are due to the lack of understanding of the legal concepts of THB, comparative practice and training.

Victims of forced exploitation are most frequently found in labor intensive and/or under regulated industries, such as: agriculture, domestic work, construction, mining, quarrying and brick kilns, manufacturing, processing and packaging. These are the

industries that are characterized by '3D' work – dangerous, difficult and dirty – and are often similar in their nature. They typically involve low pay and require low skill levels.

According to the international court practice, the main sectors in which THB for forced labor occurred are the sectors of domestic work; entertainment and recreation; accommodation and food service activities; agriculture; forestry and fishing; cleaning services; construction; manufacturing; arts; transportation and storage; information and communication.

Regarding the manners of recruitment, there are several basic ways that have been identified such as, traffickers and victims already knew each other; traffickers recruited the victims through intermediaries, including family members or an agency; traffickers recruited the victims directly, for example, by promising good working conditions; victims responded to work offers directly or via internet recruitment.

In many of the cases analyzed, the victims had specific vulnerabilities as poverty, low level of education, disabilities, poor health, alcohol dependency, advanced age or minority membership, irregular migratory status, lack of knowledge of the local language, lack of knowledge of local labor legislation and workers' rights, no access to health insurance or bank cards, threats of losing passports or residence permits if they leave the job position, social isolation and fear of the police due to the victim's status (i.e. not allowed to enter into legal employment; lack of work permits; visas issued only if they work for the offender; absence of valid residence documents; illegal residence status; no access to health insurance or bank cards; threats of losing passports or residence permits if they leave the job position).

In most cases analyzed, the actual crime was reported to the law-enforcement authorities by the victims themselves. Cases were also identified following an investigation by the police and, to a lesser extent, by labor inspectors and immigration and tax authorities. Number of factors affect the victims' and witnesses' willingness to cooperate and participate in the investigation or prosecution process:

- the fears experienced by the victim, including fear of retribution by the suspect or of deportation,
- lack of trust in the authorities
- fear of incurring criminal charges
- they do not identify themselves as victims due to various reasons
- lack of sufficient protection measures for victims
- obstructions to proceedings and intimidation of witnesses by the defendants.

Detected problems in the court practice: differentiations from the labor law violations.

In many cases the court could not determine the elements of the labor exploitation due to lack of sufficient evidence proving intent or poor working conditions, as well as possible violations of the applicable labor legislation. In some of the cases the Court found that: *"The victim had not been recruited for the purpose of forced labor and that the living conditions were adequate. Rather, the defendant was found guilty of*

extortionate work discrimination – there was enough evidence to prove that the defendant had abused the situation, especially the lack of financial means on the part of the victim, and the lack of knowledge about the Finnish labor laws, social benefits and employee rights [6, p.73].

The identification of trafficking for labor exploitation is sometimes hampered by a lack of consensus regarding the indicators and the lack of clarity on distinguishing between labor rights violations (such as breaches of employment and discrimination laws) and THB for labor exploitation (criminal law). It is obvious that judges and prosecutors have lack of knowledge on laws related to the labor market operations and their enforcement and the lack of awareness about human trafficking amongst the labor and market inspectors is often an obstacle to identification and successful prosecution. Additional multidisciplinary trainings for judges (both criminal and labor law), prosecutors and labor and market inspectors and immigration employees are of importance for improving the knowledge in this field.

Narrow interpretation of the "conditions that are contrary to human dignity" can also be considered as the negative approach to the case. In the case [6, p.105], the court did not accept the THB charges. Namely, "The accused offered assistance and shelter, but this was not done with the aim to employ these persons in conditions that are contrary to human dignity. The court made reference to the international definitions and preparation work and was of the opinion that the notion of 'employment in conditions contrary to human dignity' implies forced labor, such as slavery or servitude. The court found that there was no coercion, abuse of power or fraud, what concerns the employment of the underage person. The accused persons were therefore acquitted of the THB charges, and the charges of human smuggling and providing assistance in illegal immigration. The accused were convicted of illegal employment and violations of the labor laws and social security laws for which they were imposed a monetary fine. The court found that there was no evidence of coercion, abuse of power or fraud by the defendant, what concerns the employment of the male underage victim. We consider that the judges seems to have overlooked the fact that according to the 2002 EU definition, the means should be treated as irrelevant where a child is concerned.

According to case practice, "the circumstances such as "the employee's ability to escape from the employer's control, deprivation of movement within a limited location, non-payment of wages, physical violence, including emotional violence, victims that are forced to work for more than 10 hours a day for 7 days a week with short breaks, with their passports taken away, work that is unjust and oppressive, living in conditions and accommodation that is considered as violation of the human dignity" were of evidential importance." In most of the cases the offered working conditions and salaries seemed realistic having in mind the attitudes and background of the victims [6, p.39-40].

Related to the "forced labor", the ECtHR case-law, emphasizes that, "The first adjective "forced" brings to mind the idea of physical or mental constraint. As regards the second adjective "compulsory", it cannot refer just to any form of legal compulsion

or obligation. For example, work to be carried out in pursuance of a freely negotiated contract cannot be regarded as falling within the scope of Article 4 on the sole ground that one of the parties has undertaken with the other to do that work and will be subject to sanctions if he does not honor his promise" [1, p.14]. What there has to be is work "exacted ... under the menace of any penalty" and also performed against the will of the person concerned, that is work for which he "has not offered himself voluntarily" [1, p.14]. Rather, the Court will have regard to all the circumstances of the case in the light of the underlying objectives of Article 4 when deciding whether a service required to be performed falls within the prohibition of "forced or compulsory labor" [1, p.15].

The standards developed by the Court for evaluating "What could be considered normal in respect of duties incumbent on members of a particular profession take into account whether the services rendered fall outside the ambit of the normal professional activities of the person concerned; whether the services are remunerated or not or whether the service includes another compensatory factor; whether the obligation is founded on a conception of social solidarity; and whether the burden imposed is disproportionate [2, p.15].

If we compare good practices, in a number of Member States, guidance and policy papers have been drafted for the police, prosecutors and the judiciary in order to facilitate their interpretation of the provisions related to the trafficking in human beings for forced labor purposes. For example, the Crown Prosecution Service identifies the key elements of proof of the offense as being the existence of coercion and/or deception between the offender and the victim. The guidelines indicate that a person commits the offense if he or she requires another person to perform forced or compulsory labor. The circumstances must be such that the defendant knows or ought to know that the person is being so held or required to perform such labor [6, p.74]. The Greta recommendations for some states are very important for practitioners to be familiar with as they give a clear guidance in identifying and prosecuting these crimes.

For example some of them are: "strengthening the measures by involving the labor inspection, civil society, businesses, trade unions and employment agencies in a joint platform and improving the identification of, and assistance to victims; to pursue a proactive approach to the identification of victims by expanding the powers of the labor inspectors to also cover non-registered businesses and private homes and encouraging labor inspections in the sectors that are most at risk (e.g. agriculture, entertainment industry, service sector, construction, domestic work) [4, p.14].

The UN Guiding Principles on Business and Human Rights represent a set of guidelines and measures that states and private sectors are expected to observe, in order to prevent, address and remedy human rights abuses committed as part of business operations.

In its 4th General Report GRETA noted that trafficking for labor exploitation was not properly recognized and addressed in practice and there were no appropriate corresponding policies in most of the State parties, which is likely to be a key reason for the low numbers of identified victims. In order to discourage the future demand for the

services by the victims, labor inspections ought to be strengthened in the industries that are exposed to particular risks of trafficking, such as agriculture, civil construction, textile production, as well as in the hospitality industry and domestic work [8, p.35, 40].

States should ensure that corporate liability as enshrined in the national legislation (civil, criminal or administrative), allowing for both individual liabilities of legal persons and liability of members of the executive bodies of the businesses, for participation in human trafficking. Additional liability for trafficking that occurred as a consequence of lack of supervision or control should also be covered under the corporate liability provisions [7, p.45].

One of the main problems is that these cases are not recognized or identified as a criminal justice issue and are dealt with as labor violations. The mildest forms of labor exploitation, such as the violation of safety regulations, exceeding the fixed duration of the working day and withholding wages are considered as violations of the labor legislation by the employers. For such violations, employers may be held liable under the labor and administrative laws. When, in addition to these violations, the employer himself/herself or through other people is using illegal means to engage and retain employees in situations of exploitation, then the situation can be classified as forced labor and/or trafficking in persons for forced labor exploitation: this is subject to criminal prosecution. According to the ILO Forced Labour Convention, 1930 (No. 29), **forced or compulsory labour is:** "all work or service which is exacted from any person under the threat of a penalty and for which the person has not offered himself or herself voluntarily." [11].

İlk dövrlərdən Sumatra sahillərindəki müsəlman krallığında Şafii məzhəbinə məxsus müsəlman hüququ tətbiq edilir, krallığın xalqı cihadı sevirdi. Beləliklə, islami dəyərlər insanların həyatında tətbiq olunmağa və həyata keçirilməyə başladı. Müsəlman hüququ Açe ərazisindəki krallıqlarda davamlı şəkildə mövcud olmuş və inkişaf etmiş, İskəndər Mudanın sultanlığı dövründə (1607-1660) isə öz zirvəsinə çatmışdı. Onun dövründə müsəlman hüququnun ibadət, ailə hüququ, mülki, cinayət, cəza, iqtisadi, qanunvericilik, əxlaq və dövlətçilik sahələrini əhatə edən Şafii məktəbinə sadiq qalınmışdı (9, s.22).

Bəzi tədqiqatçılar Açedə müsəlman hüququnun inkişaf tarixi ilə bağlı bir neçə dövrün mövcudluğunu qeyd edirləri: 1) Açe sultanlığı dövrü; 2) Hollandiyanın müstəmləkəçiliyi dövrü; 3) Erkən müstəqillik dövrü; 4) Yeni Qayda dövrü; 5) İslahatlar dövrü. Açedə şəriətin tarixi dövrünün bu təsnifatı müsəlman hüququnun legitim hüquq siteminə çevrilməsi və bunun hökumət tərəfindən hüquqi rəsmiləşdirilməsi tarixidir (Bax: 8).

Zamanla İndoneziya milli hüquq sistemi İslam hüququnu müsəlman cəmiyyətinin tətbiq etdiyi pozitiv hüquq kimi hər gün müəyyən sahələrdə tətbiq etmək üçün tanımışdır. Bu qanun ailə hüququ və muamelat (müsəlman iqtisadi hüququ) ilə məhdudlaşsa da, bu gün cinayət (müsəlman cinayət hüququ) sahəsinə də daxil olub. Bu, İslam hüququnun İndoneziya milli hüquq sisteminin bir hissəsi kimi inkişafından aydın görünür. Bununla belə, İndoneziya etnik və dini fərqlilik baxımından müxtəlifliklərin birliyi ölkəsidir. Başqa sözlə, müsəlman hüququnun mövcudluğunun İslam dinini dövlətin rəsmi dini ideologiyasına çevirəcəyi əndişələri bu günədək özünü doğrultmamışdır. Pozitiv hüquq olaraq dövlət hər bir vətəndaşa öz dininin qanunlarına və normalarına əsasən tabe olmağa imkan verir. Bu səbəbdən İndoneziyada dini hüquqa əsaslanan qaydalara da rast gəlinir, məsələn, Nikah Qanunu (münakahat) və Vərəsəlik Qanunu (mevaris/faraiz) İslam hüququna aid qaydalardan ibarətdir. Bu qaydalar müasir İndoneziya Respublikasının müstəqilliyindən çox əvvəllər mövcud idi. Lakin bu o demək deyil ki, müsəlman hüquq normalarının İndoneziyada tətbiqi müsəlman teokratik dövlətinin yaradılmasına xidmət edir. İndoneziya bununla dövlətin hüquq sistemini tamamilə dini (müsəlman) hüquq sisteminə çevirmədən müsəlman hüququnu öz milli hüquq sisteminin tərkib hissəsi kimi tətbiq etməyin mümkünlüyünü sübut etmişdir (3, s.305).

Lakin müsəlman hüququ rəsmi hüquq sistemi kimi tam şəkildə İndoneziyanın 34 əyalətindən birində – siyasi muxtariyyət olan Açe Xüsusi Əyalətində şəriət qaydalarının tətbiqi ilə paralel olaraq mövcuddur.

Açe İndoneziyada müsəlman hüququnu tam şəkildə tətbiq edən yeganə əyalətdir. Eyni zamanda, Açe dini müxtəlifliyin mövcud olduğu bir regiondur. İslam Açe xalqının çoxluğu tərəfindən sitayiş olunan dindir. Lakin Açedə xristianlıq (katoliklik), hinduizm və buddizm kimi digər dinlərə ibadət edənlər də vardır. Buna görə də, əyalətdə müsəlman hüququnun tətbiqi bəzi mübahisələrə səbəb olmuşdur. İslam hüququ yalnız müsəlmanlara aid olsa da, Açedə hüquqi bərabərliyi təmin etmək üçün bəzi məsələlərdə fiqh qeyri-müsəlmanlara da şamil olunur. Bu zaman dini azadlıq (vicdan azadlığı) prinsipinin pozuldu-

ğu iddia olunur. Lakin bəzi tədqiqatlara görə Açedə müsəlman hüququnun tətbiq olunmasının qeyri-müsəlman əhalinin dini azadlığını məhdudlaşdırmır. Çünki həm hüquqi baxımdan, həm də gündəlik həyatda müsəlman olmayan əhali dini fəaliyyətlərini sərbəst şəkildə yerinə yetirirlər. Müsəlman hüququ yalnız bu dinə sitayiş edənlərə tətbiq olunur. Müəyyən şərtlər daxilində və aşağıdakı bəzi hallarda fiqh qeyri-müsəlmanlara da tətbiq olunur: belə ki, müsəlman olmayanlarla müsəlmanlar birlikdə cinayət törətdikdə, qeyri-müsəlman olan şəxs (şəxslər) müsəlman "Cinayət Qanunu"na ("Qanun Jinayat") görə ittiham olunmağını istəyə bilər; baş verən hansısa cinayət hadisəsi Milli Cinayət Məcəlləsi və ya digər cinayət qanunvericiliyində tənzimlənmirsə, cinayəti törətmiş qeyri-müsəlmanlar üçün avtomatik olaraq müsəlman "Cinayət Qanunu" tətbiq edilir (1, s.286-287).

Açedə müsəlman hüququnun əsasını Açenin muxtariyyəti haqqında 44/1999 saylı Qanun, Xüsusi muxtariyyət haqqında 18/2001 saylı Qanun və Açe Hökuməti haqqında 11/2006 saylı Qanunlar təşkil edir. Beləliklə, Açedə fiqhin tətbiqi İndoneziya hökuməti tərəfindən rəsmi şəkildə təsdiqlənir və ona zəmanət verilir. Bu həm də o deməkdir ki, Açe Hökuməti tərəfindən qəbul edilmiş bütün qanunlar İndoneziya mərkəzi hökuməti tərəfindən qəbul edilir və təsdiqlənir. Buna görə də, Açe Hökuməti tətbiq etdiyi şəriət hüququna etiraz olduğu halda, Açe Hökuməti və mərkəzi hökumət qanunun aliliyinin həyata keçirilməsi və ya müsəlman hüququnun tətbiqi məsələsində birgə məsuliyyət daşıyır (1, s.289).

Açedə müsəlman hüququnun tətbiqinə əsas verən 44/1999 saylı və 11/2006 qanunlarda nəzərdə tutulmuş qaydalara riayət etmək üçün 2000-ci ilin iyul ayında iman, ibadət, rəftar, əxlaq, təhsil və təbliğat, beytül-mal, cəmiyyət, islami təbliğat, islamın müdafiəsi, cinayətlər, müzakirə və faraiz haqqında müsəlman hüququnun tətbiqi məqsədi ilə 5/2000 Saylı Qanun qəbul edilmişdir. Bundan başqa, indiyədək Açedə müsəlman hüququnun pozitiv hüquq qismində tətbiqi ilə bağlı aşağıdakı qanunlar qəbul edilərək qüvvəyə minmişdir:

a) 10/2002 saylı Şəriət Qanunu;

b) Əqidə, ibadət və islami təbliğat sahəsində müsəlman hüququnun tətbiqi ilə bağlı 11/2002 saylı Qanun;

c) Spirtli içkilər haqqında 12/2003 saylı Qanun;

d) Qumar oyunlarının qadağan edilməsi haqqında 13/2003 saylı Qanun;

e) Xəlvəti yaxınlığın (əxlaqsızlığın) qadağan edilməsi haqqında 14/2003 saylı Qanun;

f) Zəkat verilməsi haqqında 7/2004 saylı Qanun;

g) Regional Polis haqqında 11/2004 saylı Qanun;

h) 07/2013 saylı Cinayət Prosessual Qanun;

i) 06/2014 saylı Cinayət Qanunu (3, s.306).

Yuxarıda qeyd olunanlardan əlavə xüsusi olaraq müsəlman hüququnun tətbiqi ilə əlaqədar digər qanunlar da vardır:

– Beytül-mal haqqında 10/2007 saylı Qanun;

– Üləma Məşvərət Məclisi haqqında 2/2009 saylı Qanun;

– İslam Şəriətinin Əsasları haqqında 8/2014 saylı Qanun;

– Açe Hökuməti və rayon/şəhər hökumətləri arasında Şəriətlə əlaqədar hökumət işlərinin bölgüsü haqqında 7/2015 saylı Qanun;

– Əqidə rəhbərliyi və onun qorunması haqqında 8/2015 saylı Qanun;

– Dini harmoniyanın qorunması və ibadət yerlərinin yaradılmasına dair təlimatlar haqqında 4/2016 saylı Qanun;

– Halal Məhsul Zəmanət Sistemi ilə bağlı 8/2016 saylı Qanun;

– İslam Maliyyə Qurumları haqqında 11/2018 saylı Qanun (9, s.29);

– Müsəlman hüququnun tətbiq olunması və onun müddəalarının həyata keçirilməsi haqqında 11/2006 saylı Qanun.

Bu qanunlardan bəzilərinə nəzər salmaq müsəlman hüququnun tətbiqi təcrübəsi ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirmək baxımından faydalı olar. Ümumiyyətlə, şəriət hər bir müsəlmanın yerinə yetirməli olduğu əqidə, ibadət, rəftar və əxlaq qaydalarını ehtiva edir. Etiqad və ibadət tələblərinin yerinə yetirilməsi imanın kamilliyi, təqva və şüurun dərəcəsi ilə ölçülür ki, bunlar da dünya və axirətdə cəzaların təsirinə məruz qalır. İslamın əqidə, ibadət və rəmzləri sahəsində cinayətlər 11/2002 və 06/2014 saylı qanunlarla tənzimlənir (3, s.308).

Açedə müsəlman hüququnun tətbiq olunması və onun müddəalarının həyata keçirilməsi haqqında 11/2006 saylı Qanunun 125-ci maddəsi aşağıdakı məzmuna malikdir: 1) Açedə tətbiq edilən şəriət müddəaları etiqad, əməl və əxlaq qaydalarıdır; 2) Birinci bənddə qeyd edildiyi kimi, şəriət hüququ ibadət, ailə hüququ, mülki hüquq, cinayət hüququ, ədalət, təhsil və təlim, İslam ehkamlarını yaşatmaq və onu müdafiə etməkdən ibarətdir; 3) 1-ci bənddə tənzimlənən İslam hüququnun tətbiqi ilə bağlı digər müddəalar Açe haqqında Qanunla tənzimlənir (1, s.289).

Ərəb dilində "khamar" (içmək) sözünün mənşəyi "örtmək" mənasını verən "əl-həmr" sözündəndir. Şərab məstedici (rasional düşüncəni ortadan qaldıran) içkidir. 12/2003 saylı və 6/2013 saylı qanunlara əsasən içmək (khamar) – içildikdə sağlamlığa, şüur və düşüncə qabiliyyətinə zərər verən hər hansı sərxoşedici içkinin istehlakıdır. Əsas məqsədlərindən biri ağlı, sağlam düşüncəni qorumaq olduğundan, şəriət alkoqollu içkiyə qarşı çox sərtdir. Belə ki, alkoqol içmək kobud və anti-sosial davranışlara səbəb ola biləcəyindən sosial, mədəni, iqtisadi, hüquqi, psixoloji və s. baxımından çoxcəhətli mənfi təzahürlərə səbəb olur. Sərxoşluq, həmçinin, tənbəlliyə, israfçılığa və bir çox başqa pis nəticələrə gətirib çıxardığı üçün mədəni cəhətdən cəmiyyət qeyri-məhsuldar, ətalətdə olan insan kütləsinə çevrilə bilər.

12/2003 saylı Qanun, eyni zamanda, cinayət törədənə verilən hədd cəzasını da tənzimləyir. Spirtli içki qəbul edən şəxs 40 şallaq zərbəsi ilə cəzalandırılır. Qanunu pozanlar üçün nəzərdə tutulmuş qamçılama sanksiyası azaldıla bilməz, lakin onun icrası təzir kimi təsnif edilən cəza ilə əvəzlənə bilər. Spirtli içki içməyin cəzası Quranda öz əksini tapmamışdır. Məhəmməd Peyğəmbər az və ya çox içməsindən asılı olmayaraq, bu cinayəti törədənləri 40-dan çox olmamaqla, qamçı ilə cəzalandırmışdır. Bu səbəbdən şərab içməyin cəzası Açe Qanununda 40 şallaq müəyyən edilmişdir. Qanuna görə alkoqollu içkilər hər hansı növ sərxoşluğa səbəb olan alkoqolu və alkoqol tərkibli içkiləri əhatə edir.

Ərəb dilində "maisir" (qumar) sözünün kökü "asan" mənasını verən "yasara" və ya "yusr", yaxud da "varlı" mənasın verən "yasar" sözlərindən gəlir. 13/2003 saylı Qanuna görə qumar oynamaq pul qarşılığında mərcə girmək və mərci qazananın bütün pula sahib olduğu bir oyun növüdür. Bütün ölkə ərazisində qumar oyunlarının tam qadağan olunma-

sı Qumar oyunlarının qadağan olunması haqqında Qanunun ölkə qanunları ilə ziddiyyət təşkil etmədiyi anlamına gəlir. Qanun şəriətin qumarı qadağan etməsini təsdiqləyir və dinindən asılı olmayaraq hər kəsə qumar oynamağı qadağan edir. Qanun yalnız fərdlərə tətbiq olunmur, eyni zamanda, qumar oynamağa təşviq və onu təşkil edənlərə də – hüquqi şəxslərə, qurumlara və dövlətə qumar oyunları təşkil etmək yasağı qoyur. Qumar oyunları ilə bağlı bütün hərəkətlərə qoyulan qadağaların pozulması qamçı və ya cərimə ilə cəzalandırılır (3, s.306-307).

Ərəb dilində "halvet" ("khalwat" – gizli, xəlvəti) termininin mənşəyi "khulveh" və ya "kala"dır və "səssiz" və ya "itmiş" deməkdir. Eyni zamanda, bu söz tək yaşayanlara və başqalarının gözdən uzaq olanlara aid edilir. Bu baxımdan söz müsbət və mənfi olmaqla, iki mənada işlənir. Müsbət mənada tənhalıq özünü kütlədən uzaqlaşdırmaq və Allaha yaxınlaşmaqdır. Mənfi mənada "halvet" bir-birinə yaxın olub evli olmayan kişi və qadının başqalarının görə bilməyəcəyi şəkildə bir yerdə olması deməkdir. Bizim araşdırmamız baxımından ikinci məna aktualdır. İslamda "halvet" qadağandır, çünki bu əməl insanları qanuni nikahdan kənar yaxın münasibət olan zinaya sövq edə bilər. 14/2003 saylı Qanunla "halvet"in (əxlaqsızlığın) qadağan edilməsi zina baş verməzdən əvvəl mükün əməllərin qadağan edilməsi deməkdir, yəni zina cinayəti qarşısında profilaktiki xarakterli tədbirdir. O, bəzi cinayətlərdən, məsələn, oğurluq, spirtli içki içmək və qumar kimi cinayətlərdən fərqli olaraq, əməlin birbaşa maddi məzmununu qadağan edir. Beləliklə, zinanın qadağan edilməsi zinaya səbəb ola biləcək əməllərin qadağan edilməsi ilə başlayır (3, s.307).

İslam hüququnda bu cür qabaqlayıcı hərəkətlərə yolu bağlamaq deyilir və yerli qaydalar xəlvəti yaxınlığın (əxlaqsızlığın) hamı üçün haram olduğunu təsdiqləyir. Beləliklə, tənhalıq hər kəs üçün qadağandır. Bundan başqa, hər kəsin əhatə dairəsinə daxil olan sosial qrupların, dövlətin, fiziki və hüquqi şəxslərin insanlar üçün xəlvəti münasibətlərə şərait yaratması qadağan edilir. Əxlaqsızlıq cinayəti təşkil edə bilən hər hansı hərəkətin qadağan edilməsi bu əməllərə qamçı və ya cərimə, habelə imtina etmə şəklində inzibati tənbeh verilməsi ilə nəticələnir.

Açe Qanununa əsasən tətbiq edilən müsəlman cinayət hüququna cinayət təhlükəsi ilə bağlı məsələlər daxildir. Həddə cəzası qamçı şəklində olduğu halda, təzir cəzası əsas təzir və əlavə təzir olaraq iki yerə bölünür. Əsas təzirin başlıca cəzaları şallaq, pəhriz, həbs və cərimədir. Açe Qanunu çərçivəsində içki, qumar, təcrid, zina, cinsi təcavüz, zorlama, ən azı dörd şahid göstərmədən zina etmək ittihamı, homo-seksuallıq kimi cinayət əməlləri üçün cəzalar tənzimlənir. "Cinayət Qanunu"nda ümumilikdə üç növ cəza; qamçı, həbs və cərimə nəzərdə tutulmuşdur (1, s.290). Cəzaların məqsədi cinayətkarları ikinci dəfə cinayət törətməkdən çəkindirməkdir. Şallaqlama ictimai yerlərdə həyata keçirildiyindən bu cəzanın təsiri dərhal ağrı ilə yanaşı utanc hissi olur ki, bu da cəza prosesini izləyənlərdə qorxu hissi yaradır. Burada da məqsəd cəza şahidlərini eyni əməli törətməkdən çəkindirməkdir.

Qeyd edək ki, qamçılama, həbs və cərimə kimi cəzalar aşağı səviyyəli cinayətlərə tətbiq edilir, yüksək səviyyəli – korrupsiya, narkotik alveri, çirkli pulların yuyulması və digər cinayətlər isə yerli qanunlarla tənzimlənmir. Lakin Açe cəmiyyəti və siyasətçilər yerli qanunların ekspertlər və parlament üzvləri tərəfindən köklü şəkildə nəzərdən keçi-

rilməsini və təkcə cəmiyyətin aşağı təbəqələrindən olan cinayətkarları deyil, bütün növ cinayətləri və cinayətkarları əhatə edəcək şəkildə hazırlanmasını və tətbiqinin davam etdirilməsini istəyirlər (3, s.308). Belə ki, Açe rüşvətin yayılma səviyyəsinə görə İndoneziyanın ikinci əyalətidir.

Şəriət qaydalarına uyğun olaraq, Açedə içki satmaqla yanaşı, ictimai yerlərdə içki içmək də qadağandır. Küçədə, ictimai yerlərdə qol-qola gəzmək qadağandır. Evdən kənarda geyinilən paltar şəriət qaydalarına zidd ola bilməz. Qadınlar dar şalvar, bədənə yapışan paltarlar geyinə bilməzlər, uzun ətək geyinmək məcburidir. Qadınlar və ya qızlar yalnız motosikletin arxa tərəfində yalnız yan otura bilərlər, belə hesab edilir ki, qadın motosikletin arxasında düz oturanda kişiyə bənzəyir. Bundan başqa, qadınlar saat 23:00-dan sonra ərləri və ya kişi qohumları olmadan əyləncə məkanlarına gedə bilməzlər. Qızlar və oğlanlar idman zallarının müxtəlif bölmələrində idmanla məşğul ola bilərlər. Ramazan ayında səhərdən günortaya kimi restoranlara xidmət göstərmək qadağandır. Həmçinin, ramazan ayında yalnız axşam namazından sonra çimərliklərə getmək mümkündür və s. Bu qaydaları pozanlara şəriət qanunlarına görə əsasən qamçı cəzası verilir. Törədilən cinayətdən asılı olaraq qamçıların sayı 40-dan 200-ə qədər ola bilər. Cəzalar, bir qayda olaraq, ictimaiyyət qarşısında həyata keçirilir.

Açedə Şəriət Polisi (Vilayətül-Hisbah) şəriət qanunlarının həyata keçirilməsində, qanunlara riayət olunmasına nəzarət edilməsində mühüm rol oynayır. Məsələn, gecələr polislər gənclər arasında populyar olan məkanlara baş çəkir, evli olmayan və bir-birinə çox yaxın oturan cütlüklərə xəbərdarlıq edirlər. Onlar Açe müsəlmanlarını əxlaqsızlıqdan belə qoruduqlarını iddia edirlər. Belə ki, onların fikrincə, qaranlıqda subay qadınla kişinin yan-yana oturması əxlaqsızlıqdır. Zina etməmək üçün bir-birlərindən uzaqlaşmalıdırlar. Vilayətül-Hisbahın digər vəzifəsi cinayətkarları nəzarət altına almaq və onların qeydiyyatını aparmaqdır. Nəzarət altına alma ardıcıl üç dəfə ilə məhdudlaşır. Ard-arda üç dəfə qanun pozulduqda, sonuncu dəfə iş araşdırıldıqdan sonra baxılmaq üçün Şəriət Məhkəməsinə göndərilir.

Müsəlman hüququ Açedə bütövlükdə yalnız müsəlmanlara şamil edilsə də, fiqhin cinayət hüququnun qeyri-müsəlmanlara şamil edildiyi hallar da mövcuddur. Müsəlman cinayət hüququ həddd, qisas və təzir cəzalarını ehtiva edir. 6/2014 saylı Açe Qanunu yalnız hədd və təzir cəzalarını əhatə etdiyi halda, qisas cəzası istisnadır. Qisas cəzası İndoneziya dövlətinin pozitiv hüququna uyğun olmalıdır. Hədd və təzir cəzalarına müvafiq törədilən cinayətlər şəriət məhkəməsi tərəfindən cəzalandırılır (1, s.290).

Açe Xüsusi Əyalətinin Səlahiyyətləri haqqında 44/1999 saylı Qanunun 4-cü maddəsinin 2-ci bəndi qeyri-müsəlmanların statusu haqqındadır: "İslamdan başqa digər dinlər də (hökumət tərəfindən) tanınır və öz inanclarını həyata keçirə bilərlər". Bu qərar qeyri-müsəlmanların mövcudluğunu normativ olaraq qəbul edir və onlara öz dini ehkamlarına uyğun yaşamaq hüququ verir.

Açedə müsəlman hüququnun tətbiqi 44/1999 saylı Qanunun 4-cü maddəsində belə izah olunur:

1. Bölgədə dini hüququn reallaşdırılması şəriətin müsəlmanlar üçün ictimai həyatda tətbiqi şəklində təcəssüm etməlidir.

2. Regionlar, dindarlar arasında ictimai harmoniyanı qorumaqla bərabər, Qanunun 1-ci bəndində qeyd olunduğu kimi dini həyatı inkişaf etdirir və tənzimləyirlər.

Bu maddənin ilk bəndində müsəlman hüququnun yalnız islam dininə inananlara şamil edildiyi bildirilir, ikinci bənddə isə Açedə şəriətin tətbiqinin dindarlar arasında ictimai harmoniyanı təmin etməli olduğu bildirilir. Bu o deməkdir ki, qeyri-müsəlmanlar heç bir məhdudiyyət olmadan öz dini fəaliyyətlərini sərbəst şəkildə həyata keçirə bilərlər. Belə ki, din azadlığına hörmət etmədən dindarlar arasında dini harmoniyaya nail olmaq çətindir. Qanunda bunu təmin edən qaydalar da var. Bu hal 11/2006 saylı Qanunla daha da gücləndirilmişdir. Qanunun XVII fəslinin 126-cı maddəsində müsəlman hüququ və dini azadlıqların tətbiqi aşağıdakı kimi izah edilir:

1. Açedəki bütün müsəlmanlar müsəlman hüququna riayət etməyə borcludurlar.

2. Açedə müsəlman hüququnun tətbiqinə hamı hörmətlə yanaşmalıdır.

127-ci maddə isə aşağıdakı redaksiyadadır: 1. Açe Hökuməti və ya Bələdiyyə İdarəsi azadlığa zəmanət verir, harmoniyanı gücləndirir, dini icmalara məxsus dini dəyərlərə hörmətlə yanaşır və dindarlarını dini təlimlərinə uyğun ibadətlərini qoruyur.

Yuxarıdakı məlumatlar açıq şəkildə göstərir ki, Açedə müsəlman hüququ ciddi və məcburi şəkildə yalnız müsəlmanlara tətbiq olunur. Bundan əlavə, Açedə yaşayan bütün vətəndaşlar, o cümlədən qeyri-müsəlmanlar müsəlman hüququnun tətbiqinə hörmətlə yanaşmağa borcludurlar (1, s.289).

Cinayət törətmiş qeyri-müsəlman şəxslərə İndoneziya Cinayət Məcəlləsinə və ya Açedə tətbiq olunan müsəlman cinayət hüququna görə cəzalandırmaq kimi iki variantdan birini seçmək imkanı verilir. Qeyri-müsəlmanlar İndoneziya Cinayət Məcəlləsi ilə tənzimlənməyən cinayətləri törətdikləri təqdirdə avtomatik olaraq şəriətə görə qamçılanmaqla cəzalandırılır. Müvafiq müddəalar Açe Hökumətinin 11/2006 saylı Qanununun 129-cu maddəsinin 1-ci və 2-ci bəndlərində və 6/2014 saylı Açe Qanununun 5-ci maddəsində qeyd olunur: 1) əgər qeyri-müsəlman vətəndaşlar Açedə müsəlmanlarla birlikdə cinayət törədiblərsə, qeyri-müsəlman cinayətkar könüllü olaraq Cinayət Qanununu seçib hökmü qəbul edə bilər; 2) qeyri-müsəlman vətəndaşlar tərəfindən törədilən cinayət əməli Milli Cinayət Məcəlləsində və ya digər cinayət qanunvericiliyinə dair aktlarda tənzimlənmirsə, avtomatik olaraq (müsəlman) Cinayət Qanunu tətbiq edilir (1, s.290).

Son illər, az da olsa, qeyri müsəlmanların şəriət qaydalarını və müsəlman hüqu-qunu pozduqları və müsəlman hüquq qaydalarına uyğun şəkildə cəzalandırıldıqları hallarla bağlı məlumatlar yayılmaqdadır.

2015-ci ildən İndoneziya hökuməti kiçik mağazalarda spirtli içkilərin satışını qadağan etmişdir. Bundan başqa, yeni Müsəlman Cinayət Məcəlləsi 2014-cü ildə əvvəlki daha məhdud Müsəlman hüquq toplusunu əvəz etmək üçün qəbul edilmiş və bir il davam edən ictimai məlumatlandırma kampaniyasından sonra, 2015-ci il oktyabrın 10-da qüvvəyə minmişdir. Məcəlləyə görə, nikahdankənar və eynicinsli şəxslər arasında cinsi aktlar 100 qamçı zərbəsi və ya 100 ay həbslə cəzalandırılır. Spirtli içki qəbul etmək və ya satmaq 40 şallaq, qumar və nikah yaşına çatmayan əks cinsdən olanların seksual münasibətləri 12 şallaq zərbəsi ilə cəzalandırılır. Rəsmi şəxslər bu cəzaların verilməsini cinayət törədənlərə fiziki zərər vermək deyil, onları gələcəkdə oxşar cinayətlər törətməkdən çə-

kindirmək üçün alçaltmaq məqsədi ilə izah edirlər. Şallaqlama, adətən, ictimai meydanda yüzlərlə tamaşaçı və məmurun iştirakı ilə edilir (11).

Açedə müsəlman hüququna uyğun şəkildə cəzalandırılan ilk qeyri-müsəlman (xristian protestant) Remita Sinaqa adlı qadın olmuşdur. O, xristianların yaşadığı Mərkəzi Açe bölgəsindəki Lut Tavar rayonunda yaşayan kənd sakinidir. Polis 2016-cı il aprelin 12-də onun işlətdiyi dükandan 50 şüşə spirtli içki müsadirə etdikdən sonra Mərkəzi Açe İslam Məhkəməsi Sinaqanı spirtli içki satışında təqsirli bilərək ona 30 şallaq cəzası verilmişdi, lakin həbsdə keçirdiyi vaxt nəzərə alınaraq onun cəzası 28 şallağadək azaldılmış və Takenqon şəhərində ictimai şəkildə icra olunmuşdu. Qeyd edək ki, Sinaqaya ya həbs, ya da şallaq cəzası təklif olunmuşdu və o, özü üçün ikincini seçmişdi. 60 yaşlı R.Sinaqa spirtli içki satdığına görə müsəlman hüququnu pozmaqda ittiham olunmasına münasibətdə Açe Şəriət Departamentinin rəhbəri Şahrizal Abbas bildirmişdir ki, Cinayət Qanunu ("Qanun Jinayat") – Açedə qüvvədə olan Müsəlman Cinayət Məcəlləsi yalnız müsəlmanlar üçündür, lakin qeyri-müsəlmanların öz arzularına uyğun olaraq, bu Qanun onlara da şamil edilə bilər (11). Digər bir analoji hadisə 19 yanvar 2018-ci ildə xristian Jono Simbolon tərəfindən törədilən və cəzalandırılan cinayətdir. O, içki satdığı üçün 36 dəfə qamçılama cəzasına məhkum edilmişdi (10).

2017-ci ilin mart ayında Çin əsilli iki qeyri-müsəlman və buddist 57 yaşlı Alem və 60 yaşlı Amel müsəlmanlarla birlikdə Cantodakı Əl Munavaro məscidi qarşısında şəriətə görə haram hesab olunan xoruz döyüşdürmək yolu ilə qumar oynadıqları üçün ittiham olunublar. Nəticədə hər ikisinə 9 qamçı cəzası verilmişdi. 35 yaşlı müsəlman Muxlis bin Abu Mütalib də onlarla qumar oynadığı üçün 10 şallaq zərbəsi almışdı. Alem və Amelin günahkar bilindiyi qumar oyunları İndoneziya Cinayət Məcəlləsinin 303-cü maddəsi ilə tənzimlənir. Məcəllədə bu cinayətə görə maksimum 10 il həbs cəzası və 25 milyon İndoneziya rupisi (2017-ci ildəki valyuta mübadilə kursu ilə 1 871 ABŞ dolları – E.C.) məbləğində cərimə nəzərdə tutulur. Açe Əyalətinin Besar regentliyinin prokuroru Aziz, buddistlərin "Şəriətə uyğun şəkildə qumar oynamağa görə cəzalandırılmağı qəbul edərək, könüllü şəkildə qamçılanmağı seçdiklərini" bildirmişdi (14).

Başqa bir halda, şəriət qanunlarını qumar oyunları oynamaqla pozmaqda günahlandırılan iki xristian ər və arvad Açe əyalətində yüzlərlə tamaşaçının gözü qarşısında qamçılanmışdı. Belə ki, 2018-ci il fevralın 27-də 61 yaşlı Dahlan Sili Tonqa (ər) və 45 yaşlı Tjia Nyuk Hva (arvad) müvafiq olaraq 6 və 7 dəfə şallaqlandılar. Onlar uşaq əyləncə kompleksində qumar hesab edilən oyun oynadıqlarına görə cəzalandırılmışdılar. Məkanın sahibi 66 yaşlı müsəlman Ridvan MR öz məkanında qumar oynamağa icazə verdiyinə görə 19 şallaq zərbəsi almışdı. Bundan başqa, fərqli bir cütlük ictimai yerdə bir-birinə qarşılıqlı sevgi nümayiş etdirdiklərinə görə hər biri 24 qamçı cəzasına layiq görülmüşdü. Bu cəzalar günahkarlara Açe əyalətinin paytaxtı Banda Açedəki yerli məscidin qarşısında müvəqqəti quraşdırılan səhnədə həyata keçirilmişdi. Cəzalar haqqında danışan Banda Açe şəhərinin meri Aminullah Usman deyirdi ki: "Bu, insanlarda müsəlman şəriət qanunlarının pozulması hallarının təkrarlanmaması üçün çəkindirici təsir yaratmaqdır" və "Biz bunu ictimaiyyət qarşısında qəsdən edirik ki... bir daha təkrarlanmasın" (12).

Yuxarıda qeyd edilən qamçılanma cəzaları zina və cinsi zəmində cinayətlərə görə yüzlərlə şallaq cəzası alan digər məhkumlar üçün verilən cəzadan qat-qat yüngül idi. Belə

ki, 41 yaşlı fermer və müsəlman müəllim Darmavan bin Abdullaha üç uşağa qarşı cinsi istismar ittihamı ilə 112 qamçı cəzası verilmişdi. Əyalətin Besar regentliyinin Prokurorluğu əvvəlcə onu 120 qamçı zərbəsinə məhkum etsə də, onun həbsdə olduğu müddət nəzərə alınaraq cəzası yüngülləşdirilmişdi. Prokuror Azizin dediyinə görə, Darmavan həm də tələbələri olan qurbanlarını özünə qarşı zorakılıq etməyə məcbur edib. Onun "qurbanları 15-16 yaş arası oğlanlar olub. Təqsirləndirilən şəxs cinayətləri müxtəlif yerlərdə və müxtəlif vaxtlarda törətmişdi". İctimai şəkildə qamçılanan digər iki müsəlman – 25 yaşlı Raidi Afrizal bin Buxari və 18 yaşlı Cici Nanda Julia binti Muxtarın günahları da 2014-cü il Cinayət Qanununu pozmaq idi və buna görə onların hər biri 100 şallaq zərbəsi almışdı (14).

2017-ci ilin avqustunda Açedə zina etməkdə təqsirli bilinən kişi və qadın izdihamın gözü önündə 100 dəfəyə qədər qamçılanmışdılar. Həmin ilin mayında isə şəriət məhkəməsi iki homoseksual kişinin hər birini 85 qamçı cəzasına məhkum etmişdi (10). Yeri gəlmişkən, 06/2014 saylı Cinayət Qanununa görə, təcavüz uğrayan şəxs hadisənin baş verdiyini özü sübut etməlidir. Bunu sübut etmək üçün dörd şahid göstərmək lazımdır. Lakin təcavüz edən şəxs 5 dəfə "mən etməmişəm, and içirəm, iki gözüm tökülsün" deyərsə, cinayəti törətmədiyi qənaətinə gəlinərək azadlığa buraxıla bilər. Təcavüzə uğrayan isə, böhtan atmaqda ittiham oluna və 80-100 şallaq cəzası ala bilər. Zərərçəkmiş uşaqdırsa, bu cinayət zina kimi qiymətləndirilir və buna müvafiq cəza verilir. Qanunda bu qəbildən olan zina cinayəti ilə bağlı xüsusi hallar (cinayəti törədən şəxslə zərərçəkmiş arasında yaş fərqi, uşağın razılığının olmaması, zərərçəkmişin uşaq, əlil və ya əqli cəhətdən qeyri-sağlam olması və s.) nəzərə alınmayıb.

Bütün bunlara rəğmən, Açedə qeyri-müsəlmanların şəriət qanunlarına uyğun şəkildə cəzalandırılması nadir hal sayılır. Müsəlman olmayan şəxslərin müsəlman hüququna uyğun şəkildə cəzalandırılması isə, ictimai asayişi və hüquqi bərabərliyi təmin eymək məqsədinə xidmət edir. Belə ki, əgər müsəlmanlarla birlikdə cinayət işləmiş bir qeyri-müsəlman sırf fiqhdə qeyri-müsəlmanlarla bağlı müvafiq müddəalar olmadığı səbəbindən cinayət təqibinə məruz qoyulmasa, o zaman hüquq bərabərliyi və ədalət pozulmuş olur. Qeyri-müsəlmanlar üçün şəriət qanunları ilə ölkənin milli qanunvericiliyi arasında seçim imkanının verilməsi də məhz ədalətin təntənəsinə xidmət edir.

Qeyd edək ki, içki içmək, gizli (nikahda olmayan cütlük arasında) əlaqə, qadınların hicabsız olması və ya dar şalvar geyinməsi kimi şəriət cinayətləri İndoneziya Cinayət Məcəlləsində öz əksini tapmamışdır (14).

Göründüyü kimi, Açedə İslamın uzun tarixə malik olması onun tarixən əyalət xalqının həyatında mövcud olmuş və kök salmış bir həyat tərzi olduğuna dəlalət edir. Açe Xüsusi Əyalətinin muxtariyyəti İndoneziya Respublikasının 1945-ci il Konstitusiyasının 18B maddəsinin, Açenin Səlahiyyətləri haqqında Qanuna dair İndoneziya Respublikasının 44/1999 saylı Qanununun və İndoneziya Respublikasının Açe Hökuməti ilə bağlı 11/2006 saylı Qanununun müddəaları əsasında tənzimlənir. Son iki qanun şəriətin həyata keçirilməsini, ənənəvi həyatın mövcudiyyətini, təhsilin həyata keçirilməsini və regional siyasətin qurulmasında ruhanilərin rolunu, Açe muxtariyyəti ilə əlaqəli digər xüsusi məsələləri ehtiva edir.

Regional muxtariyyət bir çox bölgələrdə, xüsusən də Açedə regional şəriət qaydaları adlanan müsəlman hüquq sisteminin formalaşması üçün imkanlar açmışdır. Açe Xüsusi Əyaləti müsəlman hüququnun tətbiqi də daxil olmaqla, xüsusi muxtariyyətin həyata keçirilməsinin formal təcəssümü kimi qanunlar şəklində müsəlman hüquq qanunvericiliyinə təsir göstərir. Bu sahədə hələlik çatışmazlıqlar və çətinliklər (natamam icra qaydaları, digər qanunlarla bağlı məhdudiyyətlər və s.) olsa da, müsəlman hüququnun tətbiqi üçün alətlərin əksəriyyəti tamamlanmışdır (9, s. 32).

Beləliklə, unitar İndoneziyanın bir hissəsi olan Açedə müsəlman hüququnun tətbiqi, müsəlman cinayət hüququnun hüquqi sistem daxilində və milli qanunverici orqanın qarşısında rəsmiləşdirilməsi səyləri bu dini hüququ İndoneziya pozitiv hüququnun mühüm hissəsinə çevirmək cəhdlərini ifadə edir. Həqiqətən də, Açedə qəbul edilmiş yerli qanunlarda müsəlman cinayət hüququnun rəsmiləşdirilməsi əslində yerli qanunlardan tutmuş milli konstitusiya səviyyəsinədək olan iyerarxiyada baş verir. Bundan əlavə, müsəlman hüququnun legitimliyi müsəlmanların milli dövlətə sədaqətinin gücləndirilməsinə, onların Pancasilaya (İndoneziya dövlətinin 5 prinsipdən (Vahid allahlılıq, Ədalətli və sivilizasiyalı insanlıq, Vahid İndoneziya, Müzakirələr nəticəsində ortaya çıxan daxili müdrikliyin yekdilliklə rəhbər tutulduğu demokratiya və bütün İndoneziya xalqı üçün sosial ədalət) ibarət rəsmi milli fəlsəfi ideologiyası) və 1945-ci il Konstitusiyasına riayət etmələrinə müsbət təsir göstərir. Məhz bu səbəbdən müsəlman cinayət hüququ İndoneziya milli hüquq sistemində pozitiv hüquq kimi yer alır.

ƏDƏBİYYAT:

1. İnce A.. İslam Hukukunda Dini Özgürlük Uygulaması: Endonezya'nın Açe (Aceh) Eyaleti Örneği / Pesa Uluslararası Sosyal Araştırmalar Dergisi, Kasım 2018, Cilt: 4, Sayı: 3, s. 286-294
2. Jamjuri A.N.. Endonezya'nın İslamlaşma Süreci (Başlangıcından XIII. Asrın Sonuna Kadar). Doktora Tezi. T.C. İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü İslam Tarihi ve Sanatları Anabilim Dalı, İstanbul: 2018, viii+207 s.
3. Sylviani A.H., Heri A., Nasrulloh N. Açe – Endonezya'da İslam Ceza Hukuku. Çev. Burak Çağ. Açe-Endonezya'da İslam Ceza Hukuku. İslam Ceza Hukuku Uluslararası Sempozyumu Bildirileri, Antalya, 30 Nisan-3 Mayıs 2015, cilt: II, İslam Ceza Hukuku. İstanbul: 2017, s. 304-319
4. Yuliana E. Şer'i Hukuk Uygulamasında Din Özgürlüğü: Endonezya'nın Açe Bölgesinde Gayrimüslimlere İslam Ceza Hukuku Uygulanması Örneği. Yüksek Lisans Tezi. T.C. Sakarya Üniversitesi Sosyal Bilimler Enstitüsü Felsefe ve Din Bilimleri Anabilim Dalı. Tez Danışmanı: Dr. Öğr. Üyesi Abdullah İnce. Aralık 2018, vi+76 s.
5. Атнашев В.Р., Ворд К. Терроризм в Индонезии: международно-правовые и политические аспекты // Управленческое консультирование, 2013, № 5, с. 42-49
6. Munhanif A. Islam, Ethnicity and Secession: Forms of Cultural Mobilization in Aceh Rebellion. Studia Islamika, İndonesian Journal for Islamic Studies, Vol. 23, Number 1, 2016, Jakarta, Indonesia: pp. 1-28
7. Miller, Michelle Ann. The Nanggroe Aceh Darussalam Law: a Serious Response to Acehnese Separatism? Asian Ethnicity, Volume 5, Number 3, October 2004, pp. 333-351
8. Syamsu B. Pelaksaan Syariat Islam Di Aceh Sebagai Bagian Wilayah Negara Kesatuan Republik Indonesia (NKRI). Dinamika Hukum 12, no. 2, 2012, 360 h.
9. Haryanto W., Syamsuddin. Otonomi Khusus Dan Implikasi Yuridis Legilasi Hukum Islam di Nangroe Aceh Darussalam (NAD). Journal of Islamic Family Law, Vol. 02, No. 01, Juli-2021, pp. 21-34

10. Express, https://www.express.co.uk, Christian man whipped 36 times for selling alcohol and violating Sharia law, 19.01.2018, https://www.express.co.uk/news/world/907160/christian-whipped-selling-alcohol-sharia-law-indonesia
11. Los Angeles Times, https://www.latimes.com, For first time in Indonesia, non-Muslim caned under Islamic law, 16.04.2016, https://www.latimes.com/world/asia/la-fg-indonesia-caning-20160416-story.html
12. Newsweek, https://www.newsweek.com/, Christians Flogged for Playing Carnival Games in Indonesia, 28.02.2018, https://www.newsweek.com/christians-flogged-playing-carnival-games-indonesia-824388
13. Legal Documentation And Information Network of Nuclear Energy Regulatory Agency, https://jdih.bapeten.go.id/id, The 1945 Constitution of the Republic of Indonesia, 16 s., https://jdih.bapeten.go.id/unggah/dokumen/peraturan/116-full.pdf
14. The Jakarta Post, https://www.thejakartapost.com, Buddhists caned for violating sharia in Aceh, 13.03.2017, https://www.thejakartapost.com/news/2017/03/13/buddhists-caned-for-violating-sharia-in-aceh.html
15. Badan Pemeriksa Keuangan Republik Indonesia, https://aceh.bpk.go.id/, Provinsi Nanggroe Aceh Darussalam, https://aceh.bpk.go.id/provinsi-nanggroe-aceh-darussalam/
16. Direktori Putusan Mahkamah Agung Republik Indonesia, https://putusan3.mahkamahagung.go.id/
17. Pemerintan Aceh Dinas Syariat Islam, http://dsi.acehprov.go.id
18. Katadata Media Network, https://databoks.katadata.co.id/, Provinsi Aceh Miliki Persentase Penduduk Muslim Terbesar Nasional pada Juni 2021, https://databoks.katadata.co.id/datapublish/2021/10/25/provinsi-aceh-miliki-persentase-penduduk-muslim-terbesar-nasional-pada-juni-2021

THE APPLICATION OF MUSLIM LAW IN A POLITICAL AUTONOMY: THE CASE OF ACEH SPECIAL PROVINCE OF INDONESIA

Elman Jafarli
PhD, Associate Professor
Nakhchivan State University
Azerbaijan

ABSTRACT

The purpose of writing the article is to study both the application of the Muslim legal system in modern times and the existence of this theocratic legal system at the level of autonomy. In this regard, we have turned to the experience of the Aceh Special Province, which is a political autonomy within the Republic of Indonesia. The arrival of Islam in the territory of Aceh coincides with the VII-VIII centuries. It was from Aceh that Islam spread throughout Indonesia. Muslim law continued to exist and develop in the kingdoms of Aceh, reaching its peak during the Sultanate of Iskandar Muda (1607-1660). More than 98 percent of Aceh's population, which gained the right to self-government after nearly 30 years of bloody struggle, worship Islam. Since the establishment of autonomy, the legal system of the Shafi'i sect of Muslim law has been applied in the province. Although non-Muslims are a minority in the Autonomy, they also come under the jurisdiction of Muslim criminal law in some cases, especially. However, at this time non-Muslims can be tried under both Muslim criminal law and Indonesian criminal law according to their wishes. In this regard, the implementation of the Muslim legal system in Aceh is a unique experience.

Keywords: *Muslim law, political autonomy, Indonesia, Aceh, Sharia, Shafi'i sect*

İSLAM HÜQUQUNDA CİNAYƏTLƏR VƏ CƏZALAR

UOT (УДК) – 34:343.28

İlqar Mirzəyev
Naxçıvan Muxtar Respublikasının
Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri,
Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri
kafedrasının müəllimi
ilqarsud@gmail.com

Bu mövzu dünyanın əsas hüquq sistemlərindən birinin – müsəlman hüququnun bir qolu olan "Ukubat" adlı müsəlman cinayət hüququnun nəzərdən keçirilməsinə həsr edilmişdir. Müsəlman hüququ dini hüquq sistemidir, İslam dininə əsaslanan hüquqi ənənədir. Bunu dərk etmədən İslam hüququnun bir çox hüquqi hadisələrini dərk etmək mümkün olmayacaq. Məqalədə müsəlman cinayət hüququnun əsas istiqamətlər, onların bölgüsü, xüsusiyyətləri və bu cinayətlərə görə nəzərdə tutulan cəzalardan danışılır.

Açar sözlər: *müsəlman cinayət hüququ, qətl, cinayət, cəza, həd, təzir, qisas, cinayətin növləri.*

Müxtəlif ölkələrdə öz nüanslarına görə Cinayət Məcəlləsindən fərqli olaraq, şəriət qanunları bütün müsəlman dünyası üçün eynidir. Bu xüsusilə İordaniya, Səudiyyə Ərəbistanı, Pakistan, Yəmən, İran, Liviya, Oman.və s. kimi ölkələrdə daha qabarıqdır. İslam hüququ cinayət və cəza subyektlərini "Ükubat" adı altında toplanmışdır. Ukubat-İslamda cinayət və cəza sistemidir. Ərəb dilində Ukubat cəza deməkdir.

İslam hüququnun ilk və ən əsas mənbəyi olan Quranda Ukubat adlı ayrıca bölmə yoxdur. Bununla belə, Quran hökmlərinin təsnifatında cinayət hüququnun əhatə dairəsinə düşən mövzular "Ükubat" adlanır və İslam dininin əsas mənbələri olan Sünnə (yəni, Allahın qoyduğu iz, yol/qayda anlamınında işlədilir), İcma və Qiyas vasitəsilə əldə edilən cəza müddəalarını da əhatə edir. (1-3).

İslam qanunlarında cinayətlər üç hissəyə bölünür:

1) **birincisi qətl cinayətləridir,** yəni kimisə öldürmək və ya kimisə müxtəlif yollarla yaralamaq-cərh (sağlamlığa zərər) cinayətidir. Göründüyü kimi, bu cinayətlər "insan haqları" ilə əlaqədardır.

"Kim bir mömini qəsdən öldürərsə, artıq onun cəzası içində daim qalmaq üzrə cəhənnəmdir. Allah ona qəzəb etmişdir, onu lənətləmişdir və onun üçün çox böyük bir əzab hazırlamışdır". (2-Nisa, 4/93)

Qatilə etdiyi günaha bərabər bir cəza olmaq üzrə ölüm cəzası verilir. Müqəddəs Qurani Kərimdə bu hökm belə göstərilir: **Ey iman edənlər! Adam öldürmələrində sizə qisas fərz qılındı.** ((Qisas olunan günah ilə verilən cəza arasında bərabərliyi ifadə edir.)) **Hürə hür, köləyə kölə, qadına qadın.** (3 -Bəqərə, 2/178)

Qatilin öldürülməsində son söz öldürülənin ailəsinə aiddir. Allah buyurur: **"Allahın toxunulmaz qıldığı kəsi öldürməyin, hüquqa uyğundursa, başqa. Haqsız yerə kim öldürülərsə, onun vəlisinə haqq verdik, o da öldürmə işində daşqınlıq etməsin (həddi aşmasın). Çünki o, yardım görmüşdür". (**4-İsra, 17/33)

Bu cinayətlər şəxsiyyətlə bağlı olduğundan onlarda əhv və barışıq tətbiq olunur.

Öldürülənin ailəsi (vəlisi-qəyyumu) qatili bağışlaya bilər. Allah buyurmuşdur: **"**Kim öldürülənin qardaşı tərəfindən bir əvəz qarşılığı bağışlanırsa, mərufa uysun və əvəzini gözəlcə ödəsin. Bu Rəbbiniz tərəfindən bir yüngüllük və mərhəmətdir. Hər kim düşmənliyi bundan sonra da davam etdirərsə, ona acı bir əzab vardır". (5 -Bəqərə, 2/178)

"Kim bir mömini qəsdən öldürərsə, öldürülənin vəlilərinə təslim edilir. İstəyərlərsə, onu öldürərlər, istəyərlərsə, diyətini alarlar. Diyət otuz hiqqə, yəni, dörd yaşına girmiş dişi dəvə, beş yaşına girmiş dişi dəvə, qırx xəlifə, yəni, hamilə dəvədir. Bu qəsdən öldürməyin diyətidir. Tərəflər qarşılıqlı olaraq bir şey üzərində də anlaşa bilərlər. Bu diyət-i muğallazadır". (6-217) (Diyət-i muğallaza ağırlaşdırılmış diyət deməkdir.)

İslam qanunlarında beş növ qətl var:

1) Amden qətl (qəsdən); 2) şibih Amit (qəsdə yaxın); 3) xəta qətl; 4) xəta vasitəsi ilə qətl (səhvə bənzər bir iş); 5) qətlə cəhd.

Sağlamlığa zərər yetirmənin (cərh) də 4 növü fərqləndirilir: 1) Amden cərh (qəsdən sağlamlığa zərər yetirmə), 2) hataen cərh (ehtiyyatsızlıqdan sağlamlığa zərər yetirmə), 3) hata cərh (səhv düşüncədən sağlamlığa zərər yetirmə), 4) cərh cəhdi (sağlamlığa zərər yetirməyə cəhd).

2) **ikinci növ cinayətlər:** bu cinayətlər Quranda göstərilmişdir, **Allaha qarşı törədilən cinayətləri əhatə edir**.

Oğurluq, zina, şərab içmək, qəzif və ya zina iftirası, yolkəsənlik, islam dininin tərk edilməsi kimi və s. cinayətlərdir. Bu cinayətlərdə cinayətdən zərərçəkən şəxs şikayət etməsinə ehtiyac yoxdur. Belə ki, bu qaydalar insanların birlikdə yaşaması üçün yaradılmışdır, bu tipli cinayətlər bu nizamı pozur və beləliklə Allaha qarşı işlənmiş sayılır. (7-34). Belə cinayətlərin törədilməsi məhkəmədə sübuta yetirilərsə onlara barışıq və əhv tətbiq edilmir. Tətbiq olunan cərimələrin miqdarı da dəyişmədiyi üçün bu cərimələri artırmaq və ya azaltmaq da mümkün deyil. (8-77)

Lakin təqsirkar günahını etiraf etmədikdə və onun günahı toplanmış dəlillərlə sübuta yetirilmədikdə, Allah mərhəmətli olduğu üçün bağışlayacağı üçün hakimin ona cəza təyin etməməsi tövsiyə olunur. Bu cür cinayətlərin açılması vəzifəsi dövlətin başçısına və hakiminə düşdüyünən hər bir dürüst müsəlmanın bu tipli cinayətlər barədə onları məlumatlandırmaq vəzifəsi qoyulmuşdur. (9-129). Ancaq qəzif (zinakar) və oğurluq cinayətlərinin törədilməsində şikayət tələb olunur. (10-121)

3) üçüncü növ cinayətlər: tazirən cəzalandırılan əməllərdir.

Taziri tələb edən cinayətlərdə haqqında ayətlər və hədislərin heç bir zəruri müddəa (nassin) olmadıqda, cəza qərarı hakimə verilməsidir. Tazir sözü qadağan etmək, cəzalandırmaq, məcbur etmək, rədd etmək, tərbiyə etmək mənasında istifadə olunur. İslam hüququnun mənbələrində nə cinayət, nə də cəza göstərilmir, dövlət tərəfindən insanlara və ya ictimaiyyətə zərər verdiyinə görə bunlar cəzalandırılan hərəkətlər kimi götürülür. (11-37)

İslam qanunlarına görə, dövlətə qarşı törədilən cinayətlər "taziren" cəzalandırılan cinayətlər qrupuna daxildir. Yəni bu cür cinayətlərin konkret nədən ibarət olduğu İslam Qanunlarının mənbələrində göstərilməyib. Lakin, cinayətkarlar, yenə də, İslamın əsas

prinsiplərinə uyğun olaraq hakimləri və "veliyul əmr" adlanan (səlahiyyətl) məmurlar tərəfindən cəzalandıra bilər.

İslam dininin əsas mənbəyi olan Quran və Sünnə İslam cinayət qanununun əsas mənbəyi olmaqla bu sahədə əsas prinsipləri və məqsədləri müəyyənləşdirir. Quran və Sünnənin verdiyi cəzalar İslamın davamı olmaqla beş əsas dəyəri, yəni ağıl, din, həyat, iffət və əmlakı qorumağı və insanların ümumi və xüsusi yaxşılığının tarazlığını qorumağı hədəfləyir. Bu cəzalar İslamın yaxşını pisdən üstün olduğunu müəyyənləşdirən prinsipinin bir hissəsidir. (12-472).

Burada cəzanın məqsədi cinayətin ictimailəşməsinin və yayılmasının qarşısını almaqla ictimai vicdanı və quruluşu qorumaq, xüsusən də cinayətin qarşısını almaq, cinayətkarı intizam və islah etməkdir. İslam dini cəzanı dövlətin haqqı və borcuna çevirərək dövlət cinayət hüququ ideyasını təsbit etmiş, o cümlədən şəxsi hüquqlardan üstün olan cəzaları, qanun pozuntularını, ədalətsizliyi və ekstremizmi, bərabərsizliyi və şəxsi düşmənçiliyi aradan qaldıraraq cəzalandırmağı qarşısına məqsəd qoymuşdur.

İslam qanunlarında cinayətlərdən müxtəlif aspektlərdə fərqli məruz qalmalar ola bilər. İddia olunan hüquq və maraqların xüsusiyyətindən asılı olaraq cəzalar həyat, bədən, şəxsiyyət, əmlak və ya əsas insan hüquq və azadlıqlarına aid edilə bilər. Cinayətə birbaşa uyğun gələn tədbir "əsas cəza" adlanır. Bu cəzanı yerinə yetirmək mümkün olmadıqda, onu əvəz edən "bədəl cəzası" və ya əsas cəzaya əlavə olaraq tətbiq edilə bilən "əlavə cəza" dan danışılır.

Cinayətin pozduğu Qanunun təbiətindən, başqa sözlə, cəzanın icrasında üstünlük təşkil edən hüquqdan asılı olaraq cəzalar üç kateqoriyaya bölünə bilər: **Allah və cəmiyyət hüququ ilə əlaqəli cəzalar**, **Şəxsi hüquqlarla əlaqəli cəzalar**, **hər iki hüquq da daxil olmaqla cəzalar**. Bununla birlikdə, Cəzaların təsnifatı isə hədd, qisas, təzir və diyətdir. (13-473).

1) **Şəxsiyyət əleyhinə cinayətlərə görə cəzalara) "qisas" və b) "diyət"dir.** Şəxsiyyətə qarşı cinayətlərə "sağ adam" ın hüquqlarına qarşı törədilən cinayətlər aiddir. (14-75).

a) **Qisas:** törədilmiş cinayətə görə cəza olaraq təyin edilir, istər qətl və zərər yetirmə, habelə hər hansı bir əzanın məhv edilməsi və ya qabiliyyətsiz vəziyyətə gətirilməsi şəklində törədilən cinayətlərdə günahkarların eyni cinayətlə cəzalandırılmasıdır. Qisas cana qarşı və bədən üzvünə qarşı olaraq tətbiq olunur. Tətbiq oluna bilməsi üçün hərəkət şüurlu və ya qəsdən edilməli, cinayətkar yetkin və mömin olmalı, öldürülənlərin həyatı şəriət tərəfindən daim qorunmalı, qatil kölə olmamalı idi.

Qisas qəsdən adam öldürmə törədənə tətbiq edilir. Burada cana qarşı qisas can qisasıdır. İslam hüquqşünasları qəsdi müəyyən etmək üçün bəzi tədbirlər təyin etdilər. Cinayətkar öz hərəkətini kəsmə, deşmə, bıçaqlama və sarsıdıcı bir vasitə ilə etmişsə, bu onun öldürmək niyyətinin olduğunu göstərir. Bir mənada qəsdin olub-olmaması yalnız qatilin istifadə etdiyi vasitələrə baxaraq müəyyən edilə bilər. Qılınclar, bıçaqlar, oxlar, nizələr, iti başlıqlar, iti ağaclar kimi şeylər qətl silahı hesab olunur. Yandırmaqla öldürmək qəsdən adam öldürməyə, döyməklə öldürmək qəsdən adam öldürməyə bərabərdir. Qeyd edək ki, qisas almaq üçün təqsirkarın təqsiri bilərəkdən və arzu olunaraq olmalı. Əks təqdirdə: ehtiyyatsızlıqdan olan cinayətlərdə qisas tətbiq edilmir. (15-76)

Əzanın qisasına gəldikdə; kimisə qəsdən və haqsız olaraq öldürmədən yaralayan, mümkünsə eyni şəkildə yaralanma deməkdir. Bu yaranı istəsə, qurban onu özü edə bilər. Qisas almaq hüququ olan birinə qəyyum deyilir. Qəyyum qurbanı əfv edilərsə qisas ləğv ediləcəkdir. Qisas qurbanın və ya onun qəyyumunun hüququdur, lakin qisas və ya diyətdən və ya hər ikisindən imtina etmək mümkündür. Əhv halında, səlahiyyətli orqan günahkara təzminat cəzası verə bilər. Başqasının və ya dövlət başçısının bir insanı öldürəni əhv vermək səlahiyyəti yoxdur. Qisasla birlikdə intiqam qadağandır. Məhbusdan başqa heç kim öldürülə bilməz. Cinayətkarın öldürdüyü formadan asılı olmayaraq, qisas iti alətlə başını kəsərək edam etmə yolu ilə həyatakeçirilir.

b) Diyət – ölüm və ya şikəstliklə nəticələnən cinayət törədildikdə, qisas arzuolunmaz olduqda və ya qisas mümkün olmadıqda, mal kimi veriləcək bədəl "diyət" adlanırdı. Diyət müəyyən mənada cərimədir. Qisas tələb etmək hüququ olan şəxslərin hamısının və ya birinin imtina edib diyət istəməsi və ya qisas tətbiq etmək üçün lazım olan şərtlərdən birinin əskik olması və ya başqa bir səbəbdən qisas mümkün olmadığı hallarda diyət tətbiq oluna bilər. Yəni, qisas cəzası qanunsuz və ya qəsdən cinayət törətdikdə qisas cəzasının yerinə yetirilmədiyi cəzadır və cəzanın miqdarı qanunverici tərəfindən müəyyən edilir. Beləliklə, diyət cəzası, (ehtiyyatsızlıqdan) istəmədən və ya qəsdən cəzalandırılacaq cinayətlərin törədilməsinə görə cəzadır.

Təcavüz və yaralanma halında insanın orqanlarına qarşı ödənilməli olan təzminata **ərş** deyilir. Əgər o, əvvəlcədən müəyyən edilməmiş bir zədə ilə qarşılaşarsa, hakim yaralananı qul hesab edir və zədə və dəyər itkisinə mütənasib olaraq tam diyətin bir faizini təyin edər. Buna "hökumət" deyilir. Məsələn; kölə olsaydı 100 quruşa başa gələcək bir adam indi zədə səbəbiylə 90 quruşa başa gələcəksə, dəyərinin 10%-ni itirmişdir. Beləliklə, günahkar qurbana ölümcül diyətin 10%-ni ödəyəcəkdir.(16-77)

Diyət dəvə, gümüş və ya qızılla ödənilir. İslamdan əvvəl qəsdən və arzu edərək öldürülmək üçün diyət 10 dişi dəvə idi, bundan sonra 100 dişi dəvə oldu və Hz. Məhəmməd tərəfindən də qəbul edildi. Bəzi hədislərdə diyətin miqdarı 1000 Dinar qızıl, 12000 dirhem gümüş və ya hətta 200 baş mal-qara, 2000 qoyun və ya 200 geyim paltarı olmuşdur. (17-475).

Qəsdən və ya arzu etmədən öldürmək, diyət olaraq bəslənməli olan dəvələrin sayını təsir etməsə də, cinsi və yaşına təsir edir. Qəsdən və qəsdə oxşar qətldə dəvələrin diyəti, əksəriyyətə görə, bir, iki, üç və dörd yaşına çatmış hər dəvə qrupundan iyirmi beşi olmaqla 100 dəvədir. Ehtiyyatsızlıqdan adam öldürmə ilə əlaqədar olaraq, dəvə keyfiyyətləri daha yüngülləşmiş və yuxarıda göstərilən dörd qrupdan iyirmi dişi dəvə və bir yaşını tamamlamış iyirmi erkək dəvə olaraq təyin olunmuşdu. Qadının diyəti kişinin diyətinin yarısıdır. Diyət; üç il ərzində üç hissə ilə ödənilir. İslam qanunlarında cəzalar ümumiyyətlə şəxsi xarakter daşıyır. Bununla birlikdə, cəzaların şəxsi və ya kollektiv olmadığını göstərən iki qurum var. Biri Akilə, digəri Qəsamə.

Akilə, səhvən öldürüldüyü və ya yaralandığı təqdirdə günahkar adından diyət ödəməsi alan şəxslərin məcmusu olaraq təyin edilə bilər (18-36). Akilə, İslamın ilk dövrlərində əsasən qəbilələrin köməyinə güvənən, müəyyən mənada cinayətkarın diyət ödəməsi ilə cəzalandırılması məqsədəuyğun hesab edilən İslam cinayət qanununun bir qurumdur.

Diyətin akilə üçün ödənilməsini tələb etmək bu bir cəzadır. Həqiqətən, diyət Akilə üçün ödənildikdə, həm zərərçəkmişin hüququ yerinə yetirilir, həm də ki, cinayətkar acınacaqlı vəziyyətə düşməməsi üçün sosial yardım verilir. Ailə üzvlərinə verilməli olan diyət, hakim tərəfindən vəziyyətlərinə görə iqtisadi vəziyyətlərini pisləşdirməyəcək şəkildə bölünür. Akilə borcunu 3 il ərzində və üç ödənişdə ödəyə bilər.

Qəsamə, kimsə açıqlanmayan bir cinayət nəticəsində kimisə öldürmüşsə, mərhumun oldüyü yeri idarə edə bilənlər müəyyən şərtlərdə diyət ödəməlidirlər. Öldürülənin cəsədi bir qəsəbədə, məhəllədə, səs eşitmək üçün qəsəbəyə yaxın bir evdə və ya heç kimə aid olmayan bir yerdə tapılmalı idi. Cəsəd iki qəsəbə və ya iki qəbilə arasında bir yerdə tapılıbsa, cəsədin daha yaxın olduğu şəhər və ya qəbilə sakinləri qəsamədən cavabdeh olurlar. Açıqlanmayan bir qətl halında, ölü tapılan torpaq sahibləri qəsaməyə tabedir. Qisasın qəyyumu onlardan əlli nəfəri seçir. Qurbanı öldürmədiklərinə və kimin öldürdüyünü bilmədiklərinə and içsələr, diyət onlardan çıxarılacaqdır. Onlardan hər hansı biri and içməsə, qəyyumun istəyi ilə o, and içənə qədər həbs ediləcəklər. Və ya diyət ödəmək istəyirsə, bütün diyət üçün pul ödəməsinə icazə verilir (19-24).

Diyətin cəza və ya kompensasiya olub-olmaması uzun müddətdir müzakirə olunur, lakin diyət həmişə qan və kompensasiya qiyməti olma xüsusiyyətini qoruyur. Diyətin cəza aspekti qəsdən adam öldürməkdə, qəsdə yaxın adam öldürməkdə daha aydın görünür. Akilənin və üçüncü şəxslərin ödəniş aldığı hallarda, diyət artıq cəzadan kompensasiyaya çevrilir.

2) Allaha qarşı törədilən cinayətlərə görə cəzalar

İslam qanunlarında Quranda bəzi cinayətlərə görə göstərilən sabit cəzalara "həddd" deyilir. Hədd əsasən Allaha qarşı törədilən cinayətlərdə tətbiq olunurdu. Buna görə də onları dəyişdirmək olmaz. Hədd sözünün cəm halı hüduddur. Allahın haqqına qarşı cinayətlər; oğurluq, zina, şərab içmək və ya sərxoş olmaq, qazif (kiməsə zina aid etmək), yol kəsmək, mürtədlik, yəni islam dinini tərk etmək, üsyan etməkdən ibarətdir. Bu cinayətlər Quranda yazıldığı üçün mübahisəsiz olaraq mühakimə olunur.

Qəzf (zina böhtanı) və Sirkat (oğurluq) cinayətlərində cəza üçün şikayət vacibdir. Bu cinayətlər sübuta yetirilərkən və hökmün icrası zamanı şikayətçi iştirak etməlidir. Zinada şahidlər olmasa, cəza icra olunmur. Hətta şahidlər daşlamağa (rəcm) özləri başlamasa, cəza düşər. Çünki hər hansı bir şübhə olmamalıdır. Şübhə olduqda isə hədd cəzası olmur (20-196).

Hədd cəzasının tətbiq olunduğu cinayət və cəzaları aşağıdakı kimi qeyd edə bilərik:

a) **Zina Cinayəti və Rəcm Cəzası:** İslam hüququnda zina şəriət müqaviləsi olmadan haram cinsi əlaqədir. Zina hərəkətinin cəzasına "həddi zina" deyilir. Bir-biri ilə nikahda olmayan və ya ağa-qul mövqeyində olmayan eyni cinsdən olan iki şəxsin cinsi əlaqədə olması zina sayılır və daşqalaq və ya çubuqla döyülməkdə cəzalandırılır.

Zina bütün dinlərində haram edilib və çox pis əməl sayılır. Zina İslam dinində böyük günahlardan olduğu və iffət, namus və nəslə qarşı yönəldiyi üçün onun cəzası həddlərin ən şiddətlisidir. Zina edənin ərli və ya subay olmasına, İslamın əmr və qadağalarına cavabdeh olmasına görə zina cəzası hissələrə bölünür. Bunlara döymək, daşla öldürmək, sürgün etmək, İslam dövlətinin tətbiq etdiyi təzir cəzası daxildir.

So why do women commit a crime? Many scientists have studied the causes of crimes committed by women. Initially, interest in this concept arose in the late XIX – early XX centuries. A significant contribution to this activity was made by the works of C.Lombroso and his followers, who believed that the origins of the existence of the phenomenon under consideration should be sought in the biological "inferiority", "underdevelopment" of women compared to men. The supporters of the anthropological school assigned the leading role in determining the causes of criminality to the anatomical and physiological properties of the human body. At the same time, social conditions were recognized as only a secondary factor that creates a certain background for the realization of criminal female inclinations [6, p. 90].

In some countries, women are serving sentences for moral offenses (“moral” offences) that violate the fundamental social values of a particular society, such as adultery or extramarital sex, violation of community dress codes, or witchcraft. Women and girls are imprisoned for fleeing their homes, often to avoid forced marriage, forced prostitution, and sexual or physical abuse. Some orthodox states hold women accountable for abortions, including in cases of rape [9]. In many countries, for example, in Iran, the political activity of women has led to arrests and detentions (a wave of arrests amid large-scale protests that have swept the country over the death of 22-year-old Mahsa Amini).

In general, the causes of female criminality are socio-economic in nature: a decline in production, an increase in unemployment, forced migration of the population, weakening of state control over the behavior of minors and previously convicted citizens, moral decay and loss of ideals, a deepening social split in society, curtailment of educational and preventive work.

The main causes of female criminality:

1) More active participation in social production. Today, women make up about half of the workforce (mainly in areas such as health care, education, culture, art, science and scientific services, trade, small business, lending, insurance, the textile industry, etc.). More than half a million women are managers (mainly of small and medium-sized organizations), about a million are heads of structural divisions. Disorganization in all these areas is much more sensitive for women than for men. In production, women commit theft not only because of the availability of valuables, but also because of the impossibility of acquiring them due to high prices. Another aspect is that about half of the heavy and low-skilled work in industry and construction is performed by women.

2) At the same time, the cause of female criminality is the growth of unemployment. Unemployment has a "feminine face". 53% of all unemployed citizens are women, and it is more difficult for them to find a job than for men. Every year there is a decrease in the competitiveness of women in the labor market.

3) Deterioration of women's health status: morbidity and disability rates, weakening of reproductive opportunities remain very high.

4) Weakening of the main social institutions, primarily the family (for example, the number of divorces is constantly increasing).

5) Increased tension in society, conflicts, hostility between people, which is perceived more acutely by women.

6) Increasing violence against women.

7) A new phenomenon is the female slave trade for the purposes of sexual exploitation and forced labor.

8) The growth of drug addiction, alcoholism, begging, vagrancy among women [2, p. 62].

As you can see, one of the causes of female criminality is unemployment. Men and women who are unemployed exhibit different behaviors. There is an opinion that women in such a situation often find themselves forced not only to change their social and professional status, but to significantly reduce it.

Both Western and domestic criminologists pay special attention to the analysis of the impact on the criminal behavior of the parental family (in particular, the level of support provided by the parental family, the experience of corporal punishment and the early onset of sexual relations). It is necessary to take into account the high degree of dependence of a woman's criminal behavior on micro-social influence, in which the family occupies a primary place. One of the reasons for the manifestation of cruelty in the criminal behavior of women and other dangerous trends is a significant decrease in the role of the family in the upbringing of children, the development of negative factors in the moral and psychological relations of spouses. The deformations of modern marital relations are indicative, often becoming the background for the development of a soulless and socially maladjusted personality. They are characterized by the initial interactive distancing of the spouses from each other, associated with the growth of their individualism; rationalization of all relationships, including intimate ones; the introduction of open or hidden contractual interactions relating primarily to the material aspects of relations between spouses. The anomaly of values in such a system is the basis of addictive, deviant, including criminal, behavior. It is cruel socialization in childhood that is associated with the likelihood of committing crimes in the future. Violent socialization refers to the use of physical punishment in childhood, the child's observation of violence between parents and others, and the encouragement and advice from acquaintances or strangers to respond with violence to violence. Victimization in the family is closely related to the assimilation of norms that justify violence. Physical punishment in the family makes the child obey in the short term, but has negative consequences for him in the future. For example, physical punishment is highly correlated with antisocial behavior in the future, with the commission of violence not only in the family, but also against strangers, conviction for serious crimes [8]. Thus, more than 80% of women serving sentences of imprisonment for acts committed through the use of violence experienced it from their parents or relatives replacing them. Studies

show that 75% of criminals did not have a full-fledged family, were brought up by relatives or other persons, or family relationships were conflicting. More than 80% of girls from disadvantaged families began sexual activity early (12-14 years), used alcohol and drugs, wandered.

The causes of female criminality are closely interconnected with the characteristics of female psychology and come from the distorted volitional and moral sphere of women's personality. For this category of persons, certain personality traits and needs are characteristic (for example, striving for excellence, increased sensitivity in relations with others, a predisposition to neurasthenia and psychopathy, conformism). It should be noted that a woman attaches great importance to the search for additional income to meet her needs, which often leads to the fading of attention in relation to such socially significant institutions as family, culture, and sports. Recently, there has been a tendency that after the birth of a child, a woman is often left alone, without the support of loved ones, without employment and a steady income. It is these circumstances that push a woman to commit a crime. A significant share in the structure of female criminality is occupied by crimes against property (more than 50%), in particular, fraud and theft. The reason for these crimes is mainly the lack of funds, as well as the impossibility of legally acquiring the desired values.

In women, compared with men, there is a rapid undermining of psychological attitudes, connections, stereotypes. This phenomenon justifies the propensity of women to personality degradation (alcoholism, drug addiction), in connection with which a woman is more easily involved in a non-binding lifestyle. Such important values for a woman as children, family, work fade into the background, which contributes to her leading an asocial lifestyle.

The phenomenon of female drug addiction has become widespread. Most criminologists tend to believe that women become more physically and mentally dependent on narcotic drugs and psychotropic substances at low dosages than men. The above negative processes are largely due to changes in the system of moral values in society. These values allow people to determine the measure of moral responsibility to themselves and society, to formulate their own understanding of good and evil, decency and immorality. Factors such as the promotion in society of the themes of sex, violence, abuse, the dexterity of criminals, the powerlessness and venality of law enforcement officers, acting through the media, form stereotypes of behavior of young women and encourage them to lead an antisocial and antisocial lifestyle.

When analyzing the causes of female criminality, one should pay attention to both external (objective) circumstances and the specifics of female psychology and psyche (subjective circumstances). The determinants of female criminality are a set of negative processes and phenomena that are present in public life (economic, organizational and managerial, spiritual and moral are paramount), in the immediate environment of women (family trouble, complex relationships in labor collectives), as well as in the personal shortcomings of women themselves (drug and alcohol addiction, aggressiveness, low educational level, etc.).

Another fundamental sphere in the public consciousness is the sphere of legal consciousness. The defectiveness of legal psychology is the co-cause of the criminal motivation of all crimes committed. Deformations of modern legal consciousness are manifested in legal nihilism, a negative attitude towards law, legal illiteracy, the loss of guidelines for lawful behavior, a firm belief in the lack of equality of citizens before the law, distrust in the system of law enforcement and judicial authorities, anxiety about one's own safety and confidence in the impunity of criminals and their criminals. readiness for the most dangerous actions [3, p. 65]. These and other deformations of legal consciousness to one degree or another determine the commission of many crimes.

Among the contradictions that influence the formation of defects in legal psychology, one can name gaps in legal regulation, in particular, criminal law relations. The prestige of law enforcement agencies has noticeably fallen in recent years - fewer and fewer citizens of our society trust the internal affairs bodies and an increasing number of people feel they are not protected from criminal encroachments.

It seems that the main prerequisites for the formation in the legal consciousness of criminogenic personalities of an effective threat of criminal punishment and refusal to choose a criminal option of behavior are the improvement of the criminal law in the direction of excluding various minor crimes, special norms, as well as the differentiation of responsibility.

Defects in moral consciousness are closely connected with the deformations of legal psychology. The moral problems of modern social psychology consist, first of all, in the fact that the former moral values and guidelines have been largely rejected, and a new solid system of this kind has not been created, as a result of which there are currently significant problems in this area of regulation.

The accumulation of negative emotions, various irritants sometimes reaches extreme tension, often threatening a criminal breakdown. All this is complemented by uncertainty about the future, anxiety about the unreliability of social status, financial situation [7].

The data obtained on the socio-psychological characteristics of women who have committed crimes serve as confirmation of two main explanations for female crime. According to the first, which can be generally called "female criminals as victims", women commit crimes in order, on the one hand, to cope with the trauma associated with their experience of sexual and (or) physical violence in the family and (or) by their partner, and, on the other hand, achieve their goals in the context of gender inequality and patriarchy. Many women who have committed crimes have highly dysfunctional family relationships, including single-parent families, frequent corporal punishment in childhood, early onset of sexual relations with adults, including family members, and dysfunctional relationships with their partners and spouses, characterized by conflicts, contempt of partners for each other and the struggle for power. In addition, more than half of the women accused their partners of involving them in criminal activities.

At the same time, my research also confirms the second main explanation of female criminality, which can be called "women as active subjects of crime." Within its framework, the active and strong-willed position of a woman in committing a crime is

recognized, which is explained by the antisocial and immoral features of the criminal, her desire for easy money, the vision of crime as an acceptable way to resolve her economic and personal problems, as well as the result of other situational, personal and interpersonal factors in situations when a woman quite consciously commits a crime. Most of the women in my study demonstrated a high level of antisocial and borderline personality traits, impulsivity, and low self-control, and also showed positive attitudes towards committing illegal acts. In relationships with a partner, the overwhelming number of female criminals demanded submission from them, criticized them and actively responded with aggression to aggression. The criminal traits of many women were revealed very early (before the age of 15) in the form of physical violence and theft, the victims of which were also members of their own family. Many of the women formed a circle of acquaintances and friends who had problems with the law. Alcohol and drug abuse is also more of a norm for women who have committed crimes. The data obtained also indicate the need to expand programs to help women held in correctional colonies for committing crimes, since many of them came from extremely dysfunctional families, experienced violence in childhood, abuse alcohol and drugs. There is still a need for further research of female criminality, as well as the classification of types of female criminals depending on the severity of certain socio-psychological traits.

The reasons and conditions discussed above that determine the criminal behavior of women are not exhaustive. Of course, there are other determinants that influence the formation of women's criminogenic motivation, but they are not so significant. In this case, the task was to identify the main factors that determine women's crime, influencing which can at least partially change the criminogenic situation.

REFERENCES:

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: Cinayətkarlıq və hüquqpozmalar. URL: https://stat.gov.az/source/crimes/ (дата обращения: 04.12.2022)
2. Беляева И.М. Криминология: учебно-методический комплекс. «Южно-Уральский государственный университет», Институт открытого и дистанционного образования, юридический факультет, кафедра Уголовного права, криминологии и уголовно-исполнительного права. - Челябинск, 2009. 106 страниц.
3. Репецкая А. Л.. Рыбальская В. Я. Криминология общая часть. Иркутск, 1999. 240 с
4. Шиханцов, Г.Г. Криминология: учеб. пособие / Г.Г. Шиханцов. - Минск: Тесей, 2006. - 296 с.
5. Басаев, В. А. Общесоциальные детерминанты женской преступности / В. А. Басаев. — Текст : непосредственный // Молодой ученый. — 2015. — № 21 (101). — С. 570-573. — URL: https://moluch.ru/archive/101/22741/ (дата обращения: 04.12.2022).
6. Викторов К. Б. Ретроспективный анализ преступлений, совершаемых женщинами // Вестник Челябинского государственного университета. - 2013. - № 9.
7. Карпова О. В. Причины и условия рецидивной преступности женщин: особенности региональной характеристики // Актуальные проблемы экономики и права. 2014. № 1 (29). С. 261-266.
8. Лысова А.В. Телесное наказание детей и насилие в супружеских отношениях россиян/ А.В. Лысова // Гуманитарные исследования в Восточной Сибири и на Дальнем Востоке. – 2013 - № 04 (24) – с. 110-117

9. Марухно Е. Ю. «Женская преступность: причины и меры предупреждения». Вестник Кузбасского института № 1 (34) / 2018. С. 112-116.
10. Романова Н. М. Социально-психологические детерминанты преступного поведения: субъект криминального деликта и гендер // Известия Саратовского университета. Новая серия. Серия: Философия. Психология. Педагогика. 2009. Т. 9, вып. 3. С. 64-68.

QADIN CİNAYƏTKARLIĞININ DETERMİNASİYALARI

Nigar Qurbanlı
Magistrant, Hüquq fakültəsi,
Bakı Dövlət Universiteti, Azərbaycan

ANNOTASİYA

Məqalə qadın cinayətkarlığının determinantlarının öyrənilməsinə həsr edilmişdir. Kriminoloji determinasiya problemi kriminologiyada ən çətin və mübahisəli problemlərdən biridir. Yerli kriminologiyanın bütün tarixi boyu alimlər bu problemin həllində müəyyən nəticələr əldə etmək, kriminogen amillərin mövcudluğunu izah etmək, onları sistemləşdirmək imkanı əldə etmişlər. Bu sahədə toplanmış bütün biliklər cinayətkarlığın determinasiyasının müxtəlif nəzəri konsepsiyalarını yaratmağa, onun qarşısının alınmasına ümumi yanaşmaları müəyyən etməyə imkan verdi. Məqalədə azadlıqdan məhrumetmə şəklində cinayət cəzası çəkən məhkum qadın və qızların kateqoriyasını xarakterizə edən sosial-demoqrafik xüsusiyyətlər müzakirə olunur. Qeyd olunur ki, bu xüsusiyyətləri nəzərə alaraq yerli cinayət icra sisteminin təkmilləşdirilməsi zəruridir. Müəllif müəyyən etmişdir ki, qadınların cinayətkar davranışı təkcə ümumi deyil, həm də spesifik determinantlarla, xüsusən də ictimai münasibətlər sistemində mövcud olan gender problemləri, qadınların sosial rolları və funksiyaları, onların bioloji və psixoloji xüsusiyyətləri ilə şərtlənir.

Açar sözlər: *qadın, cinayətkarlıq, cinayət, amil, determinasiya, qadın cinayətkarlığı, şərait, cinayətin səbəbləri.*

CİNAYƏTKARLIĞIN QARŞISININ ALINMASININ HÜQUQİ ƏSASLARI

UOT (УДК) – 34:343.9.01

Nərmin Quliyeva
"Hüquq" kafedrasının magistrantı
Milli Aviasiya Akademiyası, Azərbaycan Respublikası
narmin.guliyeva2000@gmail.com

Məqalə cinayətkarlığın qarşısının alınmasının hüquqi əsaslarına həsr olunub. Məqalədə xüsusilə qeyd olunur ki, cinayətkarlığın qarşısının alınmasında bütün hüquq sahələrini tənzimləyən hüquq normaları böyük əhəmiyyət kəsb edir. Məqalədə həm də cinayətkarlığın qarşısının alınmasının hüquqi əsaslarına dair görkəmli alimlərin fikirləri müqayisəli şəkildə verilmişdir.

Açar sözləri: *cinayətkarlıq, cinayətkarlığın səbəbləri, səbəb və şərait, hüquqi əsaslar, hüquqi tənzim, hüquqi tədbirlər.*

Hüquqi mənada cinayət törədənin yaxalanması ilə əlaqədar müəyyən şərtlər daxilində yol verilən tədbirlər cinayət sayılmır. Cinayətkarın yaxalanması ədalət mühakiməsi orqanları qarşısında duran vəzifələrin həyata keçirilməsinə kömək edir, oğurlanmış əmlakın qaytarılmasını, vurulmuş zərərin ödənilməsini təmin edir. Cinayət törədənin yaxalanması, onun yenidən törədə biləcəyi cinayətlərin qarşısını alır. Qeyd edilən cəhətlər bu institutun əhəmiyyətini göstərir.[1.305] Xüsusilə qeyd etmək lazımdır ki, cinayətkarlığın qarşısının alınmasında bütün hüquq sahələrini tənzimləyən hüquq normaları böyük əhəmiyyət kəsb edir.

Əzim Piriyev qeyd edir ki, cinayətkarlığın qarşısının alınmasının hüquqi əsasını ən çox Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin maddələri təşkil edir. Məcəllənin bir sıra maddələrinin sanksiyalarında bir neçə cəza növünün verilməsi və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi kriminogen amillərə böyük profilaktik təsir göstərir. Bundan əlavə cəza cəza-icra qanunvericiliyinin cəzaçəkmə yerlərindən azadetmə qaydası, azadlığa buraxılanların əmək və məişətinin düzəlməsi, onlar üzərində nəzarətin aparılması qaydalarını tənzimləyən normalar cinayətlərin qarşısının alınmasının hüquqi əsaslarını təşkil edir. [2.136]

Ali qanunumuz Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində cinayətkarlığın qarşısının alınmasının hüquqi əsaslarına aid normalar mövcuddur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində profilaktik tədbirlərin hüquqi təminatı kimi "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir" kimi göstərilir.[3.7]

Konstitusiyanın 13-cü maddəsində göstərilir ki, mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz. Cinayətkarlığın qarşısının alınmasının hüquqi əsaslarından biri də Konstitusiyanın 15-ci maddəsində göstərilən "Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir" adlı normadır.

Belə normalar Konstitusiyada yetərincədir. Sadaladıqlarımızdan əlavə Konstitusiyanın 25-ci maddəsində "İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır", 33-cü maddəyə uyğun olaraq "Qanunla müəyyən edilmiş hallar və məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz", 46-cı maddədə isə qeyd olunur ki, "şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz, heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz".[3, 13]

Cinayətkarlığın qarşısının alınmasının hüquqi əsaslarından biri də Konstitusiyanın 63-cü maddəsinin birinci bəndidir: "Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır".

Əzim Piriyev cinayətkarlığın qarşısının alınmasının hüquqi əsalarından biri kimi Konstitusiyanın 67-ci maddəsində qeyd edilən "Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində ittiham etdiyi hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir" normasını xüsusilə qeyd etmək lazımdır. [2.136]

Cinayətlərin qarşısının alınmasının hüquqi əsasları ilə bağlı görkəmli kriminalist alim F.Y.Səməndərovun mövqeyi nisbətən fərqlidir. O yazır: cinayətkarlığın qarşısının alınmasının hüquqi tənzimi-dövlətin və onun orqanlarının hüquqi norma yaratma fəaliyyəti olub, Qanunda və normativ aktlarda cinayətkarlığın qarşısının alınmasının məqsəd və vəzifələrini, belə fəaliyyəti həyata keçirən subyektlərin dairəsi, səlahiyyətini, işin əsas metod və formalarını müəyyən edir.

Cinayətkarlığın qarşısının alınmasını iqtisadiyyatın, siyasətin, ideologiyanın, mədəniyyətin və məişətin elə inkişafını nəzərdə tutur ki, bunlar cinayətkarlığın səbəb və şəraiti kimi təzahür edə bilən ictimai həyatın neqativ tərəflərinin təsirini zəifləməyə, neytrallaşdırmağa və aradan qaldırmağa kömək edir. İctimai həyatın belə təşkili müvafiq hüquqi tənzimlə təmin edilməlidir.[4.132]

Prof. F.Y.Səməndərov qeyd edir ki, hüquqi tənzimin mahiyyəti onunla bağlıdır ki, hüquq normaları sosial faydalı davranışı stimullaşdırır, şəxsiyyətin həyat fəaliyyətinin formalaşmasına neqativ təsir göstərən amillərinə əks təsir göstərir. Beləliklə, cinayətkarlığın qarşısının alınmasına yönələn fəaliyyətin optimal həyata keçirilməsinə şərait yaradır. Bununla yanaşı hüquqi akt cinayətkarlığın qarşısının alınması tədbirləri və vəzifələrini, qaydalarını, onun müxtəlif subyektlərinin funksiyalarını, bunlar arasında qarşılıqlı əlaqənin forma və metodlarının həyata keçirilməsini müəyyən edir. Qanunlar və digər normativ aktlar belə vəzifələri yerinə yetirməli olan səlahiyyətli şəxslərin, cinayətkarlığın qarşısını almaq sahəsinə düşən vətəndaşların şəxsi və əmlak hüquqlarının, vətəndaşların, idarə və təşkilatların qanuni mənafelərinin gözlənilməsi sahəsində məsuliyyəti təmin edir. Hüquq cəmiyyətin həyatında özünün tənzimedici rolu ilə ya kriminogen amilləri neytrallaşdırır, ya da onların hərəkətinə mane olur. Hüquq cinayətkarlığın iqtisadi, sosial-mədəni səbəb və şəraitini aradan qaldıra bilər, onun meydana gəlməsinə əks təsir göstərə,

onları blokadaya ala bilər.[4.133] Belə hüquqi tədbirlərin həyata keçirilməsi üçün qanun yaradıcılığı yaxşılaşdırılır və möhkəmləndirilir, qanunların, normativ aktların dönmədən düzgün icrasına nail olunur, qanunların düzgün icrasını təmin edən mexanizm yaradılır.

F.Y.Səməndərov cinayətkarlığın qarşısının alınmasına yönələn hüquqi tədbirlərin iki əsas istiqamətini fərqləndirir. Birinci istiqamət – "maddi" xarakterli istiqamətdir. Bu istiqamət üzrə hüquqi tədbirlərin köməyi ilə birbaşa xarici aləmin kriminogen amillərinə, yaxud da bilavasitə kriminogen davranışın determinantlarına, onları neytrallaşdırmaq, yaxud da təsirini zəiflətmək məqsədilə təsir göstərilir.

İkinci istiqamət – "prosessual" xarakterlidir. Bu istiqamət üzrə cinayətkarlığın qarşısını alan subyektlərin – vəzifəli şəxslərin və vətəndaşların hüquq və vəzifələrini təsbit etməklə, profilaktikanın məzmun və qaydalarını aydınlaşdırmaqla onlar tərəfindən profilaktik tədbirlər həyata keçirilir.[4.135]

Qeyd etmək lazımdır ki, cinayətkarlığın qarşısının alınması cinayətkarlığın səbəb və şəraitinin aradan qaldırılmasına, zəifləməsinə və neytrallaşmasına yönələn dövlət və ictimai tədbirlər sistemidir.

Cinayətkarlığın qarşısının alınmasının səmərəliliyi, ilk növbədə, onu doğuran səbəblərin və şəraitlərin düzgün müəyyən edilməsindən asılıdır. Onun qarşısının alınması dedikdə, abstrakt mövcud olan bir təzahürün deyil, konkret səbəblər və şəraitlə şərtlənən sosial fenomenin xəbərdarlığı başa düşülür. Bununla əlaqədar qeyd etmək lazımdır ki, cinayətkarlığın qarşısının alınması məhz həmin səbəblərin və şəraitin aradan qaldırılması kimi qiymətləndirilməlidir. Kriminologiya elmində haqlı olaraq təsdiq edilir ki, "cinayətkarlığın xəbərdarlığı onun səbəblərinin və şəraitinin aradan qaldırılmasına, zəifləndirilməsinə və ya neytrallaşdırılmasına yönələn dövlət və ictimai tədbirlərin çoxsəviyyəli sistemidir". [5.198]

Cinayətlərin qarşısının alınmasının hüquqi əsaslarına yanaşmada hüquqşünas alimlər arasında fikir ayrılığının olmasına baxmayaraq, onlar cinayətkarlığın səbəb və şəraiti barədə eyni mövqedən çıxış edirlər. Ç.F.Mustafayev haqlı olaraq qeyd edir ki, cinayətkarlığın bir ictimai-təhlükəli sosial təzahür kimi mahiyyətinin tədqiqi prosesində onu doğuran səbəblərin və şəraitin müəyyən edilməsinə xüsusi əhəmiyyət verilir.

Məlumdur ki, cinayətkarlıq törədilmiş cinayətlərin məcmusu olduğundan, onu bir sosial fenomen kimi şərtləndirən səbəblər və şərait məhz bu sistemə daxil olan ayrı-ayrı cinayətlərin determinantları ilə birbaşa əlaqəlidir. Odur ki, konkret cinayətin səbəbi və şəraiti müəyyən edilmədən, bütövlükdə cinayətkarlığın səbəbləri və şəraiti haqqında obyektiv gerçəkliyi əks etdirən nəticəni əldə etmək mümkün deyil. [6.75]

Cinayətkarlığın qarşısının alınması məsələsindən danışarkən qeyd etmək lazımdır ki, "xəbərdarlıq" anlayışına kriminoloji ədəbiyyatda münasibət birmənalı deyildir. Belə ki, bəzi mütəxəssislər hesab edirlər ki, cinayətkarlığın "xəbərdarlığı", "profilaktikası", "privensiyası" kimi anlayışlar qeyd olunan təzahürün qarşısının alınmasının müxtəlif şəraitləri və istiqamətləri ilə əlaqədar olduğundan, bir-birindən fərqlənir. Bununla yanaşı, "cinayətkarlığın xəbərdarlığı" anlayışını uğurlu hesab etməyənlər də vardır. Onlar öz mövqelərini əsaslandırmaq üçün qeyd edirlər ki, cinayətkarlığı xəbərdar etmək olmaz, onu məhdudlaşdırmaq, azaltmaq və ya ləğv etmək mümkündür. Bu mütəxəssislər həmçinin

hesab edirlər ki, real mövcud olmayan cinayətkarlığı deyil, onun konkret təzahürləri olan cinayətləri xəbərdar etmək olar.

Cinayətkarlığın qarşısının alınması sahəsində ədliyyə orqanları bir sıra profilaktik tədbirlər hazırlamışdır:

- qanunvericiliyi təkmilləşdirmək və qanun yaradıcılığı fəaliyyətində qanunvericiliyin sistemə salınması və kodifikasiyasında iştirak etmək, onu ictimai inkişafın müasir istiqamətinə uyğunlaşdırmaq və s. fəaliyyəti həyata keçirmək;
- qüvvədə olan qanunvericiliyin effektivliyini öyrənmək;
- ölkə miqyasında vahid hüquqi informasiya sistemi yaradılması üzrə fəaliyyət göstərmək;
- hüquqi təbliğata metodik rəhbərlik etmək, onun mühüm istiqamətlərini müəyyən etmək, təbliğatın effektiv vasitələrini və metodlarını işləyib hazırlamaq;
- ədliyyə orqanlarının profilaktik əhəmiyyəti olan funksiyasına, həm də təhsil müəssisələrində hüquqi təhsilin təşkilat-metodik təminatı aiddir.

Hazırda cinayətlərin qarşısının alınması istiqamətində müəyyən addımlar atılmaqdadır: hüquq-mühafizə orqanlarında struktur dəyişiklikləri aparılır, cinayətkarlığa qarşı mübarizəni gücləndirmək məqsədilə yeni qurumlar formalaşdırılır.

ƏDƏBİYYAT:

1. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Dərslik. Bakı, "Hüquq Yayın Evi, 2018
2. Piriyev Ə.. Kriminologiya. "Bakı Biznes Universiteti" nəş. Bakı, 1999
3. Azərbaycan Respublikasının Konstitusiyası. "Hüquq Yayın Evi", 2021
4. Səməndərov F.Y. Kriminologiya. Dərs vəsaiti. "Digesta" nəş. Bakı, 2012
5. Исмаилов И.А. Преступность и уголовная политика Баку, 1990
6. Mustafayev Ç. Kriminologiya. Dərslik. "Xəzər Universiteti" nəş. Bakı, 2015
7. Криминология. Под ред.Ф.К.Зиннурова. Учебник. Казань, 2019.

LEGAL GROUNDS FOR CRIME PREVENTION

Narmin Guliyeva
LL.M. student of National Aviation Academy
Azerbaijan

ABSTRACT

The article considers the legal grounds for the prevention of crime. In particular, the article notes that the greatest importance in the prevention of crime is the legal norms that regulate all branches of law. Together with that, it is specified that the legal basis for the prevention of crime together with the norms of the articles of the Criminal Code of the Republic of Azerbaijan are the norms of the Constitution of the Republic of Azerbaijan.The article analyzes in a comparative order the positions of different scholars on the legal basis of crime prevention.

***Keywords**: crime, causes of crime, reasons and conditions, legal basis, legal regulation, legal activities.*

HÜQUQUN PRİNSİPLƏRİNİN NƏZƏRİ-LİNQVİSTİK PROBLEMLƏRİ VƏ FƏRQLƏNDİRİLMƏ MƏSƏLƏLƏRİ

UOT (УДК) – 34:340.1

Siyavuş Bağırov
Bakalavriat təhsil səviyyəsinin III kurs tələbəsi
Hüquq fakültəsi, Bakı Dövlət Universiteti, Azərbaycan
siyavush.bagirov91@mail.ru

Hüququn prinsipləri hüququn mövcudluğunun təməl daşlarından hesab edilir. Bu məqalədə prinsip anlayışı müxtəlif prizmalardan tədqiq edilir. Prinsipə lüğətlərdə və müəlliflərin əsərlərində verilmiş təriflər müqayisə edilir, həmçinin onların xüsusiyyətləri ələ alınır. Məqalədə müxtəlif qərar və normativ mənbələrə də müraciət edilmiş, onların mövqeyi diqqət mərkəzində saxlanılmışdır. Hüquq prinsipləri ona bənzər anlayış olan hüquqi prinsipdən fərqləndirilmiş, alimlərin yazıları və lüğətlər əsasında xüsusiyyətlər araşdırılmışdır. Hüququn prinsiplərinin qanunda əks edilməsi məsələsi diqqətdən kənarda qalmamışdır. Prinsiplərin yaranma istiqamətləri tarixi çərçivədə təhlil edilir və prinsiplərin əsaslarının "rəqabəti" məsələsinə toxunulur.

Açar sözlər: *prinsip, fəlsəfə, hüququn prinsipləri, hüquqi prinsiplər, hüquq nəzəriyyəsi, linqvistika, ədalətlilik*

I. GİRİŞ

Hüquq prinsipləri son illərin əsas müzakirə predmetlərindən hesab edilir. Xüsusilə, postsovet respublikalarında sosialist qanunvericiliyin öz yerini müasir qanunvericiliyə verməsi ilə hüquqa münasibət dəyişdi ki, prinsiplər də bundan kənarda qalmadı. Onların ideoloji ünsürlərdən təmizlənməsi müxtəlif yanaşmalara gətirib çıxardı.

Prinsiplərin hüquqdan öncə mi, sonra mı, yoxsa onunla birlikdə yaranması sualı-na birmənalı cavab vermək çətindir. Çünki prinsiplər sadəcə hüquqa məxsus kateqoriya deyil. Məsələyə ümumi nəzər saldıqda prinsiplərin ***müəyyən müsbət davranış standartları*** olmasını qəbul edərsək, hüquqdan öncə də mövcud olması qənaətinə gələ bilərik. Hələ dövlətin olmadığı əsrlərdə qəbilə daxilində müsbət, xoşa gələn, qəbilənin ənənələrinə uyğun sayılan və bunların əksi davranışların fərqləndirilməsini təxmin etmək çətin deyildi. 'Hissi idraka və təcrübəyə əsaslanan şüurun inkişafı ilə əski dünyanın insan qüvvələri arasında müəyyən qaydaların yaradılması ön plana çıxırdı' [12, s. 6] ki, dövlətin formalaşmasına gedən yollarda təkcə qəbilədaxili deyil, qəbilələrarası münasibətlərdə davranışların realizə edilməsi zamanı onları müşayiət edəcək ideyalara ehtiyac duyulurdu. Hüququn və dövlətin meydana çıxması ilə prinsiplər daha da möhkəmləndi.

Son illərdə hüquq ədəbiyyatına nəzər saldıqda prinsiplərin sayında müəyyən artış olduğunu deyə bilərik. Hətta məqalələrdən birində ironiya ilə qeyd edilir ki, 'səmadakı ulduzların sayı qədər hüquq elmində prinsiplər mövcuddur' [25, s.46]. Prinsiplərin sayının süni surətdə şişirdilməsi, prinsip olmasa da, onun kimi təqdim edilmiş ideyaların çoxluğu hüquq elmində müəyyən ağırlığın və çaşqınlığın olmasına gətirib çıxarır. Buna görə də prinsipin tərifi nə qədər dəqiq olarsa, bu daha məqsədəuyğun olacaqdır.

Prinsiplərin əhəmiyyəti çoxşaxəlidir. Belə ki:
- həm mənbə qismində çıxış edirlər;
- şərh zamanı ciddi istifadə edilir;
- hüququn mahiyyətinin konkretləşdiricisidir;
- hüquq analogiyası aparılarkən prinsiplər birinci dərəcəlidir;
- hüquq düşüncəsi və hüquq qaydası ilə sıx bağlıdır;
- müəyyən davranışların edilməsi, proseslərin gedişatı onlarla müşayiət edilməlidir;
- müxtəlif mübarizə tədbirlərində (məsələn, terrorçuluğa qarşı) təbliğat vasitəsi kimi istifadə edilir və s.

Hüququn prinsiplərinin qanunvericilikdə təsbitini tapıb-tapmaması başqa bir müzakirə predmetidir. Vurğulamaq istərdik ki, bəzi prinsiplərin qanunvericilikdə təsbit edilib-edilməməsinin çox da fərqi yoxdur. Bu növ prinsiplər, əksərən, ümumbəşəridir. Məsələn, ədalətlilik bəşəriyyətin mövcudluğundan bəri var. Əlbəttə, ona əsrlərdir, yanaşmalar müxtəlifdir, lakin hər zaman ədalət anlayışı fəlsəfədə və hüquqda əvəzolunmaz element olmuşdur. Ədalətlilik prinsipi heç də bütün qanunlarda öz əksini tapmayıb. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 8-ci maddəsində [27] bir maddədə normativ təsbitini tapdığı halda Əmək Məcəlləsinin prinsiplərdən ümumi olaraq bəhs etdiyi 2-ci maddəsində [28] *haqq-ədalət* sözündən istifadə edilmişdir. Mülki Məcəllənin 6-cı maddəsi [29] ədalət ifadəsinə yer ayırmır. Üç nümunədən aydın olur ki, qanunvericiliyimiz bu məsələ üzrə vahid yanaşma yolunu tutmur. Lakin, şübhəsizdir ki, istər cinayət, istər əmək, istərsə də digər qanunvericilikləri ədalətlilik prinsipi olmadan təsəvvür edə bilmərik. Hər bir sistemin səmərəli fəaliyyət göstərməsi üçün 'yalnız qanunvericilik səviyyəsində təsbit edilmiş prinsiplərin olması' [11, s.17] kimi fikirlər, zənnimizcə, ziddiyyətli olub müəyyən dərəcədə həqiqəti əks etdirmir.

Hüququn prinsiplərindən qarşılaşdığımız əsas problemlərdən birincisi onun tərifi məsələsidir. Lüğətlərdə və müxtəlif alimlərin əsərlərində prinsip ifadəsinə yanaşmaları bu məqalənin növbəti abzaslarında təhlil edəcəyik. Tərif eyni zamanda prinsipin xüsusiyyətləri ilə bağlı problemi ortaya qoyur. Aydındır ki, alimlər müəyyən anlayışa tərif verməyə çalışarkən onun xüsusiyyətlərini nəzərə alırlar və tərifdə istifadə edirlər. Prinsipin xüsusiyyətləri sadə görünsə də (məsələn, fundamentallıq, obyektivlik...), ona bənzəyən hüquq qaydası, hüquqi dəyərdən fərqləndirməkdə ciddi əhəmiyyət kəsb edir. Məqalənin irəliləyən hissələrində fərqlilikləri ələ alacağıq.

Son olaraq, hüququn prinsiplər müxtəlif idarəçilik sistemi altında bizlərin *ilkin, başlanğıc ideyalar* adlandırdığımız mənadan çox həmin idarəçiliyin maraqlarına xidmət edən məhfum halına gələ bilər. Bu da prinsiplərin obyektivlik xüsusiyyətinə kölgə sala bilər. Obyektiv(lik) sözünün mənasının '*şəxsi hislərdən, qərəzdən, subyektiv yanaşmadan kənar (təhrif edilmədən), faktlara əsaslanma*' [37] olmasını nəzərə aldıqda konkret idarəçiliyə xidmət etmənin hüququn prinsipinin əsas xüsusiyyəti ilə uzlaşmadığı qənaətinə gəlirik. Məqalədə örnək verəcəyimiz sovet quruluşuna xidmət edən "hüquq" prinsiplərinin əslində ölkənin rəsmi xəttini qorumaq və təbliğ etmək üçün vasitə, göstərişlər məcmusu olması, əsl – hüququn ruhuna uyğun – hüquq prinsiplərinin ideoloji ünsürlərlə "çirklənmiş" prinsiplərdən fərqləndiyinin sübutudur.

II. PRİNSİPİN TƏRİFİ MƏSƏLƏSİ VƏ XÜSUSİYYƏTLƏRİ

Hüquq ədəbiyyatında tədqiqat mövzusu (birbaşa və ya dolayı) prinsip olan çoxlu yazılara rast gəlirik. Bir çox kitabların ayrıca bir paraqrafında və ya fəslində prinsiplərə yer verilir. Müxtəlif hüquq sahələrindən bəhs edən bu kitablarda prinsip mövzusuna gəldikdə aşağı-yuxarı bu tərifi görürsünüz: '**Prinsip latınca *principium* sözündən olub ilkin, başlanğıc, əsas, təməl, rəhbər ideyalar deməkdir**' [9, s.85; 15, s.111-112].

İllərdir rastlaşdığımız bu ənənəvi tərif ədəbiyyatda dərin kök salmışdır. Əbəs yerə deyil ki, bu cür tərif 'tədqiqatçıların şüurunda dar və sırf subyektiv xarakterli anlayış formalaşdırdığından' onun haqlı və ədalətli tənqidə məruz qalması vurğulanır [20, s.65]. Biz prinsipin tərifini iki istiqamətdə təhlil edəcəyik.

a. Lüğətlərdə prinsip və onunla bağlı ifadələrin izahları

Tədqiqatımızı apararkən əvvəlcə yerli lüğətlərə müraciət etmişik. İlk olaraq, Azərbaycan dilinin izahlı lüğətində prinsipin tədqiqat mövzumuza uyğun tərifi belə verilmişdir: 'Hər hansı bir nəzəriyyənin, əqidənin, dünyagörüşünün, elmin və s. əsas müddəası, çıxış nöqtəsi // Hər hansı bir işdə rəhbər ideya, əsas istiqamət, gözlənilməli olan şərt, əsas' [4, s.621]. Fəlsəfə ensiklopedik lüğəti isə bizə göstərir: 'Davranışın ilk başlanğıcı, rəhbər ideyası, əsas qaydası. Erkən orta əsrlərdə hadisələrin zəruriliyinin və ya qanunun ifadəsi; abstraklaşdırılmış sahənin bütün hadisələrinə şamil edilən mərkəzi anlayış' [13, s.343]. Azərbaycan Sovet Ensiklopediyasının yanaşması belədir: 'Hər hansı təlim, elm, dünyagörüşü, siyasi təşkilatın və s. çıxış etdiyi əsas müddəalar; insanın əxlaq və fəaliyyət norması; hər hansı mexanizmin əsas quruluş xüsusiyyəti' [6, s.13].

Altından xətt çəkdiklərimiz idrakımızda prinsipin formalaşması prosesi ilə bağlı təsəvvür formalaşdırır. Birincisi, müəyyən davranış akt(lar)ı həyata keçirilir, bu davranışla əlaqədar beyin sorğulama mövqeyinə keçir. Müxtəlif fikirlərin ortaq məxrəci kimi ideya formalaşır. Bu ideya cəmiyyətin (və ya daha dar desək, diskussiya subyektlərinin və ya sonuncu nümunədə verilmiş *siyasi təşkilatın idarəetməsi* ilə əlaqədar) əqidə və dünyagörüşünün ifadə-si qismində çıxış edir. Formalaşma prosesini bitirmiş prinsip tətbiq mərhələsinə adlayır və əməl edilməli şərt halını alır. Prinsip fəaliyyət normasıdır və aid olduğu mexanizmin (məsələn, hüquqi mexanizm) mühüm ünsürüdür.

Əvvəldə göstərdiyimiz kimi əksər kitablarda prinsipə tərif verən müəlliflər bu 5 sözün ən azı ikisindən istifadə edirlər – *əsas, təməl, başlanğıc, ilkin, rəhbər*. Bu sözlərlə bağlı asan və aydın fikir yürütmək üçün yenidən yerli lüğətlərə müraciət etmişik:

Cədvəl 1

Başlanğıc	Bir işin, hadisənin ilk anı, əvvəli, ibtidası // İlk əsas, ilk mənbə, ilk səbəb [2, s.243]
Əsas	*Sif. mənasında* Başlıca, mühüm, zəruri [3, s.132]
İlkin	*Sif. mənasında* İlk, birinci [3, s.532]
Təməl	*Məc.* Bir şeyin əsası, kökü [5, s.307]
Rəhbər	Yolgöstərən [4, s.647]

Lüğətin bizi təmin etdiyi mənalar bir-birinə yaxındır. 5 söz arasında cəmi 1-i (ikincisi) mühümlük, əhəmiyyətlilik xüsusiyyətini birbaşa sözlərlə ifadə edir. Digər üçü *birin-*

cilik, kök-lülük xarakterini göstərir. Burada başqa bir sual ortaya çıxır – Görəsən, bir nəsnənin əsası onun (həmin əsasın) ilk olması əlaməti ilə üst-üstə düşür mü? Bu sual ikinci bir sual yaradır – Bir nəsnənin əsası dedikdə onun xüsusiyyətləri tək-tək mi təhlil edilir, yoxsa buna müəyyən sistem gözü ilə mi baxılır? Sonuncusu – bir anlayışın əsasını təşkil edən məlumat/ideya/düşüncə zaman dəyişikliklərinə məruz qaldıqda *ilk olmaq* əlamətində dəyişiklik olur mu?

İkinci suala "müəyyən sistem gözü ilə baxmaq" cavabı, yəqin ki, daha ağlabatandır. Çünki prinsipin ortaya çıxmasını **ideyalar rəqabəti** də hesab edə bilərik. İnsan düşüncəsinə tarixin təsiri ortaya atılmış tezislərin "müharibəsidir", hansı ki zamanın tələblərinə uyğun olmayan fikirlər sıradan çıxır. Daha yeni və zamana uyğunlaşmış düşüncənin özündən əvvəlki fikirləri sıxışdırıb çıxarması əvəzinə, onlar tərəfindən kumulyasiya edilməsini də istisna etmirik. Qeyd etdiklərimizi nümunə ilə aydınlaşdıraq.

Hüquq başda olmaqla ictimai elmlərdə, həmçinin insan həyatında **ədalətlilik** mərkəzi anlayışlardandır. Ədalət məfhumunun haçan yarandığını yüksək dəqiqliklə deyə bilməsək də, tarixi mənbələr bizə göstərir ki, 'insanın tanış olmadığına meyil etməsini ifadə edən *azadlıq refleksi*nin qarşısıalınmazlığı nəticəsində təbii seçmə formaəmələgətirici rolunu itirdi və yeri-ni ictimai qanunauyğunluqlar tutdu' [7, s.79-80]. Yəni ictimailəşmə təbii hislərin, reflekslərin önünə keçdi, bununla da bizim cəmiyyət dediyimiz anlayış öz mövcudluğuna qədəm basmağa başladı. Məhz adını çəkdiyimiz hadisədən sonra bərabərlik, ədalət barədə fikirlər yaranmağa başladı. Cəmiyyətin ilk illərində şübhə yoxdur ki, ədalətin əsası bərabərlik idi. Münasibətlərin inkişaf etməsi, tənləşdirməyə yönəlmiş tədbirlərin bütün hallar üzrə öz bəhrəsini verməməsi ədalətliliyin başqa əsaslarını formalaşdırdı. Hüquq ədəbiyyatındakı bir məqalədə ədalət anlayışının *kəmiyyət* (bərabərlik) və *keyfiyyət* (qeyri-bərabərlik, üstünlük) xassələri fərqləndirilir [10, s. 36]. İkinci əsasın formalaşmasının səbəbi qismində qeyri-bərabər cəmiyyətin yaranmasını (neolit dövrü qəbirindəki tapıntılar, qulların mövcudluğu...[7, s. 89, 151]) göstərə bilərik. Bərabərliyin dayaqları sarsıldı və onu (həmçinin ədalət anlayışını) ayaqda tutmaq üçün yeni və uyğun ideyaya ehtiyac yarandı. Bizə aydın olur ki, ədalətlilik əsasları bir-birini kumulyasiya etmişdir.

Bir nümunə isə ədalətlilik kimi qəbul edilən fikirlərin sıradan çıxmasına verək. Qadınların tarix boyu seçki hüquqlarını əldə etmələri gecliyi ilə seçilir. Belə düşünülürdü ki, kişilər qadınlardan üstündür və qadınların seçib-seçilməsi yolverilməzdir. Qadınların savadlılıq faizinin az olması faktı da əlavə edildikdə onların seçkilərdə iştirak etməməsini müəyyən mənada ədalətli saya bilərik. Çünki region və ya ölkə üzrə taleyüklü qərarların verilməsində dünyagörüşü, savadı, düşünmə qabiliyyəti zəif olan bir insanın iştirak etməməsi daha məqbuldur. Elə ki Azərbaycanda konstitusiya səviyyəsində kişi-qadın bərabərliyi öz əksini tapdı və qadınlar kütləvi məcburi təhsilə cəlb edildi, qadınların səsverməsinə dair ədalət kimi qəbul edilən əsasların hər ikisi – həm obyektiv (savadlılığın azlığı), həm obyektiv-subyektiv əsas (kişilərin üstün olması fikrinin illərlə təlqin edilməsi və cəmiyyətin əksəriyyətinin bunu doğru ideya kimi qəbul edilməsi) sıradan çıxdı.

Suallara qayıdaq. Ədalətliliyin **ilk** əsası bərabərlik idi. Lakin bir müddət sonra yeganə olmaq xüsu-siyyətini itirdi, həmçinin bərabərliyin özünə də yanaşma dəyişdi. Ədalətliliyin keyfiyyət əsası mühüm olsa da, ilk deyil. Burada sual yaranır – qeyri-bərabərlik və

üstünlüyü ifadə edən ədalətliliyin bu ideyasının ilk olub-olmamasını qiymətləndirdikdə ədaləti təşkil edən ideyalar sistemini rəhbər tutmalıyıq, yoxsa keyfiyyət əsasının özünü ilk qəbul edib növbəti əsrlərdə filosofların yanaşmasını izləməliyik? Biz hesab edirik ki, bu sualın birinci hissəsi cavabdır. Belə də olduqda prinsip anlayışının *ilk olmaq xüsusiyyəti* şübhə altına düşür.

Düşüncənin istiqamətini bir az dəyişərək ilk olmaq xüsusiyyəti ilə bağlı başqa bir yanaşmanı təqdim edək. İlk olmaq xüsusiyyətinin prinsipin adı ilə bağlılığı düşünülə bilər. Yəni bir prinsipin adlanması onun ilk olması hesab edilməsinə imkan verir mi? İstər *ədalət*, istər *justitia*, istər *справедливость* adlandırsaq da, ədalətlilik dedikdə insan şüuru onu ***mənfilik, haqsızlıq, pozuntudan arınmış müsbət nəsnə*** kimi qəbul edir. Bu cür düşünmə əsrlərdir ki, var. Deməli, ədalətin sütunlarına ilkin ideya gözü ilə baxa bilməsək də, onun özünü cəmiyyətdəki birinci fikirlərdən hesab edə bilərik. Əfsuslar olsun ki, prinsiplərin əhatə dairəsi ümumidən sahədaxiliyə doğru getdikcə analoji yanaşmada problemlər yaranır. Bu da göstərir ki, kitablarda prinsiplərə "ilkin ideyalardır" kimi tərif vermək ziddiyyətlidir. Həmçinin ilk kimi qəbul edilən fikirlərin zamanın təsirilə sıradan çıxa bilmə ehtimalını nəzərə alarsaq, "**inkişafını başlanğıc ideyalardan götürmüş, cəmiyyətin dünyagörüşünə uyğunlaşmış ideyalardır**" cümləsi məqsədəuyğundur.

Prinsiplərlə bağlı ifadələrin lüğətlərdəki izahında digərlərində fərqlənən bir xüsusiyyət *rəhbər tutulma* xüsusiyyətidir. Təfsirlərdə, tənzimləmədə hüquq norması olmadıqda, həmçinin cəmiyyətdə müəyyən davranışı həyata keçirərkən onların nəzərə alınması mənasına gəlir. Hətta hüquq prinsiplərinin nəzərə alınması ilə normada ifadə edilmiş məna daha dərinləşə bilir. Məsələn, əhəmiyyətsiz əqdlərin etibarsızlığı nəticələrini şərh edən Konstitusiya Məhkəməsi qərarda maraqlı və mühüm məsələyə toxunmuşdur. Mülki Məcəllənin 337-ci maddəsində göstərilmiş 'aldıqlarının hamısını qaytarmalıdır' [29] ifadəsini izah edən məhkəmə "aldıqları" sözünə əsassız varlanmadan olan gəliri də əlavə etdi [31]. Əhəmiyyətsiz əqd nəticəsində müəyyən gəlirin əldə edilməsi və belə əqdin nəticələrinin mübahisələndirilməsinə qədər birinci gəlirdən istifadə etməklə ikinci gəlirin əldə edilməsi faktı ola bilər ki, sadəcə birinci gəlirin qaytarılması ədalətlilik prinsipi prizmasında doğru deyildi.

İndi isə xarici lüğətlərdə prinsip anlayışına verilmiş təriflərə diqqət yetirək. Tərəfimizdən müxtəlif mötəbər lüğətlərdə prinsip anlayışının izahları tədqiq edilmişdir. Qeyd edək ki, cədvəlin 5-ci sətirində göstərilmiş lüğətdə əlavə iki izah da verilmişdir, lakin əvvəlki sətirlərdə qeyd etdiyimiz lüğətlərdə olduğu üçün onu bir daha yazmağı uyğun hesab etmədik.

Cədvəl 2

Thesaurus dictionary	qəbul edilmiş davranış qaydası // digərlərindən törəyən ibtidai, əsas hüquq və ya həqiqət // fundamental doktrina [35]
Cambridge dictionary	nəyinsə baş verdiyini və ya işlədiyini (mövcud olduğunu) izah edən və ya idarə edən əsas ideya və ya qayda // düzgün (yaxşı) davranış qaydası və ya əxlaqi qayda [32]
Britannica dictionary	davranışa təsir edən, nəyin doğru və ya yanlış olmasını bilməyə yardım edən əxlaqi qayda və ya inam // fundamental həqiqət və ya nəzəriyyə // nəyinsə baş verdiyini və ya mövcudluğunu izah edərək (təbiətindən irəli gələn) hüquq və ya fakt [33]

Collins dictionary	davranışa təsir edərək necə davranmağın lazımi olduğunu göstərən inam // nəzəriyyənin əsas qaydaları // nəyinsə baş verdiyini və ya mövcudluğunu izah edən ümumelmi hüquq (hüquqi müddəa, biliklər və sair) [34]
Macmillan dictionary	nəsə olduqda (baş verdikdə) əsas təsiretmə yolu olan başlıca ideya, nəzəriyyə, inam // inanclar (*inam mənasında* – red. müəllif) sistemi olan əsas nəzəriyyə və ya ideyalardan biri [36]
Merriam-Webster dictionary	hərtərəfli və fundamental nəzəriyyə, hüquq, doktrina // əsas mənbə [38]

İzahlara ümumi yanaşsaq prinsip dedikdə lüğətlər üç istiqamətə yönəlir, birincisi, **müəyyən standart qismində çıxış edən davranış**, ikincisi, **inam, əxlaq, həqiqət və daxildən gələn müəyyən müsbət fikir**, üçüncüsü, **nəzəriyyənin, doktrinanın və s. özü və (ya) əsas müddəası**. Apardığımız bölgü *şərtidir*, çünki istiqamətlər hədsiz yaxındır. Bəllidir ki, əvvəlcə insan şüuru davranışı qiymətləndirir, daxildən gələn müsbət fikir formalaşdırır və onu əlaqələndirir. Ardınca müsbət/yaxşı olduğuna inandığımız (həqiqət və əxlaqi hesab etdiyimiz) həmin davranış müəyyən standart halını alır.

Azərbaycandilli lüğət və ensiklopediyalardan fərqli olaraq ingilis lüğətlərində bəzi əlavə əlamətlər qeyd edilmişdir. Bunlar *influativlik* (təsiredicilik – bu sözün Azərbaycan dilinin izahlı lüğətindəki gözlənilməli olan şərt ifadəsi ilə üst-üstə düşmədiyini hesab edirik), *izahedicilik, idarəedicilik, həqiqilik*dir. Bu əlamətləri zərurilik, ilkin olmaq, əsaslılıq kimi əlamətlərdən da-ha çox hüquq düşüncəsinə yaxın olması qənaətindəyik:

- İzahedicilik – mövcudluq və ya baş verməni aydınlaşdırır (məsələn, qanunçuluq prinsipinin özünün mövcudluq səbəbinin izah edilməsi, müxtəlif kazuslar üzrə qanunçuluğun tətbiqi əsaslarının aydınlaşdırılması);
- İdarəedicilik (buna müşayiətedicilik də deyə bilərik) – mövcud prosesdə davranış aktını həyata keçirərkən prinsiplər nəzərə alınmalıdır. Məsələn, cinayət təqibinin gedişatında istənilən bir mərhələdə ədalətliliyin pozulması, hətta digər mərhələlər bu prinsipə uyğun olarsa belə, cinayət təqibinin ədalətsiz aparılması mənasına gəlir. Çünki kiminsə hüquq, azadlıq və qanuni mənafeləri təhlükə ilə üzbəüz qala bilər. Burada o nəticəni çıxarırıq ki, ədalətlilik prinsipi prosesi "müşayiət etməlidir" və ya "idarə etməlidir";
- Təsiredicilik – həmçinin insan düşüncəsinə, onun inamına təsir mənasına gəlir;
- Həqiqilik – prinsiplər aid olduğu sfera ilə bağlı doğru, həqiqiliyini itirməmiş ideyalardır.

Kembric lüğətinin izahında *düzgün* ifadəsi ilə yanaşı *yaxşı* davranış qaydası sözləri də öz əksini tapıb. Biz birincinin işlədilməsini daha məqbul sayırıq. Çünki "yaxşı", "yaxşılıq" kimi ifadələr hüquqdan daha çox əxlaqa yaxınlığı ilə seçilir. Nümunə:

A adlı şəxs inzibati xəta törətmişdir. O, hüququ pozuntusu edərkən B adlı qonşusu onu görmüşdür. Həmçinin B yeganə şahiddir. Xətanın törədilmə yerində başqa sübut (əl izi, kamera...) tapılmamışdır. B səlahiyyətli orqana məlumat vermiş və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq A cərimələnmişdir.

Bu nümunədə B-nin davranışı düzgündür. Amma mühiti nəzərə alaraq "yaxşı davranış" demək mübahisəyə səbəb olacaq. Şübhə yoxdur ki, məhəllə sakinləri arasında B-nin əmə-

linin məhəllə "əxlaqı"na uyğun olmadığını, orqanlara məlumat verməyin düzgün olmadığını, başqa həll variantlarının mümkünlüyünü iddia edənlər tapılacaq. Unutmamalıyıq ki, cəmiyyət yoxdursa, hüquq yoxdur və cəmiyyətdə hər kəs hüquqşünas kimi və ya hüquqi müstəvidən düşünmür. Ona görə də yaxşı əvəzinə *düzgün davranış qaydası* sözləri məqbuldur.

b. Müxtəlif alimlərin, filosofların, hüquqşünasların yazılarında prinsipin tərifinə və müxtəlif xüsusiyyətlərinə münasibət

Lüğətlərdən və ensiklopediyalardan kənar mötəbər mənbələrə diqqət yetirdikdə bu mövzunu dərindən tədqiq etmiş şəxslər qəlib tərifdən qaçmağa çalışmışlar. Antik Yunanıstanda Aristotel prinsiplər barədə fikir yürüdərkən sübut və səbəb mövqeyindən yanaşırdı. O hesab edirdi ki, prinsip elə birinci səbəbdir ki, onun əsasında nəsə var (nəyinsə varlığının sübutudur). Həmçinin prinsipin sübut xarakterinin 'onun təbiətindən irəli gəldiyi'ni [30] yazırdı. Aristotel kimi Siseron da prinsipin məzmununu dərk etmək üçün cəmiyyətdəki bir sıra hadisələrə müraciət edirdi. Onun nitqlərinə nəzər saldığımızda prinsip qanunu və insanları qorumaq, hüquq pozuntusu ilə mübarizə çərçivəsində zərurətdir. Məsələn, onun Katilinaya qarşı məşhur I nitqində deyilir: '*Cəzasını çəkmədiyindən sənin tərəfindən vətəndaşların qətli...halları tez-tez baş vermişdir*!' [1, s. 90] Nitqdən bu parça bizə həmin zərurəti dərk etməyə imkan verir, hansı ki indi biz "dövlət məcburiyyət tədbirinə qənaət", "məsuliyyətin labüdlüyü" kimi prinsiplərin adlarına tez-tez rast gələ bilərik. Hüququn mühafizəsi kontekstində prinsipə belə bir tərif də verilmişdir: 'Hüquq prinsipi deontik (əxlaqi öhdəliklə bağlı) və ya aksioloji (dəyərlər kriteriyası, bununla əlaqədar mühakimə etmə) məzmun da-şıyan, hüquq tərəfindən müəyyən edilmiş və qanun yaradıcılığı və ya hüquq mühafizə subyektinə ünvanlanmış öhdəlikdir' [20, s.69]. Bu yanaşmanın ilk hissəsi düzgün olsa da, sonrakı hissəsi ilə bağlı razılaşmaq çətindir. Müəllif burada prinsip anlayışını məhdudlaşdırmışdır. Birincisi, hüququn prinsiplərinə uyğun hərəkət etmək/davranmaq sadəcə qanun yaradıcı orqanın və ya hüquq mühafizənin öhdəliyi deyil. Bunlara hər kəs əməl etməlidir. İkincisi, obyektiv reallıq və əsas olan prinsipi müəyyən bir öhdəlik adı ilə dar çərçivəyə salmağın tərəfdarı deyilik.

Hüquq ədəbiyyatına baxdıqda hüququn prinsiplərinə 'hüququn yaranması, inkişafı və fəaliyyəti üçün mənəvi və təşkilati əsaslar kimi çıxış edən ideyalar' [24] kimi bir tərif verildiyini görə bilərik. Bu tərif həm lüğətlərdə əks olunan "əsaslılıq", "nəyinsə mövcudluğunu izah edən", həm də Aristotelin yürütdüyü "birinci səbəb" əlamətlərinə uyğun gəlməklə yanaşı əvvəldə qeyd etdiyimiz mənəvi və təşkili istiqamətləri birləşdirir. Prinsip sözünün etimologiyasını tədqiq edərək *ilkin, əsas* mənasını verən sözdən formalaşdığını üzə çıxaran Lavdarenko və Rudıx yazır ki, 'prinsip leksik-semantik aspektdə termin və ya müddəa kimi formalaşan müəyyən sistemin başlanğıcı və əsasıdır' [22, s.197] Əvvəlki səhifələrdə prinsipləri formalaşdıran əsaslar haqqında **ilkin** ifadəsindən vaz keçməyimizin səbəbini izah etdiyimizdən bir daha yazmağa ehtiyac duymuruq. Müəlliflərin sistemin başlanğıcı kimi yanaşmaları sual doğurur – hüququn olmadığı ibtidai icma quruluşunda prinsipin rüşeymləri əmələ gələrkən həmin an üçün sistem anlayışından istifadə doğru olarmı? Davranışların hansının doğru, hansının yanlış olması haqqında insanlar ilk fikirlərini irəli sürəndə bu fikirləri və inamı sistem hesab edə bilərik mi? Sistem requlyar, qarşılıqlı və bir-biri ilə müəyyən dərəcə asılılıq təşkil edən nəsnələrin bir bütündə cəm-

ləşməsidir. Sistem həmin nəsnələrin mexaniki cəmi deyil. Məsələn, cinayət hüququnun prinsiplərindən danışırıqsa, həmin prinsiplər cinayət hüququ sisteminin əsaslarından biri, mexanizmin quruluş xüsusiyyətlərindəndir. Bəs prinsip anlayışının özünün formalaşması yolunda insanların dilə gətirdikləri bir-birindən müəyyən dərəcədə asılı idi mi? Bu mübahisəni həll etmək üçün *formalaşan* sözü əvəzinə *formalaşmaqda olan* sözünü və ya *formalaşmağa yardım edən/formalaşdırıcı əsas* ifadələrini daha məqbul sayırıq.

Smirnov hüququn prinsipi anlayışının dərkinin üç istiqamətini – geniş, dar və doktrinal – göstərir [21, s.29]. Geniş mənaya təfsir, hüquqi düşüncə kimi məsələlər də daxildir. Doktrinal istiqamət geniş və dar yanaşmadan imperativ olmaması ilə fərqlənir, yəni bu fikrin tərəfdarları prinsipi doktrinal hesab edir və imperativliyə malik olmamasını vurğulayır. Qanunvericilikdə nəzərə alınsa da, doktrina halında prinsiplərin bir-bir yarandığı və buna da davam edilməsini, prinsipin məcburi öhdəlikdən daha çox müəyyən rejim/ideologiya tərəfindən yaradılan istiqamətverici fikirlər olması qənaətindədirlər. Məsələn, sovet dövründə hakim kommunizm ideologiyasına xidmət edən bir sıra prinsiplər işlənib hazırlanmışdı (*millətlərin həqiqi bərabərliyi, proletariat diktaturasına nail olmaq* və s.). Tədqiqatçılar 'əvvəlcə sosialist cəmiyyətin inkişafının, onun başlanğıclarının müəyyən qanunauyğunluqlarını ortaya qoyur, sonra isə hüquq prinsipləri üzərində işləyirdilər' [25, s.46-47] Göründüyü kimi bir qrup insan əvvəlcə doktrina işləyib hazırlayır, yeni "ixtira edilmiş" prinsiplər də ona əsaslanırdı. Belə hallarda həmin prinsiplərin obyektivliyinə nə dərəcədə inanmaq olar? Başqa bir nümunə. Müsəlman hüququnda da prinsiplər doktrina halında işlənib hazırlanır. Müəlliflər bunun səbəbini bunda görür ki, 'qanunverici qismində dövlət deyil, hüquq elmi oynayır və alimlərin yazdıqları qanun qüvvəsinə malik olur' [23]. İslamın Ali Qanunu hesab edilən Qurani-Kərimdə prinsipləri ifadə edən ayələr var. Onlardan biri ilə tanış olaq: *Onlar bir ümmət idi ki, gəlib-getdi* (yaşayıb-öldülər mənasında – red. müəllif). *Onların qazandıqları özlərinə, sizin qazandıqlarınız isə sizə aiddir. Siz onların etdikləri barədə sorğu-sual edilməyəcəksiniz*! (**Əl-Bəqərə, 2/133, 141** [8, s.26]). Bu ayə **məsuliyyətin fərdiləşdirilməsi** prinsipini açıq şəkildə göstərir. Bir əvvəlki istinadda qeyd edilir ki, 'İslamın ümumi prinsipləri Quranın hansısa ayəsində və ya rəvayət tipli hədislərdə yer almır, İslam hüququnun bütün mənbələrinin və onların xüsusi normalarının praktiki təhlili əsasında işlənib hazırlanır' [23]. Ola bilsin ki, mü-əllif ***yer almır*** dedikdə konkret adının çəkilmədiyinə işarə vurur, biz həmin prinsip olduğunu ayədən çıxan mənadan dərk edirik ki, müsəlman hüquq alimləri də bizim etdiyimizi daha yüksək səviyyədə edirlər. İndi isə iki nümunəni qarşılaşdıraq – bir tərəfdə mötəbər müsəlman alimlərin yazdıqlarının özü qanun hesab edilir və bu qanunlarda prinsiplər əksini tapır, digər tərəfdə isə müəyyən qrup kommunizmdən irəli gələn qanunauyğunluqları təhlil edib prinsip ortaya çıxarır, lakin ikinci hal üzrə unutmaq olmaz ki, onların yazdıqları sadəcə doktrina kimi qalır, çünki sovet parlamenti qanunyaradıcı səlahiyyətə malikdir. Bu məqalənin əvvəlində qeyd etmişdik ki, bəzi prinsiplər vardır ki, onlar qanunda təsbit edilməsələr də, mövcuddurlar. Təsnifatda aşağıya endikcə (sahələrarası-sahəvi-sahədaxili) hesab edirik ki, hüquq prinsipinin qanunda təsbitinin zəruriliyi artır. Normativ aktda öz əksini tapan prinsip artıq norma-prinsipə çevrilir. Xatırlatmaq istərdik ki, qanun prinsipin özünün və ayrı-ayrı prinsiplərin anlayışını verməkdən çəkinir. Düşünürük ki, bu, yerində

addımdır, çünki qanunvericilik səviyyəsində tərif verməyə cəhd onun mənasını məhdud çərçivəyə salmaq olardı.

Hüququn prinsiplərinə müxtəlif nəzəriyyələrin yanaşması vardır. Hüquq ədəbiyyatına nəzər saldıqda hüququn məzmununun dərk edilməsində libertar nəzəriyyə digərlərindən daha üstün hesab edilir. Bunun 'hüquq və qanun anlayışları arasındakı fərq'dən [19, s.8] qaynaqlandığı düşünülür.

Hüquq ədəbiyyatındakı məqalələrdən birində prinsip fenomeninin dörd substantiv xassəsi qeyd edilir [18, s.81]. Bunlar *səmərəlilik, universallıq, qloballıq* və *obyektivlik*dir. Prinsipləri nəzəri və praktiki cəhətdən təhlil edən başqa bir mənbədə isə hüququn prinsipi 'nəzəriyyənin məhsulu hesab edilsə də, obyektiv şəkildə müəyyən edilmiş və ya arzu edilmiş təcrübənin hüquqi konsolidasiyası sayılır' [26, s.6] Bu cür yanaşma onu göstərir ki, hüquqi fəaliyyətin əsası qismində çıxış edir. Bu fikri Xropanyuk da təsdiq edir [16, s.152].

Milli ədəbiyyatda da prinsip məsələsinə yer verilmişdir. Məsələn, M.Məlikova yazır ki, 'hüquq prinsipləri tənzimləyici yola sahib olmaqla bərabər, həm hüquqi dəyərliliyin göstəricisidir, həm də hüququn məqsədyönlülüyünü ifadə edir' [14, s.52]. Başqa bir dərslikdə 'hüququn qəbul etdiyi hər bir fikri mənimsəmə forması hüquqi prinsip'[17, s.121] adlandırılır. Belə adlanmada müzakirə ediləsi birinci məsələ müəllifin əvvəlki cümlələrdə *hüququn prinsipləri* ifadəsini işlətsə də, tərifə gəldikdə hüququn prinsipi yox, məhz hüquqi prinsip adlandırmasıdır. İkinci bir məsələ isə "hüququn qəbul etdiyi hər şeyi mənimsəmək forması" ifadəsidir. Bu kontekstdə *forma* sözünün 'ifadə üsulu, qaydası' [3, s.204] mənasını bildirdiyini nəzərə alaraq müəllifin "hər şeyi mənimsəmək" yazması bizdə suallar doğurur. Məsələn, hüquq elmi müxtəlif regionlarda tarixi inkişaf, dünyagörüşü, iqlim, din və bu kimi amillərə əsaslanaraq formalaşan hüquq ailələrinin mövcud olması qəbul edir. Bu qəbul etmənin dərk üsulu qismində prinsipə ehtiyac duyuruq mu? Düşünürük ki, müəllif öz əsərində yazdığı fikirlərə aydınlıq gətirməlidir.

Müəlliflərin yazdıqlarını müqayisə etdikdə əvvəldə yazdığımız və ənənəvi "əsas, ilkin, başlanğıc" tipli tərifərin çoxluq təşkil etdiyini görürük. Lakin azsaylı mənbələr hüququn prinsiplərinin tərifini ciddi şəkildə tədqiq edir və standartların kənarına çıxır, hansı ki biz bunları yüksək qiymətləndiririk. Lüğətlərin mövqeyi və tədqiqatçıların yazılarını bir araya topladıqda prinsiplərin xüsusiyyətlərinin təxmini siyahısını çıxarmaq mümkündür.

c. Hüququn prinsipləri, yoxsa hüquqi prinsiplər?

İstər hüquq ədəbiyyatında, istərsə də gündəlik həyatda hər iki ifadəyə tez-tez rastlanılır. Sözlə ifadədə bu kimi yaxınlıqlar (məsələn, *hüquqi sistem* və *hüququn sistemi* anlayışları da bənzərdir, amma fərqləri var) ilk deyil və təxmin edirik ki, bunun səbəbi dilin söz ehtiyatları ilə bağlıdır.

Bu məsələyə toxunarkən dörd dildən nümunələr gətirəcəyik. Azərbaycan dilindəki bu ifadələrin bir bənzəri türk dilində də var. Onlar müvafiq olaraq *hukukun ilkeleri* və *hukuki ilkeler* adlanır. İngilis dilində isə *principles of law* və *legal principles* ifadələrinə yer ayrılır. Sonuncu olaraq rus dilində isə adlandırma belədir: *принципы права* və *правовые принципы*. Birinci ifadələrdə yiyəlik məzmunu aydın şəkildə duyulur. İlk üç dildə yiyəlik şəkilçisi, rus dilində isə ismin hallanması bunu deməyə əsas verir. İkinci ifadələrdə isə ilk söz sifət qismində çıxış etməklə təyin rolunu oynayır.

Əlimizdəki faktlar o mənaya gəlir ki, "hüququn prinsipləri" elə bir kateqoriyadır ki, o sırf hüquqa aiddir, obrazlı şəkildə ifadə edərsək, hüquq elmi onlara sahiblik edir. Lakin hüquqi prinsiplər digər bir fəaliyyətlə də bağlı ola bilər. Məsələn, təsəvvür edək ki, C adlı qeyri-kommersiya şəxsi yaradılmışdır və onun fəaliyyət dairəsinə mədəni tədbirlərin təşkili, səfərlər və s. aiddir. C-nin fəaliyyətinin hüquqi prinsipləri dedikdə müvafiq prosedurda hüququn qəbul etdiyi prinsiplər başa düşülür. Yəni hüquq elminin məsələyə yaxınlıq dərəcəsi elə də çox deyil. Lakin hüququn prinsipləri dedikdə birbaşa hüququ əhatə edir.

Hüququn prinsipləri və hüquqi prinsiplər **üst-üstə** düşə bilir. Qanunçuluq hüququn prinsipi olduğu kimi C hüquqi şəxsinin hüquqi prinsipidir (olmalıdır). Lakin, zənnimizcə, hüququn prinsipləri daha çoxdur və şaxəlidir. Örnək kimi *inandırma və məcburetmənin vəhdəti* prin-sipini təhlil edək. Bunu işləyib hazırlayan hüquq nəzəriyyəsidir. Amma hüquqi prinsip qismində əhatə dairəsi daha dardır. Son olaraq, hesab edirik ki, hüququn prinsiplərində nəzərilik hissəsi hüquqi prinsiplərdən daha çoxdur.

III. NƏTİCƏ

Hüququn prinsipləri illərdir ki, tədqiq edilən kateqoriyadır. Bu məsələ tərəfimizdən yazılmış məqalədə də işıqlandırıldı. Prinsip anlayışına tərif verməyin çətinliyi, onun mücərrədliyi özlüyündə bir sıra problemlər yaradır. Onlardan biri də illərlə ədəbiyyatda hakim kəsilmiş və hələ də əksər yazılarda istifadə edilən ənənəvi sözlərdən istifadədir. Lüğət və digər mənbələrdən istifadə edərək bu nəticələrə gəldik:

1. Hüququn prinsipləri obyektiv kateqoriyadır. Bu xüsusiyyət onu hüquq qaydasından və digər subyektiv anlayışlardan fərqləndirir. Prinsiplərin formalaşması əsaslarında subyektiv yanaşmalar olmasına baxmayaraq obyektivliyini itirmir.

2. Prinsip hərtərəfli, təsiredici, tənzimləyici, idarəedici, izahedici və rəhbər anlayışdır.

3. Prinsiplər doktrina daxilində də işlənib hazırlana bilər. Doktrinada hazırlansa belə, şərtlərə cavab verən ideya prinsip kimi istifadə edilə bilər.

4. Prinsiplərin qanunvericilikdə təsbit edilməsi müsbət hadisə olsa da, məcburi deyil. Xüsusilə, ümumhüquq prinsiplərinin təsbitinə ehtiyac yoxdur. Lakin hesab edirik ki, təsnifat üzrə aşağıya doğru endikcə qanunvericilikdə təsbit bir o qədər yaxşıdır.

5. Prinsip ortaya çıxmış ilkin ideyanın zamanın təsirlərinə məruz qalması ilə inkişaf yolu keçən ideya, müxtəlif dövrlərin dünyagörüşünün əksidir. Məqalədə də göstərdiyimiz kimi prinsiplərin bir çoxunun adları əsrlərlə dəyişməz qalsa da, onun dayaqları dəyişmiş, zənginləşmiş, zamanın tələblərinə uyğun gəlməyən əsaslar digərləri ilə rəqabətə tab gətirməmişdir.

6. Prinsip müəyyən mexanizmin əsas quruluş xüsusiyyətidir.

7. Prinsiplər əxlaqla sıx bağlıdır, "yaxşı"dan çox "düzgün" davranışdır.

Prinsiplər barədə çıxardığımız nəticələr bir daha onun əhəmiyyətli olması faktını təsdiq edir. Bunları nəzərə alaraq hesab edirik ki, Azərbaycan hüquq ədəbiyyatında bu mövzu davamlı tədqiq edilməlidir. Müxtəlif kitab, monoqrafiya, məqalə və s. müəllifləri prinsiplər barədə ya-zarkən əvvəldə qeyd etdiyimiz "*ilkin*", "*əsas*" kimi şablonlardan "sözgəlişi" istifadə etmək əvəzinə diqqətli olmalıdırlar.

ƏDƏBİYYAT:

1. Antik ədəbiyyat antologiyası. İki cildə. II cild. Bakı, “Avrasiya press”, 2006, 264 səh.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. I cild. Bakı, “Şərq-Qərb”, 2006, 744 səh.
3. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. II cild. Bakı, “Şərq-Qərb”, 2006, 792 səh.
4. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. Bakı, “Şərq-Qərb”, 2006, 672 səh.
5. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. IV cild. Bakı, “Şərq-Qərb”, 2006, 712 səh.
6. Azərbaycan Sovet Ensiklopediyası. ASE Elmi Redaksiya Şurası. On cilddə. VIII cild. Bakı, “Azərb.SSR Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti işləri Komitəsinin Baş Redaksiyası”, 1984. 608 səh.
7. Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədim dövrdən b.e. III əsrinədək). Bakı. “Elm”, 2007, 520+40 səh.
8. Ə.Musayev. “Qurani-Kərim və Azərbaycan dilində mənaca tərcüməsi”. Bakı, “Burhan”, 900 s.
9. F.M.Abbasova. “Cinayət prosesi: Ümumi Hissə”. Dərslik, Bakı. “Zərdabi LTD” MMC, 2012, 416 s.
10. F.M.Abbasova. “Ədalətli məhkəmə araşdırması hüququnun ibtidai araşdırmanın ədalətli-liyinə təsirinin bəzi aspektləri”. Bakı, “Polis Akademiyasının Elmi Xəbərləri”, № 4 (32), 2021, səh. 36-44.
11. F.R.Pənahov. “Sağlamlığın qorunması hüququnun prinsipləri”. Bakı, “Qanun”, 2022. № 03 (329), səh. 17-23.
12. F.Y.Səməndərov. “Cinayət hüququnda cəza problemi: Tarixilik və müasirlik”. Dərs vəsaiti. Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2009, 286 səh.
13. Fəlsəfə ensiklopedik lüğəti. Müəllif kollektivi. Bakı, “Azərbaycan Ensiklopediyası”, 1997, 520 səh.
14. M.F.Məlikova. “Hüquq nəzəriyyəsi”. Dərslik. Bakı, “Elm və Təhsil”, 2019, 448 səh.
15. M.N.Əliyev. “Sosial təminat hüququ”. Dərslik, Bakı. “Adiloğlu”, 2007, 464 səh.
16. V.N.Xropanyuk. “Dövlət və hüquq nəzəriyyəsi (ixtisarla)”. Bakı, 2013, 248 səh.
17. Z.A.Əsgərov. “Konstitusiya hüququ”. Dərslik. Bakı, “Bakı Universiteti”, 2011, 760 səh.
18. А.В.Коновалов. "К вопросу о понятии принципов права". "Лекс Руссика", МГЮА, Москва, № 8 (141) август 2018, с. 81-87.
19. А.С.Сидоркин. "Принципы права: Понятие и реализация в российском законодательстве и судебной практике". Автореферат. Москва, 2010, 26 с.
20. В.Н.Корнев. «Эволюция доктрины принципов права в отечественной юридической науке». Вестник Нижегородской академии МВД России, Общетеоретические и исторические проблемы юридической науки и практики. 2018, № 1 (41), с. 64-70.
21. Д.А.Смирнов. "О понятии принципов права", Теория государства и права. "Общество и право", 4 (41), 2012, с. 29-37.
22. Л.И.Лавдаренко, С.Н.Рудых. "Принципы права и их система". Актуальные проблемы российского права. 2018. № 10 (95) октябрь, стр 196-203.
23. Л.Р.Сюкияйнен. "Мусульманское право. Вопросы теории и практики". М., 1986. 73 с..
24. М.И.Байтин. "Сущность права" (Современное нормативное понимание на рубеже двух веков). Саратов, 2001. Стр. 123.
25. Н.А.Власенко. «Конкуренция принципов права». «Юридическая техника», 2020. № 14, стр. 46-53.
26. Н.Н.Вопленко, В.А.Рудковский. "Основные принципы права: Понятие и классификация". Вестн. Волгогр. гос. ун-та. Сер. 5, Юриспруд. 2013. № 1 (18), стр. 5-11.
27. AR Cinayət Məcəlləsi. URL: https://www.e-qanun.az/framework/46947 (son baxış - 03.08.22).
28. AR Əmək Məcəlləsi. URL: https://www.e-qanun.az/framework/46943 (son baxış - 03.08.22).
29. AR Mülki Məcəlləsi. URL: https://www.e-qanun.az/framework/46944 (son baxış - 03.08.22).
30. Aristo. “İkinci Analitikler”. URL: https://xweseri1.files.wordpress.com/2017/05/aristoteles-organon-iv-ikinci-analitikler.pdf (son baxış 10.08.22).
31. “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337, 339.6, 346.1 və 354-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 02 aprel 2021-ci il tarixli Qərarı. URL: https://e-qanun.az/framework/47561 (son baxış 08.08.22).

32. https://dictionary.cambridge.org/tr/s%C3%B6zl%C3%BCk/ingilizce/principle (son baxış 09.08.22).
33. URL: https://www.britannica.com/dictionary/principle (son baxış 09.08.22).
34. URL: https://www.collinsdictionary.com/dictionary/english/principle (son baxış 09.08.22).
35. URL: https://www.dictionary.com/browse/principle#:~:text=noun,the%20principles% 20of%20the% 20Stoics. (son baxış 09.08.22).
36. URL: https://www.macmillandictionary.com/dictionary/british/principle (son baxış 09.08.22).
37. URL: https://www.merriam-webster.com/dictionary/objective (son baxış - 04.08.22).
38. URL: https://www.merriam-webster.com/dictionary/principle (son baxış 09.08.22).

THEORETICAL-LINGUISTIC PROBLEMS OF THE PRINCIPLES OF LAW AND ISSUES OF DIFFERENTIATION

Siyavush Bagirov
LL.B. student, Faculty of Law,
Baku State University, Azerbaijan

ABSTRACT

The principles of law are considered to be the cornerstones of the existence of law. In this article, the concept of principle is researched from different perspectives. Definitions of principles given in dictionaries and authors' works are compared, and their characteristics are also discussed. In the article, various decision and normative sources were also referred to, and their position was kept in focus. The principles of law were distinguished from the legal principle, which is a similar concept, and the characteristics were analyzed based on the writings of scholars and dictionaries. The issue of reflecting the principles of law in the legislation has not been left out attention. The directions of the emergence of the principles are analyzed in the historical framework, and the issue of "competition" of the foundations of the principles is touched upon.

Keywords*: principle, philosophy, principles of law, legal principles, theory of law, linguistics, principle, justice*

YAŞ HƏDDİ FİZİKİ ŞƏXSİN CİNAYƏT MƏSULİYYƏTİNİN ŞƏRTİ KİMİ

UOT (УДК) – 34:343.22

Cavid Mirzəzadə
Bakalavriat təhsil səviyyəsinin III kurs tələbəsi
Hüquq fakültəsi, Bakı Dövlət Universiteti, Azərbaycan
mirzezadec073@gmail.com

Cinayət məsuliyyəti institunun zəruri elementlərindən biri də cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddidir. Məqalədə cinayət məsuliyyətinin minimum yaş həddinin tarixi araşdırılmış, ona anlayış verilməklə, belə bir anlayışın fərqləndirilməsinin zəruri şərtləri sadalanmışdır. Eyni zamanda şəxsin əməlinin (hərəkət və ya hərəkətsizlik) kriminal xarakterini və ictimai təhlükəliliyini dərk etmək və onu idarə etmək üçün zəruri hesab olunan inkişaf xüsusiyyətləri tədqiq olunmuşdur. Müxtəlif dövlətlərin qanunvericiliyində yaş həddinin təsbiti məsələsinə, fərqli tendensiyanın mövcudluğunun səbəblərinə, eləcə də yetkinlik yaşına çatmayanlara münasibətdə cinayət məsuliyyətinə cəlb etmə zamanı humanizm prinsipinin labüdlüyünə diqqət yetirilmişdir.

Açar sözlər: *cinayət məsuliyyəti, fiziki şəxs, minimum yaş həddi, yetkinlik yaşı, dərk etmək*

Cəmiyyət hər biri digərinə xas olmayan özünəməxsus xüsusiyyət və keyfiyyətlərə malik insanların birliyi olub, onların həyatını və qarşılıqlı fəaliyyətini özündə ehtiva edən sosial sistemdir. Bu nöqteyi-nəzərdən hər bir insan fərdi sosioloji baxımdan cəmiyyət üzvü kimi şəxsiyyətdir. Şəxsiyyətin mövcudluğu isə onu xarakterizə edən sosial əlamətlərdən asılıdır. Bu əlamətlərin meydana gəlməsi, şəxsiyyətin gələcək inkişafında rolu canlı orqanizmlərin bioloji baxımdan funksiyaya malik olduğu dövrlə – zaman kəsiyi ilə əlaqədar istifadə etdiyimiz "yaş" termini ilə sıx əlaqədardır. Məlum olduğu kimi şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün zəruri şərtlərdən biri də məhz yaş həddidir.

Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi tarixən dəyişən kateqoriyadır. Tarix boyu cinayət və cəza məsələlərində yetkinlik yaşına çatmayanlara m-ünasibətdə yazılı abidə, tarixi sənəd və qanunlara istinadən daha humanist mövqeyin olduğunu müşahidə edə bilərik.

Orta əsrlər dövrünə məxsus olan və alban hüququnun mühüm mənbəyi kimi qiymətləndirilən Mxitar Qoş Qanunnaməsinə görə ağır cinayətlər hesab edilən adam öldürmə, ağır xəsarət yetirmə, həmyaşıdını təhlükəli hərəkətə təhrik edib onun ölümünə və xəsarətinə səbəb olma, həmçinin ağırlıq qaldırmağa təhrik etməklə ölümə və ya ağır xəsarətə səbəb olma üçün məsuliyyət 12 yaşdan yaranırdı. Bununla belə, adam öldürməyə görə 10-11 yaşlılar qan bahasının yarısını verməli, daha aşağı yaşlılar isə üçdə bir qədər cərimə olunmalı idilər [4, s.124].

Çar Rusiyasının 1885-ci il tarixli Cinayət və İslah Cəzaları Məcəlləsi 10-17 yaş arası yetkinlik yaşına çatmayanlar üçün məhkəmədən onların "anlayaraq" və ya "anlamadan" hərəkət etməsi məsələsinə aydınlıq gətirməyi tələb edirdi [17]. Çar Rusiyasının 1903-cü il tarixli Cinayət Qanunnaməsində də cinayətin subyekti on yaşına çatmış anlaqlı fiziki

şəxslər hesab edilirdi [4, s.157]. 1922-ci il tarixli Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsində cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi anlayışından istifadə edilməsə də, konkret yaş həddinə çatmayanlara münasibətdə cəzanın tətbiqini istisna edən müddəalar təsbit edilmişdi. Müvafiq qanunun ilkin redaksiyasında on üç yaşınadək olan azyaşlılara, eləcə də, barələrində tibbi-pedaqoji təsir tədbirlərinin tətbiqi ilə kifayətlənməyin mümkün olduğu qənaətinə gəlinmiş on üç yaşdan on beş yaşadək olan bütün yaşadolmamışlara (yetkinlik yaşına çatmayanlara) cəza tətbiq edilməməsi müəyyən edilirdi. 17 noyabr 1923-cü il tarixli dekretlə qanun yeni redaksiyada təqdim olunmuş və yaş həddi müvafiq olaraq on dörd və on altıya qaldırılmışdı [2, s.51].

1927-ci il tarixində qəbul edilmiş Cəza Məcəlləsinin ilkin redaksiyasında əvvəlki qanunun mövqeyi saxlanılsa da, növbəti redaksiyalarda bir sıra cinayətlərə (oğurluq, cismani xəsarət yetirmək, adam öldürmə, adam öldürməyə təşəbbüs və s.) görə məsuliyyət yaşı on iki, qalan cinayətlər üçün on dörd yaş olaraq təsbit edilirdi [2, s.135-136].

1960-cı il tarixli Azərbaycan SSR-in Cinayət Məcəlləsinin 10-cu maddəsinə əsasən cinayət törədərkən on altı yaşı tamam olmuş şəxslər cinayət məsuliyyətinə cəlb edilirdilər. Bəzi cinayətlərə görə isə məsuliyyətin yaşı on dörd idi. Bununla yanaşı, on səkkiz yaşına çatmayan şəxs böyük ictimai təhlükə törətməyən cinayət törətdikdə məhkəmə həmin şəxsin cinayət cəzası tətbiq edilmədən islah olunacağını mümkün hesab edərsə, belə şəxs haqqında cinayət cəzası sayılmayan tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edə bilərdi [2, s.588].

Xarici ölkələrin tarixi təcrübəsinə diqqət yetirsək, analoji vəziyyətlə qarşılaşmış olacağıq. İngiltərənin orta əsrlər dövründə on iki yaşından kiçik uşaqların cinayətə görə məhkum edilə bilməməsi ümumi bir adət halını almışdı. 17-ci əsrdə artıq presedent hüququnun prinsiplərinin formalaşdığı bir dövrdə məsuliyyətə cəlb etmək üçün yeddi yaş aşağı həddi hesab olunurdu. On dörd yaşına çatmamış şəxs cinayət törətdikdə onun doğru və yanlışı ayırd etmək qabiliyyəti müəyyən olunmalı idi. 1933-cü ildə isə Uşaqlar və Gənclər haqqında Qanunun qəbul edilməsi ilə yalnız cinayət törədərkən səkkiz yaşına çatmış şəxsin məsuliyyətə cəlb oluna bilməsi müəyyən edilirdi. Bu hal 1963-cü ilə qədər davam etmiş və həmin ildə qanuna edilmiş dəyişikliklə məsuliyyət yaşı ona qaldırılmışdı. Bu gün də İngiltərədə on yaş cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi kimi qanunvericilikdə təsbit olunur [15].

Bir sıra Avropa dövlətlərində cinayət məsuliyyətinin minimum yaş həddi ilə yanaşı, *doli incapax* doktrinası da tətbiq edilir. Ümumi hüquq, 10-14 yaş arasında olan uşağın cinayət niyyətinin olması üçün lazımi biliyə malik olmadığını, yəni uşağın doğru ilə yanlış arasındakı fərqi dərk etməməsi səbəbindən cinayət törətmək qabiliyyətinə malik olmadığını nəzərdə tutur. Bu, doli incapaxın ümumi qanun prezumpsiyasıdır [14]. 1998-ci ildə İngiltərə və Uelsdə 10 yaşından yuxarı uşaqlar üçün doli incapax ləğv edilib.

Hüquq ədəbiyyatında və müxtəlif dövlətlərin qanunvericiliyində cinayət məsuliyyətinin sözügedən ümumi elementinə münasibətdə cinayət məsuliyyətinin minimum yaş həddi terminindən daha geniş istifadə olunur. *Cinayət məsuliyyətinin minimum yaş həddi cinayət törətmiş şəxsin öz əməlinin (hərəkət və ya hərəkətsizlik) kriminal xarakterini və ictimai təhlükəliliyini dərk etmək və onu idarə etmək üçün psixi, fizioloji və intellektual yetkinliyə*

çatdığı, cinayət məsuliyyətinə cəlb oluna biləcəyi, ona qarşı irəli sürülən ittihamın və tətbiq edilən cəzanın mahiyyətini qavraya biləcəyi, qanunla müəyyən edilən yaş həddidir.

Cinayət məsuliyyətində yaş həddinin anlayışının fərqləndirilməsi təsadüfi xarakter daşımır. Şəxs yalnız o halda cinayət məsuliyyətinə cəlb edilə bilər ki, o əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmiş olsun. Bunun üçün digər bütün şərtlərlə birlikdə konkret yaş həddinə çatmaq zəruridir. Fikrimizi əsaslandırarkən məsələyə üç istiqamətdə yanaşmanı məqsədəuyğun sayırıq:

1) *Psixoloji yanaşma.*
2) *Fizioloji yanaşma*
3) *Pedaqoji yanaşma*

Psixi proseslər insan davranışının ilkin tənzimləyicisi kimi meydana çıxır. Psixi prosesləri üç qrupa ayırırlar: idrak prosesləri, emosional proseslər və iradi proseslər [5, s.6]. Duyma, diqqət, qavrama, nitq, hafizə, təfəkkür, təxəyyül, qərar qəbul etmək, problemləri aradan qaldımaq bacarığı, baş verən hadisələrə mübət və ya mənfi reaksiya vermək, öz hərəkətini idarə edə bilmək və onu dərk etmək insanın psixoloji xüsusiyyətləridir. Psixoloji xüsusiyyətlər müxtəlif yaş dövrlərində meydana gəlir və ya tam şəkildə inkişaf edir. Cinayət qanunu ilə müəyyən edilmiş cinayət tərkibinin əlamətlərinin mövud olduğu əməli törətmiş şəxs cinayət-hüquqi əhəmiyyət kəsb edən psixoloji xüsusiyyətlərə malik olduqda cinayət məsuliyyətinə cəlb edilir. Bu xüsusiyyətlərə malik olmaq üçün müəyyən yaş həddinə çatmaq şərtdir.

Fizioloji inkişaf da psixoloji inkişaf kimi daha çox yaşla bağlıdır. İnsanda boyun artımı, ürək-damar sisteminin və beynin fizioloji inkişafı, cinsi yetişmə və s. tədricən baş verir. Məhz fizioloji inkişaf tam mənada gerçəkləşməsə, insan bir sıra cinayətlərin subyekti ola bilməz. Eyni zamanda yeniyetmələrdə əsəbilik, kəmhövsələlilik, tündməcazlıq onların fizioloji inkişafın müəyyən mərhələsində olması ilə əlaqədar baş verir. Təbii ki, bu yaş dövründə törədilən cinayətlərlə bağlı cinayət məsuliyyəti realizə olunarkən bu kimi fizioloji xüsusiyyətlər nəzərə alınmalıdır. Ona görə də qanunvericilik humanizm prinsipini rəhbər tutaraq sözügedən yaş dövrünə mənsub cəmiyyət üzvləri ilə bağlı məsuliyyətin və cəzanın diferensiasiyasını müəyyən etməlidir.

Ətraf mühiti dərk etmək, "yaxşı" və "pis"i fərqləndirməyi bacarmaq, "nəyi etmək olar?" və "nəyi etmək olmaz?" suallarına cavab verə bilmək, cəmiyyətdəki rolunu anlamaq təlimdən, tərbiyədən əhəmiyyətli dərəcədə asılıdır. Hələ ailə mühitindən başlayan tərbiyə prosesi məktəbdə daha da dərinləşir və ətraf mühitin tam mənada dərk edilməsini təmin edir. İnsan yenicə fikrini ifadə etməyə başladığı və başqalarının dediklərini analiz edə bildiyi andan cəmiyyətdəki hakim əxlaqın mövqeyini də dərk etməyə başlayır, kiçik yaşlarından hansı əməllərin yolverilməz və mənəviyyata zidd olduğunu anlayır. Bu mənada pedaqogika insanın psixologiyası ilə sıx şəkildə bağlı olub, onun formalaşmasında əhəmiyyətli rol oynayır. Cəmiyyətdə maarifləndirmə və profilaktik işin səviyyəsi nə qədər yüksək olarsa, krimonoloji vəziyyət də bir o qədər əlverişli olar. Bu hal dövlətin cinayət-hüquqi siyasəti ilə bağlı olub, birbaşa cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə təsir göstərir.

Qanunverici cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddini müəyyən edərkən konkret cəmiyyətin üzvlərinin psixoloji, fizioloji və pedaqoji keyfiyyətlərini

məcmu halında nəzərə almalıdır. Hesab edirik ki, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi aşağıdakı şərtlər əsasında müəyyən edilməlidir:

1) Şəxsin yaşı onun törətdiyi ictimai təhlükəli əməlin kriminal xarakterini və faktiki tərəfini dərk etməsinə imkan verməlidir. İnsan müəyyən yaş həddinə çatdıqda öz hərəkətlərinin konkret cizgilərini daha aydın anlayır və onları idarə etmək qabiliyyətinə malik olur, eyni zamanda tədricən cinayət qanununun qadağalarını dərk etmək bacarıqları formalaşır;

2) Şəxsin yaşı törətdiyi ictimai təhlükəli əmələ görə məhkum olunduğu cəzanı düzgün dərk etməsinə imkan verməlidir. Məlumdur ki, cəzanın əsas məqsədlərindən biri məhkumu islah etməkdir. Məhkumun islah olunması üçün ona təyin edilən cəzanın mahiyyətini qavraya bilməsi mühüm şərtdir. Əks təqdirdə cəza öz məqsədlərinə nail ola bilməz;

3) Şəxs öz əməlinin sosial-hüquqi cəhətini qiymətləndirməyi bacarmalıdır. Yəni o ictimai təhlükəliliyin məna və mahiyyətinə vaqif olmalı, hüquqi şüurun müəyyən bir səviyyəsinə yiyələnməlidir;

4) Cinayət məsuliyyətinin yaş həddi humanizm, məsuliyyətin və cəzanın fərdiləşdirilməsi, cəzaya qənaət prinsiplərinin məcmu halında rəhbər tutulması ilə müəyyən edilməli və onların tətbiqi hüdudlarında mövcud olmalıdır. Yaş həddinin müəyyən edilməsi o deməkdir ki, qanunla nəzərdə tutulan yaşa çatmış şəxs törətdiyi ictimai təhlükəli əmələ görə cinayət məsuliyyətinə cəlb oluna və cəzalandırıla bilər. Lakin nəzərə almaq lazımdır ki, bu, həmin şəxslərin tam mənada yetkin olması mənasına gəlmir. Əksər dövlətlərin qanunvericiliyində yetkinlik yaşı məsuliyyət yaşından daha yüksəkdir. Belə ki, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, 18 yaşına çatmamış şəxs yetkinlik yaşına çatmayan hesab edilir. Bununla belə, cinayət məsuliyyətinə cəlb etmə yaşı 16-dır. 18 yaşınadək olan şəxslərə münasibətdə isə cinayət və cəza məsələlərində yuxarıdakı prinsiplər rəhbər tutulmalıdır. Humanizm prinsipi yetkinlik yaşına çatmayanlara təyin edilən cəzaların növləri və hədlərində özünü göstərir. Məsələn, Azərbaycan Respublikasının cinayət qanunu yetkinlik yaşına çatmayanlara münasibətdə azadlıqdan məhrum etmə növündə cəzanın on ildən çox olmayan müddətə təyin edilə bilməsini müəyyən edir. Habelə yetkinlik yaşına çatanlardan fərqli olaraq onlara təyin edilə bilən cəzaların dairəsi qanunla məhdudlaşdırılıb (cərimə, ictimi işlər, islah işləri, azadlığın məhdudlaşdırılması, müəyyən müddətə azalıqdan məhrum etmə). Eyni zamanda yetkinlik yaşına çatmayanlara münasibətdə tərbiyəvi xarakterli məcburi tətbirlərin tətbiqi tezliyinin artırılması, cəza əvəzinə digər hüquqi təsir tədbirlərinin görülməsi cəzaya qənaət prinsipi baxımından daha məqsədəuyğundur. Bu kateqoriya şəxslərin yaş xüsusiyyətləri ilə bağlı daha asan islah yolunu tutmaları hər bir halda nəzərə alınmalıdır.

Cinayət məsuliyyəti yaşını təyin edərkən qanunverici bu yaşa qədər insanın öz ictimai təhlükəli hərəkətlərinin (hərəkətsizliyinin) mahiyyətindən və onların qadağan edilməsindən xəbərdar olmaq üçün kifayət qədər inkişaf səviyyəsinə çatması ehtimalından çıxış edir [17]. Deməli, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi ilk növbədə ehtimalla müyyən edilir. Nəzərə almaq lazımdır, intellektual inkişaf səviyyəsinə görə hər kəs bərabər deyil. Hər hansı bir şəxsdə digərlərindən fərqli olaraq psixi xəstəliklə bağlı olmayan əqli inkişaf ləngiməsi ola bilər. Belə olan halda şəxs cinayət məsuliyyə-

tinə cəlb edilirmi? Çox az sayda dövlətin qanunvericiliyində bu suala cavab tapmaq olar. 1996-cı il Rusiya Federasiyası Cinayət Məcəlləsinin 20.3-cü maddəsinə görə "*qanunla müəyyən edilmiş yaş həddinə çatan, lakin əqli qüsurla əlaqəli olmayan əqli gerilik nəticəsində törətdiyi əməllərin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk edə bilməyən, yaxud ictimai təhlükəli əməl törədərkən belə hərəkətlərə nəzarət edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir"* [12]. Hesab edirik ki belə bir normanın Azərbaycan Respublikasının Cinayət Məcəlləsində təsbit edilməsi zəruridir.

Cinayət məsuliyyətinin şərtləri AR CM-in IV fəslində "Cinayət məsuliyyətinə cəlb edilməli olan şəxslər" sərlövhəsi altında öz əksini tapmışdır. AR CM-in 19-cu maddəsinə əsasən cinayət məsuliyyətinin ümumi şərtləri qanunla müəyyən edilmiş yaş həddinə çatma və anlaqlılıqdır. Belə ki əgər cinayət qanununda nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin malik olduğu əməli törətmiş fiziki şəxs qanunla müəyyən edilən yaş həddinə çatıbsa və anlaqsız vəziyyətdə deyilsə, onu cinayət məsuliyyətinə cəlb etmək və təqsirləndirmək mümkündür.

Yaş həddi cinayət məsuliyyətinin mühüm şərtidir. AR CM-in 20.1-ci maddəsinə əsasən yalnız *"cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir*"[1]. Bununla belə 20.2-ci maddədə qeyd olunur ki, *on dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir* [1]. Göründüyü kimi Azərbaycan Respublikası cinayət qanunvericiliyi 16 yaşı cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi sayır. Qəsdən törədilən bir sıra cinayətlərə görə isə məsuliyyətə cəlb etmənin yaşı 14-dür (nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma (CM-in 266-cı maddəsi) ehtiyatsızlıqdan törədilən cinayətdir). Bununla belə, bəzi cinayətlərə görə cinayət məsuliyyəti on dörd və ya on altı yaşdan etibarən deyil, daha yetkin yaşda yaranır. İ.B.Ağayevə görə cinayət qanunvericiliyinə müvafiq olaraq cinayət məsuliyyətinin yaranmasının iki minimum yaş həddini fərqləndirmək mümkündür:

1) Ümumi minimum yaş həddi;
2) Xüsusi minimum yaş həddi.

Cinayət qanunvericiliyində cinayət məsuliyyətinin yaranmasının iki xüsusi minimum yaş həddi müəyyən olunmuşdur:

- Cinayət məsuliyyətinin yaranmasının azaldılmış minimum yaş həddi;
- Cinayət məsuliyyətinin yaranmasının artırılmış minimum yaş həddi.

Cinayət Məcəlləsində cinayət məsuliyyətinin artırılmış minimum yaş həddinin müəyyən edilməsi iki üsulla həyata keçirilir:

- Cinayət Məcəlləsinin Xüsusi hissəsinin maddəsinin dispozisiyasında müvafiq yaş həddinin birbaşa göstərilməsi yolu ilə;

- Cinayətin subyektinin minimum yaş həddini müəyyən edən başqa normativ aktlara müraciət olunmasını tələb edən blanket üsulla [3, s.174-179].

Hesab edirik ki, bu cür bölgünün aşağıdakı konteksdə aparılması da mümkündür:

1) Cinayət məsuliyyətinin ümumi subyekti xarakterizə edən minimum yaş həddi;
2) Cinayət məsuliyyətinin xüsusi subyekti xarakterizə edən minimum yaş həddi.

Ümumi subyekti xarakterizə edən minimum yaş həddi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 20-ci maddəsinə müvafiq olaraq iki istiqamətdə müəyyən olunur:

- Cinayət törədənədək on altı yaşı tamam olmuş şəxsin cinayət məsuliyyəti (CM-in 20.1-ci maddəsi);

- Cinayət törədənədək on dörd yaşı tamam olmuş şəxsin cinayət məsuliyyəti (CM-in 20.2-ci maddəsi).

Xüsusi subyekti xarakterizə edən minimum yaş həddinin fərqləndirilməsi isə aşağıdakı qaydada aparıla bilər:

- CM-in Xüsusi hissəsinin konkret maddəsinin dispozisiyasına əsasən müəyyən edilən minimum yaş həddi. Məsələn, on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə (152-ci maddə), yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə (170-ci maddə), yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etmə (171-ci maddə) kimi cinayətlərin subyekti ancaq on səkkiz yaşına çatmış şəxs ola bilər.

- Digər normativ-hüquqi aktlara əsasən müəyyən edilən minimum yaş həddi. Məsələn, bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və qərar çıxarma (CM-in 295-ci maddəsi) cinayətinin subyekti daha yüksək yaş həddinə çatmış şəxs olmalıdır. Çünki Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin və 10 iyun 1997-ci il tarixli "Məhkəmələr və hakimlər haqqında" Qanununun 93.1-ci maddəsinə əsasən seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər.

Bəzi hallarda səhvən belə hesab edirlər ki, qəsdən törədilən bir sıra cinayətlərə görə məsuliyyətə cəlb etməyə imkan verən yaş həddinin aşağı salınması həmin əməllərin ictimai təhlükəlilik və ağırlıq dərəcəsindən irəli gəlir. Lakin bu mövqeyi haqlı hesab etmək olmaz. Məsələ burasındadır ki, qanunverici 16 yaşda deyil, daha kiçik yaşda şəxsin nəzərdə tutulan əməllərin kriminal xarakterini dərk etmə qabiliyyətini nəzərə alaraq həmin əməllərə görə 14 yaşı məsuliyyətə cəlb etməyə imkan verən yaş həddi kimi qiymətləndirir.

Azərbaycan Respublikası cinayət qanunvericiliyi humanizm prinsiplərinə sadiq qalaraq yetkinlik yaşına çatmayanlar barəsində cinayət məsuliyəti və cəza məsələlərinin həllində güzəştli şərtlər müəyyən edir. Yetkinlik yaşına çatmayanlar barəsində azadlıqdan məhrum etmə cəzasını on ildən artıq olmayan müddətə təyin edilməsi, daha çox tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiqinin nəzərdə tutulması və s. bu qəbildəndir.

Ayrı-ayrı ölkələrin qanunvericiliyində cinayət məsuliyyətinin şərtlərindən biri kimi cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi ilə bağlı normalar təsbit edilmişdir. Demək olar ki, hər bir ölkənin qanunveriliyində bu məsələ özünəməxsus formada

təsbit edilib. Bununla yanaşı, bir sıra dövlətlərin mövqeyi Azərbaycan Respublikası cinayət qanunvericiliyinin mövqeyi ilə üst-üstə düşür. İndi isə müxtəlif ölkələrin təcrübəsində cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddini nəzərdən keçirək.

Albaniya Respublikasının Cinayət Məcəlləsində də bir sıra cinayətlərə görə məsuliyyətə cəlb etmənin yaş həddi 14, bir qisim cinayətlərə görə isə 16-dır [7]. Danimarka Cinayət Məcəlləsinin mövqeyinə görə isə 15 yaşına çatmamış uşaqlar tərəfindən törədilən əməllər cəzalandırılmır [8]. Özbəkistan Respublikasının cinayət qanunvericiliyinə nəzər salsaq, tamamilə fərqli tendensiya ilə qarşılaşacağıq. Belə ki Özbəkistan Respublikasının 2009-cu il Cinayət Məcəlləsinin fiziki şəxslərin məsuliyyəti adlanan 17-ci maddəsi cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddini dörd kateqoriya üzrə qruplaşdırır. Ümumi qaydaya görə cinayət törətdiyi zaman 16 yaşına çatmış və anlaqlı şəxslər məsuliyyətə cəlb olunurlar. Bununla yanaşı qanunvericinin mövqeyinə görə bir qisim cinayətlərə görə 14 yaş, bir qisim cinayətlərə görə isə 18 yaş məsuliyyətə cəlb etmənin yaş həddi hesab olunur. Cinayət törətdiyi zaman 13 yaşına çatmış və ondan yuxarı olan şəxslər yalnız qəsdən adam öldürməyə görə məsuliyyət daşıyırlar [9]. İran İslam Respublikasının Cinayət Məcəlləsinin 4-cü fəslinin 49-cu maddəsinə əsasən, uşaqlar cinayət törətdikdə cinayət məsuliyyətindən azad olunurlar və onların islahı qəyyumlarının, yaxud da lazım gəldikdə, Yetkinlik Yaşına Çatmayanların İslah və Reabilitasiya Mərkəzinin üzərinə düşür [10]. Maddənin qeyd hissəsinə görə, uşaq – şəriətdə nəzərdə tutulmuş yetkinlik yaşına çatmayan şəxsdir. Müsəlman hüququna görə kişilər üçün yetkinlik yaşına çatma 15, qadınlar üçün isə 9 yaş olaraq müəyyənləşdirilib. Deməli, İran İslam Republikasında da cinayət məsuliyyətinə cəlb etmə kişi və qadınlar üçün müvafiq olaraq 15 və 9 yaşından etibarən mümkündür.

Rusiya Federasiyasının 1996-cı il Cinayət Məcəlləsinin cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi ilə bağlı göstərişi Azərbaycan Respublikasının və 2014-cü il Qazaxıstan Respublikasının cinayət qanununun göstərişi ilə tamamilə eynidir və demək olar ki, qanunvericilərin göstərişi Rusiya Federasiyasının cinayət qanunundan əxz edilmişdir. Qazaxıstan Respublikasının cinayət qanunvericiliyində 14 yaşdan etibarən məsuliyyətə cəlb etməyə imkan verən əməllərin dairəsi isə nisbətən genişdir. Belə ki bu cərgəyə sadalanan cinayətlərlə yanaşı, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə, sosial, milli, etnik, sinfi və ya dini nifaq salma, Qazaxıstan Respublikasının Birinci Prezidentinin, o cümlədən Qazaxıstan Respublikası Prezidentinin həyatına qəsd etmə, ağırlaşdırıcı hallarda meyitləri və dəfn yerlərini təhqir etmə və s. kimi əməllər də daxildir [11].

ABŞ-da dövlət səviyyəsində cinayət məsuliyyətinə cəlb etmənin minimum yaş həddi müəyyən edilməyib. Federal cinayətlər üçün cinayət məsuliyyətinin minimum yaşı 11-dir. Ümumiyyətlə, bu ölkədə məsuliyyətə cəlb etmənin yaş həddi bərəsində hər bir ştat üçün fərqli qayda nəzərdə tutulmuşdur. Belə ki Massaçusets ştatında minimum yaş həddi 12, Şimali Karolinada isə 6-dır.

Cinayət məsuliyyətinə cəlb etmənin yaş həddi Portuqaliya və Avstriya qanunvericiliyində daha yüksəkdir. Belə ki bu ölkələrdə 18/21 yaş cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi hesab olunur. Bununla yanaşı bəzi konkret cinayətlərə görə isə

məsuliyyətə cəlb etmənin minimum yaş həddi Portuqaliya və Avstriyada müvafiq olaraq 14 və 16-dır. Argentina Respublikasında isə cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi 18, bəzi cinayətlərə görə isə 16-dır [13]. Göründüyü kimi bu ölkələr öz qanunvericiliyində məsuliyyətə cəlb etmənin daha yüksək yaş həddini nəzərdə tutmuşlar. Cibuti və Maldiv adaları kimi ölkələrdə cinayət məsuliyyətinə cəlb etmə üçün yaş həddi nəzərdə tutulmur. Ümumiyyətlə, bu mövqeyə haqq qazandırmaq olmaz. Belə ki cinayət məsuliyyətinə o şəxslər cəlb edilə bilər ki, onlar törətdikləri əməlin ictimai təhlükəliliyini, kriminal xarakterini və ağırlıq dərəcəsini dərk etmiş olsunlar.

Namibi, Nigeriya, Pakistan, Hindistan, Qatar, Tanzaniya, Bruney, BƏƏ, Yəmən, Küveyt, Zimbabve kimi ölkələrin qanunvericiliyi 7 yaşı, Türkiyə [16], Panama kimi ölkələrin cinayət qanunu 12 yaşı, Almaniya, Yaponiya, İtaliya kimi inkişaf etmiş ölkələrin və Gürcüstanın cinayət qanunvericiliyi isə 14 yaşı cinayət məsuliyyətinə cəlb etmək üçün qanuni yaş həddi hesab edir.

Məqalədə fiziki şəxslərin cinayət məsuliyyətinin mühüm şərtlərindən biri kimi çıxış edən yaş həddinin araşdırma nəticəsində müxtəlif ölkələrin qanunvericiliyində fərqli tənzimlənmə xüsusiyyətlərinə malik olduğu qənaətinə gəlirik. Nəzərə almaq lazımdır ki, bu və ya digər ölkədə hüquqi maarifləndirmənin yüksək səviyyədə olması və eyni zamanda cəmiyyətin yüksək inkişaf tempi nəticəsində şəxslər müəyyən əməllərin kriminal xarakterini digər ölkələrin vətəndaşları ilə müqayisədə daha tez dərk edə bilərlər. Bu isə cinayət məsuliyyətinə cəlb etmənin yaş həddini daha aşağı həddə müəyyən etməyə imkan verir. Lakin təcrübənin göstərdiyi ondan ibarətdir ki, nəinki inkişaf etmiş və daha çox maariflənmə bazasına malik olan ölkələr, əksinə inkişaf etməkdə olan və hüquqi şüurun zəif inkişaf etdiyi ölkələrdə cinayət məsuliyyətinə cəlb etmənin yaş həddi daha aşağıdır. Bunu haqlı hesab etmək olmaz. Çünki yetkinlik yaşına çatmayanlar cəmiyyətin daha çox müdafiəyə və qorunmağa ehtiyacı olan bir hissəsidir. Ona görə də onları cəzaya məhkum etmək, habelə müəyyən məhrumiyyətlərə məruz qoymaq, cəmiyyətdən təcrid etmək qənaətbəxş nəticələrə səbəb ola bilməz. Əksinə bu kateqoriya şəxsləri cəmiyyətə geri qazandırmaq məqsədilə humanist normaların tətbiqi və cinayət-hüquqi xarakterli tədbirlər əvəzinə tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etmək daha məqbul hesab edilməlidir

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında" 2008-ci il 30 iyun tarixli 4 saylı qərarında isə məhkəmələr tərəfindən yetkinlik yaşına çatmayan şəxslərin törətdikləri cinayətlərə dair işlərə baxılarkən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş yetkinlik yaşına çatmayanlar barəsində tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiqi ilə bağlı qanun normalarının tətbiqindən az istifadə olunduğu qeyd edilmişdir [6, s.575].

Azərbaycan Respublikası Ali Məhkəməsinin də bu yöndə qənaət və tövsiyəsinin mahiyyəti məhz 14-18 yaş arası, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddində olan, lakin yetkinlik yaşına çatmayan cinayət törədənlər barəsində daha humanist tədbirlərin görülməsindən ibarətdir.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2021. 852 s.
2. Cinayət Qanunları Külliyyatı 1920-2000. Bakı, Hüquq Yayın Evi, 2014, 1184 s.
3. Ağayev İ.B. Azərbaycan Respublikasının Cinayət Hüququ (Ümumi və Xüsusi hissələr), Dərslik. Bakı: NURLAR, 2010, 832 s.
4. Dəmirli M. Ə., Ələsgərli Ə. R. Azərbaycan hüquq tarixi: cinayət hüququ (qədim zamanlardan 1920-ci ilədək). – B., Azərnəşr, 1999. – 204 s.
5. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün dərslik. Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə. Bakı – 2007
6. Səmədərov F.Y. Cinayət hüququ Ümumi hissə. Bakı, Hüquq Yayın Evi, 2018, 724 s.
7. Criminal Code of The Republic of Albania. URL: https://adsdatabase. ohchr.org/IssueLibrary/ALBANIA_Criminal%20Code.pdf
8. Criminal Code of Denmark. URL: https://antislaverylaw.ac.uk/wp-content/ uploads/2019/08/Denmark-Criminal-Code.pdf
9. Criminal Code of The Republic of Uzbekistan. URL: https://www.ilo.org/wcmsp5/ groups/public/---ed_protect/---protrav/---ilo_aids/documents/legaldocument/wcms_127504.pdf
10. Islamic Penal Code of The Islamic Republic of Iran URL: https://iranhrdc.org/ wpcontent/ uploads/pdf_en/Iranian_Codes/Islamic_Penal_Code_of_the Islamic_Republic_of_Iran_ 212133839.pdf
11. Criminal Code of The Republic of Kazakhstan. URL: https://adilet.zan.kz/eng/ docs/K970000167_
12. The Criminal Code of The Russian Federation. URL: https://www.imolin.org/doc/amlid/ Russian_Federation_Criminal_Code.pdf
13. Penal Code of The Argentine Nation. URL: https://observatoriolegislativocele.com/en/Criminal-Code-of-the-Argentine-Republic-Law-11179/
14. URL: https://criminalcpd.net.au/wp-content/uploads/2022/05/Doli-incapax-The-Criminal-Responsibility -of-Children-Matthew-Johnson-Rose-Khalilizadeh.pdf
15. URL: https://englishlegalhistory.wordpress.com/2013/05/25/age-of-criminal-responsibility/
16. Celal Ülgen, Türk Ceza Kanunu, İstanbul: Beta Yayın Evi, 2020, 348 s.
17. Уголовное право Российской Федерации. Общая часть: Учебник для вузов / Под ред. В.С. Комиссарова, Н.Е. Крыловой, И.М. Тяжковой. М.: Статут, 2012.

THE AGE LIMIT AS A REQUIREMENT OF DETERMINATION OF CRIMINAL RESPONSIBILITY OF NATURAL PERSON

Mirzazade Javid
LL.B. student of Baku State University
The Republic of Azerbaijan

ABSTRACT

One of the necessary elements of the institution of criminal responsibility is the age limit for bringing criminal liability. The article examines the history of the minimum age of criminal liability, gives a definition to it, and lists the necessary conditions for distinguishing such a concept. At the same time, the developmental features considered necessary to understand the criminal nature and public danger of a person's misdeed (action or inaction) and to manage it were studied. In the legislation of various states, attention has been paid to the issue of determining the age limit, the reasons for the existence of a different trend, as well as the necessity of the principle of humanism in criminalizing minors.

Keywords: *criminal liability, physical person, minimum age, age of majority, understanding*

ПРОТИВОДЕЙСТВИЕ КОРРУПЦИИ КАК ОДНА ИЗ ФУНКЦИЙ ОРГАНОВ ПРОКУРАТУРЫ РЕСПУБЛИКИ БЕЛАРУСЬ

UOT (УДК) – 34:343.352

Даниэла Тимошенко

Студентка 3 курса Гродненского Государственного Университета имени Янки Купалы, г. Гродно, Беларусь
daniela_t210@mail.ru

Статья посвящена противодействию коррупции как одной из функций органов прокуратуры Республики Беларусь. Раскрываются понятие коррупции, как негативного явления, существующего в современном обществе, рейтинг коррупционных преступных деяний. Рассматриваются меры для повышения эффективности функционирования органов государства в борьбе с коррупцией, порядок совершенствования, координации деятельности прокуратуры в ходе противодействия коррупции для повышения выявления преступных деяний коррупционной направленности.

Ключевые слова: *коррупционные преступления, коррупция, противодействие коррупции, уголовная ответственность*

Коррупция является одной из наиболее острых проблем, которые существуют в обществе. Она ущемляет права и интересы граждан, подрывает их доверие к власти, дестабилизирует экономику, оказывает разрушительное влияние на демократию и правопорядок в стране. В Республике Беларусь прокуратура выступает в качестве государственного органа, который осуществляет борьбу с коррупцией в стране. В 1 полугодии 2022 г. за совершение преступлений коррупционной направленности осуждено 336 человек, это на 29,7% больше, чем за аналогичный период 2021 г. – 259 человек.

Рейтинг коррупционных преступлений за 1 полугодие 2022 г., исходя из количества осужденных за них лиц, выглядит следующим образом: за хищение путём злоупотребления служебными полномочиями (ст. 210 УК) осуждено 148 человек; за получение взятки (ст. 430 УК) – 65 человек; за дачу взятки (ст. 431 УК) – 55 человек; за злоупотребление властью или служебными полномочиями (ч. 2, 3 ст. 424 УК) – 42 человека; за превышение власти или служебных полномочий (ч. 2, 3 ст. 426 УК) – 21 человека [1].

Коррупция – достаточно сложное явления и поэтому для того, чтобы справиться с данным негативным явлением, необходимо постоянно усовершенствовать используемые методики борьбы с ней: обновлять, как антикоррупционные, так и ведомственные правовые акты властных органов государства, потому что их своевременное обновление, модернизация позволяют укрепить организационный базис реализуемой политики государства в части противодействия коррупции, снижать количество преступных деяний в сфере коррупции. Надзор за исполнением законодательства о противодействии – приоритетное направление деятельности органов прокуратуры.

В 2021 г. Генеральная прокуратура приняла организационно-практические меры для повышения эффективности работы государственных органов по борьбе с коррупцией и совершенствованию координационной деятельности прокуроров в этой сфере, что позволило повысить уровень выявления коррупционных преступлений более чем на 12%.

Для устранения нарушений антикоррупционного законодательства, выявленных в ходе 808 проверок, прокуроры внесли 719 представлений, вынесли 543 предписания, принесли 140 протестов, объявили 436 официальных предупреждений о недопустимости повторных правонарушений, возбудили 72 уголовных дела о преступлениях против интересов службы.

Прокуроры в 2021г. провели надзорные мероприятия в коррупционно рискованных видах экономической деятельности в строительной, промышленной и аграрной сферах, при реализации инвестиционных проектов, совершении закупок и внешнеторговых сделок; выявили и пресекли факты приобретения товарно-материальных ценностей по завышенной стоимости, лоббирование интересов конкретных поставщиков, получение взяток за благоприятное решение вопросов по заключению и исполнению хозяйственных договоров [2].

На Генеральную прокуратуру Республики Беларусь возложена ответственность за организацию и реализацию мероприятий по борьбе с коррупцией. На основе данных Института социологии НАН Беларуси, в части коррупционных преступных деяний наиболее быстрыми темпами на протяжении пятнадцати лет увеличивается количество дачи и получения взятки, хищений, совершённых путём присвоения, растраты, злоупотребления служебным положением. В совокупности преступной структуры должностные преступные деяния составляют порядка 2%, причём, взяточничество составляет порядка 40%, злоупотребление служебным положением либо властью – 12% [1].

Негативные последствия коррупция с точки зрения органов прокуратуры Республики Беларусь состоят в том, что она дестабилизирует такие значимые конституционные принципы для консолидации нашего государства, как принцип социальной справедливости, равенства всех перед законом. Кроме того, коррупция подрывает доверие между властью и населением, дискредитирует механизмы рыночной экономики, конкуренцию, борьбу с монополиями в сфере экономики, обеспечивает возможность лоббирования нормативных, законодательных актов, в результате чего имеют место масштабные злоупотребления, преступность. Поэтому борьба органами прокуратуры Республики Беларусь с коррупцией выступает в качестве центрального звена внутренней политики страны [2].

С целью противодействия коррупции как одной из функций органов прокуратуры Республики Беларусь сформирована эффективный правовой базис, который определяет спектр мероприятий, массив принципов для борьбы с коррупцией, снижение последствий от коррупционных преступных деяний, применение жёсткой уголовной ответственности за совершение коррупционных преступных деяний.

В ходе противодействия коррупции как одной из функций органами прокуратуры Республики Беларусь на неё возложена ответственность за реализацию мероприятий по борьбе с коррупцией путём наделения её специализированными полномочиями. Борьба с коррупцией в Республике Беларусь осуществляется определенными мерами прокурорского реагирования.

Так, например, всего в 2020 г. – январе-июне 2021г. правоохранительные органы возбудили 26 уголовных дел о коррупционных преступлениях в системе жилищно-коммунального хозяйства, большинство из которых сопряжены с должностными хищениями и злоупотреблениями, принятием взяток. По итогам проверки в организации системы Министерства и областных исполнительных комитетах прокуроры внесли более 100 актов надзора и информационных писем. Дисциплинарному воздействию подвергнуто 91 лицо, 41 – за коррупционные правонарушения либо правонарушения, создающие условия для коррупции, один сотрудник освобожден от занимаемой должности [3].

Для осуществления государственной антикоррупционной политики, реализации мероприятий для противодействия коррупции, не допущения криминализации экономики государства по предложению Генеральной прокуроры Республики Беларусь сформирован Общественный совет в составе Генеральной прокуратуры Республики Беларусь для противодействия коррупции.

На официальном сайте Генеральной прокуратуры Республики Беларусь с целью повышения эффективности противодействия и борьбы с коррупцией размещена вкладка, которая названа «Борьба с коррупцией», на которой можно оставить сообщение об известных фактах взяточничества, других коррупционных преступных деяний, которые были совершены представителями государственных органов, должностными лицами субъектов хозяйствования. Поступившая информация досконально подвергается проверке для последующего принятия необходимых мер. Только в 2021 году прокуроры более двух тысяч раз выступили с докладами, лекциями, беседами по антикоррупционным вопросам в учреждениях образования, государственных органах, на предприятиях различных форм собственности [4].

Более жёсткие меры наказания должны применяться к виновным субъектам, которые получили взятки в ходе реализации имущества субъекта хозяйствования, которое находиться в процессе ликвидации в ходе реализации процедуры банкротства, в процессе строительства, распределения жилья, в случае выявления фактов получения незаконного вознаграждения в денежном эквиваленте в ходе принятия решений о неправомерном освобождении лица от мер уголовной ответственности.

Реализуя надзорные полномочия в ходе исполнения руководителями министерств, ведомств, субъектов хозяйствования правовых норм в части реализации мероприятий по борьбе с коррупцией, Генеральная прокуратура Республики Беларусь для повышения эффективности применяемых мероприятий в установленном порядке системно доводит до сведения руководителя, вносит представления в части устранения выявленных нарушений правовых норм, направляет поручения о

целесообразности надлежащего осуществления деятельности в части противодействия коррупционным проявлениям.

Противодействие коррупции как одна из функций органов прокуратуры Республики Беларусь является не кратковременным мероприятием, а выступает в качестве важнейшей задачи органов прокуратуры в деле укрепления суверенитета, независимости государства, обеспечения безопасности в обществе. Ключевой источник успеха в сфере противодействия коррупции как одной из функций органов прокуратуры Республики Беларусь – крепкая власть государства, сильная социальная политика, опора на гласность, население.

ЛИТЕРАТУРА:

1. Верховный суд Республики Беларусь Интернет-портал судов общей юрисдикции Республики Беларусь [Электронный ресурс] / Нац. центр правовой информ. Респ. Беларусь. – Режим доступа: https://court.gov.by/ru/statistika1/faf19e485cf1497b.html. – Дата доступа : 30.10.2022.
2. Генпрокуратура : на заседании коллегии подведены итоги работы за 2021г. [Электронный ресурс] // Генеральная прокуратура Республики Беларусь. – Режим доступа: https://prokuratura.gov.by/ru/media/sobytiya-i-meropriyatiya/generalnaya-prokuratura-podvedeny-itogi-raboty-vedomstva-za-2021-god/. – Дата доступа: 30.10.2022.
3. Генпрокуратура: на заседании коллегии подведены итоги работы за 2021г. [Электронный ресурс] // Генеральная прокуратура Республики Беларусь. – Режим доступа: https://prokuratura.gov.by/ru/activity/media/detail/borba-s-korruptsiey/zloupotrebil-sluzheb/. – Дата доступа : 30.10.2022.
4. Начальник управления Генпрокуратуры по борьбе с коррупцией Игорь Грейбо рассказал об успехах подразделения // СБ Беларусь Сегодня от 09 июля 2022. – Режим доступа: https://www.sb.by/articles/otsenku-borbe-s-korruptsiey-daet-obshchestvo.html. – Дата доступа: 30.10.2022.
5. О прокуратуре Республики Беларусь : ЗаконРесп. Беларусь, 8 мая 2007г., № 220-З // ЭТАЛОН. Законодательство Республик Беларусь / Нац. центр правовой информ. Респ. Беларусь – Минск, 2022.

ANTİ-CORRUPTİON AS ONE OF THE FUNCTİONS OF THE PROSECUTOR’S OFFICE OF THE REPUBLIC OF BELARUS

Daniela Timoshenko
LL.B. student, Grodno State
Yanka Kupala University, Belarus

ABSTRACT

The article is devoted to combating corruption as one of the functions of the Prosecutor's Office of the Republic of Belarus. The concept of corruption as a negative phenomenon existing in modern society, the rating of corrupt criminal acts are revealed. Measures are being considered to improve the efficiency of the functioning of state bodies in the fight against corruption, the procedure for improving, coordinating the activities of the prosecutor's office in the course of combating corruption to increase the detection of criminal acts of corruption.

***Keywords**: corruption as a crime, corruption, preventive measures against corruption, criminal responsibility*

MUZDLULUQ CİNAYƏTİNİN TƏHLİLİ

UOT (УДК) – 34:343.337.4

Əlif Məmmədov
Bakalavriat təhsil səviyyəsinin III kurs tələbəsi
Hüquq fakültəsi, Bakı Dövlət Universiteti, Azərbaycan
alifmammadov2002@gmail.com

XXI əsrdə ən mühüm problemlərdən biri kimi muzdluluq çıxış edir. Muzdluluğun artışını və yüksələn təhlükəliliyini nəzərə alaraq müəllif müxtəlif ölkələrin cinayət məcəllələrinə və qa-nunlarına istinad etmiş və onlar üzərində müqayisəli təhlil aparmışdır. Həmçinin hüquq-şünas-alimlərin fikirlərinə və mötəbər mətbuata yer verilmişdir.

***Açar sözlər**: müharibə cinayətləri, beynəlxalq hüquq, muzdluluq, cinayətkar, beynəlxalq humanitar hüquq.*

I. MÖVZUNUN AKTUALLIĞI

1922, 1927 və 1960-cı il cinayət qanunlarından fərqli olaraq Azərbaycan Respublikasının so-nuncu cinayət məcəlləsi xüsusi hissədə bölmələrin strukturunda dəyişikliyə yol vermişdir. Belə ki, sələflərindən fərqli olaraq 1999 CM-in xüsusi hissəsinin ilk fəsli "Sülh və insanlıq əleyhinə cinayətlər" adlandırılmışdır. Hesab edirik ki, bununla qanunverici 100-119-cu maddələrdəki cinayətlərin təhlükəlilik dərəcəsinə diqqəti cəlb etmək istəmişdir. Xüsusi hissənin birinci bölməsi (ümumilikdə Məcəllənin yeddinci) sülh və insanlıq cinayətləri özündə birləşdirir ki, həmin bölmənin ikinci fəslinə (*Müharibə cinayətləri*) daxil olan muzdluluq bu məqalənin mövzusunu təşkil edir.

Mövzunun aktuallığı ilk olaraq qeyd edilən cinayətlərə hazırda davam edən münaqişə zona-larında çox rast gəlinməsi ilə bağlıdır. Muzdluluq terminin leqal tərifi qanunvericiliyimizə əks edilmişdir. Cinayət Məcəlləsinin 114-cü maddəsinin qeydinə əsasən, *muzdlu dedikdə, hərbi münaqişədə və hərbi əməliyyatlarda iştirak edən dövlətin vətəndaşı olmayan, onun ərazisində daimi yaşamayan, habelə rəsmi vəzifələrin yerinə yetirilməsi üçün göndərilməyən, maddi mükafat əldə etmək məqsədilə fəaliyyət göstərən şəxslər nəzərdə tutulur* [1, s.142-143]. Tərif bizə imkan verir ki, muzdlu anlayışının bəzi spesifik xüsusiyyətlərini ayırd edək. Məsələn, maddi mükafat niyyəti ilə fəaliyyət, rəsmi vəzifələr üçün göndərilməmə, həmin dövlətin vətəndaşı olmama və s.

Günümüzdə muzdluluq məsələsi aktual məsələlərdəndir. Bu gün bir sıra silahlı münaqişələrdə *muzdlulardan istifadə edilməsi iddiaları* var. Məsələn, Bəşər Əsəd rejiminin Suriyada müxalif qüvvələrə qarşı İranın Hizbullah və Mehdi ordusu qruplarının muzdlularından istifadə etməsi [15], Rusiyanın Suriyada Vaqner muzdlularını döyüşə cəlb etməsi [18], Birləşmiş Ərəb Əmirliklərinin Yəmən Vətəndaş müharibəsində latın amerikalı muzdlulardan istifadə etməsi [16] bunlara nümunə ola bilər. Son olaraq Ermənistanın 44 günlük müharibədə Azərbaycana qarşı Livan və Suriyadan muzdlu cəlb etməsini [17] buna misal göstərmək olar.

Məqalənin normativ bazasını beynəlxalq müqavilələr, xarici ölkələrin qanunları, Azərbaycan Respublikasının Konstitusiyası, Cinayət Məcəlləsi və digər müxtəlif normativ aktlar təşkil edir. ***Məqalənin nəzəri əsası*** isə müxtəlif cinayət hüququ nəzəriyyəçilərinin tədqiqatlarına, əsərlərinə, monoqrafiyalarına söykənir. Həmçinin sərbəst işdəki bəzi faktlar mötəbər mənbələrdən (nüfuzlu nəşrlər, məlumat bazaları və s.) götürülmüşdür.

II. MUZDLULUQ ANLAYIŞI: CİNAYƏT YOXSA MƏNFƏƏT?

Muzdlulardan istifadə tarixdə ilk dəfə deyil. Hətta bugünkü "milli" adlandırdığımız, məcburi əsaslarla toplanmanı nəzərdə tutan orduların ilk dəfə Fransada 23 avqust 1793 tarixli Qərarla yaradıldığını, başlıca məqsədin Napoleona ordu toplamaq olduğu qeyd olunur [6, s. 252]. Ta-rix göstərir ki, 60 il latınların hakimiyyəti altında qalan Bizans əvvəlki qüdrətini bərpa edə bilmək üçün muzdlu türk əsgərlərindən istifadə edirdi [5, s. 43-44]. Todd S.Milliard yazır ki, "muzdluluq tarixin özü qədər qədimdir". Onun yazısına istinadən deyə bilərik ki, Misir və Hett orduları arasındakı Kadeş döyüşündə II Ramzes öz ordusunda muzdlulardan istifadə etmişdi. Çar David fələstinliləri İsraildən qovmaq üçün bənzər metoda əl atmışdır [10, s. 1-2]. Bu faktın məntiqi nəticəsi kimi müəyyən pul vədinə əsaslanan qoşunların daha qədim olması qənaətinə gəlirik.

Muzdlular haqda milli və beynəlxalq səviyyədə tənzimlənmə mövcuddur. Beynəlxalq tənzimləməyə 1977-ci il *Cenevrə Konvensiyası*na edilən *1-ci Əlavə protokol* və BMT-nin 1989-cu ildə qəbul etdiyi "*Muzdluların cəlb edilməsi, istifadəsi, maliyyə-ləşdirilməsi və onlara təlim keçilməsi haqda*" Konvensiyanı misal göstərmək olar.

Protokolun 47-ci maddəsi bəzi ölkələr, o cümlədən ABŞ tərəfindən təsdiqlənməsə də, muzd-lu əsgərin ən çox qəbul edilmiş beynəlxalq tərifini verir. 12 avqust 1949 tarixli Cenevrə Konvensiyalarına Əlavə və Beynəlxalq Silahlı Münaqişələrin Qurbanlarının Müdafiəsi ilə bağlı Protokolda (I Protokol) deyilir:

Maddə 47. Muzdlular

Muzdlu əsgərin döyüşçü və ya hərbi əsir olmaq hüququ yoxdur. Muzdlu hər hansı şəxsdir: (a) silahlı münaqişədə döyüşmək üçün xüsusilə yerli və ya xaricdə işə götürülürsə; (b) faktiki olaraq hərbi əməliyyatlarda birbaşa iştirak edir; (c) hərbi əməliyyatlarda iştirak etməyə mahiyyətcə şəxsi mənfəət əldə etmək istəyi ilə həvəsləndirilir və faktiki olaraq, münaqişə tərəfi tərəfindən və ya onun adından vəd ediləndən və ya döyüşçülərə ödəniləndən əhəmiyyətli dərəcədə artıq maddi təzminat, həmin Tərəfin silahlı qüvvələrində oxşar rütbələr və funksiyalar vəd edilir; (d) nə münaqişə Tərəfinin vətəndaşı, nə də münaqişə Tərəfinin nəzarətində olan ərazinin rezidenti (*daimi yaşayış yeri – red. məqalə müəllifi tərəfindən*) deyildir; (e) münaqişə tərəfinin silahlı qüvvələrinin üzvü deyildir; və (f) münaqişənin Tərəfi olmayan dövlət tərəfindən öz silahlı qüvvələrinin üzvü kimi rəsmi vəzifəyə göndərilməmişdir.

Göründüyü kimi CM-nin 114-cü maddəsinin qeydində əks edilmiş tərifi əksəriyyət tərəfindən qəbul edilmiş beynəlxalq tərifin standartlarına uyğundur. Unutmaq olmaz ki, muzdlu olsalar da belə, beynəlxalq qanunvericilik aktiv döyüşçü (*com-batant*) olmadığı halda onların hüquqi-müdafiə edilmələrinin zəruriliyini qeyd edir. III Cenevrə Konvensiyasına əsasən, əsir götürülmüş əsgər səlahiyyətli məhkəmə qarşısında durana qədər qanuni döyüşçü və buna görə də hərbi əsir statusuna malik qorunan şəxs kimi rəftar edilməlidir

(maddə 5). Həmin tribunal/məhkəmə 1977-ci il Əlavə Protokolu və ya bəzi ekvivalent daxili qanunlardakı meyarlardan istifadə edərək, əsgərin muzdlu olmasına qərar verə bilər. Bu məqamda muzdlu əsgər qeyri-qanuni döyüşçü olur, lakin yenə də IV Cenevrə Konvensiyasının V maddəsi ilə əhatə olunmaqla "insanlıqla rəftar edilməli və mühakimə olunduğu təqdirdə ədalətli və müntəzəm məhkəmə araşdırması hüququndan məhrum edilməməlidir".

Muzdlu əsgərlər hərbi əsir kimi təsnif oluna bilməyəcəyi üçün müharibənin sonunda repatriasiya (vətənə qayıtma) gözləyə bilməzlər. İkinci Dünya Müharibəsindən sonra bunun ən məşhur nümunəsi 28 iyun 1976-cı ildə Luanda Məhkəməsinin sonunda Anqola məhkəməsinin üç britaniyalı və bir amerikalını ölümə və digər doqquz muzdluya 16 ildən 30 ilədək həbs cəzası verməsi idi. Ölümə məhkum edilmiş dörd muzdlu 10 iyul 1976-cı ildə güllələnmişdi [13].

Muzdlular Konvensiyasının 1-ci maddəsində muzdlu hərbçi anlayışı var. Konvensiyanın 1.1-ci maddəsi I Protokolun 47-ci maddəsinə bənzəyir, lakin 1.2-ci maddə "hökuməti devir-mək və ya dövlətin konstitusiya quruluşunu başqa şəkildə pozmaq; və ya dövlətin ərazi bütövlüyünü pozmaq məqsədilə işə cəlb edilmiş qeyri-millətlərdən olanları daxil etmək üçün anlayışı genişləndirir; və "bunda iştirak etməyə şəxsi əhəmiyyətli mənfəət əldə etmək istəyi və maddi təzminat vədi və ya ödənilməsi səbəb olur" ifadəsi – 1.2-ci maddəyə əsasən, onu göstərir ki, şəxs planlaşdırılan dövlət çevrilişində muzdlu olaraq hərbi əməliyyatlarda birbaşa iştirak etməməlidir.

Müxtəlif ölkələrin qanunvericiliklərini təhlil edək. 2003-cü ildə Fransa Fransa vətəndaşları, daimi sakinlər və hüquqi şəxslər üçün Cenevrə Konvensiyasının protokolu ilə müəyyən edildiyi kimi muzdluluq fəaliyyətini cinayət hesab etdi (cəzası 5 illik həbs cəzası və 75 000 avro cərimə). (CM, L436-1, L436-2, L436-3, L436-4, L436-5) Bu qanun Fransa vətəndaşlarının xarici qüvvələrdə könüllü kimi xidmət etməsinə mane olmur. Qanun xüsusi olaraq muzdluluq məqsədi ilə və ya muzdlu səviyyəli ödənişli hərbi fəaliyyətlərə şamil edilir. Bununla belə, hüquqi boşluqlara görə bir neçə Fransız şirkəti muzdlu xidmətlər göstərir [12]. Almaniya CM-nə görə kim xarici dövlətin adından Almaniya vətəndaşını hərbi və ya hərbiləşdirilmiş təşkilatda hərbi xidmətə cəlb edərsə və ya həmin şəxsi öz işə götürənlərinə və ya belə bir təşkilatın hərbi xidmətinə təqdim edərsə, üç aydan beş ilə qədər müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur. Bu cəhd cəzalandırılır [13]. Böyük Britaniyada 1819-cu il tarixli Xarici Hərbi Xidmət Aktı və 1870-ci il tarixli Xarici Mühafizə Aktı Britaniya subyektlərinin Britaniya ilə sülh şəraitində olan başqa dövlətlə müharibə aparan hər hansı dövlətin silahlı qüvvələrinə qoşulmasını qeyri-qanuni edir [14]. Azərbaycan Respublikasının CM-də muzdluluq cinayəti üzrə sanksiyanı 5-11, 8-12 il, ağırlaşdırıcı tərkib üzrə isə 9-15 il arası azadlıqdan məhrumetmə müəyyən edir. Bu o deməkdir ki, muzdluluğa Azərbaycan qanunvericisi bir məqamda ağır, digərində isə xüsusilə ağır cinayət kimi yanaşır.

III. MUZDLULUQ CİNAYƏTİNİN TƏRKİBİ ELEMENTLƏRİ

Bir cinayətin təhlili bir qayda olaraq, cinayət tərkibi elementləri üzrə və digər xüsusi halları nəzərə alaraq aparılır. Muzdluluq cinayətinin aşağıdakı tərkib elementləri vardır:

- Obyekt qismində XVII fəsil üçün ümumi olan müharibə aparılmasının qaydaları, əlavə obyekt qismində isə insanın həyat və sağlamlığı çıxış edir [2, s. 386].

• Obyektiv cəhətdən muzdluları yığma (1), təlim keçmə (2), maliyyələşdirmə və başqa cür təminat vermə (3), habelə onlardan hərbi əməliyyatlarda istifadə (4) başa düşülür. CM 114.2-də eyni əməllərin yetkinlik yaşına çatmayanlara törədilməsi, habelə qulluq mövqeyindən istifadə; CM 114.3-də isə muzdlunun hərbi əməliyyatda iştirakı qeyd edilib.

• Subyekt ümumidir. Lakin subyektin yaşı əməliyyatlar başlanan anadək minimum 16 olmalıdır. Bu cinayətin subyekti barədə ədəbiyyatda göstərilir ki, qanuni döyüşçülərdən fərqli olaraq muzdluların müharibədə və ya digər əməliyyatlarda tərəf kimi iştirak etmək hüququ yoxdur [8, s. 277]. Həmçinin subyektlərin xarakterik cəhətlərini təhlil edən A.Cantekin hesab edir ki, xarici döyüşçülər müxtəlif sosial-siyasi amillərin təsiri ilə terroristlərə çevrilir, məsələn 1979-1989-cu illərdə Sovet qoşunlarına qarşı mübarizə aparan əfqan döyüşçülər müharibənin bitməsindən sonra dini təsir, bir qədər də mənfəət istəyi ilə terroristə çevrilirdi [4, s. 340-341].

• Subyektiv cəhət isə birbaşa qəsddir. Çünki təqsirkar əməlinin təhlükəliliyini dərk edir və iştirak etməyi arzulayır. Motiv zəruri əlamət olmasa da, müxtəlif hislərlə bağlı ola bilər, məsələn tamah, tərəfə yardım və s. Hüquq ədəbiyyatında belə fikrə rast gəlinir ki, motiv əməlin tövsifinə təsir etməsə də, məsuliyyət və cəzanın fərdiləşdirilməsinə təsir edir [7, s. 67].

Əməlin tərkib elementləri onu digər cinayətlərdən, həmçinin müharibə cinayətlərinin digər növlərindən fərqləndirməyə imkan verir.

NƏTİCƏ

Apardığımız tədqiqat onu göstərdi ki, muzdluluq cinayəti kifayət qədər təhlükəlidir. Onlar Konstitusiyada öz əksini tapmış hüquq və azadlıqların varlığına təhlükə yaradırlar, məsələn yaşamaq hüququ üçün təhdiddir. Əbəs yerə deyil ki, əlavə obyekt qismində həyat və sağlamlıq çıxış edir. Muzdluluq həmçinin beynəlxalq humanitar hüququn qaydalarını pozur, hamılıqla qəbul edilmiş prinsiplərə isə ziddir.

Muzluluğun bir cinayət kimi problemli tərəflərinin getdikcə artmasının əsas səbəblərindən biri də özəl hərbi və təhlükəsizlik sektorunun güclənməsidir. Praktika göstərir ki, təxminən 20-25 il təhlükəsizlik orqanlarında xidmət edən şəxslər təqaüdə çıxır, xüsusi mühafizəçi kimi fəaliyyətlərini davam etdirirlər. Nəhəng hüquqi şirkətlər isə belə şəxsləri sürətlə özünə cəlb edir. Bunun bəzi səbəbləri ola bilər, məsələn, hüquq-mühafizə orqanlarındakı əməkhaqqıdan razı olmamaları və ya daha çox məvacib qazanmaq istəmələri və s. Tendensiya belə davam edərsə – hansı ki belə davam edəcəyinin siqnallarını verir – nəhəng şirkətlər də "ordu"lara sahib ola biləcəklər. Həmçinin problemin miqyası sadəcə hüquqi şəxslərlə məhdudlaşmır. Müharibə veteranlarının başqa ölkələrdə fəaliyyət göstərmələri, həmçinin dövlətlərin özünün digər dövlətlər üzərində təzyiq yaratmağa çalışmaq məqsədləri aşkardır [9].

Son olaraq, tədqiqat onu göstərdi ki, muzdluluq cinayəti (*xüsusilə praktikada ən çox rastlanan hallar kimi dövlətlərin aktiv istifadəsi*) kriminogen dövlət siyasətindən xəbər verir. Bu cinayətlərin təhlükəliliyi ilə seçilməsi, bir qisminin xüsusilə ağır tərkib yaratması (məsələn, CM 114.3) bu tipli cinayətlərlə mübarizənin əhəmiyyətini bir daha sübuta yetirmiş oldu.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (1 fevral 2021-ci il tarixinədək dəyişikliklərlə) Bakı, "Qanun" nəşriyyatı, 2021, 512 səh.

2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası. **F.Y.Səməndərov**un redaktəsi ilə. I Hissə. Bakı, "Hüquq Yayın Evi" nəşriyyatı, 2018. 704 səh.
3. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Hüquq Yayın Evi" nəşriyyatı, 2019, 64 səh.
4. A.Cantekin. "Yabancı terrörist savaşçılar". "Türkiyenin terrörle mücadelesi: Kavramlar, örgütler ve aktörler". Araştırma-İnceleme dizisi No. 6. Derleyen Doç. Dr. Göktuğ Sönmez. Ankara: "Türk Akademisi Siyasi Sosyal Stratejik Araştırmalar Vakfı", 2021 – 427 sayfa.
5. B.Narinoğlu. "Paleologoslar döneminde Bizans ordusundakı paralı türk askerler (13-15. Yüzyıllar)". Yüksek Lisans Tezi. Ankara, Hacettepe Üniversitesi, 2022 – 106 sayfa.
6. H.Yalçınkaya. "Özel askeri sektörun oluşumu ve savaşların özelleşmesi". Ankara Üniversitesi SBF Dergisi, səh. 247-277.
7. İ.B.Ağayev. "Cinayət hüququ: Xüsusi Hissə". Dərslik. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018, 488 səh.
8. Ö.Çona. "Yeni savaş ortamında eski bir aktör: Yabancı terrorist savaşçılar ve yeni çatışmalardaki rolleri". "Savunma Bilimleri Dergisi", 2021 (39) – səh. 275-303.
9. T.K.Adams. "The New Mercenaries and the Privatization of Conflict". "Parameters", Volume 29, Summer, 1999 – pages 103-116.
10. T.S.Milliard. "Overcoming post-colonial myopia: A call to recognize and regulate private military companies". 51st Judge Advocate Officer Graduate Course, april 2003 – 105 pages.
11. URL: https://www.aljazeera.com/news/2019/12/30/us-attacks-shia-militia-iraq-syria-iran-russia-israel-react (son baxış 25 aprel 2022).
12. Fransanın Cəza (cinayət) Məcəlləsi, 2021. https://www.legislationline.org/download/id/3316/file/France_Criminal%20Code%20updated%20on%2012-10-2005.pdf (son baxış 25 aprel 2022).
13. URL: Almaniya Cinayət Məcəlləsi, 2021. https://www.legislationline.org/download/id/10003/file/GERM_CC_en.pdf (son baxış 26 aprel 2022).
14. URL: "Xarici Hərbi Xidmət Aktı" (1819) və "Xarici Mühafizə Aktı" (1870). https://www.legislation.gov.uk/ukpga/Vict/33-34/90 (son baxış 26 aprel 2022).
15. URL: http://news.bbc.co.uk/onthisday/hi/dates/stories/june/11/newsid_2510000/2510947.stm (son baxış 1 may 2022).
16. URL: https://www.nytimes.com/2015/11/26/world/middleeast/emirates-secretly-sends-colombian-mercenaries-to-fight-in-yemen.html (son baxış 26 aprel 2022).
17. URL: Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) müraciəti. https://ombudsman.az/az/view/news/2265/ombudsman-sebine-eliyeva-ermenistanin-terrorchu-qruplashmalardan-ve-muzdlulardan-istifade-etmesi-faktlari-ile-bagli-beynelxalq-teshkilatlara-muraciet-unvanlayib (son baxış 28 aprel 2022).
18. URL: https://www.theguardian.com/world/2018/feb/13/russian-mercenaries-killed-us-airstrikes-syria (son baxış 23 aprel 2022).

THE ANALYSIS OF THE CRIME OF MERCENARY

Alif Mammadov
LL.B. student, Faculty of Law,
Baku State University, Azerbaijan

ABSTRACT

One of the most important problems in the 21st century is the crime of mercenaries. Given the increase in mercenaries and the growing danger, the author referred to the criminal codes and laws of different countries and made a comparative analysis of them. The opinions of lawyers-scientists and the reliable press are also given a place.

***Keywords**: war crimes, international law, mercenary, criminal, international humanitarian law.*

CİNAYƏT HÜQUQUNDA CƏZANIN ANLAYIŞI VƏ ONUN FƏLSƏFI-HÜQUQİ MAHİYYƏTİ

UOT (УДК) – 34:343.24

Yəhya Abdullalı
Bakalavriat təhsil səviyyəsinin III kurs tələbəsi
Hüquq fakültəsi, Milli Aviasiya Akademiyası, Azərbaycan
yehya6319@gmail.com

Bu məqalədə cəzanın anlayışından, onun fəlsəfi-hüquqi mahiyyətindən, məqsədlərindən, özündə cəmləşdirməli olduğu bir sıra xüsusiyyətlərindən danışmağa çalışacağıq. Belə ki, həmin xüsusiyyətlərin nəzərə alınması cəzanın müəyyən edilmiş məqsədlərə çatması şərtlərinə aiddir. Cinayət Məcəlləsində nəzərdə tutulmuş cəzanın məqsədi ilə bağlı fikirlərin daha ətraflı təhlili və mövcud qüsurların aradan qaldırılması, əsas məqsədə çatmaq üçün tətbiq ediləcək cəza növünün dəqiq müəyyənləşdirilməsi və icrasını daha da təkminləşdirilməsinə xidmət edəcəkdir.

***Açar sözlər**: cəza, məqsəd, mahiyyət, faydalılıq, ədalətlilik, əvəz.*

Cəza problemlərindən danışarkən bir tərəfdən özümüzü rahat hiss edirik ki, cəza siyasətinin təkminləşməsi cəzalar ilə bağlı olan problemlərin aradan qalxmasına səbəb olacaqdır. Digər tərəfdən narahatıq ki, problemlərin tezliklə aradan qaldırılmaması səmərəsiz şəkildə, artıq müddət ərzində bir çox insanın cəza çəkməsinə səbəb olacaqdır.

I Cəzanın fəlsəfi-hüquqi mahiyyətindən danışarkən ilk öncə cəzanın anlayışına və məqsədinə diqqət etmək lazımdır CM-nin 41.1-ci maddəsinə əsasən cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Cəzanın məqsədi CM-nin 41.2-ci maddəsində göstərilmişdir. Belə ki, cəza sosial ədalətin bərpa edilməsi, məhkumların islah edilməsi, həm məhkumlar həm də başqa şəxlər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınması məqsədilə təyin edilir [1]. Beləliklə, cəzanın məqsədlərindən biri sosial ədalətin bərpa edilməsidir. Bəs ədalət, sosial ədalət nədir və hal-hazırda cəza həmin məqsədlərə çatmaq üçün təyin edilirmi?

Cəzaların qanunvericilikdə ədalətli şəkildə tərtibi və onların icrasının ədalətli olması ilk və əsas məsələlərdən biridir. Ədalət termini hər zaman özündə bərabərliyi deyil, çox xüsusi və diqqət edilməli elementləri birləşdirir. Hər kəsə qarşı bərabər və eyni şəkildə nəzərdə tutulan hərəkətlər hər zaman ədalətli deyil və ola da bilməz. Çünki, dərman uşaqlara fərqli, yeniyetmələrə fərqli şəkildə təsir etdiyi üçün müəyyən hərəkət (lər) edilən zaman qarşıdaki şəxsin bəzi xüsusiyyətləri nəzərə alınmalıdır. Ədalət qarşıdaki şəxsə uyğun olan, yerində, lazımı vaxtda doğru hərəkəti etməkdir. Fəlsəfi ensiklopedik lüğətdə "ədalət"in anlayışı verilərkən göstərilmişdir ki, "ədalət hər şəraitdə doğru olan" deməkdir. İlk baxışdan dediklərimiz ilə bu tərif arasında fərq görünsədə, əslində eyni mənanı ifadə edir. Belə ki, həmin tərifdə ədalətin son olaraq çatdığı nəticə, yəni sonda ən doğru olanı etməsi nəzərdə tutulmuşdur. Buna baxmayaraq nəticəyə çatana qədər onun faydalı, doğru olması üçün qarşıdakının müəyyən xarakterik xüsusiyyətləri nəzərə alınmaqla müəyyən hərəkətlər etmək lazımdır. Başqa sözlə elə hərəkətlər edilməlidir ki, o sonda doğru olsun.

Ədalət nədir? Ədalət hər şeyi öz yerinə qoymaqdır. Zülm nədir? Zülm hər şeyi lazım olmadığı yerə qoymaqdır. Ədalət nədir? Ədalət ağacları sulamaq deməkdir. Zülm nədir? Zülm tikanları sulamaq deməkdir. Ədalət zülmün olmadığı bir mühitdir. Bu zaman insanların haqqı nədirsə o təmin edilir .

Ədalət cəzanın bütün funskiyalarından öndə durur və digər funksiyalarının işləməsi üçün özək, əsas rolunu oynayır. Beləliklə, cəza mütləq şəkildə ədalətli olmalıdır. Cəzanın ədalətli olmasının səbəbini A.Şopenhauer bu şəkildə bildirmişdir – "Dərmanın miqdarı kifayət qədər çox olduqda məqsədinə nail olmadığı kimi, tənqid və məzəmmət də ədalət ölçüsünü keçdikdə məqsədinə nail olmur"

Ədalət termini hər kəsin istifadə etdiyi ifadə və hiss etdiyi bir haldır. Lakin ədalətin nə məna ifadə etdiyi belə öz-özlüyündə tam olaraq dərk edilmir, yəni sistemli olaraq göz önünə gətirmək bir qədər çətin olur. Bu zaman insanlar hərəkətin ədalətli olub-olmadığını yalnız hiss edirlər. Ədalət barəsində müxtəlif fikirlər olmuş, hətda bir qrup şəxs ədaləti bərabərlik hesab etmişdir. Bəzi hallarda hər kəsin fikrini inkar etməkdənsə qəbul etmək, ortaq məxrəcə gəlmək daha doğru olar. Çünki, şəraitdən asılı olaraq ədalət bəzən bərabərlik olsada, bəzi hallarda elə ədalətin özüdür. Ədalətin özü isə elə uyğunluq, faydalılıq, doğruluqdur. Ədalət şəraitdən asılı olaraq dəyişən bir faktordur. Normalda ədalət cinayət törədən şəxslərə cəzanın tətbiq edilməsini şərtləndirirsə, digər hallarda onun azad olunmasını şərtləndirə bilər.

Bütün bunlara baxmayaraq ədalətin ölçü meyarını müəyyən etmək mühümdür. Bəziləri onu dövlətin qanunları hesab edirsə, digər insanlar isə fərqli formada məsələyə yanaşır. Hüquqşunas alim, professor İlham Rəhimov bildirmişdir ki, "Allahın yalnız ədalətli olduğunu qəbul etsək, Uca Yaradana xas olan əlamətə malik olmayan qanunvericinin ideal ədalətli cəza müəyyən etmək iqtidarında olmadığını qəbul etməliyik" 1 (bir çoxları Allahın qanunlarını qəddar, düzgün olmayan hesab etsədə, hələ də dünyada heç kim ədalətli cəzanın sistemini qura bilməmişdir, biz nə qədər bu qanunları kənara atsaq, ideayalizmə diqqət etməsək, materyalizmi önə çəksək heç bir zaman ideal bir sistemi yarada bilməyəcəyik). Bundan əlavə ədalətin meyarı ilə bağlı Ç.Bekkariya bildirmişdir "cinayət ilə cəza arasında uyğunluq olmalıdır" [2]. Fikrimizcə əgər belə olmazsa insanlar bunu hiss edəcəkdir. Qəddar insanlar qəddar cəzaları daha ədalətli hesab etsə də, humanist insanlar isə əksinə fikir yürüdəcəklər (buradan belə bir nəticə də çıxarmaq olar ki, hakimlər, digər vəzifəli şəxslər şəxsə qarşı qəzəbli, kinlidirsə onların ədalətli qərar çıxaracağını gözləmək olmaz). Lakin, ədalət anlayışı subyektiv yox daha çox obyektivdir. Əgər kiçik bir oğurluğa görə şəxs edam edilirsə, bu zaman hesab etmək olar ki, cəza ədalətsizdir. Çünki ən böyük obeykt, dəyər olan insanı kiçik dəyərə görə edam etmək doğru, faydalı və uyğun deyildir. Ədalət nə qədər obyektiv olsa da, subyekt kimi insan hərəkətin ədalətsiz olduğunu hiss edir. Bu yaradılışdan bizə verilmiş fərqli və heyrətləndici instikdir. Düzdür burada psixoloji vəziyyətin, şəxsin xarakterinin əhəmiyyəti də danılmazdır. Əgər müasir qanunvericiliyimizdə hər hansı bir hadisənin ədalətsiz olması barədə ictimaiyyətin narazılığı varsa bu halda onu dinləmək lazımdır. Çox böyük ehtimal ki, ictimaiyyətin ədalətsizlik kimi baxdığı məsələdə ədalətsizlik vardır. Çünki, qanunlar qəbul edilərkən cəmiyyətin ictimai rəyi, düşüncəsi nəzərə alınmalıdır. Tam ideal "ədalət" anlayışı əldə etmək istəyiriksə bu zaman subyektiv yanaşmadan uzaq qaçmaq, Allahın buyuduqlarına

nəzər yetirib, onların ictimai təsirlərinə baxmaq lazımdır. Əlbətdə ki, bunu həmin anda cəmiyyət qəbul etməyəcəkdir, çünki, adət və ənənələri fərqlidir. Bu zaman isə artıq dövlət üçün 2 yol qalır, ya cəmiyyətin düşüncəsini yenidən qurmaq, ya da ki, qanunları cəmiyyətin, daha doğrusu kütlənin ictimai düşüncəsinə, mədəniyyətinə, əxlaqına və s. uyğun tərtib etmək (əks halda qanunların icrasında çətinliklər yaranacaqdır).

Beləliklə ədalət termininin cəzalar ilə əlaqəsi ondan ibarətdir ki, cəzalar uyğun həddə olmalı, digər kənar faktorlar nəzərə alınmalıdır. Xəstələrə bərabər formada münasibət bəsləsək, onların hər biri sağalmayacaqdır. Lakin ədalətli olub, dərmanın miqdarını müəyyən edib xəstələrə fərdi şəkildə yanaşa bilərik. Xəstədə olan elementlər, tibbi göstəricilər az, məhdud və aşkar ola bilər. Lakin söhbət cəzadan gedirsə burada insan faktoru önəm daşıyır. Cəza insana tətbiq edilir və tətbiq edilən cəzanın ədalət həddinin müəyyən edilməsi üçün müxtəlif elementlərə nəzər yetirməli, gizli olanları aşkara çıxarmalıyıq ki, bu da çətin, amma mümkündür. Buna baxmayaraq ən azından cinayət sayılan və sayılmayan əməllərin dairəsini dəqiq olaraq müəyyən etmək olar. Xəstələri, ehtiyaclı şəxsləri və s. nəzərə almaq lazımdır. Əgər şəxsin cinayət törətməsində kənar şəxslərin təsiri, ictimai vəziyyətin qüsurları mövcuddursa, bu zaman cəzanın həddi fərqli olmalıdır. Şəxs kasıblıqdan oğurluq edirsə və s. bu kimi digər hallarda cəza məntiqi olaraq yüngül olmalıdır. Çünki, bu zaman şəxsin cinayətə əl atmasına səbəb olan digər faktorlar vardır, yəni bu hərəkət şəxsin cinayətkar xarakterindən törəməmişdir.

Hər bir münasibətin obyektinin dəyərini dövlət özü müəyyən edir ki, bu da fərqli dövlətlərdə fərqli cinayət məsuliyyəti yaradan hərəkətlərin qanunvericilikdə təsbit olunmasına gətirib çıxarır. Bəzi dövlətlərdə cinayət sayılan əməllər, digər dövlətdə cinayət sayılmaya bilər. Buradan belə çıxır ki, hüquq formalaşanda dövlətin əxlaqına, ictimai maraqlarına və onun adət-ənənələrinə uyğunlaşır. Beləliklə hüquq əxlaqa uyğun yaranan və normaları sanksiyalaşdıran bir sistem, psixoloji hadisədir. Gözəl olardı ki, qanun yaranda əxlaq normasını, insanın təbiətini əsas tutsun və praktika, adət-ənənələr, ictimai mənəviyyat özü qanuna uyğunlaşsın. Bu da yanlız ilahi varlıq olan insanın fitri təbiətinə uyğunlaşmaqdan asılıdır. Beləliklə obyektlərin dəyərini dövlət özü müəyyən etsədə, ən dəyərli obyekt elə insanın özüdür. İnsan olmazsa heç bir yaradılış əsərinin mənası qalmaz. Deməli dünyada ən mühüm obyekt insan və onunla əlaqəli olan bütün hallardır. Bura insanın həyatı, canı, şəxsiyyəti, əxlaqı, cinsi təhlükəsizliyi, mənəviyyatı və s. aiddir. Bütün bunlara qarşı edilən hər bir hərəkət bütün insanlığa qarşı edilən cinayətdir. Beləliklə insana qarşı edilən hərəkətlərə görə tətbiq edilən cəza digər obyektlərə, predmentlərə görə tətbiq edilən cəzalara münasibətdə sərt olmalıdır.

Cəza ədalətli olduqda o, geniş mənada sosial ədaləti bərpa etməlidir. Artıq bu zaman cəza haqqında cəmiyyət, ictimaiyyət tərəfindən "bu cəza ədalətlidir" fikri yaranır. Bundan əlavə statusundan asılı olmayaraq cəzanın labüdlüyünə diqqət edilir. Bunun siyasi faydaları vardır. Belə ki, cəzanın labüdlüyü, yəni cinayət törətmiş şəxsin cəzalandırılması vətəndaşlarda ictimai arxayınlıq və inam yaradır. Əks halda isə şəxslərdə qorxu, aqressiya və s. yaranır və dövlətin zəifliyi, ədalətsizliyi, qanunsuzluğu barədə fikir formalaşır. Heydər Əliyev demişdir: "Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə" 1. Beləliklə cinayətin labüdlüyü prinsipindən irəli gələrək tət-

biq edilən cəza cinayətə uyğun olmalı və cinayət törətmiş şəxslər cəzasız qalmamalıdır (bu fikir əfv etmə istitutunu inkar etmir). Bundan əlavə ədalətlilik və labüdlük arasında əlaqəni açmaq üçün bu misal göstərmək olar: əgər şəxsin əmlakını oğurlayan adi vətəndaşa verilən cəza ilə xalqın malını talayan şəxslərə verilən cəza arasında böyük fərq olmazsa bu zaman ədalətlilik və labüdlük pozulur. Bundan əlavə həmin şəxslərin məsuliyyətə cəlb edilməsinə olan "həvəs" də nəticədən asılı olaraq dövlət haqqında mənfi və ya müsbət fikrin yaranmasına səbəb olur. Əgər onların məsuliyyətə cəlb edilməsinə qarşı "həvəs" azdırsa və adi vətəndaşın məsuliyyətə cəlb edilməsi üçün qanun çərçivəsində hər şey edilirsə, bu zaman ədalətli addım atılıbdır demək olmaz. Deməli ədalət özünü maddi normalarda göstərsə də, icra mərhələsində də problemlər yarana bilər.

Cəzanın ədalətli olması üçün cəmiyyətin ideal olması və kriminogen şəraitin aradan qaldırıması da vacibdir. Əgər bir cinayət şəxsin qəti qərarı əsasında, onun mənfi xarakterinin təzahürü olaraq baş verirsə burada hər hansı bir problem yoxdur, yəni ümumi əsaslarla şəxs məsuliyyətə cəlb edilir və dövlət bunda haqlıdır. Yox əgər cinayət dövlətin "qüsurları" üzündən baş verirsə artıq burada, normal vəziyyətdə tətbiq edilən cəzalar tətbiq edilə bilməz. Bununla bağlı Tomas Mor üzünü yuxarı təbəqəyə tutaraq sərt şəkildə demişdir: "sizlər oğru yaradırsız və daha sonra onu oğurluq etdiyi üçün asırsız" 2. Bəs bu zaman dövlətin "qüsuruna" görə şəxs niyə məsuliyyətə cəlb edilməlidir? Axı hər bir şəxsin cinayət törətməsində kənar qıcıqlandırıcıların rolu olur. Güclü, sağlam insanlar kənar müdaxilələrdən asılı olmayaraq özünü "təmiz" (hüquq və ya digər pozuntular törətmir) saxlaya bilir, lakin bu kimi insanların sayı çox azdır. Əgər kriminogen şəraitlər aradan qalxarsa, dövlət iqtisadiyyat, əxlaq, səhiyyə, ailə, təhsil və s. tələbləri yüksək səviyyədə təmin edərsə bu zaman ədalətli cəzanın tətbiq edilməsindən danışmaq olar. Əgər bir dövlət oğurluq cinayətinə görə əl kəsirsə, bu cəza bir dövlətdə fərqli, digər dövlətdə isə fərqli nəticə verə bilər. Bu cəza iqtisadi cəhətdən zəif olan dövlətdə çox tətbiq ediləcək. Əlbətdə bu cəza növü şəxsləri qorxudacaq, lakin ehtiyac insanda xilas olmağa ümid yaradacaq, etdiyi əməllər öz nəfsinə yaxşı görünəcəkdir. İnkişaf etmiş dövlətdə isə artıq oğurluq edən olmadığı üçün bu cəzanın nəzərdə tutulmasına ehtiyac olmayacaq. Yox əgər yüksək inkişafa baxmayaraq şəxs oğurluq edərsə bu zaman bu cəzanın tətbiq edilməsinin əsası vardır. Deməli problem nə qədər cəzada olsada elə o qədər də şəraitdədir.

Beləliklə, AR Cinayət Məcəlləsinin müvafiq maddələrində, xüsusəndə əməlin cinayət olmasını aradan qaldıran əməllər dairəsində bu deyilənlərə diqqət edilmişdi və həmin normaları ədalətli hesab etmək olar. Bu zaman kənar təsir nəzərə alınır və törədilən əməllərin əslində şəxsin xarakteri ilə bağlı olmadığı müəyyən edilir. Bundan əlavə digər ölkələrin, xüsusəndə Türkiyənin cinayət qanununa baxdıqda görürük ki, əməlin cinayət olmasını aradan qaldıran bir çox fərqli hərəkətlər göstərilmişdir. Əgər ananın övladı xəstə olarsa və dərman almağa ananın imkanı çatmazsa, bu zaman oğurluq edərsə, həmin şəxs məsuliyyətə cəlb edilmir (Türk Cəza Qanunu. Maddə 25) [2]. Çünki, onun imkanının olmaması dövlətin "qüsurudur" və dövlət cəmiyyətin bütün üzvlərini nəzarəti altında saxlamağı bacarmalı, onlara xidmət etməlidir. Digər bir misal: şəxs əgər bir cinayəti məcburi şəkildə törədərsə, ona qarşı qorxu, hədə kimi hərəkətlər edilərsə, bu zaman cinayəti törədən şəxsə cəza verilməz (Türk Cəza Qanunu. Maddə 28).

II Cəzalandırmanın digər məqsədi tanınmış müsəlman alimi, mütəfəkkiri, islahatçısı Əbdülhəmid Əhməd əbu Süleyman tərəfindən belə verilmişdir ki, "cəzalandırmada məqsəd pozğunluğa, başqalarının hisslərinin incidilməsinə əngəl olmaq, cəmiyyətdə korlanma və əxlaqsızlığın yayılmasının qarşısını almaqdır". 1 Bu bir qədər CM-in 41.2-ci maddəsində göstərilən, "başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq" ifadəsi ilə eynilik təşkil edir. Alimin fikri və məcəllənin göstərdiyimiz müddəası kriminogen yanaşmadır. Belə ki, başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq üçün kriminogen şəraiti aradan qaldırmaq lazımdır. Əgər hər hansı bir vətəndaş kriminogen şəraiti öz iradəsi ilə yaradırsa mütləq şəkildə cəzalandırılmalıdır. Əgər bir cinayət təklikdə törədildikdə müəyyən cəza tətbiq edilirsə, ictimaiyyət içində edildikdə daha ciddi cəza təyin edilməlidir və ya bir hərəkət cinayət hesab edilmirsə, lakin cəmiyyətin əxlaqına mənfi təsir edirsə ictimaiyyət içində edildikdə həmin hərəkət cinayət hesab edilməli və cəzalandırılmalıdır. Beləliklə cəzalar verilərkən nəzərə alınmalı olan əsas məsələlərdən biri də törədilən cinayətin cəmiyyətin içində törədilməsidir. Bu zaman cinayəti törədən şəxs nəinki mənəvi olaraq özünə və maddi olaraq qarşıdakına zərər vurur, həm də onu görən şəxslərin mənəviyyatına təsir edir. Buradan nəticə çıxır ki, bu zaman cinayəti görən, eşidən şəxslər cinayətə haqq qazandırır, adət edir, "uşaqlıqdan belə görmüşəm" deyir. Bu çox mühümdür. Şəxs yalnız özünə ziyan vura bilər. Əgər bu ziyan cəmiyyətin mənəviyyatına təsir edərsə və yeni cinayətkarların yaranmasına təkan verərsə bu zaman tətbiq edilən cəza haqlı olaraq sərt olmalıdır. Çünki bu zaman şəxs digər cinayətlərə nisbətdə 3 subyektə – özünə, zərərçəkmişə və cəmiyyətə zərər vurur. Digər hərəkətlər vardır ki, onların təhlükəli olması, cinayət hesab edilməsi və cəzalandırılması edilmiş hərəkətin cəmiyyətin mənəviyyatına ziyan vurması deyil, zərər vurduğu şəxsin həyatı, sağlamlığı və s. amillərlə bağlı olur. Buna misal olaraq adam öldürmə cinayətini demək olar. Bu hərəkət gizlində törədilsədə yenə də şəxsə zərər vurduğu üçün cəzalandırılır və cəzalandırılmalıdır.

III Cəzanın mahiyyətinə baxdıqda görürük ki, cəza həm də əvəz çıxma prosesidir. Qədim zamanlarda dövlətin nəzarəti olmadan insanlardan əvəz çıxılırdısa, müasir dövrdə dövlət cəza vasitəsilə cinayətkarlardan "əvəz çıxır". Həyatda hər bir hərəkətin əvəzi vardır və olmalıdır. Yaxşılığın əvəzi əxlaqi olaraq yaxşılıq olmalı, əksinə pislik olmamalıdır. Pislik etmək isə öz növbəsində əxlaqa, vicdana, mənəviyyata uyğun deyil. Edilən pisliyə münasibətdə isə əvəz çıxmaq əxlaqidir. Çünki, törədilən cinayətlər ilə mübarizə aparmamaq qeyri-əxlaqi və düzgün olmayan hərəkətdir. Bu zaman zərərçəkən ya bağışlayar, ya da əvəz çıxa bilər ki, bu onun düzgün olan hüququdur. Dövlət isə zərərçəkmişin hüquqlarını özünü həyata keçirir. Əks halda isə heç bir dövlət qalmaz, anarxiya və qarışıqlıq yaranar.

Professor İlham Rəhimov həmin əvəz çıxma prosesini 3 hissəyə bölür [8]. Bunlara bar-bar əvəzçıxma, dövlət əvəzçıxması və maarifçi-hüquqi əvəzçıxma tədbirləri aiddir1. Öz fikirlərimiz ilə onları izah etməyə cəhd edəcəyik. Bar-bar əvəzçıxma hərəkəti qan intiqamı vasitəsilə zərər vurmuş şəxsin ədalətli şəkildə zərərçəkmiş tərəfindən cəzalandırılmasıdır. Buna qeyri-əxlaqi şəkildə baxmaq olmaz. Çünki, bu hərəkət öz-özlüyündə ədalətlidir, təbiidir, lakin ictimai təhlükəlidir. Bu səbəbdən həmin hərəkəti dövlətin nəzarəti altına vermək, həmin hərəkətlərin ictimai təhlükəliliyini azaldacaqdır. Dövlət əvəz-

çıxma hərəkəti dövlətin iştirakı ilə cinayət törətmiş şəxsin cəzalandırılması prosesidir. Qədim zamanlarda cəzanın predmeti insanın bədəni olmuşdursa, müasir dövrdə fərqli formalarda inkişaf etmişdir. Lakin, müasir dövrdə insanın bir başa olaraq bədəninə zərər yetirilməsədə dolayı yolla şəxsə fizioloji və psixoloji təsir edilir. Maarifçi-hüquqi əvəz çıxma vasitəsi isə bir başa olaraq sevgi, mərhəmət üstündə qurulan, cinayətə xəstəlik kimi baxan və həmin hərəkətləri etmiş şəxsləri sağaltmaq üçün səy göstərən bir prosesdir.

İntiqam, əvəzçıxma, qisas yalnız adam öldürməyə aid edilən bir hərəkət deyil. İntiqam, yəni əvəz çıxma institutununa aid, əxlaqi hesab edilən bir çox hərəkətlər vardır. Müasir cinayət məcəlləsinin 73-1 maddəsi əvəzçıxmanın müasir bir forması olduğunu düşünürük. Əmlakı talayan şəxs zərərçəkmiş ilə barışdıqda və vurduğu zərəri geri qaytardıqda cinayət məsuliyyətinə cəlb edilmir. Bu norma keçmiş zamanın qalıqlarından qalan, insanlar arasında qeyri-etik sayılan, söz düşdükdə pislənilən həmin ictimai hərəkətin faydalı olan bir formasıdır. Bu zaman belə fikir yaranır ki, intiqam və qisas anlayışının mahiyyətini özündə əks etdirən hərəkətlər hər zaman qeyri-əxlaqi hərəkətlər deyil. Fikrimizcə bir çox cinayətlərə bu institutu yönləndirmək olar, hansı ki, qadağa qoyulsa belə bunun qarşısını almaq qeyri-mümkün olacaqdır. Oğurluq edilibsə bu zaman zərərçəkmiş şəxs eyni formada digərinin mülkiyyətini oğurlamayacaq, lakin alınan əmlakın geri qaytarılması təmin ediləcək və ya tələb şəxsin digər əmlakına yönləndiriləcəkdir. Bu halda təqsirkarda belə bir təəssürat yaranacaqdır ki, qazandığının heç bir faydası olmadı, əksinə özünə ziyan vurdu.

IV Cəzanın ədalətli olması özündə onun faydalı olması şərtini saxlayır. Əgər tətbiq edilən cəza, yəni "dərman" düzgün ölçüdə olmazsa bu zaman həmin cəza, yəni "dərman" həm ədalətli olmaz, həm də faydalı nəticə verməz. Faydalılıqdan danışarkən isə cəzanın növbəti məqsədlərinə diqqət etmək lazımdır. Cinayət Məcəlləsinin 41.2-ci maddəsinə əsasən cəza sosial ədalətin bərpa edilməsi, məhkumların islah edilməsi, həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədilə təyin edilir.

Qanunvericilik göstərir ki, tətbiq edilən cəzalar məhkumları islah etməlidir. Buradan belə bir nəticə çıxır ki, mövcud olan bütün cəzalar həmin məqsədlə təyin edilir və həmin cəzaların xarakterində islah etmə funksiyası özünü göstərir. Buna baxmayaraq bəzi cəzalar vardır ki, onların təcrübədə tətbiq edilməsi məqsədi və xarakteristikası həmin cəzanın islah etmə funksiyasını inkar edir (bundan əlavə olaraq təklif edərdik ki, statistik məlumatların içərisində azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş və müəyyən cəzaçəkmə rejimində olan şəxslərin yenidən cinayət törətməsi miqdarı da göstərilsin. Nəticədə biz azadlıqdan məhrum etmə cəzasının çəkildiyi müəssənin hansı rejimində problem olduğunu və onun hansı səbəbdən məhkumları islah etməməsinin səbəbini öyrənə biləcəyik).

Dediyimiz kimi cəzanın faydalı olması vacibdir. Faydasız olan bir cəza heç də məhkumu islah edə bilməz, əksinə bəzi hallarda elə bir aura formalaşacaq ki, şəxsdə məhkumluq həyatına "sevgi" hissi yaransın. Faydalı olma dedikdə elə hərəkətlər başa düşülür ki, həmin hərəkətlər cəmiyyətə, şəxsə müsbət üstünlük, qazanc verəcək və ya mühüm ziyanın qarşısını alacaqdır. Cəzalara nisbətdə faydalılıq məsələsinə baxdıqda belə deyə

bilərik ki, faydalı cəza şəxsin gələcəkdə özünə və ya başqasına zərər vurmasının qarşısını almağa səbəb olan, şəxsi islah edən və ən ideal nəticədə şəxsin faydalı bir insana çevrilməsinə səbəb olan cəzadır.

Cəzaların tətbiqində xəstələrə, ehtiyatsızlıqdan cinayət törədənlərə, ümumi dildə desək öz seçimi və mənfi xarakterinin köməyi ilə yox, psixoloji və ya digər qüsurları olan, xarici təsirlərdən cinayət törədən şəxslərə cəzanın təyin edilməsi zamanı səhvlərə yol vermək olmaz. Məsələn narkotik istehlakçılarına sərt cəza tətbiqinin heç bir faydası yoxdur və ya bəzi ehtiyatsızlıqdan cinayət törədən şəxslərin azadlıqdan məhrum edilməsinin heç bir faydası yoxdur (ehtiyatsızlıqdan adam öldürən zaman müəyyən məbləğdə pulun zərərçəkmişin ailəsinə verilməsi daha faydalıdır, nəinki, şəxsin azadlıqdan məhrum edilməsi). Bundan əlavə şəxsə 10 il yox, sırf 12 il cəzanın təyin edilməsinin heç bir məntiqi açıqlaması yoxdur. Şəxs 10 ilə islah olunmayacaqsa və ya olunacaqsa, ona 2 il artıq və ya az cəzanın təyin edilməsinin heç bir əsası yoxdur. Bunlar məntiqi göstəricilərə, xarakteristik əlamətlərə görə müəyyən edilmir. Bundan əlavə məcəllədə cəzanın təyin edilməsi zamanı şəxsin xarakterinin, cinayətin ictimai təhlükəlilik dərəcəsinin nəzərə alınması məsələsinə toxunulur. Buna baxmayaraq şəxsin xarakterinin müəyyən edilməsi zamanı hər hansı bir elmi-metodik vəsaitdən istifadə edilmir. Əksər hakimlərin psixoloji bilikləri olmadığı üçün bu sahədə ədalətsizliyə yol verə bilərlər (bu səbəbdən onların psixoloji biliklərə yiyələnməsi fikrimizcə dövlət tərəfindən təmin edilməlidir). Bu səbəbdən cəzalar əgər şəxsi islah etmək məqsədilə tətbiq edilirsə bu zaman onların müddətlərinin az, lakin təsirinin çox olması mühümdür. Cinayət məcəlləsində 500-dən çox davranışa görə azadlıqdan məhrum etmə cəzası tətbiq edilir. Qeyd edilən bu əməllərin hər biri fərqli xarakterik xüsusiyyətlərə malikdir və onları törədən şəxslər də hər bir əmələ görə fərqli xüsusiyyətə malik olmalıdır. Buna baxmayaraq hər bir şəxsə eyni cəzanın tətbiq edilməsinin məqsədini hələ də anlamaq çətindir. Əlbətə cəzalar ləğv edilməməlidir, cəzanın ləğv edilməsi doğru bir yanaşma olmazdı. Cəza bir qədər qalmalıdır. Bəzi hallarda sərt olmalıdır, cəmiyyəti kənar təhlükədən qorumalıdır. Buna baxmayaraq cəza tətbiqi o zaman inkar edilə bilər ki, cəzanın tətbiq edilməsinə səbəb olan hallar, yəni cinayətlər və ən əsası cinayətə səbəb olan şəraitlər aradan qaldırılsın! Çünki cinayətlərin sayının azaldılması siyasəti bir-biri sıx bağlı olan bir prosesdir ki, onun zərcirvari halqasından hər hansı birinin qopması və olmaması cəza siyasətinə təsir edəcəkdir. Bu zaman artıq ən sərt cəza, ən yüngül cəza, ən humanist yanaşma belə faydalı olmayacaqdır. Fərqli dövlətlərin təcrübələrinə baxanda görürük ki, cəzanın tətbiqi ayrı-ayrı dövlətlərdə fərqli nəticələr verir. Axı nə səbəbdən eyni bir cəza ayrı-ayrı dövlətlərdə fərqli formada nəticə verir? Əlbətdə ki, bu həmin dövlətin kriminogen şəraiti aradan qaldırılması üçün nə qədər çox və ya az çalışmasından asılıdır. Onlar bu siyasətin zəncirinin halqalarını bir-biri ilə sıx bağladığı üçün ən sadə cəza belə sonda faydalı məqsədə çatmağa xidmət edir. Beləliklə, əgər ideal cəmiyyət, ictimai mühit yaranarsa, cəzanın heç bir mənası qalmaz, çünki, cinayəti törədənlər aradan çıxar. Bunu həyata keçirmək nə qədər çətin olsada mümkünsüz deyildir. İlk baxışdan cəmiyyətdə cinayətlərin aradan qaldırılması utopiya hesab edilsədə, biz bütün inamımız ilə cinayətlərin 90%-dən çox miqdarda azalacağına, ideal cəmiyyətin qurulacağına ümid edirik.

Bütün deyilənlər əsasında belə bir nəticə çıxarmaq olar ki, əslində cəza yuxarıda göstərilmiş məqsədlərə çatmaqdan, insanların təhlükəsizliyini təmin etməkdən, cinayətin qarşısını almaq üçün şəxslərin üzərində müəyyən qorxunun yaradılmasından və prof. İlham Rəhimovun da dediyi kimi "azadlıq instiktinin aradan qaldırılmasından" 1 ibarətdir. Bundan əlavə cəzalar ədalətli olmalı, cinayət törədən şəxsin xüsusiyyətlərini nəzərə alaraq təyin edilməli, şəxsin islah olunmasına təsir etməli, yəni faydalı olmalı, ən son halda isə təhlükəli şəxslərin şərindən cəmiyyəti amanda saxlamalıdır.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2021
2. Türk Cəza Qanunu.
3. Ağayev İ. Cəza icra hüququ.
4. Piriyev Ə.S. Kriminologiya.
5. Mustafayev Ç. Kriminologiya. Dərslik. "Xəzər Universiteti" nəş. Bakı, 2015
6. Əliyev Ş. Cinayətkarlıqla mübarizə.
7. Səməndərov F.Y. Kriminologiya. Dərs vəsaiti. "Digesta" nəş. Bakı, 2018
8. Rəhimov İ. Cəzanın əxlaqiliyi haqqında. Bakı, 2016
9. Əbdülhəmid Əhməd əbu Süleyman - Müasir islam fikrində islahatçılıq (cinayət hüququ əsasında).
10. URL: https://kayzen.az/blog/islamın-əsasları/576/islamda-ədalət.html.
11. URL https://aforizm.org/aforizmy/6582-kak-lekarstvo-ne-dostigaet-svoej-tseli-esli-doza
12. URL: https://www.testbook.az/proverb/aphorismtype/34/dovlet-haqqinda-aforizmler

THE CONCEPT OF PUNISHMENT IN CRIMINAL LAW AND ITS PHILOSOPHICAL AND LEGAL ESSENCE

Yahya Abdullali
LL.B. student
National Aviation Academy, Azerbaijan

ABSTRACT

In this article, we will try to talk about the concept of punishment, its philosophical and legal nature, its goals, and a number of features it should include. Thus, the consideration of those features refers to the conditions for the punishment to achieve the specified goals. A more detailed analysis of the ideas regarding the purpose of the punishment provided for in the Criminal Code and the elimination of existing defects will serve to further improve the exact definition and implementation of the type of punishment to be applied to achieve the main goal.

***Keywords**: punishment, goal, essence, utility, justice, revenge.*

MÜNDƏRİCAT

ÖN SÖZ **3**

CİNAYƏT HÜQUQU ∗ CRIMINAL LAW

Şəhla Səmədova
AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT HÜQUQU:
MÜASİR DÖVRDƏ İNKİŞAF PERSPEKTİVLƏRİ 5

Владимир Джатиев
УГОЛОВНАЯ ОТВЕТСТВЕННОСТЬ: МЕТОДОЛОГИЯ, ЗАКОН, ПРАКТИКА 22

Habil Qurbanov
XÜSUSİLƏ AĞIRLAŞDIRICI HALLARDA TALAMA CİNAYƏT MƏCƏLLƏSİNİN 179.1
VƏ YA 179.2-Cİ MADDƏLƏRİNDƏ NƏZƏRDƏ TUTULAN ƏMƏLLƏRİN
MÜTƏŞƏKKİL DƏSTƏ TƏRƏFİNDƏN TÖRƏDİLMƏSİ 34

Владимир Хомич
О ЛЕГИТИМАЦИИ УГОЛОВНОЙ ПРОТИВОПРАВНОСТИ
В ПРЕСТУПЛЕНИИ И НАКАЗАНИИ 41

Firuzə Abbasova
CİNAYƏT QANUNUNA GÖNDƏRİCİ NORMALARIN TƏSBİT EDİLMƏSİ
CİNAYƏT-PROSESSUAL HÜQUQUN SƏMƏRƏLİ TƏNZİMETMƏ METODU KİMİ 53

Юрий Пудовочкин, Михаил Бабаев
ТЕОРИЯ И ПРАКТИКА ПЕНАЛИЗАЦИИ В КОНТЕКСТЕ
ЦЕЛЕЙ УГОЛОВНО-ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ
И УГОЛОВНОГО НАКАЗАНИЯ 61

Вадим Хилюта
ОБЩЕСТВЕННАЯ ОПАСНОСТЬ И КРИМИНАЛИЗАЦИЯ
В СИСТЕМЕ МЕР БЕЗОПАСНОСТИ 69

Вусал Ахмедов
КРИМИНАЛИЗАЦИЯ НАРУШЕНИЯ ПРАВА НА ЮРИДИЧЕСКУЮ ПОМОЩЬ
В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ 77

Məleykə Bayramova
ÖZGƏ ƏMLAKINI TALAMAYA GÖRƏ CİNAYƏT MƏSULİYYƏTİNİN
BƏZİ MƏSƏLƏLƏRİ 85

Кямаля Назарова
К ВОПРОСУ О ПРАВОВОЙ ПРИРОДЕ СТАДИЙ СОВЕРШЕНИЯ
ПРЕСТУПЛЕНИЯ ПРИМЕНИТЕЛЬНО К КОНСТРУКЦИЯМ
РАЗЛИЧНЫХ СОСТАВОВ ПРЕСТУПЛЕНИЙ 97

Səkinəxanım Rzayeva
CİNAYƏT HÜQUQUNDA QƏSD VƏ ONUN NÖVLƏRİ 109

Adil Kərimli
YOL HƏRƏKƏTİ VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN İSTİSMARI QAYDALARINI
POZMA: CİNAYƏT-HÜQUQİ TƏHLİL 118

Elvin Balajanov
CRIMINALIZATION OF ILLEGAL ACCESS TO A COMPUTER SYSTEM:
THE STANDPOINT OF THE CRIMINAL LEGISLATION
OF THE REPUBLIC OF AZERBAIJAN 125

Malik Səlimov
İNTİZAM XARAKTERLİ HƏRBI HİSSƏDƏ CƏZA CƏKƏN HƏRBİ QULLUQÇUNUN
ÖZBAŞINA GETMƏSİNİN TÖVSİFİ VƏ CƏZA TƏYİNİ MƏSƏLƏLƏRİ 131

Nigar Əskərova
ÖZÜNÜ ÖLDÜRMƏ HƏDDİNƏ ÇATDIRMA ƏMƏLİNƏ GÖRƏ MƏSULİYYƏT 142

Ülvi Əsədullayev
MƏHKƏMƏNİN HÖKMÜNÜ, QƏRARINI, YAXUD DİGƏR AKTINI
İCRA ETMƏMƏ CİNAYƏTİNİN OBYEKTİ 153

KRİMİNOLOGİYA * CRIMINOLOGY

Kwan-Lamar Blount-Hill
CENTERING AZERBAIJAN IN A MOVE TOWARD AN EMPIRICAL CRIMINAL
LEGAL JURISPRUDENCE 160

Вадим Авдеев, Ольга Авдеева
ПРИОРИТЕТЫ, ЦЕЛИ И ЗАДАЧИ УГОЛОВНО-ПРАВОВОЙ ПОЛИТИКИ
В УСЛОВИЯХ СОВРЕМЕННЫХ УГРОЗ И ВЫЗОВОВ 174

Məlahət Hacıyeva
YETKİNLİK YAŞINA ÇATMAYANLARIN CİNAYƏT TÖRƏTMƏSİNİN SƏBƏBLƏRİ VƏ DİNAMİKASI 180

Şöhlət Kərimov, İlham Hacı-zadə
NARKOMANİYA İLƏ MÜBARİZƏ GÜNÜN TƏLƏBİDİR 188

Vasif Quliyev
YETKİNLİK YAŞINA ÇATMAYANLAR VƏ GƏNCLƏR ARASINDA NARKOMANLIĞA, NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏNİN BƏZİ AKTUAL CİNAYƏT-HÜQUQİ VƏ KRİMİNOLOJİ ASPEKTLƏRİ 194

Vüqar Mansurov
TAMAH MOTİVİ İLƏ CİNAYƏT TÖRƏDƏNLƏRİN ŞƏXSİYYƏTLƏRİNİN KRİMİNOJİ TİPOLOGİYASININ TƏDQİQİ PROBLEMLƏRİ 208

Elnur Nəcəfov
NARKOTİK VASİTƏLƏRİN TƏBLİĞİNİN YOLVERİLMƏZLİYİ 218

TRANSMİLLİ CİNAYƏT HÜQUQU
∗ TRANSNATIONAL CRIMINAL LAW

Ханлар Аликперов
К ВОПРОСУ О ЛЕГИТИМНОСТИ МЕЖДУНАРОДНОГО УГОЛОВНОГО СУДА 225

Sergii Denysov, Nataliia Kovalenko
ON THE QUESTION OF INDIVIDUAL CRIMINAL RESPONSIBILITY FOR VIOLATION OF THE LAWS AND CUSTOMS OF WAR 235

Aynurə Musayeva
QAÇAQMALÇILIQ BEYNƏLXALQ XARAKTERLİ CİNAYƏT KİMİ 245

Rubaba Mammadova
THE IDENTIFICATION OF HUMAN TRAFFICKING FOR THE PURPOSE OF LABOR EXPLOITATION AND DETECTED PROBLEMS IN THE INTERNATIONAL COURT PRACTICE: DIFFERENTIATIONS FROM THE LABOR LAW VIOLATIONS 253

MÜSƏLMAN CİNAYƏT HÜQUQU
∗ MUSLIM CRIMINAL LAW

Ильгам Рагимов
ЭВОЛЮЦИЯ УГОЛОВНОГО ПРАВА В ИСЛАМЕ 261

Elman Cəfərli
SİYASİ MUXTARİYYƏTDƏ MÜSƏLMAN HÜQUQUNUN TƏTBİQİ:
İNDONEZİYANIN AÇE XÜSUSİ ƏYALƏTİNİN NÜMUNƏSİNDƏ 272

İlqar Mirzəyev
İSLAM HÜQUQUNDA CİNAYƏTLƏR VƏ CƏZALAR 284

Atilla Öztürk, Əkbər Rəşidov, Almaz Kazımova
İSLAM HUKUKUNDA SUÇLAR VE CEZALAR 294

MÜQAYİSƏLİ CİNAYƏT HÜQUQU
∗ COMPARATIVE CRIMINAL LAW

Стелла Ботнару
ШТРАФ КАК ВИД УГОЛОВНОГО НАКАЗАНИЯ И «ДЕФЕКТЫ КАЧЕСТВА»
ЗАКОНОДАТЕЛЬНОГО ЗАКРЕПЛЕНИЯ ВОЗМОЖНОСТИ РЕАЛЬНОГО
ИСПОЛЬЗОВАНИЯ ЕГО РЕСУРСА 307

Віталій Кузнецов
ЮРИДИЧЕСКИЙ АНАЛИЗ ВЫПОЛНЕНИЯ ОБЯЗАННОСТИ
ПО ЗАЩИТЕ Отечества (ст. 43-1 УК Украины) 316

Диана Хамык
СУТЕНЕРСТВО В ОТНОШЕНИИ НЕСОВЕРШЕННОЛЕТНИХ - ЖЕСТОКОЕ
ОБРАЩЕНИЕ ПОСРЕДСТВОМ ЭКСПЛУАТАЦИИ, ПРОСТИТУЦИИ 325

Nuridə Əlizadə
MDB ÖLKƏLƏRİNDƏ İNSAN VƏ VƏTƏNDAŞIN TOXUNULMAZLIQ HÜQUQLARI
ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏRİN TƏHLİLİ 331

Royal Maharramov, Emirhan Ağca
CEZA KANUNUN AMACININ AMACI 342

CƏZA-İCRA HÜQUQU * PENAL-EXECUTIVE LAW

Камил Салимов, Камран Салимов
ПРАВО ВЫСШЕГО ОБРАЗОВАНИЯ В МЕСТАХ ЛИШЕНИЯ СВОБОДЫ..... 352

Tofiq Hüseynov
KƏMİZDƏ FORMALAŞMIŞ MÜASİR PENİTENSİAR MÜƏSSİSƏLƏRİNDƏ MƏHKUMLARIN HÜQUQİ VƏZİYYƏTİ VƏ SOSİAL HÜQUQİ TƏMİNATLARI..... 361

GƏNC TƏDQİQATÇILAR ∗ YOUNG RESEARCHERS

Vugar Sadigli
PUBLIC DANGEROUSNESS CRITERIA IN THE HISTORY OF THE CREATION AND DEVELOPMENT OF CYBERCRIMES..... 369

Лала Ярметова
КОНЦЕПЦИЯ УГОЛОВНОЙ ОТВЕТСТВЕННОСТИ ГОСУДАРСТВ ЗА СОВЕРШЕНИЕ МЕЖДУНАРОДНЫХ ПРЕСТУПЛЕНИЙ..... 374

Nigar Gurbanli
DETERMINANTS, OF FEMALE CRIMINALITY..... 383

Nərmin Quliyeva
CİNAYƏTKARLIĞIN QARŞISININ ALINMASININ HÜQUQİ ƏSASLARI..... 391

Siyavuş Bağırov
HÜQUQUN PRİNSİPLƏRİNİN NƏZƏRİ-LİNQVİSTİK PROBLEMLƏRİ VƏ FƏRQLƏNDİRİLMƏ MƏSƏLƏLƏRİ 395

Cavid Mirzəzadə
YAŞ HƏDDİ FİZİKİ ŞƏXSİN CİNAYƏT MƏSULİYYƏTİNİN ŞƏRTİ KİMİ 407

Даниэла Тимошенко
ПРОТИВОДЕЙСТВИЕ КОРРУПЦИИ КАК ОДНА ИЗ ФУНКЦИЙ ОРГАНОВ ПРОКУРАТУРЫ РЕСПУБЛИКИ БЕЛАРУСЬ..... 416

Əlif Məmmədov
MUZDLULUQ CİNAYƏTİNİN TƏHLİLİ..... 420

Yəhya Abdullalı
CİNAYƏT HÜQUQUNDA CƏZANIN ANLAYIŞI VƏ ONUN FƏLSƏFI-HÜQUQİ MAHİYYƏTİ..... 425

Qeyd üçün

Qeyd üçün

Məcmuə «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində
səhifələnmiş və çap olunmuşdur.

Çapa imzalanıb: 21.12.2022.
Format: 84x108 1/8. Qarnitur: Times.
Həcmi: 27,5 ç.v. Tiraj: 100. Sifariş № 227.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44;
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

ISBN:978-9952-28-636-6
9 789952 286366